Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

TOFİQ ƏFƏNDİYEV

# PROKUROR

*ROMAN*

Təhsil

BAKI–2017



TOFİQ ƏFƏNDİYEV

# PROKUROR

ROMAN

BAKI–2017

**Ə 92 Əfəndiyev Tofiq**
**Prokuror.** Bakı, «Təhsil», 2017, 288 səh.

Tanınmış yazıçı Tofiq Əfəndiyevin (Tofiq Məhəmməd oğlu Əfəndiyev–1921-1993) «Prokuror» romanı keçən əsrin 70-80-ci illərində oxucuların və ədəbi ictimaiyyətin rəğbətini qazanmış, maraqla qarşılanmışdır.

Müəllif romanda gənc bir prokurorun şəxsində ədliyyə və hüquq sahəsində çalışanların çətin, lakin şərəfli işindən söhbət açmış, maraqlı süjet əsasında oxunaqlı əsər yaratmışdır.

Romanda əliəyrilər, tüfeyli həyat sürənlər, dövlət əmlakını dağıdanlarla mübarizədə barışmaz mövqe tutan, doğma atasına belə güzəştə getməyən gənc prokurorun həyat və fəaliyyəti canlı boyalarla əks olunmuşdur.

**Ə $\frac{4700000000}{053}$ 2017**

**© «Gənclik», 1976**
**© «Təhsil», 2017**

## QANUN QARŞISINDA HAMI MƏSULDUR

Yazıçı Tofiq Əfəndiyevin əsas mövzu sahəsi, ilham mənbəyi müasir insan, onun əməlləri, zəhməti, istək və arzularıdır. Bu mənada o, həm kənd həyatından, həm şəhər həyatından bir sıra maraqlı hekayələr, romanlar yazmış və öz ilhamını, istedadını sınaqdan uğurla çıxarmışdır. Bu baxımdan onun son illərdə yazdığı və «Gənclik» nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmış «Prokuror» romanı xüsusi rəğbət doğurur. Əlbəttə, adından görünüyü kimi, əsər hüquq işçilərinin, inzibati orqanların həyat və fəaliyyətindən bəhs edir. Mövzu ədəbiyyatımız üçün doğma və yaxındır. Elə bircə bunu demək kifayətdir ki, Xalq yazıçısı Süleyman Rəhimovun «Mehman» povesti bu sahədə yazılmış ən uğurlu əsərlərdən biridir. Doğrudur, «Mehman»ın mərkəzində otuzuncu illərin mürəkkəb, ziddiyyətli, qaynar hadisələri dayanır. Və Süleyman Rəhimov bu aləmin bir sıra özünəməxsus xüsusiyyətlərini ustalıqla yaratmışdır. Həmin illərdən çox keçmişdir. Cəmiyyətimizin, xalqımızın mədəni səviyyəsi daha da yüksəlmiş və inkişaf etmişdir. Həyat çox dəyişmişdir.

Otuzuncu illərdə cəmiyyətimizdə yaşayan qorxulu və yırtıcı düşmənlər indi yoxdur. Həyatımızın tərəqqisi ilə əlaqədar işıqlı qüvvələr o qədər inkişaf etmişdir ki, qəhrəmanlıq, xalq və dövlət yolunda fədakarlıq kütləvi, aparıcı və adi hal almışdır. Lakin bu, heç də o demək deyildir ki, cəmiyyətimizdə inkişafımıza mane olanlar, əliəyrilər, tüfeylilər, rüşvətxorlar, laqeydlər, dönüklər və s. ünsürlər tamam aradan qalxmışdır. Xeyr, bu heç də o demək deyildir. Möhtərəm H.Əliyev Azərbaycan yazıçılarının VI qurultayında bu barədə çox gözəl demişdir:

«Bədii söz cəmiyyətimizin antipodlarının, yaramazlarının qənimi olmalıdır. Yeni cəmiyyət qurmağımıza mane olan qüvvələrə qarşı barışmaz mübarizə getdiyi zaman yazıçı hissiz və ehtirassız, laqeyd müşahidəçi kimi qala bilməz. Yazıçının vətəndaş münasibəti, bizə yad təzahürlərə qarşı ideya barışmazlığı onun yaradıcılığında əks olunmalı və oxucuda cəmiyyətdəki antipodlara ədalətli qəzəb, dərin nifrət oyatmalıdır. Biz sizdən məhz belə əsərlər – meşşanları və rüşvətxorları, pulgirləri və əşyabazları, bürokratları və yaltaqları prinsipial mövqedən ifşa edən əsərlər gözləyirik».

Dəniz dalğalandıqca hər cür çirkabı, xıltı kənara çıxardığı kimi, cəmiyyətimiz də inkişaf etdikcə hər cür mənfiliyi kənara atır. Bu baxımdan «Prokuror» romanında nə görürük?

Romanın mərkəzində hüquq fakültəsini təzəcə bitirmiş Hekayət adlı bir qızın fəaliyyəti dayanır. Doğrudur, yazıçı şablon yolla gedib bu qızın tərcümeyi-halı, rəfiqələri, sevgi macəraları, keçmişi və s. barədə geniş məlumat verməyi haqlı olaraq lüzumsuz saymışdır. Hekayət kimi ali məktəbi təzəcə bitirib işə göndərilən gənclərin tərcümeyi-halları elə əsasən buradan başlanır. Xalq və dövlət işi, əməyə, insanlara münasibət belə gənclərin mənəviyyatını üzə çıxaran nəinki bir aynadır, həm də onların fəaliyyətini qiymətləndirmək üçün etibarlı barometrdir. Təmiz, saf qəlbə malik olan gənc prokuror qız təxminən özü yaşda olan katibəsi Çinarə ilə çox yaxındır. Çinarə təkcə katibə deyil, həm də prokuror Hekayətin sirdaşı, məsləkdaşı, əqidədaşı, həmdəmidir.

Müəllif Hekayətlə bağlı hadisələrin açılmasında bu mehriban və sadiq katibəni nəinki təcrid edir, əksinə, bir sıra işlərdə onun iştirakını çox vacib və zəruri sayır. Doğrudur, Çinarədən başqa hadisələrin gedişində Gülsabah xala, Sadıq Ağayarov, qəssab Dadaşbala, müxbir Surxay, bufetçi İsmulla, Afər, Güləbətin, Bədirə və digər surətlər də iştirak edirlər. Əlbəttə, onların sırasında yazıçını maraqlandıran ən çox Hekayət və onun fəaliyyətinin bir sıra sahələri olmuşdur.

Bir gün gənc prokuror qıza bir qovluq təqdim edirlər. Bu qovluqda köməksiz bir qızın – Afərin başına gələn müsibətlər

təsvir olunmuşdur. Bu müsibət və işgəncələri törədən kim olsa yaxşıdır? Çox məsul bir vəzifədə işləyən, əslində, hər cür qanunun pozulmasına qarşı mübarizə aparmalı olduğu halda, ona etibar edilən inamı, etiqadı, qanunu vicdansızcasına pozan, hiyləgər, rüşvətxor, toxluq xəstəliyinə tutulmuş, yalquzaqlaşmış, yırtıcılaşmış, harınlamış, gözünü qan örtmüş və törətdiyi cinayətləri özünün ikiüzlü, riyakar sözləri ilə, qazandığı saxta nüfuzla və ona etibar olunmuş vəzifə ilə ört-basdır edən Məmmədyar Zəminzadədir. Bu adam prokuror Hekayətin doğmaca atasıdır. Hekayəti çaşdıran nədir? Atanın məsul vəzifəsi, onun ədalət və qanun adından təmtəraqlı danışması, insanların ona bəslədiyi inam. Budur, Zəminzadə öz evində riyakarcasına deyir: «Fikir verirsiniz, Azadə xanım necə güllər, çiçəklər becərib? Bizim borcumuz min əziyyətlə becərilən belə gülləri çiçəkləri həyatın yaman üzündən, pis adamların bədnam niyyətlərindən qoruyub saxlamaqdır».

Zəminzadə hər yanda – işdə də, ailədə də belə riyakar, «şirin, qayğılı» danışır və bununla da ədəbiyyatımızda yazıçılarımızın realist qələmi ilə vicdansızlıq və dələduzluq sütununa mıxlanmış sübhanverdizadələrə, həmişəyevlərə, mollayevlərə, kosaoğlulara... yaxınlaşır və onların dəyirmanına su tökür. Deməli, qanunu pozan ata ilə qanunun keşiyində duran bala – bir-birinə zidd iki məslək, iki əqidə, iki mənəviyyat üz-üzə dayanmışdır. Əlbəttə, bu, çox maraqlı və dramatik konfliktdir. «Prokuror» romanındakı Hekayət də ədəbiyyatımızdakı bu sağlam ənənənin davamçılarından biridir.

Hekayət ona təqdim olunan materialları vərəqlədikcə aydın olur ki, onun atası Zəminzadə ən böyük cinayətkar kimi hər cür qanun-qaydadan kənarda qalmışdır. Heç kim cəsarət eləyib bu adamın dönüklüyünü, riyakarlığını, törətdiyi cinayətləri deyə bilmirmiş. Bir çox cinayət də onun nüfuzu və vəzifəsi arxasında baş verir, törədilir. Zəminzadə kimi adamları ifşa etmək o qədər də asan deyildir. Çünki belə adamların müəyyən nüfuzu da var, çox güclü imkanları da. Dadaşbala kimi əlaltıları və daxili qurdları da var və hər cür maddi vəsaitlə də təmin olunmuşlar.

Zəminzadəni ifşa etmək böyük bir cinayətin və ya bir çox cinayətin açarını əldə etmək deməkdir. T.Əfəndiyev incə müşahidəli bir yazıçı kimi diqqətini ən çox məhz bu tipin mənəvi eybəcərliyinə doğru yönəldir, onun əməllərini səbir və təmkinlə açıb göstərir. Prokuror Hekayət dövlətin qanunlarının sadiq keşikçisi kimi heç bir güzəştə getmədən atasını ittiham, mühakimə edir.

Romanda ötəri toxunulmuş, lakin bizim vacib saydığımız bir məsələni də qeyd etmək istərdik. Bu da ondan ibarətdir ki, həm ailədə, həm məktəbdə, həm bizim bütün ədəbiyyatda, təbliğat orqanlarımızda – qəzet və jurnallarda, radio və televiziyada şagirdlərə saf, gözəl, namuslu tərbiyə verildiyi halda, bəzən o qədər də nəzər-diqqəti cəlb etməyən bir nöqtədə onların mənəviyyatlarına qara kölgə, ləkə salanlar olur. Bu, məktəbin bufetində işləyən İsmulla kimi ağzı qızıl dişli əliəyrilərdir. Belələri gül nəfəsli şagirdlərdən kəsdikləri qəpik-quruşun hesabına varlanır və nəticədə tüfeyli həyata qədəm qoyurlar. Buna görə də gənc prokurorun bu cür əliəyriliyin kökünü kəsmək üçün Maarif Nazirliyinin kollegiyasına getməsi və burada əxlaq və tərbiyə haqqında olan məsələlərlə maraqlanması təbiidir və Hekayətin vətəndaşlıq ləyaqətini daha da artırır.

«Prokuror» romanı ilk dəfə «Azərbaycan» jurnalında dərc olunmuşdur. Lakin müəllif sonradan öz əsəri üzərində bir sıra yaradıcılıq əməliyyatları aparmışdır ki, bu da indi kitab halında nəşr edilən romanın təkmilləşməsinə, xarakterlərin daha da reallaşmasına xeyli təsir göstərmişdir. Biz inanırıq ki, maraqlı bir sahədən bəhs edən və Tofiq Əfəndiyevin yaradıcılığında əhəmiyyətli yerlərdən birini tutan «Prokuror» romanı oxucuların sevə-sevə oxuduğu əsərlərdən olacaqdır.

**Qulu Xəlilov**
*10 iyun 1977-ci il*

* * *

Prokurorun üzünə baxanda yerimdə donub qaldım. Bir gecədə insan nələr çəkərmiş. Az müddətdə qara saçların ağardığını eşitmişdim, kitablarda oxumuşdum. Gözlərimləsə ilk dəfə görürdüm. Onun bu vəziyyəti dözülməz idi. Prokuroru sevirdim. Sevgim ötəri deyildi. Heç vaxt, heç vaxt həyatda ikinci adamı prokuror qədər sevməyəcəyəm. Prokurora olan istəyimə elə sadiq qalacağam ki, bir nəfər qabağımı kəsib deyə bilməsin: «Dönük».

Donub qalmışdım, prokurorun üzünə baxırdım. Görünür, bütün gecəni yatmamışdı. Belə yuxusuz gecələri işdə də az olmayıb. Mən də onunla bərabər çox oyaq qalmışam. Prokurorumu tək qoyub yata bilməzdim.

Mən katibəydim. Prokurorun katibəsi! O da mənə ürək qızdırır, söz açır, etibar edirdi. Bu etibar, bu istək həyatda ən böyük mükafatım idi.

...Prokurora yaxın dayandım. Dünən axşam onu evlərinə yola salıb qayıdandan sonra nə hadisə üz verdiyini bilmək istəyirdim. Prokurorun sakit, lakin sözlü nəzərlərindən başa düşürdüm ki, nəsə olub. Baxışlarımdan ürəyimi duydu. Məni intizarda qoymaq istəmədi:

– Anamı yuxuda görmüşəm.

Ürəyim titrədi. Prokurorun təklifini gözləməyib oturdum. Gözlərimi üzündən çəkmədən xəbər aldım:

– Necə gördün?

Sözlər ağzımdan çıxandan sonra ürəyimə gəldi ki, bəlkə, bu sualı verməyəydim, ortalığa ürəkaçan söz atıb, yuxu söhbətinin üstündən keçəydim? Başqa vaxt, prokurorun kefi kök olanda anasını yuxuda necə gördüyünü xə-

bər alardım. Amma belə anlarda insanın ürəyini boşaltması da pis deyil.

– Anam hündür nərdivanla aşağı düşürdü. Nərdivanın pillələri qurtarandan sonra anam mənə doğru gəlib təxminən dörd addım aralıda dayandı. Əynində ağ, zərif libas vardı. Dözmədim. Nə biləydim ki, yuxu görürəm, anam yalnız mənim yuxumdadır. Neçə vaxtdır onu görmürdüm. Görəndə istər-istəməz qışqırdım:

– Ana!..

O, bir addım atıb durdu.

– Nə üçün irəli gəlmirsən? – deyə xəbər alıb ona tərəf getmək istəyəndə əlini yuxarı qaldırıb qoymadı. – Dayan, – dedi. – Qulaq as mənə. Libas da, belindəki tapança da sənə yaxşı yaraşır. Ağlıma gəlmədi ki, sən tapançalı vəzifə sahibi olarsan, yoxsa qoymazdım. Deyərdim, nə sənət seçirsən seç, amma tüfəng, tapança sahibi olma. Atan bu vəzifəyə sadiq olmadı. Əyri yol tutdu. Adamların həyatına bədbəxtlik, qorxu gətirdi. – Anam azacıq susub mənə diqqətlə baxdı. – Məni eşidirsən?

– Əlbəttə, – dedim. Anam sualı mənə nahaqdan vermədi. Atam haqqında eşitdiyim sözlər bütün fikrimi bir nöqtəyə cəmləmişdi. Ayılandan sonra yuxuda gördüklərimi bir-bir yadıma saldıqca hər şey yenidən gözlərimin qabağına gəlir, hər sözü yenidən eşidirdim.

Anamın sualından diksinib özümü ələ aldım, diqqətlə qulaq asdım.

– Atan haqqında bu sözləri kənar şəxs demir. Mən deyirəm. Sənin doğma anan!

– Başa düşürəm, ancaq bir şeyi mənə anlat, başa sal. Atam nə üçün əyri yol tutdu? Nə üçün o, adamların həyatına bədbəxtlik gətirməyə başladı? Onu məcbur edən nə idi?

– Atanın ürəyində ancaq nifrət və qəzəb özünə yuva salmışdı.

– Axı nə üçün?

– Bu sualı bir vaxt mən də atana verdim. Gəlib qabağımda dayanıb dedi: – Söz bu evdən çıxsa, beyninə on güllə dolduracağam. Bu paqonlara ona görə sahib oldum ki, ürəyimi bir insan düz oxuya bilməsin.

Atan bu sözləri mənə deyəndə təzə evlənmişdik. Ona yaxşı bələd deyildim. Xəbər aldım ki, ürəyində gizlədiyi niyyət nədir? Nəyin, kimlərin əleyhinədir? Tapançanı qoburdan çıxarıb lüləsi ilə başıma döydü:

– Buradakı beyin mənim beynimin yüzdə biri qədər deyil, – dedi, – amma məni axmaq yerinə qoyursan.

Tapançanı qaytarıb yerinə qoydu, getdi.

– Qızım, sənə xeyir-dua verirəm. Amma ananın qarşısında and içməlisən. And iç ki, heç vaxt insanlara xəyanət etməyəcəksən.

– And içirəm! – dedim.

– And iç ki, heç vaxt həqiqətə göz yummayacaqsan. Həqiqəti tapdalayıb üstündən keçməyəcəksən. Günahkar əvəzinə günahsızı işıqlı dünyadan məhrum etməyəcəksən.

– And içirəm! – dedim.

– İnsanın ağır günləri olur. Həyatdır, bəzən insan çörək almağa da pul tapmır. And iç ki, ac günlərində belə haram tikəyə əl uzatmayacaqsan.

– And içirəm! – dedim.

– Qalx, – dedi. – Qulaq as, bilirəm səni narahat edən nədir. Gecələri yatmayıb qəlbinlə danışdıqlarının hamısını eşidirəm. Mənim ölümüm səni düşündürür. Özümü vurmağıma şübhə edirsən. Bir şeyi gözdən qoyma, aç kitab kimi oxu, onda hər şey sənə aydın olar. O şey evimizdəki mücrüdür.

– Təkrar et, ana!

– Mücrü! Daha məndən heç nə xəbər alma. Ana üçün ən böyük səadət uzun ayrılıqdan sonra övladını bağrına basmaqdır. Mən bundan imtina edirəm.

– Nə üçün, nə üçün? Hara gedirsən? Bura sənin evindir.

Anam ayaq saxlayıb arxaya baxmadan dedi:

– Məni çağırma! Sənə lazım olanda özüm gələcəyəm. İndi salamat qal!

Anam qayıdıb, gəldiyi nərdivanla qalxanda qışqırıb arxasınca qaçmaq istədim. Əllərini yuxarı qaldırıb sağa-sola tərpətdi: «Gəlmə!»

Baxmadım. Qaçdım. Qabağımı bağlı qapı kəsdi. Qapı döyülürdü. Ayıldım. Gözlərimi açdım. Nə baş verdiyini anlaya bilmirdim. Qapı isə döyülürdü. Geyinib qapıya yaxınlaşdım. Göy elə şaqqıldadı ki, qorxdum. Şimşək pəncərələrdə qarmaqarışıq xətlər cızdı. Söndü, yandı. Qapı döyüldü.

– Kimsən? – deyə xəbər aldım.

– Açın!

Yorğun qadın səsi idi. Ağlıma yüz cür fikir gəldi: bəlkə, yaralıdı? Açdım. Qadını görəndə duruxdum. Səs bu qadının səsi idi? Bu fikir ona görə məndə peyda oldu ki, qadının ümumi görkəmi ilə səsi uyuşmurdu. Əzab insanı nə yaman kökə salır... Kimdir? Nə istəyir? Heç nə soruşmadım. Qadın özü dilləndi:

– Bir stəkan su ver.

Evə keçməsini rica etdim. Başını buladı. Stul gətirdim. Suyu son damlasına kimi içdi. Stəkanı qaytaranda üzümə zəndlə baxdı:

– Apar qoy yerinə. Yumaq yadından çıxmasın.

Elə bil yuxudan-yuxuya düşmüşdüm. Qadının «hökm» ilə dediyi sözə əməl elədim. Stəkanı yuyub yerinə qoydum.

Yanına gəldim. Ayaq üstündəydi. Getməyə hazırlaşdığını görüb dedim:

– Bəlkə, sizə başqa bir şey lazım idi?

– Yoxsa mənə nəzir vermək istəyirsən?

Məni tər basdı. Belə «qorxulu» qadın görməmişdim.

Pəncərələri iri yağış damcıları döyməyə başladı.

– Deyəsən, dolu yağacaq! Doludan qorxmursan ki?

Qadının suallarından özümü itirmişdim. Əlini uzadıb qapını açdı. Həyəcanla sordum:

– Hara gedirsiniz? Qoyun hava sakitləşsin.

Qadın soyuq nəzərlə baxıb başını yırğaladı:

– Qorxma! Mən tufanlar görmüşəm. Başıma yumurta boyda dolular çox yağıb... Elə bilirdim atana oxşayırsan. Amma... yox. Salamat qal!

Qapını açıb arxasınca baxmaq istədim. Qapı açılmadı. O mənim çıxmaq istədiyimi duyub qapını bayırdan tutmuşdu. Fikrimdən daşındım. Ayaq səsləri eşitdim. Getdi. «Kimdir bu qadın? Mənim atamı haradan tanıyır?»

Prokuror söhbəti əziyyət çəkə-çəkə danışırdı.

Çay soyumuşdu. Dillənib mane olmaq istəmirdim.

– Qadın gedəndən sonra qapının yanında xeyli dayanmışam, – deyə prokuror söhbətinə davam etdi. – Handan-hana yadıma gəldi ki, içəri girəndə axı, deyəsən, qadının əlində nə isə var idi. Gedəndə heç nə görmədim. Qadın oturan yerə baxdım. Ağa bükülü qovluq gördüm.

– Unudub?

– Yox. Qovluğu görəndə mən sən deyənin əksini düşündüm: qadın bu qovluğu məhz mənə vermək üçün gəlibmiş. Su bəhanə idi. Amma bərk susamışdı...

«Həyat maraqlı, sirli insanlarla doludur», – deyə düşünürdüm. Prokuror dilləndi:

– Mənə elə gəlir ki, bu qadını harada isə görmüşəm. Lap uşaq vaxtlarımda. Haqqında eşitmişəm. Axı bu qadını mən nə vaxt, harada görmüşəm? – Prokuror xeyli dinmədi. Sonra dedi. – İlahi, anam necə aydın danışırdı!

Çayı təzələmək istədim. Qoymadı. Qaşığı götürüb əncirin təminə baxdı. Güldü. Dedi, əla bişirmisən. Rəngi xoşuma gəldi. Mən susurdum. Bir gecənin içərisində prokurorun başına gələn hadisələrin təsirindən susurdum. «Yuxu», «mücrü», «gələn qadın», onun qoyub getdiyi «dolu qovluq»...

Bunların hamısı insan taleyi ilə bağlı dərin və mürəkkəb məsələlər deyildimi?! Hekayət, bu dərinliklərə enib, oradan çıxa biləcəksənmi?

Öz otağıma keçmişdim. Gözləyən var idi. Salmanı içəri buraxdım. Salman Abşeronun üzüm ustası idi. Prokuror iş üstündə onunla tanış olmuşdu. İçəri girib salamlaşdı:

– Gözümə bir cür dəyirsən, nasaz deyilsən?

Prokuror razılıq etdi.

Salman özü ilə on üç, on dörd yaşlarında qız gətirmişdi. Əynində çit don vardı. Böyük olduğundan çiyinlərindən aşağı sallanırdı. Ətəyinin tikişləri sökülmüşdü. Ayağında nimdaş ayaqqabısı vardı. Saçları dağınıq idi. Hiss olunurdu ki, bir vaxt yanaqları çiyələk kimi olub, indi ondan solğun bir nişanə qalıb. Üzündə dəmrova bənzəyən talalar vardı. Qalın dodaqları çat-çat idi. Gözlərinin altı üfürülmüşdü. Danışdıqca əlinin biri ilə dirsəyini qamarlayıb, donun süzülən yerini gizlətməyə çalışırdı.

Salman danışmağa başlayanda prokuror onun sözünü kəsdi, mənə dedi ki, milis rəisi podpolkovnik Sadıq Ağayarovu, milis müstəntiqi Məlikovu, baş müstəntiq İxtiyar Murtuzayevi yanına çağırım. Prokurorluq, milis və məhkəmə idarəsi bir binada yerləşirdi. Daxili telefonla zəng vurub çağırdım.

Necə olmuşdu ki, Hekayəti, milis orqanında atası Məmmədyar Zəminzadə işləyən bir rayona prokuror təyin etmişdilər?

İyirmi ildən artıq milis işində işləyən Məmmədyar Zəminzadənin iki qardaşı ayrı-ayrı kəndlərdə yaşayırdı. Şəhərdə olan qardaşı özünə hələ ailə qurmamışdı. Pilot idi. Aylarla şəhərə gəlmirdi. Nə sərnişin, nə də qırıcı təyyarə sürürdü, həşəratları qırmaq üçün sahələrə dərman səpirdi. Prokuror əmisinin peşəsini xoşlayırdı.

– Əmim Tomralın peşəsi əladır!

Prokurorla baş çəkmək üçün əmisinin mənzilinə gedirdik. Stolun üstündə daim iki cümlə yazılmış kağız olurdu. Prokuror içəri girən kimi kağızı götürüb oxuyurdu:

*«Sənə hekayətim var,*
*Sənə şikayətim var...»*

Tomral evdə olanda prokurorun kağızı oxuduğunu görüb gülümsədi:

– Yenə həşəratların sayı çoxalıb. Pambıq, taxıl bir yana, az qalıb dəmirağacı da deşib içərisinə girsinlər.

– Demək, pilot ayıqdır. Meşəyə də göz olur?

Prokuror belindəki kəməri tapançaqarışıq açıb əmisinin çarpayısının üstünə qoyurdu. Yemək hazırlayırdı, Tomral evdə olanda bir yerdə nahar edirdik. Nahar qutarana kimi çay qaynayırdı. Prokuror əmisindən gülə-gülə xəbər alırdı:

– Bufetin alt siyirməsinə baxmısan?

– Baxmışam. «Şirlər»in sayı çoxalıb. Onlara əla salam verdim. Dişlərini qıcıyıb üstümə cummaq istədilər, dedim: ey-ey, hamınız birdən yox, qırx əjdaha qırxınız da birdən ağzınızı ayırırsınız.

Prokuror harada «seylon» çaya rast gəlsəydi, alıb gətirirdi. Tomralın «şirlərin hücumu» zarafatına xeyli güldük.

Hekayət əmisinin istəyini yerinə yetirib, orta məktəbi bitirəndən sonra universitetin hüquq fakültəsinə daxil olmuşdu. Onun mənzilinə gələndə döşəməyə baxıb deyirdi. «Görürsən, necə taxtalar vurublar?! Tamahkar iş icraçısı parketləri satıb, əvəzinə yararsız taxtaları işlədib. Əmim məni hüquqşünas eləməkdə məqsədsiz deyil. Əmimə görə ən ali sənət dövlət qanununu qorumaq, icra etməkdir...»

Tomralın yaşadığı otaqla sənəti uyğun gəlmirdi. Geyimi haqqında bu sözləri demək olardı. İlk dəfə mənə elə gəldi ki,Tomralın otağına daxil olanda məni zərərli həşəratları qıran dərmanın iyi vuracaq. Otağa girəndə başqa aləmə düşdüyümü gördüm. Zövqlə seçilib alınmış qırxa qədər taxta rəflərin içərisi kitablarla dolu idi. Yazı stolunun üstündə müxtəlif heyvan fiqurları var idi. Tomral Hekayət üçün yazdığı sözləri bu stolun üstünə qoyurdu:

*Sənə hekayətim var,*
*Sənə şikayətim var...*

– Çinarə, bilirsən bu stolun üstündə əmim hansı «əsərləri» qələmə alır? Evdə olduğu vaxtlarda stolunun arxasına keçir, qırdığı həşəratların şəkillərini çəkir, izahat yazır. Dəftərləri vərəqləsən, həşəratların bütün xüsusiyyətlərinə bələd olarsan. Aydındır ki, əmimi stol arxasında düşündürən nədir?

– Aydındır, – deyə cavab verdim.

– Bir vaxt gələr, əmimin bu «əsərləri» qaranlıqdan işığa çıxar. Əllərdə gəzər, mən buna əminəm!

Otağı yığışdırıb qurtarandan sonra əmisinin paltarlarına baxırdı. Yuyulmalı olanlarını seçib bir tərəfə qoyurdu. Köynəklərinin, pencəklərinin düymələrini yoxlayırdı. Düymə qırılıb düşübsə, təzəsini tikirdi. Genələn ilgəkləri

kiçildirdi. İşini qurtarıb əmisinin yazı stolunun arxasında otururdu. Sevdiyi cümlələri oxuyurdu:

*Sənə hekayətim var,*
*Sənə şikayətim var...*

– Bilirsən bunlar nə deməkdir, Çinarə?

Prokurorun əmisinə olan nadir istəyinin səbəbini getdikcə dərindən dərk eləməyə başlayırdım. Hekayət xanım hüquq şöbəsinə girib əlinə sənəd alandan sonra birbaş əmisinin yanına gəlmiş, onu evdə tapmayıb, stolun üstündə məktub görmüşdü. «Qəbul olunduğundan xəbərim var. Təbrik edirəm. Şəhərə qayıtmağım bir xeyli çəkəcək. Nigaran qalma».

Tomralın o vaxtı yazıb qoyduğu məktub indi də prokurorda qalırdı...

* * *

– Qızı çoxdan tanıdığınızı söylədiniz.

– Bəli.

– Hadisəni təfsilatı ilə danışın.

– Axşamdan Sürmə mənə dedi ki, səhər ət almaq sənin boynunadır. Yaxşı, təzə ət. Bu, çətin məsələ oldu, Sürmə, – dedim. – Qəssab Dadaşbalanın dədəsi dirilsə də, sən deyən əti verməz.

– Salman, dükanda deyir, təzə ət olur, bilmirəm sən niyə ət ala bilmirsən?

Sürməyə baxdım. Nə o gözünü məndən çəkdi, nə mən ondan. Qəssab Dadaşbala şəhərdə fironluq eləyir. Sürmə ilə mübahisənin yersiz olduğunu bilib, dinməz-söyləməz evdən çıxdım, birbaş Dadaşbalanın dükanına getdim. Dükanın qabağı adamla dolu ildi. Bir az aralıda ayaq saxladım, fikirləşdim ki, ət alsam, gərək bu gün işin üstündən qələm çəkəm. Nə edim? Durum, durmayım? Bu vaxt

havada ağ, qara pulların oynadığını gördüm. Pulları qəssab Dadaşbala elə tulladı ki, elə bil lülə ağzından çıxdılar. Yerə tökülüb hərəsi bir tərəfə diyirləndi. Qəssabın hərəkəti mənə pis təsir elədi. Gözlərim qaraldı. İrəli getmək istədim görüm nə əhvalatdır? Dadaşbalanın kimə qəzəbi tutub? Qəssab döşündə qanlı önlük, dükandan çıxdı, növbədə dayanan adamları itələyib ley sərçənin üstünə cuman kimi qız uşağının üstünə cumub növbəsindən çıxardı, pulları atdığı səmtə elə itələdi ki, qız yerə sərildi. Qız qalxmaq istəyəndə qəssab bir də ona cumdu. Əl qaldıranda şlyapalı bir adam onun biləyindən bərk yapışdı:

– Bu nə vəhşilikdir?

Qəssab qayıdıb dükanına girmək istəyəndə şlyapalı adam onun yolunu kəsdi:

– Sizin nə ixtiyarınız var qız uşağı ilə belə rəftar edirsiniz?

Adamlar qışqırırdılar:

– Biqeyrət!

– Qeyrətiniz olsa, bu yoğunluqda olmazsınız!

Şlyapalı adam qəssaba yol vermirdi dükana keçsin:

– Deyin görək nəyə görə qızı təhqir edirsiniz? Pulları nə üçün ayaq altına tullayırsınız?

Qəssabın ağzı camış ağzı kimi köpüklənmişdi. Hirslə şlyapalı adamı itələdi. Şlyapalı cansız idi. Az qaldı yıxılsın. Özünü düzəldib qəssaba doğru getmək istəyəndə, qəssab dükana girib qapını çırpıb bağladı. Bıçaqları, ət doğradığı baltanı burdan ora, ordan bura ata-ata şlyapalı adama dedi:

– Bunun vidinə, fasonuna bax! Bu da özünü kişi hesab eləyir!

Uzun bir qadın mənə tərəf gəldi:

– Salman, milisə xəbər vermək lazımdır. Milis işçiləri haradadır? Qabanı tutmaq lazımdır. Dükanı bağladın.

Fikir məni götürmüşdü. Qıza tərəf döndüm. Qadın arxadan məni bir də səslədi:

– Bura bax, Salman, məni tanımadınız?

Tanıdım. O mənim uşaqlarıma rus dili dərsi verirdi. Elyanora müəllimə idi.

– Müəllimə, bağışlayın, – dedim. Qıza tərəf getdim.

Növbəyə dayananlar yerə səpələnən pulları yığdılar, üstünü düzəldib qıza verdilər. Qıza yaxın gəlib xəbər aldım:

– Sən Lermontov küçəsində olmursan?

Qız anlaya bilmirdi ki, bu nə işdir onun başına gəlib. Kövrəlib cavab verdi:

– Orda oluram.

Adamlar xahiş elədilər ki, onu evlərinə aparım. Dedim, xahiş lazım deyil, qohumlarının evində qalır.

– Siz bazardan çıxana qədər hadisə yerinə milis işçisi gəlmədi?

– Gəldi.

– Milis nəfəri gələndə qıza kömək edən şlyapalı adam getmişdi?

– Xeyr, getməmişdi. Milis işçisi şlyapalı adama dedi ki, hər kiçik şeydən ötrü hay-küy salıb adamları yığmaq, camaatın başını qatmaq lazım deyil. Növbə düzəltdi. Qəssaba dedi ki, şlyapalı adamı qabağa salsın, yaxşı ət çəkib versin, işə tələsir. Şlyapalı adam növbədənkənar ət verilməsinə etiraz elədi:

– Çox üzdən gedirsiniz, yoldaş milis işçisi.

– Nə edək, qəssabı asaq?

Müstəntiq Murtuzayev Salmanın sözünü kəsib, narazı halda ondan xəbər aldı:

– Nə üçün milis uşaq evinə getməmisiniz? Prokurorun onsuz da işi çoxdur.

– Çoxdur. Mən də bilirəm, yoldaş müstəntiq. Amma mən belə hesab elədim ki, prokurora müraciət etsəm yaxşıdır.

– Nəyə görə belə fikirləşmisiniz?

– Nə isə mən belə qərara gəldim, yoldaş podpolkovnik.

Milis rəisi Sadıq Ağayarovun, müstəntiq İxtiyar Murtuzayevin suallarından başa düşürdüm ki, Salmanın Güləbətini birbaş prokurorun yanına gətirməyindən narazıdırlar. Prokuror düşünə bilərdi: «Salman xüsusi tapşırıqla onun yanına gəlib. Prokurora demək istəyənlər var ki, qanunların ən çox pozulduğu sahə onun atası Zəminzadənin başçılıq elədiyi sahədir». Qəssab Dadaşbala Zəminzadənin sahəsində ət satır.

Qəssabın haqqında şəhərdə qəribə söhbətlər gedirdi: «Qəssab Dadaşbala ortancıl qızını da köçürtdü. Yataq otağı, yeməkxana, mətbəx üçün mebellər dəsti öz yerində. «Volqa» markalı qara maşın cehiz verdi. Qız isə atasından küsüb gedib, köhnə məktəb yoldaşına belə deyib: «O adamın «Zil» maşını yoxdur, nə ölümdür, evlənməsin. Nə olsun, allahın bufetçisi Balaxanım da qızına «Moskviç» cehiz alıb».

Salman otaqdan çıxandan sonra heç kim dinib-danışmadı. Belə sükutlar prokurorun otağında çox olurdu. Sükut içərisində mən həmişə öz-özümə sual verirdim: «Görəsən, bax bu saat prokuror nə düşünür?» Salman gedəndən sonra prokurorun nə barədə düşündüyü elə bil mənə aydın idi. Mənə elə gəlirdi ki, qəssab Dadaşbala Zəminzadənin sayəsində qudurub.

Salman Güləbətini qoyub getmişdi. Güləbətin həyatında ilk dəfəydi qanunları qoruyan adamların arasında idi. Bu qanunlar ona nə verəcək? Güləbətin bu haqda heç nə bilmirdi.

Güləbətin kim idi? Necə olmuşdu o, kəndindən, ailəsindən ayrılıb şəhərə düşmüşdü? Güləbətin evində qaldığı adamlar kimlərdi? Yaxınmı, uzaqmı, doğrudanmı, qohum idilər? Qohumun hamısı bir olmur, Güləbətinin qohumları necə adamlar idi? Nə üçün Güləbətin təhqir olunmuşdu? Nə üçün qəssab Dadaşbala Güləbətinin heysiyyatını ayaqlar altına salıb tapdaladı? Bu ixtiyarı Dadaşbalaya kim vermişdi? Dadaşbalada olan bu qeyri-insani rəftarın mənbəyi haradan gəlirdi?

Prokuror Güləbətinə qarşı işlədilən təhqiri cinayət hesab edib işi müstəntiq Məlikova tapşırdı.

Prokuror üzünü Məlikova tutdu:

– Güləbətin evdən çoxdan çıxıb, ac ola bilər.

Məlikov Güləbətinlə qapıya doğru getdi. Güləbətin otaqdan çıxandan sonra prokuror Məlikovu saxladı:

– Bir dəqiqə, Məlikov yoldaş.

– Eşidirəm sizi, yoldaş prokuror.

– Yadınızda varmı, siz mən oxuyan orta məktəbə gəlib məşğələlər aparırdınız? Bizə yol qaydalarını öyrədirdiniz?

– Nə üçün yadımda deyil, yoldaş prokuror, yaxşı yadımdadır.

– Belə anlarda mənimlə rəsmi danışmaya bilərsiniz. Mənə, sadəcə, Hekayət deyin.

– Yox, yoldaş prokuror, onu edə bilməyəcəyəm.

– Nə üçün? Siz o zaman mənə «Hekiş», – deyə müraciət edirdiniz.

– Hamısı yadımdadır.

– Tapançanız vardı. Amma balaca idi. Adi paltar geyirdiniz, elə bağlayırdınız, köynəyinizin altından görünmürdü.

– Bilirsiniz niyə, yoldaş prokuror? Bəzzat uşaqlar tökülürdü dalımca. Deyirdilər, Məlikov, tapançanı çıxart göstər. Mən o qədər uşağın hansına tapança göstərəydim?

Amma göstərirdim. İri uşaqlar vardı, balacalar onlardan qorxurdular. Böyükləri əldə saxlayırdım.

Məlikov Şamaxının Mədrəsə kəndindən idi. Neçə il idi kəndə ayağı dəymirdi. Güləbətin də Şamaxı torpağında doğulmuşdu. Güləbətinin işi ilə əlaqədar bir neçə gün kənddəki evlərində, qohum-əqrəbasının yanında qala bilərdi. Əlbəttə, bu, müstəntiq üçün ikinci dərəcəli iş idi. Apardığı istintaq işlərini – dəqiqliyini, obyektivliyini, səliqəsini prokuror bəyənirdi.

Məlikov otaqdan çıxandan sonra prokuror düşüncəli halda dilləndi:

– Sadıq yoldaş, nə üçün birinci bölmənin işi belə qarmaqarışıqdır? Sizcə, qəssab Dadaşbala kimin sayəsində belə quduzlaşıb? Kimə güvənir?

Prokuror müstəntiqə tərəf döndü:

– Baş müstəntiq Murtuzayev yoldaş, mən sizi ona görə ləngitdim ki, sualımı siz də eşidəsiniz.

Prokuror ilk dəfə idi atası Zəminzadənin başçılıq etdiyi sahənin işindən söhbət salırdı. Sualları eşidəndə ətim ürpəşirdi. Yuxu, mücrü, qovluq, qovluğu qoyub gedən qadın. Mənə elə gəldi ki, Hekayət alov içərisindədir: «Hekayət, gözlərimin işığı, alovun içi ilə hara addımlayırsan?»

Sadıq Rzayeviçi tutulmuş vəziyyətdə görürdüm. Prokurorun sualları ona bərk yer eləmişdi:

– Ağır məzəmmətdir, yoldaş prokuror.

– Bu sözləri deməyə mənim səlahiyyətim çatır.

– Mən səlahiyyət məsələsini nəzərdə tutmamışam. Hər şey bir yana, siz öz atanız haqda fikir deyirsiniz. Mən sizə başqa söz demək istədim, Hekayət xanım.

– Xahiş edirəm, fikrinizi açıq deyin. Bizim işimiz açıqlıq tələb edir. Heç birimiz istintaq altında deyilik.

Sadıq Rzayeviç güclə gülümsədi:

– Məmmədyar Zəminzadə iyirmi ildən artıqdır milis sistemində işləyir. Narahat gecələr, narahat anlar keçirib. Günlər, saatlar üst-üstə qoyulsa, illərlə yatmayıb. Bunu hamıdan yaxşı gərək siz biləsiniz. Siz çox gecələr «Ata!» deyə-deyə atasız yuxuya getmisiniz. Ananız sizi güclə kiridib ki, atan gələr. Lakin atanız kim bilir hansı hadisə yerində imiş. Məmmədyarın əlləri çapıq-çapıqdır. Bu çapıqlar adamlarımızın rahatlığını pozan xuliqanların əlindən bıçağı alan zaman əmələ gəlmişdir. Məmmədyar çox gecələri su dolu zirzəmilərdə açıb. Məgər Zəminzadə belə asanlıqla ittihama layiq milis işçisidirmi?..

– Dediklərinizin heç biri Məmmədyar Zəminzadənin bugünkü işlərinə haqq qazandırmır. Siz Məmmədyar Zəminzadənin rəisisiniz. Mənim dediklərimi nəzərə almaya bilərsiniz. Qaldı işin, söhbətin genişliyinə, biz bu məsələyə qayıdacağıq. İndi qəbulda gözləyənlər var. Mən onları sizin iştirakınızla dinləmək istəyirəm. Ənənəmizə sadiq qalın. Məndən tez küsməyin, Sadıq Rzayeviç.

– Sərt danışdınız, Hekayət xanım.

– Kişi kimi açıq danışmağınızdan xoşum gəlir. Murtuzayev yoldaş, sizin vaxtınızı almaq istəmirəm. Atam sizin dostunuzdur, mənə nifrət etməyə tələsməyin.

Murtuzayev getmək istəyirdi, dayandı, ağır-ağır prokurora tərəf döndü:

– Zaman dəyişir, Hekayət xanım...

– Sizinlə şərikəm!

– Siz Zəminzadəyə irad tutmaq üçün iyirmi beş il işləməlisiniz.

– Bu fikrinizə tamamilə ziddəm.

– Bir gün gələr, atanız haqqında bu səhv fikriniz sizə çox əzab verər.

– Elə bil əfsanəvi aləmdən danışırsınız, Murtuzayev. Unutmayın ki, biz sığal götürən sənət sahibləri deyilik. Si-

zin «romantikanız» xoşuma gəlmədi. «Ata» sözünü çox tez-tez təkrar edirsiniz. Söhbət atadan getmir. Sahə rəisi Məmmədyar Zəminzadədən gedir.

– İcazə verin, mən gedim.

– Buyurun.

Oturanda ürəyim səksəkəli idi. Ürəyimə dammışdı ki, prokuror atasının adını dilinə gətirəcək. Bu hiss məndə prokurorla ikilikdə olan söhbətimizdən yaranmışdı. Yaxşı ki, prokurorun əhvalı, görkəmi dəyişir, iş saatı adladıqca yenə həmişəki Hekayət xanıma bənzəyirdi. Sevinirdim. Əlbəttə, sevincim büruzə veriləcək dərəcədə deyildi. Məmmədyar Zəminzadənin nəzarət elədiyi sahənin işi haqqında sual veriləndə mən milis rəisi Sadıq Ağayarovun, baş müstəntiq İxtiyar Murtuzayevin üzlərinin nə şəklə düşdüyünü gördüm. Səhnə ağır idi. Olduqca ağır. Bu, aktyor sənəti ilə yaranan səhnə deyildi. Neçə vaxtdan bəri gördüyüm insanların özlərinin belə gözləmədiyi ağır səhnə...

Müstəntiq dayana bilməyib bayıra çıxdı. Sonra öyrəndim ki, o, kabinetində də oturmayıb, başqa iş adı ilə idarədən çıxıb getmişdi. İki saatdan çox ləngiyəndən sonra qayıdıb Gülsabah xaladan çay xahiş eləmişdi.

Məmmədyar Zəminzadənin adının çəkilməsi qəlbimə ona görə narahatlıq gətirdi ki, mən prokuroru sevirdim. Sualdan sonra prokurora acığım tutmadı, onu «zalım», «nankor» hesab etmədim. Əksinə, məndə prokurora qarşı kövrək hislər yarandı. Bilmirəm nə demək istədiyim sizə aydın olurmu?! Məni qınamayın, bəzi adi şeyləri mən özüm dərk edib, başa düşə bilmirəm. Mənim prokurora heyfim gəlirdi. Axı mən az-çox Məmmədyar Zəminzadəni tanıyırdım. Prokuror bu qədər gənc, təcrübəsi isə az idi. Eşitdinizmi Murtuzayev nə dedi? «Zəminzadəyə irad tutmaq üçün hələ iyirmi beş il işləməlisiniz». Allah eləməsin,

mən heç vədə, heç vədə istəmirəm prokuror vəzifəsini itirsin. Yox, heç vaxt! Heç vaxt bu olmayacaq! Prokuror təmizdir. İnsanların dostudur. O bizim qanunlarımızın dönməz, cəsarətli, həm də ağıllı keşikçisidir. O hələ işə yenicə başlamışdır. İşlədiyinin bu günlərdə vur-tut bir ili tamam olacaq, Məmmədyar Zəminzadə qızının bir illik prokurorluq fəaliyyətini böyük bayram kimi qeyd etməyə hazırlaşır... Qadın haradan peyda oldu? Nə üçün prokuror belə ağır yuxu gördü?

Ertəsi gün günortaya qədər işlər sakitcə keçdi.

Nahar fasiləsi üçün qapını bağlamaq istəyəndə milis rəisi Sadıq Rzayeviç sinəsini irəli verib zarafat elədi:

– Çinarə, nə etmək istəyirsən? Olmaya bizimlə qəsdin var? Milis işçisi olan yerdə qapı bağlamaq asan iş deyil.

– Nahar eləmək lazımdır, Sadıq Rzayeviç, – dedim.

– Əla, əla! Onda mən də keçim, qapını bərk-bərk bağla.

Prokuror podpolkovnikin bərk acdığına ürəkdən güldü. Mən çıxmaq istəyəndə bir nəfərlə qarşılaşdım. Bu, müxbir Surxay idi.

Podpolkovnikin kefinə elə bil soğan doğradılar. Surxay əlini uzadıb onunla görüşdü, yaxına yeriyib prokurora salam verdi:

– Çox şadam ki, sizi yerinizdə tapa bildim. Axşam məzuniyyətə gedəcəyəm. Bir azdan mətbəədə olmalıyam. Qəzetin sabahkı nömrəsinə qol çəkməliyəm. Yarımca saat vaxtınızı alacağam!

Sadıq Rzayeviçin qaşları çatıldı.

Sadıq Rzayeviç hündür, dolu, bədəncə möhkəmdir. Üzdən codxasiyyət adama oxşayır. Hərəkətlərində, danışığında sünilik olmaz. Haqqında eşitdiyim sözlər bunlar idi: «Əl-ayağı təmiz adamdır». Həyat yoldaşı Gülüstan deyir ki, Sadığın aldığı maaşın çoxu yeməyə gedir, hələ mebel

almaq haqqında fikirləşir. Görək nə nəticəyə gəlir. Gülüstan xala danışdı, gərək hey güləsən. Yeməklə özünün də arası pis deyil. Amma günahın hamısını Sadıq Rzayeviçin üstünə atır.

Sadıq Rzayeviç sallanmış qaşlarının altından müxbirə elə baxdı, az qala bərkdən gülmüşdüm. Elə bil rəisin fikrindən keçənləri oxuyurdum: «Müxbir qardaş, yarımca saat gec gəlsəydin, dünya dağılardı? İnan, dağılmazdı. Biz də Çinarənin cücəsini aşırardıq...»

Müxbiri bir dəfə baş müstəntiqin – Murtuzayevin yanında görmüşəm. O, saqqal qoymuşdu. Başının tükünü çiyinlərinə qədər uzatmışdı. Havanın xoş olmasına baxmayaraq, əynində boğazlı qalın köynək vardı. Papiros əvəzinə demi çəkirdi. İri, sarı portfelini dizinin üstünə alıb açdı, içərisindən kağız, qələm çıxarıb stolun üstünə qoydu, demini yandırdı. Üzünü prokurora tutdu:

– Görürsünüz, birinci görüşümüz kimi ikinci görüşümüz də tələsikdir. Nə etmək olar, biz jurnalistlərin, görünür, taleyi belədir. Bir neçə sualıma cavab vermənizi xahiş edirəm. Məni maraqlandıran nədir, əvvəl bunu deməliyəm.

Prokurorla Surxayın birinci görüşü yaxşı yadımdadır.

Surxay Azərbaycan Dövlət Universitetini bitirmişdi. Prokuror birinci kursa qəbul olunanda o, üçüncü kursda oxuyurmuş. Bir yerdə tələbəlik həyatı keçirmişdilər. İllər adlamış, onlar yenidən görüşürdülər. Surxayın xaricdən necə dəyişdiyi gözlərimin qabağında idi. Daxilindən xəbərdar deyildim.

Surxay işlədiyi qəzetin səhifələrində «İnsan və qanun» mövzusunda məqalələr verilirdi. Məqalələri oxuyurduq. O, mövzu ilə əlaqədar bir gün əvvəl məhkəmə iclasında iştirak eləmişdi. Onu maraqlandıran məhkəmədə prokurorun çıxışı idi.

Müxbir demisini sümürdü, başını yuxarı qaldırdı, tüstünü havaya buraxdı, saqqalını bir əlinin dalı ilə sürtə-sürtə dedi:

— Məhkəmədəki çıxışınız haqqında fikrimi açıq deyəcəyəm. – Müxbir susdu. O, prokurordan söz eşitmək istəyirdi, eşidə bilməyib söhbətinə davam etdi. – Elə bilməyin ki, sizi sevindirəcəyəm, prokuror yoldaş! Nə etmək olar, görünür, biz jurnalistlərin işi belədir. Ən yaxından tanıdığımız adamlar haqqında da fikrimizi açıq deməliyik. Çıxışınız xoşuma gəlmədi.

Sadıq Rzayeviç əlini çənəsinə dayaq verib müxbirə baxırdı.

– Siz məndən soruşsanız ki, nəyə görə çıxışınız xoşuma gəlməyib, səbəbini deyə bilərəm.

– Bunu sizdən xahiş etməyə ehtiyac yoxdur. Söhbətinizə davam edin.

Gözləmədiyim halda Sadıq Rzayeviç dilləndi. Hiss elədim ki, rəisin dedikləri müxbirə xoş getmədi. Kinayə qarışıq tonda cavab verdi:

– Sözlərinizdəki eyham mənə çatır, Sadıq Ağayarov yoldaş. Düz söz acıdır. Prokuror dövlət qanunlarını möhkəm qorumalıdır. Sizin çıxışınızda bunu görmədim. Bilmirəm, bəlkə də, kifayət qədər təcrübəniz olmadığına görə belədir. Siz oğruları ittiham etmək əvəzinə, müdafiə etdiniz, hətta məhkəmədən tələb etdiniz ki, oğruları buraxsın. Prokuror hüququnda yox, vəkil rolunda çıxış etdiniz. Dediklərimdə səhv yoxdur ki, yoldaş prokuror? Varsa, deyin. Maraqlıdır, mən səhv edəm?! Çox maraqlıdır. Ola bilsin ki, siz və podpolkovnik mənim dediklərimlə razılaşmayasınız. Ancaq bir şeyi unutmayın: mən sözümü qəzetimizin lap bu nömrəsində deyə bilərəm.

– Bunun üçün sizə nə kimi kömək lazımdır? – deyə prokuror müxbirdən xəbər alanda o, çiyinlərini dartdı:

– Kömək? Hm! Çox təəssüf ki, mən sizin çıxışınız haqqında müsbət yox, tənqidi məqalə yazmalı olacağam.

– Mənim haqqımda tənqidi məqalə yazacaqsınızsa, mən sizə kömək edə bilmərəm?

– Siz, deyəsən, tələbəlik illərində mənimlə etdiyiniz zarafatlara qayıdırsınız? Təəssüf ki, buna vaxt yoxdur və nə də biz dünənki tələbələrik. İndi biz rəsmi işçilərik.

– Onda gəlin bir az açıq danışaq. Siz məni günahlandırırsınız ki, mən «oğruları» müdafiə eləmişəm.

– Müdafiə elədiniz!

– Sizcə, bunun səbəbi nə ola bilər?

– O şeydə ki, tam aydınlıq var, o şeyi ki, biz gözlərimizlə görürük, burada «səbəb» haqqında sorğu-suala ehtiyac yoxdur.

– Siz düşündüyünüz kimi olsa, onda məndən yazacağınız tənqidi məqalə birtərəfli olar. Qarşıya suallar çıxar, suallara oxucu cavab tapmayanda məqalənizdən narazı qalarlar. Axı biz – prokurorluq, məhkəmə və milis işçiləri qanunlarla dəlilləri yox, insanı müdafiə edirik.

– Dəhşətli yanlışlıq. Deməli, bizim qanunlarımız sizin üçün heç nədir?

– Yoldaş Surxay, qanun insanı müdafiə etmək üçündür.

– Adamların həyatına, əməyinə mane olan yabancı ünsürləri təmizləmək lazımdır, yoldaş prokuror!

– Necə təmizləmək?

– İki nəfəri islah etmək lazım idi ki, oğurluğun nə olduğunu anlasınlar. Bu, başqalarına da ibrət dərsi olardı. Əliəyrilər, oğrular sizin çıxışınızdan nə nəticə çıxara bilərlər? Mən məqaləmdə məhkəmə sədri haqqında da sözümü deməliyəm. Sizin çıxışınızdan sonra məhkəmə sədrinin ovqatını görüb yanımda əyləşənlər pıçıldaşdı ki, oğrular buraxılacaq.

– Yoldaş Surxay! Nə üçün siz məhz istəyirdiniz ki, mühakimə edilənlər yalnız türməyə getsinlər? Həbsxana yeganə tərbiyə vasitəsi ola bilməz!

– Dediklərinizi olduğu kimi yazıram: «Həbsxana yeganə tərbiyə vasitəsi ola bilməz»! – Bloknotu örtüb dedi. – Sizinlə danışmağı bir jurnalist kimi artıq hesab edirəm.

Müxbir qalxıb getmək istəyəndə prokuror xahiş elədi ki, azacıq dayansın. Ovundurucu səslə Surxaya dedi:

– Yadında varmı, universitetdə oxuduğumuz vaxt bir gün sən mənə yaxınlaşıb dedin: «Hekayət, sən qurtarandan sonra prokuror olsan, biz tələbələrin «intiqamını» bu bufetçilərdən alarsan?» Yadındadır?

– Yadımdadır.

Prokuror Surxaya «sən» deyə müraciət edirdi.

– İndi qulaq as. Sadıq Rzayeviç, rica edirəm siz də, Çinarə, siz də yaxşı fikir verəsiniz. Mən sənin sözünü «redaktə» etdim. Dedim «bufetçilərdən» yox, «bufetçidən». Sən onda da bir az kəmhövsələ idin. Bilirsən ki, bunu bütün tələbələr deyirdi. Düzdür, yaxşı oxuyurdun. Amma özündən çox razı idin. Bu «özündən razılıq» sənin hörmətinə pis təsir edirdi. Ancaq hər halda yaxşı tələbəydin. Mən sənin sözünə düzəliş verəndə narazı qaldın və dedin:

– Bu, olmadı!

– Niyə? – Gülüb səndən xəbər aldım. Ona görə gülürdüm ki, bilirdim mənə nə cavab verəcəksən. – Xahiş edirəm, məni siyasətə çəkmə, – dedin. Mən səni inandırmağa çalışdım ki, institutların özündə, orta məktəblərimizdə, başqa müəssisələrimizdə elə bufetçilər işləyirlər ki, təmiz adamlardı. Qayğıkeşdirlər. Misal da gətirdim. «Yox!» – deyib durdun. Hələ mənə güldün də: «Bufetçi – təmiz!», «Bufetçi – qayğıkeş!» Yadındadır?

– Bu, bizim tələbəlik illərimizin söhbəti idi. Bir tərəfdən də zarafat idi.

– Sənin oğru adlandırdığın Sərxanla Əliqulu onuncu sinifdə oxuyurlar. Birinci sinifdən onuncu sinfə kimi yaxşı oxuyan iki şagird necə olub oğurluğa əl atıblar, cinayət ediblər?

Prokuror hadisəni ürək ağrısı ilə danışdı...

Məktəbdə əlifba bayramı yaxınlaşır. Məktəb bayrama hazırlıq görür. Əlifba bayramında onuncular əlifbanı tamamlayıb ana dilinə keçən birinci sinif şagirdlərinə dəftər, rəngli karandaş verirlər. Bayramı başlamaq üçün şagirdləri məktəbin klubuna dəvət edirlər. Hər kəs öz hədiyyəsi ilə otağa doğru qaçır. Sərxanla Əliqulu nə etsinlər? Pulları olmadığından hədiyyə almayıblar. Əliboş içəri girsinlər? Yoldaşlarının gözlərindən yayınıb getmək istəyirlər. Nəticə necə olar? Onlara deməzlər hədiyyədən ötrü qaçıblar? Bir də «yekə kişilərdi», evə gedib nə desinlər? Kimdən pul istəsinlər? Balacaları isə təbrik etmək lazımdır.

Əliqulu ilə Sərxan qoltuqlarında dəftər-kitab, dəhlizin bir küncündə xısınlaşanda, bufetçi Simuzərin bayıra çıxıb, maşına oturaraq getdiyini görürlər. Sərxan Əliqulunu dartışdırır:

– Gedək!

– Nə olub?

– Sorğunu sonraya saxla!

Onlar gəlib bufetin yanında dayanırlar. Əliqulu Sərxanın fikrini başa düşür. Ətrafda adam olmadığını görüb, bufetə girirlər. Bu vaxt pulu götürməyi unudan bufetçi maşınla geri qayıdır. Bufetə girən kimi nə baş verdiyini anlayır. Dərhal milisə zəng vurur. Beləliklə, Əliqulu ilə Sərxan yaxalanırlar.

Prokuror ilk sualı Sərxana verir:

– Oğurluq etdiyiniz vaxt nə fikirləşirdiniz?

– Fikirləşirdik ki, biz cinayət eləmirik.

– İndi də bu fikirdəsiniz?

– Bəli.

– Siz cinayət etmisiniz.

– Cinayəti biz yox, bufetçi edir.

Prokuror az dayanıb, yenə sual verir:

– Bufetçinin göstərdiyi pulun miqdarı düzdür?

– Düzünü desək, inanarsınız?

– İnanaram!

– Bizim puldan xəbərimiz yoxdur. Bufetdən götürdüyümüz on altı plitka şokoladdı...

– Siz oğruların sözlərinə, doğrudan da, inandınız? – deyə müxbir prokurora sual verdi. Cavab gözləməyib əlavə etdi. – Məncə, Sərxanın və Əliqulunun yerinə başqa iki nəfər olsaydı, sizdə bu inam yaranmazdı.

Prokuror müxbirə diqqətlə baxıb, üzünü milis rəisinə tutdu:

– Sadıq Rzayeviç, – dedi, – müxbir yoldaş mənə demək istəyir ki, Sərxan görkəmli aktrisa Şəfəq xanımın oğlu olmasaydı, indi türmədə olardı. Yox, Surxay, insan və qanun haqqında bu qədər dayaz düşünməyin, insan taleyini qaş-göz işarələri ilə həll etməyin necə faciələr doğurduğunu dərk etmək, görünür, hələ də bəzilərimiz üçün mümkün deyil. Sərxan riya ilə, əyriliklə mübarizə aparan ailədə doğulmuş və böyümüşdü. Anası Şəfəq xanım səhnədə həmişə əliəyrilərə, xəbis və xainlərə qarşı durmuşdur. Sərxan evlərinə haram tikənin gəldiyini görməmişdir. Onun atası ömrü boyu teatrda işıqçı olub. Mahir işıqçı! Mən psixoloji əsərləri yeni, sadə quruluşda görəndə, işıqların tamaşadakı roluna təəccüb etmişəm. Bir tərəfdən pak, təmiz ailə, iki sənətkar, digər tərəfdən böyük tərbiyə məktəbi. Elə məktəb ki, orada bizim gənc nəsil insanlıq dərsi alır. Bəs «oğru» hislər Sərxanın, Əliqulunun qəlbinə haradan,

nə vasitə ilə soxulmuşdur? Baş verən cinayətin özəyi bu suala bağlıdır.

Sən demə, ailə ilə məktəb arasında bəzən bir «məktəb» də varmış. Bu «məktəb» Sərxan kimi şagirdlərə gizli «oğurluq» dərsi verirmiş. İki gün əvvəl Çinarə ilə rast gəldiyimiz hadisəni sizə danışmalıyam.

İş vaxtı qurtarmışdı. Çinarə, dedim, evə tələsməyək, piyada gedək. Hava o qədər xoş deyildi. Külək hərdən tozu üstümüzə vururdu. Dayanıb üzümüzü külək əsməyən tərəfə çevirməli olurduq. Yolumuzu Nizami kinoteatrının yanından saldıq ki, bəlkə, bir filmə baxaq. Kinoteatra çatmağımıza az qalırdı. Tini dönəndə Çinarə diksindi «Nə oldu?» – deyə xəbər aldım. Çinarə güldü, sağ tərəfinə baxıb dedi:

– Uşaqlar elə dayanıblar, qorxdum.

Maraqlandım, uşaqlar necə dayanıblar ki, Çinarə onlardan qorxub? Arxaya, ətrafa baxdım. Elə bir şey görmədim. Yalnız dörd nəfər bir-birinə sığınıb papiros çəkirdi. Bizi görürdülər, amma əhəmiyyət verməyib söhbət edirdilər. Çinarənin diksinməyi, «qorxdum» deməsi məni bir az da maraqlandırdı. Onlara yaxın dayandıq. Özümüzü elə göstərdik ki, guya kimi isə gözləyirik.

– Siqareti sən də bufetdən almısan? – deyə onlardan biri sual verdi. Uşaqların məktəbli olduqları bizə aydın idi. Diqqətimiz onların söhbətindəydi.

– Neçəyə aldın?

– Neçəyə alacağam. İsmulla siqareti hərəyə bir qiymətə verir? On qəpik artıq verməlisən, vəssalam! Yoxsa dədəsi gələ, verməz, deyəcək, nə siqaret?! Ağzınızdan qan iyi gəlir. Məktəbin bufetində siqaret satılır?! Hələ yaxandan yapışıb direktorun yanına da aparar.

– Ərə, Gəncə çörəyini səkkiz yerə bölür, hərəsinin üstünə kağız naziklikdə pendir kəsib qoyur, bilirsən neçəyə verir?

– Nöşün bilmirəm, iyirmi köpüyə.

– Deyəndə, İsmulla, belə nöşün? Qışqırır ki, bu sənin-çün iyirmi köpüklük «seri» çörək-zaddı bəyəm?! Biri qırx köpükdür, özüm əlli köpüyə alıram.

– Dişinin otuz ikisi də qızıldır.

– Bir «Volqa»sı var, şəhərdə bir dənədir. Hər yeri nikeldir.

– Siqaretini bəri tut görüm, dəqiqədə bir sönür. Əclaf bunun içərisinə torpaq doldurub, nə edib?

– Həri. Nə nikel, adə, maşının içinə baxmısan? Ayaq qoyulan yerə də əla koja çəkdirib.

– Bilirsən deyir, evində nələr var? Bir cavan qız alıb. Toy eləyib, gəl görəsən!

– Üçotaqlı iki mənzilin aralığını açdırıb, bir-birinə qatıb. Sənin müəllimin nə edib?

Uşaqlardan biri qayıdıb bizə tərəf baxdı:

– Bu yazıqların da gözlədikləri gəlib çıxmadı...

Söhbətin yönünün bizə tərəf döndüyünü görüb əkildik. Surxay yoldaş, bilmirəm, sizə aydın oldumu «oğru» hislər Sərxanın qəlbinə haradan soxulmuşdur? Görünür, mənim məhkəmədəki çıxışıma axıra qədər qulaq asmamısınız. Mən çıxışımda Sərxanla Əliqulunun azad edilməsindən başqa, məhkəmədən tələb elədim ki, bufetçi Simuzər haqqında cinayət işi qaldırmaqdan ötrü iş təzədən istintaqa qaytarılsın. Bu gün isə bufetçinin həbsə alınması üçün «qəti imkan tədbiri»ni imzaladım.

– Demək, iki oğrunun əvəzinə bufetçi həbsə alındı?

– Bəli!

– Yaxşı. Vaxtınızı aldığım üçün üzr istəyirəm.

– Lazım deyil.

– Sağ olun.

– Sağ olun.

Müxbir getdi, qapının ağzından geri qayıtdı. O, demisini yadından çıxarıb stolun üstündə qoymuşdu. Demini götürüb qapıya tərəf getdi. Qapını açıb bayıra çıxdı. Bu müddətdə prokurorun nəzərləri onu izlədi. Sadıq Rzayeviçin elə bil müxbirin getdiyindən xəbəri yox idi.

* * *

Sadıq Rzayeviçə məktub aparmışdım. Məktub milisə çatasıydı, səhvən bizə vermişdilər. Sadıq Rzayeviçin kabinetinə girəndə bu sözləri eşitdim:

– Yara ağırdır?

Sadıq Rzayeviç məni görüb, söhbəti saxladı:

– Çinarə, yenə nə xəbər gətirmisən?

Məktubu verdim. Mənə nə «get», nə də «dur» dedi. Məktubu oxudu. Qapı açıldı. Bir milis nəfəri içəri girdi. Danışmaq üçün rəisdən icazə istədi və dedi:

– Əlində bıçaq olan adam bayırdadır.

Rəisin verdiyi suallardan, aldığı cavabdan bildim ki, cinayət törədən şəxs tələbədir. İnstitutun dördüncü kursunda oxuyur. Atalı, analıdır. Rəis sualı sakit verirdi:

– Nə üçün atan sizinlə olmur?

– Anamla ayrılıblar. Atam evlənib.

– Anan?

– Anam da ərə gedib.

– Anan ərə gedəndə neçə yaşında olardın?

– Yekə idim.

– Səni anan saxlayıb?

– Bəli!

– Sənəti nədir?

– Müəllimdir.

– Bəs atalığın?

– Muzıkantdır. Klarnet çalır.
– Səninlə münasibəti necədir?
– Pis deyil.
– Neçə yaşın var?
– İyirmi beş.
– İnstitutu bitirməliydin...
– Bir az gec girmişəm.
– İşləyirdin?
– Yox.
– Niyə güldün?
– Gülmədim. Nə işləyəcəydim?
– İndi necə?
– Həm oxuyub, həm işləmək olar?!
– Səni mənim yanıma gətirən leytenant gecələri çörək dükanlarına qarovul çəkib, gündüz oxuyub. Anasını, kiçik qardaş-bacısını saxlayıb. Bax, bu leytenant!

Elə bil rəis məni cinayət törədən şəxsin həyatını bilmək üçün saxlamışdı.

Səhəri gün «Danqa»nın anası Şeyda prokuror İbrahimovun qarşısında göz yaşları axıdırdı. Ananın göz yaşları axan gündən dörd-beş il keçmişdir. İndi həmin ana prokuror Hekayət xanımdan oğlu üçün imdad istəyirdi. Prokuror deyirdi:

– Sizin ana kimi nə çəkdiyinizi bilirəm. Elə bilirsiniz bizim qəlbimiz, ürəyimiz dəmirdən, daşdandır?

Güloğlan restoranda yeyib-içəndən sonra yoldaşları ilə bayıra çıxmış, növbədə dayanan milis nəfərinə yaxınlaşıb papirosunu yandırmağı ondan tələb eləmişdi. Milis nəfəri Güloğlanı dəfələrlə intizama dəvət eləmişdi. Bildirmişdi ki, onun başını qatır. Şəhərin ən qarışıq yeridir. O, piyadaların, maşınların gedişini tənzimləyir. Ona mane olmaq bədbəxt hadisə ilə nəticələnər.

Güloğlan milis işçisindən əl götürmür. Onu məcbur edir ki, kibrit çəkib papirosunu yandırsın, yoxsa milis işçisindən ötrü pis olacaq. Maşınlar dal-dala düzülüb qalır. Tələsən sürücülər fit verməyə başlayırlar. Küçənin o üz bu üzü piyadalarla dolur. «Danqa» əl çəkmir, ikinci milis nəfərinin gəldiyini görüb, əl qaldırmaq istəyəndə onu arxadan tuturlar.

Ana yalvarırdı:

– Gedib həmin milis işçisinə yalvaracağam. Nə qədər xərc istəsə verəcəyəm. Oğlumu buraxın. Onun bircə ili qalır institutu bitirsin. Yad kişinin pulu ilə oxuyur. Oğlum sərxoş olub. Ağlı başında olmayıb. Mən şəhərdə yaşasam, o belə etməzdi. Mən rayonda, o, burda. Bilirsiniz ki, uşaq başsız olanda yolunu aza bilər. Bizim borcumuz onlara kömək eləməkdir. Sizdən təvəqqe edirəm.

Gördüyüm hər iki səhnə – dörd-beş il bundan qabaqkı da, indiki də ağır səhnələr idi. Ona görə ki, ana yalvarırdı. Ana göz yaşı tökürdü. «Danqa» neçə il yatıb gəlmişdi. Ona düşən cəzanın yarısını vermişdilər. Ağır burası idi ki, nə ana bu güzəştdən nəticə çıxarmışdı, nə oğul. Ana prokurorun ayaqlarına düşməyə hazır olduğunu bildirəndə podpolkovnik başını iki əli ilə qamarladı.

Güloğlanın anası Şeyda hündürtəhər qadın idi. Gözlərində, qaşlarında süni rəng yox idi. Nə vardısa, hamısı özününkü idi. Qısa kəsilmiş saçları qara idi. Hərəkətləri, danışığı iti idi. Güloğlanın atasını sevmədiyindən dinməzsöyləməz ondan uzaqlaşmışdı. Oğlunu özü ilə aparmışdı. Onu saxlayıb böyütmək üçün keçmiş həyat yoldaşından bir qəpik də almamışdı. Bir neçə ildən sonra Şeyda Şəmistan adlı birinə ərə getmiş, özünə ailə həyatı qurmuşdu.

Şəmistanın Şeydanı qəlbən sevdiyini görən Güloğlan çırtıq vurub oynamış, qət eləmişdi ki, ömrü boyu təmin

olunub, ona işləmək lazım deyil. Anası cavandır. Şəmistan klarnet çalacaq, pul arx suyu kimi axıb gələcək, Şeyda isə Güloğlandan heç nəyi əsirgəməyəcək.

Güloğlan istədiyi kimi, işsiz-peşəsiz, qayğısız, məsuliyyətsiz yaşamağa başlamış, özünə «Danqa» ləqəbini vermişdi: «Mənə Danqa Güloğlan deyərlər. Mənim üçün heç kəs, heç nə hədd deyil və ola da bilməz!»

Şeydanın bütün faciəsi buradan rişə atmış, getdikcə kök salmışdı.

Prokuror «Danqa»nı içəri çağırdı. Mən «Danqa»nın pörtdüyünü görürdüm. «Görəsən, nə üçün pörtüb? – deyə düşünürdüm. Ona görəmi pörtüb ki, döşlərindən süd əmdiyi ana göz yaşları axıdır?! Ona görəmi pörtüb ki, vicdan ona əziyyət verir?! Ona görəmi pörtüb ki, bu günə kimi insanların istili-soyuqlu günlərindən xəbərsiz, məsuliyyətsiz ömür sürüb?!»

Prokuror «Danqa»ya sual verdi:

– Niyə ananı bu vəziyyətə salmısan?

– Nə vəziyyətə salmışam?

«Danqa»nın çiyninə tökülən saçı anasının saçları kimi qara deyildi, sarı idi. Mənə elə gəlirdi ki, onun uzunsov, kürən sifəti pörtsə də, bumbuzdur. Ürəyi də. Dodaqları güclə açılıb bükülürdü. Prokurorun qarşısında yazıq görünməyə çalışırdı. Hüquq işçiləri belə hallarda süniliyi təbiilikdən o saat seçirlər.

– Mən hamıdan çox anamı istəyirəm.

Prokuror podpolkovnikə baxdı:

– Sadıq Rzayeviç, bu sözlərə necə baxırsınız?

– Aydın məsələdir, Hekayət xanım.

«Anamı hamıdan çox istəyirəm» sözlərindən sonra Şeyda güldü. Əli ilə gözlərinin yaşını sildi. Anlayırdım, ana oğlundan «ümidli» söz eşidirdi. «Danqa»nın sözləri Şeyda

üçün elə bil dünyanın təskinliyi oldu. Düşünürdüm ki, ananın nə qədər sadə qəlbi var! Dərhal ağlayıb, dərhal sevinir. Onu da düşünürdüm ki, «Danqa» anasının kövrək qəlbindən «məharətlə» istifadə edir.

Şeydanın göz yaşları prokuroru vadar elədi ki, tanış olduğu işi yenidən vərəqləsin. İşi nəzərdən keçirirdi. Vərəqlərə diqqət edirdim. Bu səhifələrin hər biri insan taleyi idi. Ana ilə oğulun taleyi...

## MÜSTƏNTİQ BAYKOVUN QEYDLƏRİ

*Güloğlan Əlimərdan oğlu haqqında iş mənə verildiyindən üç gün keçirdi. Güloğlanı tapa bilmirdim. Bu gün onu tapdım. «Bakı» aşxanasında iki nəfərlə oturub yeyib-içirdi. Məlum olan nişanlardan Güloğlanı tanıdım. Onlara yaxın stolda oturdum, yemək sifariş elədim. Gözaltı Güloğlana baxırdım. Hiss edirdim ki, o məndən şübhələnib. Araq içirdilər. Durub yarımçıq getmək istədilər. Nə fikirləşdilərsə, oturdular. Xidmətçi bir şüşə konyak gətirib qabağıma qoydu. Güloğlan mənə baxıb şirin-şirin güldü. Qalxıb yoldaşının biri ilə mən oturan stola gəldi. Yer göstərdim. Əyləşdilər. Tanış olduq: Güloğlan, Amir. Amir dedi ki, məni tanıyır. Sözü uzatmadım. Az keçmiş Güloğlanın o biri yoldaşı qalxıb gəldi, Tanış olduq: Əfrail. Mənim sağlığıma içdilər. Bütün xərci Güloğlan verdi. Əlavə iki manat xidmətçinin cibinə soxdu. Restorandan çıxıb bir yerdə gəzdik. Mən işim olduğunu söylədim. İcazə alıb getdim. Güloğlanın yanıma gəlib-gəlməməyi barədə heç nə demədim. Amir məni arxadan səslədi:*

*– Yoldaş leytenant, olar Güloğlan üç gündən sonra sizin yanınıza gəlsin?*

*Amirin belə müraciətindən mənə hər şey aydın oldu. Amir mənə verdiyi sualla eyni zamanda demək istəyirdi ki, biz sən*

*deyən qədər də küt «həriflər» deyilik. Mən də özümü itirməyib soruşdum:*

*– Gedən yeri var?*

*– Var, – deyə Amir müxtəsər cavab verdi. – Ancaq biz görüşəcəyik!*

*– Lap yaxşı. Mənim vaxtım bir az məhduddur. Qorxuram sizə yalançı çıxam.*

*– Çıxmazsan! – Amir əlini sinəsinin üstünə qoydu. – Biz sənin boş vaxtını taparıq. Ümumiyyətlə, səni tapacayıq.*

*– Oldu.*

*– Xoş gəldin. Telefonun döş cibimdədir.*

*Amir danışırdı. Əfrail iri gözlü eynəyinin altından mənə zəndlə baxıb gülümsəyirdi.*

*– Onillik konyakla necəsiniz? Qara çəlləkdən tökülmüş konyak. Otuz litr.*

*Zarafatla cavab verdim:*

*– Olmaya konyak zavodunun kranı əlinizə keçib?*

*– Bizimlə ikibaşlı danışma, İvan Baykov, məsləhət bilmirik!*

*...Güloğlanı qızla gördüm. Onun gözlərinin altı şişib göyərmişdi. Üşüyən adam kimi boynunu qısıb gedirdi. Elə bil qızdan uzaqlaşmağa çalışırdı. Ayaqlarını sürüyürdü.*

*– İki gündür görüşmürük. Tanış ol.*

*Bir qədər mütərəddid halda qıza əl verdim. Qız başqa qız idi.*

*– Nişanlındır?*

*– Olacaq. – Güloğlan dodaqlarını büzüb güldü.*

*– Yaxşı qızdır!*

*Mən qəsdən bu sözü dedim. Əfrail, Amir üzümə baxdılar.*

*– İcazə ver, yaxşılığını, pisliyini Güloğlan özü bilsin İvan Baykov. – Amir qızarıb, kiçilən gözlərini qıyıb cavab verdi. Əfrail mənə baxıb gülümsəyirdi. Amir qolumdan yapışdı: – Yaxşısı budur oturaq. Güloğlan əla şeir yazıb. Şeiri də «yuyaq».*

*– Sabah.*

*Onlar məni buraxmaq istəmirdilər. Lap güclə əllərindən qurtardım. İdarəyə gəldim. Xəbər verdilər ki, podpolkovnik məni soruşub. Getdim yanına. Sadıq Rzayeviç dedi ki, neçə gündür müxtəlif vaxtlarda işdə olmuram. Sadıq Rzayeviçin sözlərinin doğru olduğunu təsdiq elədim, icazə istədim. Bir neçə gün də mənsiz keçinsinlər.*

*Mülki paltarda idim. Saat on bir idi. «İnturist»in kafesinə girmək istəyirdim, yan tərəfdə qızla oğlanın marça-març öpüşdüyünü gördüm. Ayaq saxladım. Amir sərxoş halda qızı öpürdü. Qızı tanıdım. Güloğlanın mənimlə tanış etdiyi qız idi. Kafeyə girdim. Asılqanda işləyən adam məni tanıyırdı. Başa düşdü ki, kimi isə axtarıram. Öz işi ilə məşğul olmağa başladı. Güloğlanla Əfraili stol arxasında gördüm. Asılqanda işləyən adam mənə pıçıldadı:*

*– Çoxdan buradadırlar. İkisi bayırdadır. Oğlanla qız. Kürən kalandı.*

*«Kürən» Güloğlana deyirdi.*

*– Bu nə puldur, yoldaş müstəntiq?*

*– Yeyib-içdiyimiz vaxt mənim payıma düşəndir, bir də mənim stoluma göndərdiyiniz konyakın pulu, qoyun cibinizə.*

*– Saxla, özünə lazım olar...*

*– Demək, bu günə kimi pasportunuz olmayıb?*

*– Yox.*

*– Hərbi biletinizi verin.*

*– Yoxdur.*

*– Həbsxanadan gəldiyinizdən az qala beş il keçir, bu müddətdə heç bir yerdə yazılı deyilsiniz?*

*– Yer var yazılam?! Qohumun da üzü dönüb. Bibim oğlunun dördgözlü mənzili var.*

*– Nə üçün doğma ananızın evinə yazılmamısınız?*

*– Anamla yaşamıram. Yad kişinin yanında nə işim var!*

*– Çay kimi dostlarının qarnına axıtdığı konyaklar yad kişinin əlinin zəhməti deyilmi?*

*– Ona yalvarıb eləyirdim ki, mənə konyak versin? Verməyəydi!*

*– Bu, doğrudur. Milis orqanına təqdim etdiyiniz yoxlama qəlpdir. Siz həbsdən çıxandan sonra bir gün də dərsə getməyibsiniz. Sizi AZİ-dən xaric ediblər.*

*– Etsinlər!*

*– Saxta yoxlama haqqında nə deyirsiniz?*

*– Yoxlamaya möhrü mən vurmamışam ki, kim vurub, cavab versin.*

*– Siz katibəni aldatmısınız. O sizə saxta yoxlama verdiyi üçün işdən çıxarılıb.*

*– Nə deyib katibəni aldatmışam?*

*– Demisiniz ki, onu sevirsiniz.*

*– Sonra sevmədim.*

*– Saxta yoxlamalarla respublikanın hörmətli təşkilatlarına ayaq açmısınız. Fəal komsomolçu kimi rayonlara ezamiyyətə getmisiniz. Xalanız oğlu Bakı şəhər pasport şöbəsinin müdirinə zəng vurub, sizin haqqınızda ona deyib. Xahiş edib ki, sizin bir yerə yazılmağınıza kömək eləsin. Pasport stolunun rəisi soruşanda ki, nə əcəb indiyənə kimi qeydiyyatda olmamısınız, xalanız oğlu hər şeyi düz danışıb. Deyib ki, siz əsgəri xidmətə getməmək üçün beş ildir qaçıb gizlənirsiniz. Bu söhbəti eşidib həmin gün Bakıdan çıxıb gedibsiniz, bir də altı aydan sonra qayıdıbsınız. Qarşınıza çıxanlara demisiniz ki, yatmağa yeriniz yoxdur, bütün qohumlar sizdən üz çevirib. Onlar sizin istedadınıza paxıllıq edirlər. Siz ananız Şeydanı da inandırıbsınız ki, onun ən yaxın qohumlarının, bacısının belə gözü sizi götürmür. Şəhərdə yaşayan xalanız nəyə görə dörd ildir öz bacısını dindirmir?*

*– Bilmirəm, bilmək də istəmirəm!*

*– Xalanız bacısına sual verib: oğluna bütün həyatını, sağlamlığını qurban verirsən. Sənin başqa övladın da var. Şəmistanın gətirdiklərinin hamısını Güloğlana yedirdirsən. Bəs Güloğlan nə vaxt bir manat əlli qəpik qazanıb özünə alt tumanı alacaq?*

*Xalanızın dediklərini olduğu kimi oxuyuram:*

*«Şeyda, biz bacıyıq. Qapımız birdir. Necə ola bilər ki, sənin və oğlunun xoşbəxtliyini, oğlunun ucalmasını istəməyək? Belə axmaq sözə sən, doğrudan, inanırsan? İnan! Amma yadında saxla ki, zəhmətin nə olduğunu bilməyən insan qarışqa boyda da yüksələ bilməz. Zəhmətin nə olduğunu bilməyən insanın həyat və insanlar haqqında nə təsəvvürü ola bilər?»*

*Şeydanın gözlərindən yaş ələnirdi. Deyəsən, o, indi başa düşürdü ki, bacısı Natəvan ürəyində qovrulan sözləri ona deyirmiş. Mən birdən hiss elədim ki, Şeyda necə dəyişib! Üzündə gizlənən xırda qırışları sakit axıtdığı göz yaşlarına baxanda görürdüm. Onun qara gözləri belə dərində deyildi. Gözlər üzdəydi, aydın idi. Baxanda elə bilirdim gözlərinin içərisində işıq şölələnir. Gözlərini sildiyi əllər də başqa idi. İncə, kövrək. İndi əllər elə bil qovrulmuşdu. Barmaqlarının qatlanacağında döyənəyə oxşayan qabarlar vardı. O, oğluna inanmışdı. İnana-inana gəlib buraya çıxmış, indi isə müqəssir kimi prokurorun qarşısında oturmuşdu. O, müqəssir olacağını ağlına gətirməmişdi. Ümidlə, fərəhlə yaşamışdı. Bu, oğlunun bir şeiri. İki şeiri, üç, dörd!.. Oğlu haqqında yalan deyirlər. Oğul düz deyir. «Danqa»nı gözləri götürməyənlər pisləyir. Oğlunun səsi uzaq ölkədən gəlir. Buna nə söz? Amirə, Əfrailə nə söz? Şeydanı məclisə çağırıb onun Güloğlan kimi oğul böyütdüyünu alqışlayanlara nə söz? «Danqa» haqqında yazılan tərifə nə söz?*

*Ana fərəhlə yaşamışdı: ona şair anası deyəcəklər. O, adi oğul böyütməmişdir, xalqa şair oğul vermişdir! Hələ ki, bu arzu, fərəhlərin əvəzində indi prokurorun qarşısında müqəssir kimi oturmuşdu. Ağlayırdı. Yalvarırdı. «Danqa» baxırdı...*

*Prokurorun otağında mən belə ürək ağrıdan hadisələrin az şahidi olmamışdım. Özümü prokurorun yerində hiss eləməyə çalışırdım. Tutaq bu saat prokuror Hekayət xanım deyil, mənəm. İxtiyar mənim əlimdədir. Güloğlanın işini yenidən istintaqa qay-*

*tararam. Rəisə və Baykova deyərəm, cəzasını yüngül eləsinlər, ananın göz yaşları naminə. Ana öz «cəzasını» çəkir. Yəqin ki, indi ona çox şey aydındır. Şəmistanın qazandığı pulları daha oğlu Güloğlana yedirtməz. Deyər: bəsdir, get, başını saxla, yetər məni rüsvay elədiyin! Doğma bacıma inanmadım. Xalan oğlunun səmimiyyətinə şəkk elədim. Sən məni bir qızın qarşısında rüsvay elədin. Ağlatdın, yalvartdın. Amma sənin üzündə həya, qeyrət nişanəsi görmədim. Sən mənim gözlərimi bağlayıb əyyaş, sərxoş həyat keçirmək üçün istifadə etmisən. Sən yalnız özünü düşünüb, özünə vurulmusan. Aylarla yataqda qaldığım vaxtlar ayağın evə dəyməyib. Mən sağalıb qalxanda gəlmisən, gülmüsən, məni qucaqlayıb öpmüsən, «Mamamdan yer üzündə yoxdur», – demisən. Çünki cibin boşalıb. Şəmistana əl açmağa gəlmisən, dinəndə isə Şəmistana gülmüsən, ələ salmısan: kimə gedibsən! Bir zurnaçalana getmisən. Minnətin olsun ki, mən ondan pul alıram... Bəsdir mənim gözlərimi, ağlımı ovsunladığın. Boynunda qızıl zəncir, barmağında qızıl üzük gəzdirirdin. Namus, qeyrəti isə qəlbindən qaşıyıb atdın. Mənə dediklərini eşidənlər elə bilirlər sən hələ həddi-büluğa çatmamış ərköyün bəbəsən. Xeyr, sən otuz beş yaşında çırtıq vurub dondan-dona girən oyunçusan. Sənin yazdıqların da təpənə dəysin. Sən doğma ananın halını, dərdini anlaya bilmədiyin halda nə edə bilərsən? Xalq səndən nə görə bilər? Qoluna girib səndən bərk-bərk yapışanlar var. Bir gün onlar da sənin kim olduğunu bilib sənə deyəcəklər: «Tfu sənin qeyrətinə! Tfu sənin kişiliyinə!» Mən xalq üçün oğul yox, qara-yara böyütmüşəm. Sənin yerinə məni tutub dama salsalar, azdır. Mənim əlimdən gərək analıq ixtiyarımı alalar. Deyələr ki, sən oğul yox, cəmiyyət üçün yaramaz ünsür tərbiyə eləmisən və eləməkdə davam edirsən.*

*Fikirləşirdim. Prokurorun yerində olub anaya «Danqa»nı qaytarsam, o, Güloğlanın yaxasından yapışıb deyəcəkmi ki, sən fərarisən! Sən kişilərin içərisindən qaçıb arvadların içərisində*

*gizlənmisən ki, səni kişi bilib əsgər aparmasınlar. Sən vicdan əzabının nə olduğunu bilmirsən, çünki səndə vicdan yoxdur. Bu gündən Şəmistanın çörəyini yeməyəcəksən. Səni oğulluqdan rədd edirəm. Qoy mənə nə deyirlər desinlər. Mən belə etməsəm, heç vaxt çəkdiyim əzabların pəncəsindən azad ola bilməyəcəyəm. Mənə rəhm edib səni mənə qaytardılar. Sən isə mənə gərək deyilsən, dur evimdən rədd ol!*

*Mən düşüncələr içərisindəydim. Heç vaxt prokurorun yerində olmağı ağlıma gətirməzdim. Bu düşüncələr isə mənim vətəndaş kimi «Danqa»ya qarşı daxili hökmlərim idi.*

*Məhkəmə Əliməhəmməd, qoltuğunda iri qovluq içəri girdi. Salam verib oturdu. Qovluğu stolun üstünə qoydu.*

*Prokuror Şeydaya sual verdi:*

*– Müstəntiq Baykov sizin evinizdə olub?*

*– Bəli, olub.*

*– Müstəntiq Baykovun sizə gəlib-getməsini olduğu kimi mənə danışın.*

*– Mən işdən təzə gəlmişdim. Uşaqlar mənə dedilər ki, bir nəfər səni görmək istəyir. Qayıdıb qapını açdım. Bir nəfərin dayandığını gördüm. Birinci dəfə idi mən bu adamı görürdüm. Ona görə də içəri dəvət edə bilməzdim, özü içəri girmək üçün icazə istədi. Şəmistan da evdə idi. Adını deyəndə mən xəbər aldım ki, məgər azərbaycanlı deyilsiniz? Güldü, yavaş səslə cavab verdi ki, rusdur.*

*– Birinci dəfə sizdən nə xəbər aldı?*

*– Güloğlanı soruşdu. Dedim, sabah evdə olmalıdır, telefonla deyib ki, gələcək.*

*– Oğlunuz gəldi?*

*– Güloğlanın belə «gəlirəm» sözləri çox olurdu. Zəng vurur ki, səhər evdəyəm, üç aydan sonra gəlib çıxır.*

*Mənə elə gəldi ki, Şeyda qəhərləndi. Qəhəri büruzə verməmək üçün prokurordan icazə alıb su içmək istədi.*

*Sadıq Rzayeviç qalxıb stolun üstündəki qrafindən su töküb Şeydaya yaxın qoydu. Şeyda sudan bir-iki qurtum alıb söhbətinə davam elədi.*

*Müstəntiq Şeydanın həyat yoldaşı Şəmistanın iş yerini xəbər alıb öyrənəndən sonra Şəmistanla Güloğlanın bir-birinə olan münasibəti ilə maraqlanmışdı.*

*Prokuror Şeydaya belə bir sual verdi:*

*– Oğlunuz nə üçün Şəmistanı döyüb? Doğrudur, Güloğlan sizin oğlunuzdur. Axı siz Şəmistanla da bir balışa baş qoyursunuz... Sizin həyat yoldaşınızdır...*

*– Elə şey olar?! – deyə Şeyda prokurorun sualına halsız cavab verdi. Prokuror ananın düz olmayan cavabını ağartmadı. Qəribədir ki, çox mülayim tərzdə dedi:*

*– Siz müstəntiqə etiraf etmisiniz ki, oğlunuz Şəmistanı döyüb. Oğlunuz bir axşam evə içmiş halda qayıdıb. Əriniz ona deyib ki, nəyə görə evə bu qədər gec, özü də sərxoş gəlirsən? Axı sənin kiçik bacı-qardaşın var. Bunun üstündə oğlunuz Şəmistanı vurub. Şəmistanın gözünün altı qaralıb şişdiyindən söz verdiyi toydan imtina etmişdir. Şəmistanın toya nə üçün gəlmədiyindən söz düşəndə toyda oğlunuz haqqında yaxşı sözlər danışmayıblar.*

*– Nə deyiblər?*

*– Deyiblər ki, siz Şəmistanın pulu ilə xuliqan bəsləmisiniz. Bu sözlər işdəki 38-ci vərəqədə qeyd olunmuşdur.*

*– Demək, mən işləmirəm, pul-zad almıram?*

*– İşləyirsiniz, pul da alırsınız. Ancaq sizin evdə dörd uşağınız var. Sizin aldığınız maaşla oğlunuz heç vədə tüfeyli həyat keçirə bilməzdi. O, təkcə ayda dörd dəfə Bakıdan sizin yanınıza gəlib, hər gələndə oğlunuza iki yüz manat pul vermisiniz! Bir ayda bu qədər maaş alırsınız?*

*– Şərt elə maaşdır?*

*– Şərt nədir?*

*– Evdə pul olar də.*

*– Evdə pul olar... Oğlunuzun Şəmistanı vurmağına necə baxdınız? Oğlunuza bu haqqı kim verib?*

*– Özləri barışdılar.*

*– Şəmistan pulu sizin oğlunuza özü verirdi, yoxsa sizə verirdi, siz verirdiniz?*

*– Şəmistanın əlinə nə pul gəlsə, mənə verir.*

*– Bəs heç bir dəfə də olsun fikirləşmirdiniz ki, ayıbdır? Siz Güloğlanın atasından pul tələb eləməmisiniz. Şəxsiyyətinizə sığışdırmamısınız. Nəyə görə Şəmistanı məcbur eləyirdiniz ki, sizin oğlunuzu istədiyi kimi pulla təmin eləsin?*

*– Oğlum deyir ki, neçə şəhərdə onun kitablarını hazırlayırlar. Buraxacaqlar. Şəmistandan nə alıb, qaytaracaq.*

*– Demək, Şəmistan günlərin bir günündə haqqının özünə qaytarılacağına arxayındı? Oğlunuzun vədlərindən neçə il keçir?*

*– Nə bilim, yoldaş prokuror.*

*– Qulaq asın, mən həyat yoldaşınızın müstəntiqə dediklərini eyni ilə sizə oxuyuram.*

*«Mənim artıq savadım olmasa da, sənətim var. Az-çox həyatı başa düşürəm, adamları tanıyıram. Mən heç vaxt Güloğlanın vədlərinə görə ona kömək eləməmişəm. Mən Şeyda ilə evlənib ailə qurmuşdum. O özü ilə Güloğlanı gətirmişdi. Mən, demək, Güloğlanın atası hesab olunurdum. Mənim üzərimə atalıq məsuliyyəti düşür. Gördüyünüz kimi, dörd uşağım var. Mən Güloğlanı bu dörd uşaqdan seçə bilməzdim. Qarşımda belə məqsəd qoymuşdum: Güloğlana elə baxmalıyam ki, nə o, nə mənim uşaqlarım, nə də Şeyda hiss eləsinlər ki, ortalıqda ögey-doğmalıq var. Bu, alçaq işdir. Mən Güloğlanın anası ilə bir balışa baş qoyurdum. Bir damın altında yaşayırdıq. Dərdi-sərimiz birdi. Necə ola bilərdi mən onun oğluna yad gözlə baxım?*

*– Son vaxtlar sizin Şeyda ilə söhbətləriniz olub. Siz şikayətlənmisiniz ki, pulu çatdıra bilmirsiniz.*

*– Bu, doğrudur. Boynuma alıram. İndi belədir ki, Güloğlan uşaq deyil, qazanar və yaşaya bilər. Mən demirəm tamam ondan*

*əlimi çəkirəm. Yox. Amma daha onun özündə də bir kəramət olmalıdır. Misal var: səndən hərəkət, məndən bərəkət.*

*– Madam ki, atalıq hissindən söz saldınız, sizdən bir şeyi bilmək istəyirəm. Güloğlan həbsxanadan gələndən sonra institutu buraxıb, heç yerdə evə yazılı deyil, ən hörmətli təşkilatları aldadıb. Fəraridir. Onun bu pis əməllərini siz görmürdünüz? Yaxşı ata olmaq təkcə pul «torbasının» ağzını açmaq deyil!*

*– Mən Güloğlanın təşkilatları aldatdığını bilmirdim. Doğrudur, məəttəl qalırdım ki, bu şəxsin əlində heç bir sənəd yoxdur, bəs necə olur hər yerə gedir? Birdən Moskvadan zəng vurur, birdən Riqadan, birdən Daşkənddən. Necə olur? Fikirləşirdim, deyirdim, yəqin, şairdi, ona heç bir sənəd-filan lazım deyil... Güloğlan özü də belə deyirdi. Şairə nə sənəd?! Şair elə özü sənəddir!*

*— Belə. Deməк, siz yoldaşınıza demirdiniz ki, oğlu bir işin qulpundan yapışsın? Elə bilirdiniz şair belə yaşamalıdır?*

*– Niyə, bilirəm, şairlər işləyirlər. Elə şair var, əvvəl daş karxanasında işləyib. Ailə saxlayıb. Ana-bacı qoymayıb heç kimə möhtac olsun. Sonra lap böyük şair olub.*

*– Bayaq dediklərinizlə indi dedikləriniz düz gəlmir.*

*– Mən qəlp danışmıram, yoldaş müstəntiq. Deyirdim, yəqin, işlər başqalaşıb. Belə olmasaydı, başqa bir təşkilat indiyə kimi Güloğlandan xəbər almazdı ki, ezamiyyət yazırıq, bir sənəd var? Qaldı iş məsələsinə, mən bunu heç vədə deyə bilməzdim. Onda gərək Şeydadan ayrılaydım».*

## İŞ VƏRƏQƏSİ 19–21

– Həyat yoldaşınızın dedikləri aydın oldu sizə?

– Burada aydın olmayan bir şey yoxdur.

– Mənə bir şey yenə yaxşı aydın deyil, xahiş edirəm deyəsiniz, siz anasınız axı. Bundan başqa, siz müəllimsiniz. Bəs necə oldu ki, belə hərəkət edə bildiniz?

– Necə hərəkət eləmişəm?

– Müstəntiq yazır: «Maraqlıdır ki, ana özü yağ içində böyrək kimi böyüməmişdi. O, oğlu kimi zərərli həyat sürməmişdir. Ancaq onun müəllimlik sənəti arasında fasilələr olmuşdur». Doğrudur, sizin əsasınız var ki, fasilələrdə xəstə olmusunuz. Dörd ay xəstə yatdığınız zaman oğlunuz bir dəfə gəlib sizə dəyməmişdir. Müəllimlər oğlunuz Güloğlanın natəmiz həyat yolu haqqında çox söhbətlər ediblər. Təəssüf ki, sizə təsir göstərə bilməyiblər. Siz onlara oğlunuz haqqında danışmağı qadağan eləmisiniz. Madam oğlunuz məktəbə gəlmir, məktəblə əlaqədar heç bir yaramaz hərəkət Güloğlandan çıxmayıb, onda oğlunuz haqqında da uzun-uzadı söhbətlər kəsilməlidir. Bu barədə siz heç kimi eşitmək istəmirsiniz.

Prokuror müstəntiqin rayona gedişi zamanı dediyi sözləri bir də Şeydaya xatırlatdı: «İstəyirəm ki, məni düz başa düşəsiniz. Oğlunuz haqqında səhv hərəkətlərə yol verirsiniz və səhv hərəkətlərdə davam edirsiniz. Sizi anlayıram. Anasınız. Ancaq mənim ürəyimə başqa şeylər də gəlir. Siz, deyəsən, oğlunuzun işləməyib belə fərari həyat sürməsi ilə qürrələnirsiniz. Sizi uzaqdan, yaxından tanıyanlara, oğlunuzun daxil olmaq istədiyi cəmiyyətin üzvlərinə demək istəyirsiniz ki, siz, bax, belə əla anasınız. Sizin oğlunuz ömrü boyu işləməyəcək, ancaq işləyənlərdən min dəfə artıq yaşayacaq. Çünki onun arxasında siz varsınız. Sizi tanıyanlar qoy bilsinlər ki, ana necə olar! Analar necə qızlar doğub, onlar necə ana olublar! Bəlkə, siz konyakların arasını bir müddət kəsəydiniz? Bəlkə, siz bir müddət Şəmistana rahatlıq verəydiniz? Siz onu qışın çovğunlu, yayın od tökən günlərində toylarda çalmağa, pul, konyak gətirməyə məcbur eləmisiniz».

Müstəntiq şəhərə qayıdandan sonra Güloğlan haqqında yenə tələsməmişdir. O bir müddət də Güloğlanı öyrənmiş, anaya dediyi sözlərin təsirini görməmişdir...

Hiss edirdim ki, prokurorun daxili əzabları azalır. Müstəntiq Baykov işdə heç bir ilişik qoymamışdı. Müstəntiq Şeydaya hər şeyi xatırlatmışdı. Ona imkan, vaxt vermişdi ki, oğlunun düzəlməsinə kömək etsin. Şeyda inadından əl çəkməmişdi: «Mən oğlumu belə təmin edəcəyəm. Güloğlan başqalarına ki ağız açmır. Hər kəs yerində otursun!»

Hamının nəzəri prokurorda idi. Mənim də, milis rəisi Sadıq Rzayeviçin də, Əliməhəmmədin də. Ana ilə oğul başını aşağı salmışdı. Son məqam gəlib çatdığını, deyəsən, bilirdilər. Ana da, Güloğlan da. Son məqam nə ilə nəticələnəcək? Prokuror «Danqa»nın həbs olunmasına qərar verəcəkmi? Onda Şeyda oğlu Güloğlandan elə buradaca ayrılmalıdır. Ana bir səmtə, oğul başqa səmtə getməlidir. O səmtə ki, daha Şeyda Güloğlanı istədiyi vaxt görə bilməyəcək. Güloğlan şəhərin görkəmli, adamlar gur olduğu yerlərdə gözə dəyməyəcək.

Ana daha prokurorun üzünə baxa bilmirdi. Xəcalət çəkirdi. Güloğlan anasının bu halını dərk eləmək, duymaq qabiliyyətində idimi? Təəssüf ki, yox!

«Danqa» eyni zamanda qorxu keçirirdi. Düşünürdüm ki, o, həbsdən qurtarmaq üçün bütün günahlarını anasının üstünə atmağa hazırdır. Hazırdır ki, bir kəlmə prokuror ona desin: «Bəlkə, törətdiyin cinayətlərin təqsiri anandadır? Bəlkə, o səni yaxşı tərbiyə eləməyib, pulları verməklə səni korlayıb? Necə bilirsən?»

«Danqa»ya belə bir sual vermək kifayət idi. O qayıdıb anasının üzünə durardı. Mən buna əmin idim.

«Danqa»nın üzünə baxırdım. Onun uzunsov, ağ sifəti ocağa qoyulmuş dəmir kimi qızarmışdı. İrəli meyil edən qulaqları da qızarmışdı. Anasına qanlı-qanlı baxıb başını aşağı dikirdi.

Düşünürdüm: nə günəşi sevir, nə insanları. Bu günə kimi heç kəsə lazım olmadığı halda, özünü bütün insanlara mütləq lazımlı bilir.

Şeyda «Danqa»nın hərdən ona necə baxdığını hiss edirdi. Ana büzüşürdü. Kiçilirdi. Özünü yalnız prokurorun yanında deyil, oğlu «Danqa»nın qarşısında da müqəssir bilirdi.

Prokuror «qəti imkan tədbiri»ni götürüb qabağına qoydu. Milis podpolkovniki, müstəntiq İvan Baykov Danqa Güloğlanın həbs olunması üçün rəylərini bildirmişdilər. Onlar «qəti imkan tədbiri»nə qol çəkmişdilər. «Danqa»nın həbs olunması üçün yalnız prokurorun imzası qalırdı.

Şeyda hiss edirdi ki, illər boyu sağlamlığının bahasına saxladığı oğlu Güloğlandan ayrılmalıdır. Elə bu saat, indicə ayrılmalıdır. Prokuror «qəti imkan tədbiri»nə qol çəkəndən sonra Danqa Güloğlanın bu otaqdan bayıra çıxmağa ixtiyari olmayacaq. Milis nəfəri içəri girib «Danqa»nı aparacaq.

Şeydanın gözlərindən sakit axan yaş sinəsinə yox, stolun bir qırağına tökülürdü. Sakitlikdə damcıların səsi aydın eşidilirdi.

– Xahiş edirəm o biri otaqda gözləyəsiniz.

Prokurorun ricasından sonra Şeyda ayağa qalxdı. Dayandı. «Danqa» özbaşına qapını açıb bayıra, mən oturan otağa keçdi. Rəis onun arxasınca gedib yenə qayıtdı. «Danqa»ya dediyi sözləri eşitdim:

– Heç yerə getməyin. Stulda oturun.

Şeydanın otaqdan çıxmasını gözləyirdik. Gözləri qızarıb şişmişdi. Gözlərinin kənarındakı qırışlarda yaş hələ dururdu. Şeyda stulu yana çəkdi, qapıya tərəf getmək istədi. Qayıtdı, prokurora tərəf iki-üç addım atdı. Ananın yaxınlaşdığını görüb prokuror ayağa qalxdı:

– Bəlkə, oğlumun cəzasını bir az yüngülləşdirəsiniz? Bu gün mənə çox şey aydın oldu. Başıma nə gəlib, hamısını özüm eləmişəm.

Şeyda ixtiyarsız addımlarla qapıya çatanda prokuror əlindəki qələmi «qəti imkan tədbiri»nin üstünə qoydu. Fasiləsiz zəng vuran telefonun dəstəyini qaldırdı. İxtiyar Murtuzayev daxil oldu. Biləcəri yolunda avtomobil qəzası üz vermişdi...

Biz prokurorla küçədə xeyli dinməz addımladıq. Belə vaxtlarda mən prokurordan heç nə xəbər almazdım. Özüm də heç nə deməzdim. Necə vacib söz olur-olsun, deməzdim. Belə anlarda prokuror gün ərzində işlərinin hamısını gözlərindən keçirirdi. Ətrafda insanlar, fəvvarələr, rəngli işıqlar vardı. Telefon zəngi, baş vermiş maşın qəzası fikrimi geri apardı.

Şeyda bayıra çıxana qədər prokuror onun arxasınca baxdı. Qapı ağır örtüldü. Sadıq Rzayeviç hadisə yerinə təcili adam göndərdi. Prokuror mənə dedi ki, komsomol komitəsinin katibi Ələddin Qaşqayı, Balamirzə kişini onun yanına çağırım. Zəng vurmaq üçün çıxdım. Şeyda əlini başına söykəyib oturmuşdu. Qapı açılan kimi ayağa qalxdı. «Nə üçün durursunuz, əyləşin», – dedim. Gülsabah xaladan xahiş elədim ki, Şeydaya çay versin. Gülsabah xala Şeydanın etirazına baxmayıb çay gətirdi. «İç bala, – dedi. – Ağlamaqdan heç nə çıxmaz. Prokurorun qabağında istəyirsən ağla, istəyirsən gül, fərqi yoxdur. Haqdan yapışacaq. Qeyrəti olmayan övlad qarayara kimi şeydi».

Gülsabah gözucu Güloğlana baxdı. «Danqa» arxasını anasına çevirib pəncərədən bayıra baxırdı.

Ələddin Qaşqayla Balamirzə kişini yaxşı ki, yerlərində tapa bildim. Zəng vurub qurtarana kimi Gülsabah xala yanımdan aralanmadı. Bilirdim «dərdi» nədir: «Qız yenə bütün günü ac qaldı...» Gülsabah xalanı öyrədə bilmirdim ki, prokurora «qız» deyə müraciət eləməsin. Gülsabah sözlərimə əhəmiyyət vermir, dediyini deyirdi.

İçəri girəndə podpolkovnik Sadıq Rzayeviçi pərt gördüm. Bildim ki, ciddi söhbət gedib. Prokuror, rəis və müstəntiqlər arasında mübahisələr olurdu. Milis rəisi «məğlub» edildiyi zaman pərt olurdu. Prokurorun qarşısında olan «qəti imkan tədbiri»nə baxdım. Onun üstündə prokurorun imzasından əlavə nə isə yazılmışdı. Rəisin pərtliyi, söz yox, prokurorun xülasəsi ilə bağlı idi. «Bəlkə, «Danqa»nın həbsə alınmasına prokuror sanksiya verməyib?» Heç nə başa düşə bilmirdim. Birdən ağlıma belə sual gəldi: «Prokuror Ələddin Qaşqayla usta Balamirzəni otağına niyə dəvət eləsin?»

Bu vaxt prokuror Balamirzə kişiyə dedi:

– Balamirzə kişi, bəlkə, rəislə mübahisəmizə siz yekun vurasınız. Söhbət Güloğlan haqqında gedir. Bu barədə sizinlə söhbətimiz olub, məsələdən xəbərdarsınız.

Balamirzə bir qədər dinmədi. Elə bil fikirləşirdi prokurora necə cavab versin.

– Xəbərdaram, bəli. Ancaq, Hekayət xanım, qarşımda çox çətin vəzifə qoyursunuz.

– Nə mənada?

– Bir tərəfimdə prokuror, bir tərəfimdə müstəntiqlər. Belə şəraitdə mənim fikrimi, münasibətimi bilmək istəyirsiniz. Bu məgər asan məsələdir? Sadıq Rzayeviçin beləcə mülayim-mülayim mənə zənd eləməyinə baxmayın. Kinli adamdır. Sadıq Rzayeviçi yaxşı tanıyıram. İxtiyar Murtuzayev yoldaş da Sadıq Rzayeviçdən geri qalmır. Bir az da xoşlayır ki, onun dediyini təsdiq edəsən.

Balamirzə neftçi idi. Təqaüd vaxtı çatmışdı, amma təqaüdə getməmişdi. «Təqaüddən acığım gəlir, – deyirdi. – Kişi həmişə işdə-gücdə olmalıdır».

Balamirzənin prokurorluqla əlaqəsi təzə deyildi. Hekayət xanım gələndən sonra bu, xeyli artmışdı. Çox şeylərdə

prokuror Balamirzəni çağırıb onunla söhbət edirdi və məsləhətləşirdi.

Balamirzə kişinin zarafatı otaqdakı ağırlığı xeyli azaltdı.

Prokurorun Güloğlanı həbs etmək barədə milis rəisi Sadıq Rzayeviçin, müstəntiq İxtiyar Murtuzayevin təkidlərini nəzərə almaması mənim üçün yeni və təəccüblü deyildi. Balamirzə prokurorun Güloğlanı həbsə almaq haqqında etirazını biləndən sonra nə üçün prokurorluğa çağırıldığını başa düşdü. Ələddin Qaşqayın razılıq bildirən nəzərləri ilə ustanın nəzərləri birləşdi. Güloğlan usta Balamirzə ilə getməliydi.

İş vaxtından xeyli keçmiş idarədən çıxdıq. Hava yaxşı idi. Nə isti vardı, nə soyuq. Xəzri son dərəcə mülayim əsirdi. Elə bil şəhəri beşiyə qoyub yırğalayırdılar. Xeyli dinməz-söyləməz getdik. Yanımızdan ötənlərdən dönüb arxamızca baxanlar olurdu. Onların dediklərini eşidirdik:

– Eynəkli prokurordur. Gördün?

«Eynəkli prokurordur» sözünü eşidəndə həmişə biz gülürdük. İndi isə dinməz-söyləməz gedirdik. Prokuror yalnız hərdən məndən bir söz xəbər alırdı. Cavab verirdim. Yenə dinməz gedirdik.

– Çinarə?

– Nə buyurursunuz, Hekayət xanım?

– Danqa Güloğlanın haqqında, səncə, düz hərəkət elədim?

– Mənim ürəyimdən oldu, Hekayət xanım.

– Sadıq Rzayeviçi yenə incik saldıq...

– Bunun eybi yoxdur, Hekayət xanım.

– Doğrudur... Bunun eybi yoxdur...

Gedirdik. Prokurorun başında fikirlər dolanırdı. Səhərki düşüncələrinin üstünə gün ərzində nə qədər düşüncələr gəlmişdi. Şeyda, Şəmistan, onların dörd uşağı... Onlar hamısı insandır...

Danqa Güloğlanı həbsə almaqla iş tamam olurdumu? Güloğlan həbsdə tərbiyə oluna biləcəkdimi? Güloğlan bu günə kimi küçənin o tərəfinə keçə bilməyən bir körpənin, bir qocanın əlindən tutmuşdumu? İş üstündə milis nəfərini təhqir etmişdi. Əslində Sadıq Rzayeviç də haqlıdır: «Hekayət xanım, əldə edilən dəlillər göstərir ki, Danqa Güloğlan azadlıqda qala bilməz! Mən onun həbsə alınmasına imza atmışam».

«Prokuror Hekayət xanım bizim komsomol komitəsinin ünvanına heç bir söz demədi. Ancaq biz günahlarımızı başa düşürük və heç vədə ört-basdır eləmək fikrində deyilik. Danqa Güloğlan bizim komsomol komitəsinin ezamiyyəti ilə Riqaya, Özbəkistana, bir neçə başqa şəhərə getmişdir. Bu işdə yaradıcı orqanlarımızın da günahı az deyil. Bu, onların öz işləridir. Danqa Güloğlanın ezamiyyət vərəqinə şəxsən mən – Ələddin Qaşqay qol çəkmişəm. Təsəvvür edirəm, Güloğlanı tanıyanlar ünvanımıza nələr deyirmiş və deyirlər. Bizi bağışlamaq olarmı? Yox! Mən prokurorun verdiyi təklifi müdafiə edirəm. Aydındır ki, prokuror bizsiz də təklifini həyata keçirə bilərdi. Bunun üçün prokurorun ixtiyarı vardı. Bizi bura dəvət eləməklə həm də hər birimizin günahını son dərəcə mədəni yolla bizə xatırladır. Bunu başa düşmək lazımdı. İstintaqdan aydın olur ki, həbsxanadan qayıdandan sonra, institutu buraxıb tüfeyli həyat keçirən bu şəxs neçə illər bizim rayonda birinci milis bölməsinin əhatə elədiyi sahədə yaşamışdır. Nə üçün sahə milisi bir dəfə Danqa Güloğlanın kim olduğunu özündən, yaxud qaldığı evin sahibindən xəbər almamışdır? Danqa Güloğlanın məsələsi ciddi məsələdir. Bu işdə dələduzluqdan tutmuş, fərariliyə qədər var. Nə üçün biz səhvlərimizi etiraf edə bilmirik.

Prokuror Danqa Güloğlanı Balamirzənin «himayəsinə» verir. Sakit düşünək: «Danqa» həbsxanaya gedəcək, Şeyda

oğlu buraxılanadək onun arxasınca hərlənəcək. Yemək daşıyacaq, pul daşıyacaq. Danqa Güloğlan anası Şeydanı məharətlə tilsimə salıb. «Danqa» mahiyyət etibarilə, yenidən müftə yeyib-yatacaq. «Danqa» usta Balamirzənin əlinin altında tərbiyə olunmalıdır. Neftçilərimizin əmək yolu gözəl məktəbdir. Xəzərin tüğyanı, buz bağlayan polad dirəklər qoy «Danqa»nı tərbiyə etsin. O, gözləri ilə görməlidir ki, yaşadığı həyatı kimlər yaradır, necə yaradır? Qoy görsün ki, o, insanlar üçün heç nə etməyib, insanlar isə onu tərbiyə edir. O bizim doğma milisimizi təhqir edir. Milis isə «Danqa»nı tərbiyə edir».

Prokurorla yanaşı gedirdim. Mən prokurorla yol gedəndə, prokurorla durub-oturanda elə bilirəm dünya yüngülləşir, dərdlər azalır, ümidlər çoxalır.

Prokurorla gedirdik. Ara-sıra söz xəbər alırdı. Düşüncələrimdən aralanıb cavab verirdim. Yenə dinməz gedirdik. Güləbətini görürdüm.

– Çinarə...

– Nə buyurursan, Hekayət xanım?

– Bilirsən qəssab Dadaşbala nəyə görə şlyapalı adamı «kişi» hesab etməyib, «Sən də özünü kişi hesab eləyirsən?», – deyib? Qəssab bilir ki, qarşısında dayanan adamın onun qədər pulu yoxdur. Bilirsən, qəssab Dadaşbala Güləbətinin pullarını nəyə görə yerə çırpır?

– Kağız pul olmadığından əsəbiləşib, Hekayət xanım.

– Ola bilər. Axı qəssablara xırda pul da lazımdır. Alıcıya qalıq pulu qaytarırlar.

– Düz deyirsiniz, Hekayət xanım. Amma Dadaşbala xırda pulu pul hesab eləmir. Əlli qəpik qaytarmalı olanda bir tikə əti atır tərəziyə, götürüb tullayır alıcının zənbilinə.

– Alıcı nə üçün hörmətsiz hərəkətə etiraz eləmir?

– Üzr istəyirəm, Dadaşbala həyasız adamdır, Hekayət xanım, ona baş qoşmaq istəmirlər. Qəssabı qudurdan alıcılar da var.

– Nə mənada qudurdan?

– Başa düşürəm səni... «Qəssabbaşı»... Bu adı, görəsən, Dadaşbalaya kim verib?

Mən cavab verə bilmirdim. Ona görə ki, çox yerdə qəssab Dadaşbala ilə Zəminzadənin adını bir çəkirdilər: «Dadaşbala Zəminzadənin səbəbinə «Qəssabbaşı olub...» Bu sözlər yuxudan sonra mənə daha qorxulu gəlirdi. Yaxşı ki, otaqda prokuror atası haqqında başqa söz demədi. Doğrudur, bu məndən ötrü tam təsəlli deyildir. Qarşıda isə ananın dedikləri, dolu qovluq, qovluğu qoyub getmiş qadın dururdu. Bütün bunlar necə olacaq? Bütün bunlar prokuror üçün nə qədər ağır yük idi!

Gedirdik. Prokurorun nəzərindən qabağımızdan keçib gedən uşaq da qaçmırdı. Divara söykənmiş sərxoşa baxdığımızın üstündən aylar keçirdi, prokuror sərxoşluqla əlaqədar həmin şəxsi xatırlayıb deyirdi: «Üzündəki şiş dəhşətli idi».

Gedirdik. Prokuror mənə suallar verirdi. İlk baxışda elə təsir bağışlaya bilər ki, suallarının bir-biri ilə əlaqəsi yoxdur. Belə təsir prokurorun həyatında baş verən hadisələrə üzdən yanaşmağın nəticəsində yarana bilər. Odur ki, mən prokuroru diqqətlə, düşünə-düşünə dinləyirdim.

– Çinarə, – deyə prokuror üzünü mənə tutmadan dilləndi, – sən bilirsən ki, əmimdən nə qədər xoşu gəlməyən var?

– Əlbəttə, bilirəm.

– Axı nə üçün belədir, Çinarə?

– ...Çünki həyatı çoxuna qəribə görünür. Axı o, heç kəsə bənzəməyən adamdır.

– Ağıllı qızsan!.. Ağıllı!

Biz gedirdik. Şəhərə qaranlıq çökürdü. İşıqlar yandıqca qaranlığı bizdən uzaqlaşdırırdı. Prokuror addımlarını yavaşıtdı, sonra dayandı. Üzünü mənə tutdu, gözlərimin içinə baxa-baxa dedi:

– Yorulmamısan?

– Qətiyyən, Hekayət xanım.

– Bir yerə gedəcəyik.

Haraya gedəcəyimizi mən prokurordan xəbər almırdım. Buna görə prokuror hara gedəcəyimizi özü dedi.

– Şəhərin dağlıq hissəsinə. Mən Dadaşbalanın evini görmək istəyirəm.

Dadaşbalanın evinə baxıb qayıdanda şəhərdə gediş-gəliş seyrəlmişdi. Maşınlar azaldığından küçələr geniş görünürdü. Elə bil hava da təmizlənmişdi.

Dadaşbala şəhərin şimal hissəsində yaşayırdı. Yaşadığı hissədə yeni evlər tikilirdi. Dadaşbalanın tikdiyi evə söykək köhnə evlər qalırdı. Bu evləri ev sahibləri özləri tikmişdilər. Hərə istədiyi kimi məhəllələr əmələ gətirmişdi. Birinci, ikinci, üçüncü... onuncu, on birinci məhəllə. Dadaşbala bu məhəllənin birində, üçüncü məhəllənin girəcəyində olan mülkdə yaşayırdı. Evi ikimərtəbəli idi.

Biz kənarda gəzinə-gəzinə Dadaşbalanın mülkünə baxırdıq. Dadaşbalanın imarəti daş hasara alınmışdı. Evin bir tərəfi təpə olduğundan həyətin içərisi görünürdü. Həyətdə hasar boyu yastı daş evlər vardı. Həyətə mərmər döşənmişdi. İşıq düşən yerlər parıldayırdı. Ortada keçmiş abidələri xatırladan tikinti gördük. «Abidə» başdan-başa firuzəyi rəngdəydi, hər tərəfində su kranları vardı. Dadaşbala həyətində kəhriz düzəltdirmişdi.

Bizə yaxınlaşan adam görəndə evdən aralanırdıq, heç nə hiss etdirmədən qayıdıb təpəyə qalxırdıq. Hasarın qa-

pısı açıldı. Biz bu qapını görməmişdik, oraya işıq düşmədiyindən qaranlıq idi. Elə bil qapıdan otaqların içərisinə siqnallar varmış, qapının açılması ilə otaqlardan adamların bir neçəsinin çıxıb pillələrlə aşağı endiyini, bir neçəsinin aynabəndin pəncərələrini açıb başlarını çıxarıb qapıya baxdıqlarını gördük. Uşaq böyüyə, böyük uşağa qarışdı: «Dadaşım gəldi!..»

Dadaşbala iki adam yoğunluğunda idi. Həyətə girən kimi gözü təpəyə sataşdı, bizi aldı. «Ayıq adamdır». Təpədən bir addım atmışdıq ki, iki oğlan qabağımızı kəsdi:

– Kimi istəyirsiniz? – deyə biri xəbər aldı. Hiss edirdik ki, Dadaşbala və evin başqa sakinləri durduqları yerdə dayanıb səslərini çıxarmadan qulaq asırlar ki, suallara nə cavab veriləcək.

– Yol gedənik, – deyə mən prokurordan qabaq dilləndim.

– Bura yoldur?

Başqa bir nəfər bizi sorğuya tutanı kənara itələyib xeyli yumşaq səslə soruşdu:

– Bacı, tanış axtarırsınız, kömək edə bilərik.

Bu vaxt Dadaşbalanın yanımızda dayandığını gördük, onun haradan, necə gəldiyi haqda yol boyu prokurorla hey söhbət elədik. Dadaşbalanın evindən çıxanlar elə bil yerdən peyda olurdular.

Prokuror təmkinli idi. Mən qorxurdum prokurora başqa söz desinlər. Dadaşbala haqqında çox eşitmişdik. Bilirdim ki, gecə Dadaşbalanın yaşadığı evin həndəvərinə dolanmaq yaxşı nəticə verməz. Dadaşbala mənə və prokurora diqqətlə baxdı, oğlanları geri itələdi.

– Allaha and olsun, gözlərimə inana bilmirəm, – dedi, – siz Hekayət xanımsınız, sən də Çinarəsən. Doğrudur? Gözlərim məni aldatmayıb. İçəri buyurun! Mənim evimin

ətrafında görünəndən heç vədə xəbər almamışıq nə istəyir? Bunlar qanmaz uşaqlardı. Bir kəlmə söz deməyəcəksiniz. İçəri girəcəyik, vəssalam! Allaha and olsun, ayrı söhbət ola bilməz! A uşaq, qaçın həyətə!

Bizim həyətə girməyimizlə qara qoyunun boğazına bıçaq çəkilməyi bir oldu. Qan fışqırdı. Qoyun fınxırıb çırpındı, oğlan sağ dizini qoyunun çiyninə qoyub basdı.

Gördüyümüz qapıların hərəsinin qabağında nəhəng, hər biri bir dam boyda it bağlanmışdı. Elə bilirdim itlərin mühasirəsindəyik. Prokurorun arxasında dayanmışdım. Belə yerlərdə mən prokurorun arxasından yarım addım da yana durmurdum.

Biz həyətin ortasında idik. Zəncirdəki dörd it səssiz-küysüz dal ayaqlarının üstünə qalxıb biz tərəfə dartınırdı. İtlər bağlanan zəncirlərin hərəsi bilək yoğunluğunda idi. Buna baxmayaraq, mənə elə gəlirdi itlər bu saat zəncirləri qırıb üstümüzə cumacaq. İtlər dartınırdılar, qana doğru yox, bizə doğru dartınırdılar.

– Yuxarı qalxın. – Qəssab Dadaşbala qolunu uzadıb, qalın ətli əlini açdı, pillələri göstərdi. Yanında dayanan adamı qulağının üstündən ağır sillə ilə vurdu. – İt küçüyü, səni mən nə vaxt adam eləyəcəyəm? Səni qurban eləyirəm qonaqlara. Sən mənim qapıma gələn adama yol göstərirsən? Bu saat qonaqlardan üzr istə!

Dadaşbalanın oğlu irəli gələndə prokuror onu dayandırdı:

– Heç bir üzrxahlıq lazım deyil, – dedi. – Siz bizə artıq-əskik heç nə deməmisiniz.

Dadaşbalanın evindən qayıdanda Dadaşbalanın oğluna vurduğu sillə qulaqlarımda səslənirdi. Qəssabın bu hərəkəti prokurora pis təsir eləmişdi. Dadaşbalanın silləsi çox şey deyirdi: qəssabın pisinə gələn o idi ki, nəyə görə «eynəkli qızı» görən kimi hər şeyi anlamayıb? Məgər onun

şəhərdən xəbəri yoxdur? Xəbəri yoxdur ki, «eynəkli prokuror» Əzrail olub düşüb adamların üstünə? Belə maymaqlıqla oğlu Dadaşbala ola bilərmi? Şərt rəqibə ilk silləni vurmaq deyil, sillə hər yerdə adama qələbə qazandırmır. Elə yer var silləni dillə, hörmət-ehtiramla əvəz etmək gərəkdir. Çörəklə, duzla əvəz eləmək lazımdır! Yol göstərmək yox, evə, yuxarı başa dəvət etmək gərəkdir.

Pillələri qalxıb enli, uzun aynabəndə daxil olanda itlər tərəfə baxdım. İtlər daha dartınmırdılar. Şöngüyüb dilləri ilə ağızlarının yanlarını yalayırdılar. Amma bizi gözdən qoymurdular.

Dadaşbalanın otaqlarını uzun dəhliz iki yerə ayırırdı. Otaqların bəzilərinin qapısı örtülü olduğundan içəriləri görünmürdü. Qapılar oyma naxışlı idi. Təzə binaların otaqlarında mən belə qapılara rast gəlməmişdim.

Prokurorla belə yerlərə gedəndə mən hər şeyə diqqət verirəm. Bəzən prokurorun başı adamlara, hadisələrə qarışırdı. Ətrafın təsviri, əşyaların görkəmi və quruluşu sonra, işin gedişində prokurora lazım olurdu.

Müxtəlif heyvanların başları qapılara elə nəqş olunmuşdu ki, elə bil canlı idilər. Dəhlizin hansı tərəfində dayanırdıqsa, başlar gözlərini bizim səmtə çevirir, tanış olmayan, çağırılmamış qonaqlara mat-mat baxırdılar.

Dadaşbalanın həyat yoldaşı özü kimi ətli-canlı adam idi. Dişlərinin əksəri qızıl idi. İşıq altında bizə yuxarı çıxdığımız üçün dil-ağız, razılıq elədikcə, dişlərinin şöləsi yumru çənəsinə, qalın dodaqlarının ətrafına düşürdü. Barmaqlarını iri qaşlı üzüklər bəzəmişdi. Ailə üzvlərinin – kiçik qız uşaqlarından başlamış qoyun kəsənə qədər, hamısının barmağında üzük vardı.

Qadın gümrah və şən idi. Qabağa düşüb bizi dəhlizin yuxarı tərəfinə apardı. Sağımızdakı qapı taybatay açıq idi.

İçəri baxanda gözlərimizi qapadıq. Böyük zal üç yerdən səkkiz şamlıq çilçıraqla işıqlandırılmışdı. İçəri girəndə bir müddət heç nə görə bilmədik. Gözlərimiz işığa alışandan sonra ucsuz-bucaqsız otağın içərisini görməyə başladıq. Sonra öyrəndik ki, Dadaşbala bu zalı məxsusi, uşaqlarına toy eləmək üçün tikibdir. Toy etmək üçün saraylara köç etməyi xoşlamır.

Ev sahibəsi bayıra çıxmaq istəyəndə prokuror ondan telefonun işləyib-işləmədiyini xəbər aldı, icazə istədi ki, zəng vursun. Ev sahibəsi əvvəl duruxdu, sonra:

– Buyurun, – dedi. – Amma sizi tezliklə heç yerə buraxan deyiləm. Göydən əlimizə düşmüş qonaqlarsınız. Haraya zəng vurmaq istəyirsiniz ki?

Prokuror ev sahibəsinin ustalıqla verdiyi «Haraya zəng vurmaq istəyirsiniz?» sualının mənasını anladı, dedi ki, elə bir yer deyil, müstəntiq idarədə onu gözləyəcək, gecikə bilərik.

Ev sahibəsi bizim getməyimizlə razılaşmayacağını bir də bildirib otaqdan çıxdı. Prokuror zəng vurub sürücüyə qəssabın ünvanını verdi və on dəqiqədən sonra qapıda olmasını tapşırdı. Dəstək yerinə qoyulanda dəhlizdən asta addım səsləri eşitdik, prokuror işarə ilə mənə dedi:

– Danışığımıza qulaq verirlərmiş.

Az vaxtda zalda bir-birinə birləşdirilmiş stollar yeməkiçməklə yükləndi. Divar boyu dörd bufet yan-yana qoyulmuşdu. Hər bufetə iki dəstdən ibarət parıldayan nahar servizi düzülmüşdü. Hər dəst serviz bir rəngdə idi. Bufetlərin rəfləri ağac, metal qablarla zəngin idi. Gözəl büllur qablar vardı. Hər şey elə bil alışıb-yanırdı. Döşəməyə salınmış İran xalıları xüsusi zövqlə seçilib alınmışdı. Yerdən qoyulmuş qulplu güldanlar, təxminən, yetmiş santimetr hündürlükdə idi. Güldanlarda ev şəraitində açan və çox

yaşayan güllər əkilmişdi. Dadaşbala deyirdi ki, bütün il boyu «küplərdə» beləcə ağ, qırmızı, sarı güllər olur. Divarda rəssam işləri vardı. Bu işlər Dadaşbalanın sənətini nümayiş etdirirdi. Rəsmlər yağlı boyalarla işlənmişdi. Rəssam bir tərəfdə Dadaşbalanı işdə təsvir eləmişdi: qəssab dükanı, kəsilib soyulmuş, ayaqlarından asılmış qoyunlar. Dükanın ortasında kötük görünürdü. Qəssab baltasının ağzı kötüyə ilişib qalmışdı. Dadaşbalanın bir əli baltanın sapındadır. O, baltanı kötükdən çəkib bütöv cəmdəkləri doğramalı, alıcıları yola salmalıdır. Lakip qəssab tələsmir. O, qürurludur. Sahibdir. Bir vaxt diri olan qoyunlar qəssabın əli ilə kəsilmişdir. Bir-birinin arxasınca müştərilər dayanıb. Müştərilər getdikcə çoxalır, növbə yaranır, qatar-qatar. Qəssab növbəyə əhəmiyyət vermir. Tələsmədən əlini baltadan götürür, papiros eşir, yandırır, kibritin çöpünü dükanın döşəməsinə atır. Ağzında papiros yenidən cəmdəklərə yaxınlaşır. Bir-bir cəmdəkləri əlləşdirir. Əlini çəkir. Səbirlə papirosu tüstülədir. «Qatar» uzanır. Qəssaba heç kim söz demir. Çünki Dadaşbala «qəssabbaşı»dır...

Kənarda bir topa adam dayanıb. Bunlar qəssab Dadaşbalanın ailəsinin üzvləridir. Boyunlarından dörd-beş dolama qızıl zəncirlər sallanır. Qadın əri Dadaşbalanı göstərir, nə isə övladlarına deyir, topa adamlar gülüşür.

«Qəssab Dadaşbalanın ağır və böyük zəhmətinə hörmət edin. Onu hövsələdən çıxarmayın». Bu sözlər elə yazılmışdır ki, elə bil hərəsi bir qoçun vurulub ayaqlar altına salınmış başıdır.

Divardakı başqa bir rəsmdə Dadaşbala işdən sonra təsvir olunurdu. Ailə Dadaşbalanın yolunu gözləyir. Qapı açılır, ailə üzvləri aşağı tökülüb qəssabı pillələrlə yuxarı çıxardırlar. Hər şey «qəssabbaşı»nı gözləyir. Qoyun, quzu, camış, inək, keçi başları sahibə ehtiramla baxırlar. Dadaş-

bala gülümsəyir, onun güldüyünü həyətdə itlər də hiss edib ayaqlarına sarılaraq şırvanırlar.

Divardan gözlərimizi çəkəndə arxamızda Dadaşbalanın dayanıb gülümsədiyini gördük. O bizi stola dəvət edəndə maşın siqnalı eşidildi. Dadaşbala dərhal ayağa qalxdı. Qapıya tərəf bir-iki addım atıb geri, bizim yanımıza qayıtdı. Ailə üzvlərinin hamısı içəri girdilər, gözlərini üzümüzə dikib dayandılar.

– Hekayət xanım, nə eləmək fikrindəsiniz? Olmaya mənim evimdə çörək kəsmək fikriniz yoxdur? – Qəssab üzünü ailə üzvlərinə tutdu: – Çıxın bayıra!

Ev sahibəsi qapını çıxanların arxasınca örtdü, gəlib əri ilə yanaşı dayandı:

– Hər şey bir yana, – deyə qəssab sözünə davam etdi, – məni biabır edərsiniz. Ayıbdır. Uşaqlarım nə fikirləşərlər? İcazə verin şoferə deyək, tələsməyək.

Ev sahibəsi Hekayət xanımın əllərindən yapışdı:

– Gözlərinə qurban olum, sizin belə gəlib-getməniz bizi xar edər. Qonum-qonşu var. Bura kənd kimidir. Hamı bir-birini tanıyır. Dadaşbalanın adı, xətir-hörməti var. Elə düşünməyin ki, sizə layiq adamlar deyilik. – Sahibə Hekayət xanımın əllərini döşünə apardı, sinəsinə sıxdı. – Getmə, yaxşı iş olmaz. Sən ki bizi tanıyırsan.

İkinci siqnal eşidildi.

Dadaşbala artıq bilirdi ki, prokuror oturmayacaq, onun evində çörək kəsməyəcək. Onun alnına dönə-dönə tər gəldi. Narazı halda aramla dedi:

– Mənim evimdə çox prokurorlar çörək kəsib. Qəssab Dadaşbala yaramaz adam olsaydı, sənin atan Zəminzadə ilə illərin, ağlı-qaralı günlərin dostu olmazdı. Sən bu boyda qız idin. Yarım metr boyun vardı. Mən səni qucağıma alıb, sevib-oxşamışam. Üzündən, gözlərindən öpmüşəm. Böyü-

dün. Prokuror oldun. Nə məqsədlə evimə gəldin, bilmədim. İncimə. Dadaşbala gedənin ətəyindən tutub yalvarmayıb. Deməyib getmə. Gedənin üzünə qapını bağlamayıb.

Maşına oturub Dadaşbalanın qapısından azca uzaqlaşanda mən dönüb arxaya baxdım. Bir topa adam hələ də Dadaşbalanın qapısında dayanmışdı. Dadaşbala özü görünmürdü.

Maşında yenə də xeyli dinib-danışmadan getdik.

Düşüncələrim qalaq-qalaq olurdu. Hamısı da prokurorun həyatı ilə, onun taleyi ilə bərk-bərk bağlı idi. O bütün günü nahar etməmişdi. Onun hələ üzündən, gözlərindən körpəlik nişanələri çəkilməmişdi. Mən bütün hiss-duyğularımla sevdiyim bu «körpə» qızın xarici görkəmini, azacıq uzunsov, dərisi nazik üzünü, şəffaf damcı kimi aydın görünən gözlərini, Gülsabah xala demişkən, «şitliyi» tutanda güldüyü zaman prokuror olduğunu unudan Hekayət xanımın xarici görünüşünü sizə təsvir etmirəm. Siz öz qəlbinizdə Hekayəti təsvir edin. Onu qəlbiniz duyduğu, oxşadığı və oxşatdığı kimi gözlərinizin qabağına gətirin. Onda siz mehriban, mülayim, sevimli bir qız görəcəksiniz. Bəlkə, öz-özünüzə sual da verəcəksiniz: «Bu «bir tikə» qız yəni prokurordur?»

Mən Hekayətin gecə gördüyü yuxu haqqında düşünürdüm. Anası haqqında düşünürdüm. Düşünürdüm ki, yuxusunda gördüyü anasının adını işdə bir dəfə dilinə gətirmədi. Mən yuxuya girən ananın taleyini düşünürdüm. O, nə üçün özünü vurub? Vurubmu? Sual çözələnirdi. Gözlərimin qarşısına «mücrü» gəlirdi. Prokurorun seyfə qoyub açarladığı, içərisi kağızla dolu olan qovluq gəlirdi.

Mən tez yatmağı xoşlamıram. İşdə nə qədər yorulsam da, yenə tez yatmıram. Yatağa girməyim üçün saat on iki tamam olub, gecə birə beş-on dəqiqə işləməlidir. Bundan

sonra gün ərzində baş verən hadisələri başımda dolandırır, sonrasa bir adam haqqında düşünürəm. Bu, prokuror Hekayət xanımdır.

Prokurorun gülüşləri, baxışları bütün incəlikləri ilə gözlərimin qabağına gəlir. O tərəf-bu tərəfimə çevrilirəm, azacıq soyuq olanda büzüşüb yorğana bürünürəm, yenə prokuroru düşünürəm. Günlər keçdikcə mənim prokuror haqqında düşüncələrim azalmır, əksinə, çoxalır. Anam mənə deyir ki, qabaqlar tez yuxuya gedirdim. Bəs indi səbəb nədir ki, gecə keçir, mən hələ oyaq oluram? Yuxuya gedə bilməyən vaxtlarda elə paltarlı, yanıma uzanıb məni qucaqlayırdı. Əlini kürəklərimdə gəzdirirdi: «Səhər tezdən duracaqsan, niyə yatmırsan?»

Mən anamdan heç nəyi gizlətmirdim. Ancaq prokurorla atası Zəminzadə arasında əmələ gələn, getdikcə kəskinləşməkdə olan məsələni ürək eləyib danışa bilmirdim.

Zəminzadə qızı Hekayəti hədsiz ata məhəbbəti ilə sevirdi. Hekayətin etirazına baxmayaraq, Zəminzadə qızının birillik prokurorluq fəaliyyətini qeyd eləməyə hazırlaşırdı. Qorxuram Zəminzadənin hazırlaşdığı məclis ərəfəsində ortalığa bir şey çıxa. Bu fikrimi anama dedim. Üzümə diqqətlə baxmasından bildim ki, nə düşündüklərim ona aydındır.

Zəminzadəyə əl bulamaq asan məsələ deyildi. Bunu mən bilirdim. Zəminzadəyə hekayətin özündən yaxşı bələd idim. İxtiyar Murtuzayev çətin adamdır. İxtiyar Murtuzayev həm də Zəminzadənin sadiq dostu idi. Düşündükcə gözlərimin qarşısına qorxulu, bulanıq çay burulğanı gəlirdi. Allah eləməsin, prokuror bu burulğana düşsün. Bu burulğandan çıxmaq qeyri-mümkündür.

Prokurorun yuxusundan, su istəyən qadının onun evinə gəlib-getməsindən sonra fikirlər məni rahat qoymurdu.

Bəlkə, prokurora hər şeyi danışım? Ürəyimdə nə var hamısını açıb deyim? Prokuror əmisi Tomralın tez gəlməsini istəyir. Mən də istəyirəm Tomral tez gəlsin.

Yataq bəzən mənim üçün şirin, bəzən xoşagəlməz olurdu. Axır yuxuya gedirdim. Fikirlərim, düşüncələrim tükənmir, sabahkı gecəyə qalırdı. Sabahkı gecələrdə Güləbətini də düşünürdüm.

Güləbətin Şamaxı şəhərinin uzaq, cəmi otuz təsərrüfatı olan Səxavət kəndində anadan olmuşdu. On üç-on dörd yaşına çatar-çatmaz Ağasəfər Güləbətini doğma ailəsindən qoparıb, şəhərə, öz ailəsinin içərisinə gətirmişdi. Hansı məqsədlə? Hansı tamahla? Hansı vasitə ilə? Necə olmuşdur ailə öz qızının şəhərə, Ağasəfərin evinə gəlməsinə razılıq vermişdi?

Səxavət kəndi Səxavət adlı şəxsin adı ilə bağlı idi. Məşhur Şamaxı zəlzələsindən sonra ailəsinin yarısını itirən Səxavət köçüb, şəhərdən kənar, üç dağın ətəyində, dörd armud ağacının dibində özünə yurd salır. Səxavət çölü, təbiəti sevən adam olur. Şamaxı zəlzələsində başına gələnləri özünə ömürlük dərd eləmir, üç dağın ətəyində, armud ağaclarına söykək ev tikir. Salamat qalan heyvanları səhər dağların döşünə ötürür. Heyvanlar döşlərə səpələnib otlayır, onların dallarınca uşaqlar qaçır, səsləri dağlara-düzlərə düşür. Evdən ocaq tüstüsü qalxıb ətrafa, meşələrə yayılır. Üç dağın ətəyində həyat əmələ gəlir.

Səxavətin şəhəri tərk eləyib harada məskən saldığını soraqlaşıb öyrənən yaxın adamları bir-bir köçüb Səxavət yurduna gəlirlər. Səxavət ev-eşik tikməkdə gələnlərə kömək edir və kənd böyüməyə başlayır.

Səxavət kəndində dörd sinifli ibtidai məktəb vardı. Kənd sakinlərindən neçəsi ali təhsil almış, elmlər namizədi olmuşdur. Bakı, Şamaxı şəhərlərində müxtəlif peşələrdə işləyirdilər.

Ağasəfər Səxavət kəndindən idi. Akademiyanın laboratoriyalarının birində işləyirdi. Bir az keçəndən sonra üç nömrəli texnikumda özünə dərs düzəltmişdi. Ağasəfərin laboratoriyada işləməkdə məqsədi vardı: alim olmaq! Məclislərdə, öz kəndlərinə yolu düşəndə giley-güzar edirdi, onunla işləyən, ona rəhbərlik eləyən alimi tənqid atəşinə tuturdu: «Heç nədən başı çıxmır. Di gəl ki, hökumətdən neçə otaq alıb, altında maşın, Ağasəfərə böyüklük edir! Nə edəsən? Əlacı birtəhər dözüb işləməkdir».

Ağasəfərin dərdinə şərik olanlar tapılırdı:

— Çətindir. Tabe olduğun adam nadan oldu, bundan yaman dərd yoxdur.

Müstəntiqlə söhbətində Ağasəfər özü haqqında demişdi: «Mən gördüyün o bir tikə torpağın, o bir ovuc camaatın, o meşələrin, dağların əli bağlı quluyam. Mən o üç dağın ətəyində ayaqlarıma sarı, acı tikanlar dola-dola qoyun-quzu otarıb bu mərtəbəyə çatmışam. Məni bu mərtəbəyə həmin gördüyün bir tikə kəndin camaatı gətirib çıxarıb. Səncə, mənim borcum nədən ibarətdir? Əlbəttə, camaatıma kömək eləmək, uşaqlarının qayğısına qalmaq! Hümmətin nə az, nə çox, yeddi qızı, bircə oğlu var. On bir baş ailə üzvündən işləyəni Hümmət kişidir. Necə bilirsən, mən belə ailəyə kömək əlimi uzatmasam, kim olardım?..»

Səxavətlilər Ağasəfərə inanmışdılar. Bu inam müstəntiqi məcbur etmişdi ki, Güləbətinin özündən böyük bacısı Anabətinin həyatı ilə maraqlansın.

Hümmət, həyat yoldaşı Hüsniyyə Anabətinə toy eləyib, qırmızı paltarının üstündən ağ örpək salıb gəlin köçürürlər. Səhəri gün kəndin adamları Anabətini solğun paltarda Hümmətin qapısında görürlər. Bütün Səxavət camaatı başını aşağı dikir...

Anabətin nə üçün cəmi bir gecənin gəlini olmuşdu? Nə üçün o geri, atasının evinə qaytarılmışdı?

Ağasəfər Bakıda ali təhsil alandan sonra qarşısına qoyduğu ilk məqsəd bu olmuşdur; kəndə getməyəcək. Şəhərli qızla evlənib, şəhərdə qalacaq. Ağasəfər dediyi kimi etdi. Şükufə adında qızla evləndi. Bir müddət qayınatasının evində qayınatası ilə bir yerdə yaşadı. Sonra əlinə ikigözlü otaq keçirib qayınatasının evindən çıxdı.

Müstəntiq Ağasəfərin şəhərdə az vaxt içərisində mənzillə necə təmin olunması ilə maraqlanmışdı. Ağasəfər evləndiyi qızla şəhərdə gedirmiş. Universitetin müəllimi Rza Şükürlü ilə rastlaşır. Görüşürlər. Məlum olur ki, türk dili mütəxəssisi olan Rza Şükürlü iki il müddətinə Türkiyəyə işləməyə gedir. Ailəsini də özü ilə aparır. Ağasəfər Rza Şükürlünün xarici ölkəyə səfərindən şadlandığını bildirir:

– Məni də siz təbrik edə bilərsiniz, Rza müəllim, mən də evlənmişəm, – deyir. – Xanımımla tanış olun. Doğrudur, siz şəxsən mənə dərs deməmisiniz, mənim ixtisasım başqa idi, ancaq mən həmişə Rza Şükürlüyə bir dilçi kimi qibtə və hörmət eləmişəm.

Rza Şükürlü ilə Ağasəfərin həyat yoldaşı tanış olur.

Ayrılmazdan qabaq Ağasəfər Rza Şükürlüyə deyir:

– Rica edirəm, Türkiyəyə yola düşməzdən qabaq bizdə oturaq. Şükufə xanım sizə hörmət eləmək istəyir.

Rza Şükürlü Ağasəfərin xahişini yerə salmağı özünə layiq bilmir, ev telefonunun nömrəsini Ağasəfərə verir. Onlar görüşüb ayrılandan sonra Ağasəfər üzünü həyat yoldaşı Şükufəyə tutur:

– Səni Rza Şükürlü ilə tanış elədiyim üçün acığın gəlmədi?

– Yox.

Ağasəfərin sarı bığlarının altından dişləri ağarır.

– Şükufə.
– Eşidirəm.
– Girəvəni əldən vermək olmaz.
– Nə girəvəni?
– Şükürlü ailəsi ilə gedir. Otaqları nə ixtiyarı var ki, iki il bağlı saxlasın? Necə bilirsən?

Yol boyu Şükufə Ağasəfərin dedikləri müqabilində dinib bir söz demədi. Amma Şükürlünü evində layiqincə qarşıladı. Lap layiqincə! Şükufə ziyafətdə ərini bir daha tanıdı. Ərinin Rza Şükürlünün qabağında dəsmal çıxarıb ağladığının şahidi oldu. Ağasəfər böyük səhvə yol vermişdi. İndi qayınatasının yanında xəcalətdən başını qaldıra bilmir. Yeyib-içdiyi haramdır. Rza Şükürlü otaqlarını iki il müddətinə ona versə, ərlə-arvadın boynuna ömürlük haqq qoymuş olardı. Evləndikləri gündən bəri bircə dəfə özlərini sərbəst hiss edərlər, üz-üzə oturub dərdləşərlər. Özgə evində övlad saxlamağın dərdindən ora-bura qaçmazlar. İki ildə isə uşaqları olar. Ev sahibinin gəlməyinə bir ay qalmış hara olur-olsun köçər, otaqları sahibi Rza Şükürlüyə təhvil verirlər.

Ağasəfər Rza Şükürlünün mənzilinə belə sahib olmuşdu.

Müstəntiq Güləbətinin doğulduğu kənddən qayıdandan sonra Ağasəfərin evində olmuşdu. Ağasəfər müstəntiqi evinə buraxmaq istəməmiş, müstəntiqin təqdim elədiyi sənədi əlindən alıb, stolun üstünə çırpmışdı:

– Siz nə haqla vətəndaşların rahatlığını pozursunuz, ailə işlərinə qarışırsınız?

Müstəntiq Ağasəfəri sakit etmək istədikdə Ağasəfər səsini qaldırmışdı:

– Mən uşaq deyiləm başıma əl çəkəsiniz. Güləbətin kimdir? Güləbətin mənim ürəyimin bir parçasıdır. Hüm-

mət mənim qohumum, doğmamdır. Nə haqla ailəmin içərisinə soxulmusunuz? Nə haqla məktəbli uşaqlarımı, körpələrimi qorxudub, dəli eləyirsiniz? Nə prokuror-prokuror salmısan? Sənin prokurorunun kim olduğunu Ağasəfər yaxşı bilir. Budur, səni evimə göndərən prokuror Hekayət xanım. Oxu. Gör prokurorun kimdir, necə işlərlə məşğul olur! Elə bilməyin bizim gözümüz bağlıdır, sizin orada nələr elədiyinizdən xəbərimiz yoxdur. Siz oğruları, xuliqanları qanadınızın altına alırsınız, onlara himayəlik edirsiniz! İşlərinizin üstünü ört-basdır eləməkdən ötrü təmiz vətəndaşlara cumursunuz. Nəyə görə Sərxanla Əliqulunu azad edib, bufetçi Simuzəri həbs eləmisiniz? Oğrular isə ortada yeyib, kənarda gəzirlər.

Müstəntiq Ağasəfəri sakitləşdirməyə çalışmışdı:

– Hər şeyi qoyun bir tərəfə. Axı mən sizin qapınıza gəlmişəm. Səbir yaxşı şeydir. Başına dönüm, müsəlman qardaş, vallah-billah, hövsələ yaxşı şeydir. Siz məni özünüzə nahaq düşmən bilirsiniz. Günahınız varsa, məni bayıra çıxarmaqla bu günah yüngülləşəcək? Şükufə bacı, bir iynə gətirin yaxamın düyməsini tikim. Düyməni qırıb, yaxamı açıq qoymusunuz. Belə getsəm, deyərlər, müstəntiq Sakonu haradasa möhkəmcə əzişdiriblər.

Müstəntiq işlə əlaqədar protokolların bir neçəsini imzalayıb tamamlamışdı. İşlə əlaqədar adamlar çağırılmışdı. Prokurorun təklifi ilə müstəntiq dindirməli olduğu adamları içəri dəvət elədi, milis podpolkovniki Sadıq Rzayeviç, baş müstəntiq İxtiyar Murtuzayev prokurorun kabinetində idilər. Rəislə müstəntiq Güləbətinin işi ilə maraqlandıqlarını prokurora söyləmişdilər...

Güləbətin birinci dəfə gördüyümüz kimi deyildi. Elə bil bir az yekəlmişdi. Ətə-qana dolmuşdu. Bir az dilli-dilavər olmuşdu. Prokurorun otağında başını daha aşağı salmırdı.

İçəri şux girdi. Bir-bir oturanların üzünə baxır, gülümsəyirdi. Əynində təzə paltar vardı. Ayaqqabıları, corabları, baş örtüyünə kimi təzə idi. Daranıb sığallanmışdı. Güləbətin iki cür baxırdı: nifrətlə, məhəbbətlə. Üzü məhəbbətə dönəndə nifrət yox olurdu. Üzü nifrətə dönəndə məhəbbətdən əlamət qalmırdı. Güləbətini belə görmək maraqlı idi.

Şükufə ilə Ağasəfər bir-birinə oxşayırdılar. Hər ikisi ucaboy idi. Hər ikisi sarışın idi. Üzləri ətli deyildi. Hər ikisinin gözləri qonur idi. Şükufənin kirpikləri uzun, Ağasəfərin kirpikləri qısa idi. Kirpiklər elə bil oda toxunub ütülmüşdü. Ağasəfərin əllərinin üstündə qəhvəyi çillər görünürdü.

Müstəntiq ilk sualını Şükufəyə verdi:

– Güləbətini kənddən gətirmək fikrini qabaqca kim irəli sürdü? Siz, yoxsa Ağasəfər?

– Ağasəfər.

– Anabətini gətirmişdiniz, Güləbətini niyə gətirdiniz?

– Elə suallar verirsiniz ki, elə bil qəbahət iş-zad tutmuşuq. Ümumiyyətlə, mən bilmək istəyirəm ki, bu sorğu-suallar nədən ötrüdür? Məgər şəhərdə az adam var ki, kənddə olan qohumlarından gətirib yanında saxlayır?

– Siz Güləbətinlə Anabətini qabağınızda işlətmək, uşaqlarınızı yedirib-geyindirmək, gəzdirmək, onları səhərlər məktəbə aparıb, günortalar məktəbdən gətirmək üçün ailəsindən qoparıb gətirmisiniz. Siz bütöv bir ailənin nə işi varsa hamısını Güləbətinlə Anabətinin boynuna qoymusunuz. Bacılar bir-bir sizin evinizi təmizləyib, sizin əyninizdən çıxardığınız çirkli paltarları yuyub, ütüləyiblər. O biri tərəfdən bazara, dükanlara yüyürüblər. Siz səhər naharını yediyiniz zaman onların ixtiyarı olmayıb süfrəyə yaxınlaşsınlar.

– Bunlar bizi istəməyənlərin sözüdür, yoldaş müstəntiq. Mən ölsəm də Güləbətinin, Anabətinin əli ilə yuyulan

paltarı əynimə geymərəm, nə də qoymaram uşaqlarım geysin.

– Nə üçün?

– Onun üçün ki, belələrinə gərək on il hələ paltar yumağı öyrədəsən. Onları evimə ona görə gətirmişəm ki, oxuyub bir adam olsunlar. Pislik eləmişəm?

– Güləbətin məktəb üzü görməyib. Siz ona yalan qiymətlər yazdırmısınız.

– Başa düşmürəm.

– Saxta qiymətlər. Başa düşürsünüz?

– Əsassız danışırsınız. Qiymətlərin düz olub-olmamasını müəyyən etmək üçün məktəbdə sənədlər var.

– Bir halda ki, Güləbətin məktəbin yolunu tanımır, texnikumun harada yerləşdiyini bilmir, hansı sənəddən danışırsınız? Dinmirsiniz. Bəlkə, deyəsiniz nəyə görə Anabətini bir ildən sonra ailəsinə qaytarıb, Güləbətini gətirdiniz?

– Anabətin oxumaq istəmədi. Ona zor edə bilməzdik. Bu gündən mən qoymayacağam bu qız da mənim qapıma ayağını bassın. Prokurorluğun yolunu bilən, evlərinin yolunu da yaxşı bilər.

– Sakit olun. Güləbətin sizə getməyəcək.

– Onu kənddən mən gətirmişəm, mən də aparıb ailəsinə təhvil verməliyəm.

– Narahat olmayın. Güləbətin etibarlı adamların yanındadır. Onun atası Hümmət də, anası Hüsniyyə də şəhərdədir.

– Eybi yoxdur. Gedək, Ağasəfər. Bunun kimisinə hələ paltar da tikib geydirdik. Dur ayağa!

Prokurorun otağında heç kəsin gözləmədiyi hadisə üz verdi. Bir göz qırpımında başlanan hadisə şimşək kimi çaxıb söndü. Qapıya çırpılan ayaqqabının hər tayı bir tərəfə düşüb qaldı. Döşəmədə iki-üç parçaya bölünmüş çit don gördüm.

Şükufə ilə əri prokurorun otağına şux geyimdə daxil olmuşdu. Şükufənin əynində əlvan gülləri olan kremplin don vardı. Onlar qapıdan çıxmaq istəyəndə Güləbətinin atdığı ayaqqabıların bir tayı onun açıq sinəsinə, o biri tayı Ağasəfərin ortasının tükü getmiş kəlləsinə dəydi. Güləbətin başına örtdüyü yaylığı cırıq-cırıq edib döşəməyə atdı.

– Mən məktəbin üzünü də görməmişəm. Siz məni qoymurdunuz məktəbə gedəm. Deyirdiniz: otur yerində! Dörd ilin tamam olmağını gözlə. Diplom alıb hara istəsən, çıxıb gedərsən. Mən belə oxumağı istəmirdim. Siz məni qoymurdunuz ağzımı açıb, bir kəlmə söz deyəm. Siz məni qoymurdunuz evimizə, ata-anama məktub yazam. Mənə özünüz də, uşaqlarınız da gülürdü. Çörək almaqdan bir dəqiqə geçikəndə məni boş otağa salıb qapını bağlayırdınız. Sən Şükufə məni neçə dəfə bağlı qapının arxasında saçlayıb döymüsən. Sən mənə deyirdin ki, mənim anam, atam bütün ixtiyarımı sizə verib. Mən qaçıb getsəm də, anam-atam məni evə buraxmayacaqlar, qalacağam ortalıqda, o zaman siz də mənə yaxın durmayacaqsınız, it kimi öləcəyəm. Anamın mənim üçün göndərdiyi yorğanla balışı gizlədib mənə vermədiniz. Qışın soyuğunda aynabənddə, döşəmənin üstündə yatırdım. Altıma atdığınız döşək deyirdiniz ki, qoca babanızdan qalıb. Mənə gülürdünüz. Döşəyin içərisində yun qalmamışdı. Yunu döşəyin içərisindən çıxarıb stullarınızın üstünə qoymaq üçün döşəkçələr düzəltmişdiniz. Mən babanızın mitilində yatırdım. Üç ildə əynimdən bir don çıxmadı. Uşaqlarınız yeməyib, kürlük eləyəndə üstümə cumurdunuz. Elə bilirdiniz ki, uşaqlarınızın iştahını mən bağlamışam. Mənə deyirdiniz uşaqlar yemək yeyəndə bayıra çıxım, yeyib qurtarana kimi içəri girməyim: gözümü ağızlarına dikirəm. Onlara pis baxıram, iştahlarını qaçırıram. Adımı falabaxan qoymuşdunuz.

Qonşulara deyirdiniz ki, mən gecələr yatmayıb mitilin arasında fala baxıram. Qəbiristanlıqdan torpaq gətirib uşaqlarınız yemək yeyən vaxt göz-göz edib, xörəklərinin içərisinə tökürəm. Pul oğurlayıram. Səhər çörək almağa gedəndə bulka alıb xəlvət yeyirəm. Evimizə yazdığım iki məktubu tapıb gizlətmişdiniz. Dinmirdiniz ki, mən dillənim, məktubun necə olduğunu xəbər alım, düşəsiniz mənim üstümə. Mən isə dinmirdim. Telefona əl uzatsan, əlini biləkdən kəsərik, – deyirdiniz. Neçə dəfə atam zəng vurub mənimlə danışmaq istədi, qoymadınız. Dediniz uşaqlarla şəhərə, kinoya baxmağa gedib. Hansı ki, mən mətbəxdə ayaq üstündə dayanıb gözləyirdim, qorxumdan içəri girmirdim. Uşaqlarınız mətbəxdə məni dövrəyə alır, üzümə baxa-baxa deyirdilər:

– Atanla danışmaq istəyirsən?

– Ananla danışmaq istəyirsən?

Gülürdülər, yanınıza qaçırdılar:

– Ana, qoy gəlsin bir kəlmə danışsın, – deyəndə əlinizi atıb dəstəyin ağzını qapayırdınız ki, səsi eşitməsinlər. Alın bu sizin dünən mənə aldığınız ayaqqabı, bu da baş örtüyünüz, bu da koftanız. Tfu bunlara! Siz mənim bacımı – Anabətini bədbəxt elədiniz. Atamı-anamı el içində rüsvay etdiniz...

Ağasəfər və Şükufə getmişdilər. Prokurorun otağında sükut idi. Sükutu qəfil açılan qapının səsi pozdu. Oturanlar qapı tərəfə baxdılar. Yolda Ağasəfərin ağlına nə gəlmişdisə, geri qayıtmışdı.

Müstəntiq Səməd Məlikov hələ də oturmayıb, qapı tərəfdə dayanmışdı. O, Ağasəfərin içəri girdiyini görən kimi bir neçə addım irəli gəlib, Ağasəfərin yanında dayandı.

Otaqda dinib-danışan yox idi. Ağasəfər Məlikova baxdı. İrəli yeriyib prokurorun stolunun qabağında durdu.

Prokurorla Ağasəfərin nəzərləri bir-birinə dikilmişdi. «Ütülmüş» kirpiklərin altından bir cüt xırda, qonur göz prokurora dirənmişdi. Alt dodağı arı çalmış kimi şişib, aşağı sallanmışdı.

– Demək, bizi bura çağırmısınız ki, ayaqqabıları başımıza çırpdırasınız? – deyə Ağasəfər dilləndi.

Prokurordan cavab almadığını görən Ağasəfər dişlərini yenidən bir-birinə sıxıb, əngini oynatdı:

– Siz xalq müəllimini təhqir elətdirirsiniz? Siz sovet müəllimlərini saxtakar adlandırdınız?

Ağasəfər sağ əlini qaldırıb, şəhadət barmağını silkələdi:

– Siz mənim üstümə şər atmaq istəyirsiniz. Siz Anabətini mənim üzümə dirəndirmək üçün kəndə müstəntiq göndərmisiniz. Baxarıq, xalq müəlliminə şər atmaq necə olur!

Ağasəfər qapıya tərəf döndü, gedib qapının dəstəyindən yapışdı, zərblə çəkdi, özünə çırpıb yerə sərildi. Bədənini döşəməyə döyməyə başladı, qışqırdı:

– Mən dələduz deyiləm! Mən julik deyiləm! Mən xalq müəllimiyəm!

Ağasəfərə yaxın gedən, əl vuran olmadı. Özünü döşəməyə çırpıb qışqırdı, nəhayət, gözlərini yumub, halsız sərələ qaldı.

Prokurorun otağında təşviş olmadı. Podpolkovnik Sadıq Rzayeviçdən başqa döşəmədə sərələ qalmış Ağasəfərə baxan yox idi. Ağasəfər döşəmənin üstündə bu vəziyyətdə az qaldı. Birdən qalxıb qapıdan çıxdı.

Mən açıq qapını örtmək istəyəndə prokuror xahiş elədi ki, Gülsabah xalaya deyim, çay gətirsin. Prokurorun çay istəməyi mənim ürəyimdən oldu. Gülsabah xala əlində çay məhrəbası, dəmlədiyi çayın yanında durmuşdu. Məni görəndə üzümə baxıb xəbər aldı:

– Getdi?

– Getdi.

– Bir də qayıtmasa yaxşıdır.

Gülsabah xala sakitcə qalxdı, dörd stəkan çay tökdü. Prokurorun stəkanını tanıyırdım. Buna baxmayaraq, stəkanı mənə göstərib dedi:

– Qızınkıdır, birdən dəyişik salarsan.

Əlimdə çay dolu stəkanlar içəri girəndə bir nəfərin prokurorun qarşısında dayanıb ona dediyi bu sözləri eşitdim:

– Siz nə haqla cəza orqanında mənim adımı çəkmisiniz?

– ...

– Xahiş eləyirəm cavab verəsiniz. Mən müəllliməyəm, dərsə getməliyəm. Sizin pauzalarınıza vaxt yoxdur. Siz mənim adımı çəkmisiniz, demisiniz o «filankəslə gəzən müəllimə» saxta qiymətlər verir. Birincisi, deyin görüm «gəzmək» nə sözdür, ikincisi, mən kimə saxta qiymətlər vermişəm?

– Siz Nazqızsınız?

– Niyə özünüzü bilməməzliyə qoyursunuz?

– Güləbətin Hümmət qızına ilk saxta qiyməti siz yazmısınız?

– Mənim birinci sualıma cavab verin, sonra keçərik qiymət məsələsinə.

– Bizi Güləbətinə yazdığınız saxta qiymət maraqlandırır.

– Aydındır, məsələni yayındırırsınız.

– Nəyə görə Güləbətin Hümmət qızına saxta qiymət yazmısınız?

– Xahiş edirəm, mənimlə bu tonda danışmayasınız. Siz bilirsiniz mən kiməm?

– Dediniz ki, Nazqızsınız. Ədəbiyyat müəllimi.

– Demək istəyirsiniz ki, məktəbi siz yoxlatdırmısınız?

– Üçüncü dəfə sizə müraciət edirəm, nə səbəbə görə Güləbətin Hümmət qızına saxta qiymət yazıbsınız? Kimin xahişini yerinə yetiribsiniz? Məqsədiniz nə olub?

– Hər halda rüşvət almaq məqsədi güdməmişik. Güləbətinin atasının on bir baş ailəsi var. Hümmət hələ onları saxlasın, qalsın bizə rüşvət verməyi.

– Üç il Güləbətinin qiymət kitabçasına saxta qiymətlər yazıb qol çəkmisiniz, niyə?

– Güləbətin üç nömrəli məktəbin şagirdi olub, oxuyub, qiymət alıb.

– Yaddaşınız necədir?

– Bu nə sözdür? Bəlkə üstümüzə dəli adını da qoyasınız. Yaddaşım da, hafizəm də əla!

– Güləbətin uşaq otağındadır. Onu bir neçə uşaqla buraya çağırtdıracağam. Güləbətini mənə göstərib deməlisiniz ki, neçə il dərs deyib «beş» qiymətlər verdiyiniz şagirdiniz Güləbətin budur.

– Demək, müəllimlə tələbəni üzləşdirirsiniz? Sizin bu hərəkətiniz prokurora yaraşmayan sifətdir.

– Güləbətinin gəlməsini istəmirsiniz?

– İstəmirəm! Sonra?

– Gedə bilərsiniz.

– Siz mənə «gəzmək» sözünü sübut edəcəksiniz!

– Gedin, Nazqız müəllimə!

– Gedirəm. Biləndə ki, siz kiminlə danışmısınız, gec olacaq! Məsləhət görürəm yoxlamanı-filanı qoyasınız bir kənara.

– Yoxlamanı-filanı qoyum bir kənara... Siz belə məsləhət görürsünüz?

– Belə məsləhət görürəm.

Prokurorun sualından sonra Nazqızın üzü dəyişdi, gözləri güldü. Nəzərlərini prokurorun üzündən götürmədi.

– Adamlarınızın kim olduğunu mənə demədiniz.

– Deyərəm.

– Siz söhbətimizdə yoldaşların iştirak eləməsindən narahat olmayın. Əməlli tanışlıq verin, sizi yaxşı tanıyım. Siz demişkən, sonra gec olar.

– Bilirsiniz «o» sizi lap yaxşı tanıyır. Amma...

– Mən «onu» tanımıram?

– Yox, bilirsinizmi «o» burada yaşamır.

– Kənddə olandır?

– Kənddə, haaa! İraq olsun. Mənim kənddə olanla nə haqq-hesabım?

Nazqız xeyli güldü. Sakitləşdi və prokurora dedi:

– Moskvada.

Nazqızın ciddi cavabı və ciddi görünüşü müqabilində prokuror gülümsədi.

– Tanışınız haqqında heç nə demək istəmirsiniz.

– Sonra hər şeyi biləcəksiniz. Bakıya gəlmişdi, sizin haqqınızda ona çox söhbət eləmişəm.

– Mənim haqqımda!

– Bəli, sizin haqqınızda.

Nazqız ərklə prokurora cavab verdi. Sözləri xüsusi vurğularla tələffüz elədi:

– Biz beləyik. Talantlı işçilər haqqında, özü ilə yaxın olmasaq da, yaxşı söz deməkdən çəkinmirik.

– Siz məni az-çox tanıyırsınız?

– Pah, bəs yox?!. Bəs siz nə bilirdiniz? Elə bilirsiniz ki, Nazqız müəllimənin dünyada heç nədən xəbəri yoxdur?

– Bu, yaxşı cəhətdir. Siz mənə yaxşılıq etdiyiniz halda, mən sizə pis olmuşam.

– Nə olsun. Canınız sağ olsun.

– Tanışınız çoxdan Moskvada yaşayır?

– Lap çoxdan. Bilirsiniz azərbaycanca necə pis danışır? Eşitsəniz, gülməkdən özünüzü saxlaya bilməzsiniz.

– Yadırğayıb?

– Deyirəm ki, Qafdan Qarcviç, bu nədir eee!.. Danışmayın, siz Allah, dili lap öldürürsünüz. Gülür. Deyir, gərək bir-iki ay məzuniyyət götürüb gələm, mənə dili yaxşı-yaxşı öyrədəsən. Deyirəm, hə, bircə elə o işim qalmışdı, sizə dil öyrədəcəm. Gələndə sizi tanış edərəm.

– İki ay məzuniyyət götürməkdə, yəqin, yaradıcı yoldaşlardandır?

– Yox, yox!

– Məndən gizlədirsiniz.

– Elə sizin sənətinizə yaxın...

– Başa düşdüm. Dövlət prokurorluğunda...

– Düz tapmısınız.

– Qafdan Qarcviç... Adı, atasının adı elə belədir?

Nazqız güldü.

– Yox, belə deyil, – dedi. – Mən müxtəsərcə belə çağırıram. Özü də gülür. Deyir ki, Nazqız xanım, mənim adımı, atamın adını bu cür ixtisarla heç kim deyə bilməz! Gülürəm, deyirəm nəyə görə adınızı hamı olduğu kimi bilməlidir?..

Prokuror Nazqıza heç nə demədi. Diqqətlə baxdı. Çaylar necə tökülmüşdüsə, elə də qalırdı. Durub çayları təzələmək istəyəndə prokuror işarə elədi ki, lazım deyil.

Deyəsən, Nazqız başa düşürdü ki, prokurora qarşı işlətdiyi fəndləri bəhrə vermədi.

* * *

Telefon zəngi vurulan otaqda bir mən idim, bir prokuror. Prokuror dəstəyi qaldırdı. Danışan Şeyda idi. Görüşə gəlmək istədiyini bildirdi. Bilirdim ki, prokuror acdır. O, hələ nazirliyə getməlidir. Tələsik yemək gətirdim. Prokurorun qabağına qoydum:

– Kim gəlir gəlsin, – dedim, – siz nahar etməyənə qədər içəri buraxan deyiləm!

Anamın hazırlayıb göndərdiyi xörəyi təmiz, çini boşqaba qoydum, çəngəli ona verib dedim:

– Yeyin!

Prokuror etiraz eləmədi, yedi. Çayları təzələdim. Gülsabah xala mənimlə birlikdə prokurorun yanına gəldi.

– Anan ölməsin, sənin tayların qışda küçələrdə oğlanlarla qartopu oynayırlar. Yayda, əyinlərinə əl boyda çit, dənizin qırağından əl çəkmirlər.

Gülsabah xalanın prokurorla söhbəti maraqlı olurdu. Gülsabah xala söhbət edəndə prokuror hey gülürdü. İndi prokuror ağzında tikəsi Gülsabah xalaya məlul-məlul baxırdı. Gülsabah xalanın qəlbində özünə qarşı doğma hisləri duyurdu. Gülsabah xala prokurorun yeməyinə mane olmasın deyə, çoxdan onu görməyən adam kimi zəndlə baxıb getdi. Mənim iştaham yox idi. Qaraltı eləyirdim ki, prokuror xörəyi əməlli yesin. Yeyib qurtardı. Üzünü mənə tutub gülümsədi.

– Yaxşıca yedim.

Deyirlər məhəbbəti, nifrəti insanın gözündə olur. Bəzilərinki isə «içərilərində». Prokurorun məhəbbətlə dolu, aydın gözləri birdən elə solğunlaşırdı, mən baxa bilmirdim.

Şeyda gələnə kimi Ələmdar, qoltuğunda köhnə portfel, gəldi. Papağını çıxarıb arxayın oturdu:

– Görürəm məndən ötrü darıxıbsınız.

Prokurorun elə bil kefi açıldı.

– Bəs nə bilmisiniz, Ələmdar əmi, – dedi. – Siz gələndə bilirik ki, bizə pul verəcəksiniz.

– Görün sizə necə pullar gətirmişəm?! Elə bil bu saat kəsilib. Bu sənin, bu da sənin. Çinarə, qol çək, qızım.

Maarif Nazirliyində çağırılan kollegiyada müstəntiq İxtiyar Murtuzayev, Səməd Məlikov, Sadıq Rzayeviç iştirak

etməli idilər. Kollegiya başlananda respublika prokurorluğunun nümayəndəsi Baratzadəni də gördüm. Kollegiyada bir neçə məsələ həll olunmalı idi. «Qanun və şəxsi məsuliyyət» məsələsinin qaldırılmasına səbəb prokuror idi. Prokurorun irəli sürdüyü təşəbbüsü Ələddin Qaşqay müdafiə etmişdi. Şeyda ilə prokurorun görüşü qurtarmışdı. Kollegiyanın başlanmasına hələ vaxt qalırdı. Biz prokurorluqdan çıxandan sonra  nazirliyə piyada gedə bilərdik. Şeydanı yola salandan sonra prokuror getmək üçün hazırlaşdı. Ondan xəbər aldım:

– Piyada?

– Mütləq!

Biz xeyli dinməz getdik. Prokuror dedi:

– Şeydanın sevincinə fikir verirdin, Çinarə? Kövrək qadındır. Belə yaxşı deyil. İradə güclü olmasa, insan məhv ola bilər. Güloğlan anasının gətirdiyi şeyləri qəbul etməkdən boyun qaçırıb.

– Hekayət xanım, indi «Danqa»nın ətrafındakı adamlar başqalarıdır.

– Balamirzənin Şeydaya cavabı pis olmayıb: oturun evinizdə. O biri uşaqlarınızla məşğul olun. Başınıza gələnlərdən nəticə çıxarın.

Usta Balamirzə Güloğlanı yanına işləməyə aparandan bir həftə sonra prokurora zəng vurub onu təbrik eləmişdi.

– Güloğlan öz istəyi ilə uzun saçlarını qısaldıb. Usta Balamirzənin hər zarafatında həqiqət olur.

Güloğlanın mədəndəki həyatı, işi haqqında prokurluğa müntəzəm məlumat verilirdi.

Biz Maarif Nazirliyinin yerləşdiyi binaya doğru gedirdik. Üzümüzə yumşaq meh dəyirdi, ciyərlərimiz təmiz hava ilə dolub-boşalırdı. Şeydanın dediyi sözlər yadıma gəlirdi. «Sizə necə təşəkkür eləyim? Doğrusu, prokurorlar-

dan pislik görməmişəm. Güloğlanın birinci işində də prokuror məni yaxşı qəbul elədi. Bir kəlmə ağır söz demədi. Buna baxmayaraq, prokuror adı eşidəndə yenə qorxmağa başlayırdım...»

– Məndən də qorxdunuz?

– Heç bir qırıq da! Dedim, elə belə bir qızdı oturub orda.

Prokuror bərkdən güldü. Şeydanın əlindən yapışdı və gülə-gülə xəbər aldı.

– Yəqin prokurora oxşamıram, hə?

– Nəyə görə oxşamırsınız? Lap əntiqə oxşayırsınız!

– Daha prokuror adı gələndə qorxmayın.

– Dünyasında!

Şeyda sözlərini xüsusi vurğu və inamla dedi. Gülməyə başladı. Barmağındakı iri brilyant qaşlı üzüyü çıxarıb prokurorun barmağına keçirdi:

– Bu hədiyyəni sizə verməyi uşaqlarım tapşırıb. Ağlınıza heç nə gəlməsin. Mənə dünya dolu hörmət eləmisiniz. Qoyun üzük barmağınızda qalsın. Hər millətin qanun-qaydası, adəti var. Biz hörmətə hörmətlə cavab veririk.

Prokuror barmaqlarını bir neçə dəfə açıb-yumdu. Üzüyü bizə tərəf tutub xəbər aldı:

– Necədir?

– Əla üzükdür.

Hekayət barmaqlarını yenə yumub-açdı:

– Həqiqətən, əladır, Şeyda xanım, – dedi. – Ancaq qulaq asın görün mən nə deyirəm. Mənə inana bilərsiniz ki, üzüyü mənə bağışlamağınız barədə heç nə fikirləşmirəm?! Sizin səmimiyyətinizə, ürəyinizə inanıram. Ürəyiniz təmizdir. Ancaq prokurorluq öz mülahizələrinə əsasən hərəkət edəndə sizin üzərinizə heç bir minnət qoyub eləməyib. Üzüyü alın, əvəzində isə siz mənə bilirsiniz nə gətirin? Çay. Əla çay. Özü də iki bağlama. Gətirəcəksiniz?

Şeyda bilmədi prokurora nə cavab versin. Mənim üzümə baxdı. Gülümsədi. Prokuror yenə dilləndi:

– Axı mənim bir əmim var. Onun ən çox sevdiyi şey əla çaydı.

Şeyda prokurorluqdan xoş əhvalla getdi. Üzünün rəngi durulmuşdu. Gözləri mənim əvvəl gördüyüm kimi iri və işıqlı idi.

Şeydanın başı ətrafında neçə vaxtdan bəri qara dumana bənzər bulud parçası hərlənirdi. Buna görə rəngi tutqun görünürdü. Duman onun başından çəkilmişdi. Şeyda, düşünürdüm ki, həyatı, insanları indi daha aydın görür.

Kollegiyanın üzvlərindən bir neçəsi çıxış edib «Qanun və şəxsi məsuliyyət» məsələsinin «Neftçi» rayon prokurorluğu tərəfindən kollegiyanın gündəliyinə daxil edilməsi təşəbbüsünü bəyəndiklərini söylədilər. Kollegiyanın üzvü, görkəmli müəllim Ələkbər Nəsirzadə dedi:

– Mənə xəbər çatanda ki, kollegiyada baş prokurorluğun nümayəndəsi, prokuror Hekayət xanım iştirak edəcək, düzü, prokurorların məclisimizə təşrifi mənə qəribə gəldi. Etiraf eləyirəm, yoldaşlar, şəxsən mən bizim prokurorluğun nazirliklə, məktəblə belə yaxın əlaqəsinə ilk dəfə rast gəlirəm. Məni düz başa düşün. Prokurorlar bu gün burada əsl pedaqoq kimi iştirak edirlər. Bu, məni sevindirməyə bilməz. Prokurorluq müəllimlərin diqqətini mühüm bir məsələyə: «Qanun və şəxsi məsuliyyət» məsələsinə yönəldib. Bizə və bizim nazirliyə bu, qanuni xəbərdarlıqdır. Məhz xəbərdarlıq! Biz necə edirik? Məktəblərə gedirik, dərslərdə iştirak edirik, dərslərin müəllimlər tərəfindən necə təlim edildiyini yoxlayırıq, «A-3», «A-4» formalarında mənimsəmə faizinə baxırıq, şagirdlərin əxlaqının əla olduğunu görüb razı geri qayıdırıq. Şagird Sərxanla Əliqulunun məsələsi niyə ortalığa gəldi? Müxbir Surxay yoldaşın

yanlış fikirləri qəzetimizin səhifəsində özünə niyə yer tutdu? Ona görə ki, biz «Qanun və şəxsi məsuliyyət» məsələsinə ya heç toxunmamışıq, yaxud, necə deyim, yanından keçib getmişik. Güləbətinlərin, Anabətinlərin faciəsinə iki qızın, iki bacının faciəsi kimi baxmaq olmaz. Güləbətinlə Anabətinin məsələsi də bizim bütün maarif ordusuna ciddi xəbərdarlıqdır. Ağasəfərlər cəmiyyətimizə kökündən yad və zərərli olan istismar forması gətirməkdədir. Biz bu məsələyə biganə qala bilmərik. Maarif Nazirliyinin ali məclisində deməliyəm ki, Ağasəfərlər ailəsi, Nazqızlar insanlığa və müəllimliyə yaraşmayan əməllərlə məşğul olmuşdur. Fikirləşin: Güləbətin, Anabətin kimdir? Bizim gələcək nəslimiz. Cəmiyyətin gələcək taleyi əllərində olacaq insanlar. Belə adamları korlamaq, mütiləşdirmək, həyatın mübarizəsindən çəkindirib küt, ağılsız, şüursuz vəziyyətə salmaq, sonra əllərina saxta diplom vermək böyük cinayətdir!

Kim isə stəkana su töküb, Ələkbər Nəsirzadəyə uzatdı. İçmədi. Sakit və aramla sözünə davam elədi:

– Sevincimə səbəb budur ki, bu gün mənim qarşımda Hekayət xanım prokuror kimi çıxış elədi. Fəxr edirəm ki, onun müəllimi olmuşam. Bir vaxt Hekayətə «Hekiş» deyirdim. İndi isə ona «Hekayət xanım», «prokuror» deyə müraciət edirəm. Biz, yəni kollegiyanın üzvləri bir gün əvvəl nazirin otağında toplanmışdıq. Nazirimiz Naib Nemətzadə də orada idi. Mühüm bir işi müzakirə edirdik. Baratzadə müzakirədə iştirak edirdi. Müzakirə prokuror Hekayət xanımın haqqında yazılan məqalə ətrafında idi. Biz qəzetdən razı qalırıq yalnız ona görə ki, Surxay yoldaşın bu məqaləsini dərc eləməkdə geniş müzakirə auditoriyası yaratmışdır. Qəzet Maarif Nazirliyinin məqalə haqqında fikrini bilmək istəmişdir. Məsələ təmiz məsələdir. Maraqlı və təzədir. Surxay yoldaş yazır: «Sərxanla Əliqulu oğurluq

etdiklərini etiraf elədikləri və əldə əşyayi-dəlil olduğu halda prokuror oğruları azad etmiş, onların əvəzinə təqsiri olmayan, zərərçəkmiş bufetçi Simuzəri həbsə almışdır».

Bu fikirlə əlaqədar dünənki toplanışımızın nə nəticəyə gəldiyini sizə deməyi münasib bilmirik.

Yerlərdən Nəsirzadənin sözünü kəsdilər:

– Nahaq demirsiniz, yoldaş Nəsirzadə. Deyin! Bunu sonraya saxlamağın mənası nədir?

– Sakit olun. Biz prokurorun məhkəmədəki çıxışını təqdir edirik. Prokuror həm də əsl pedaqoq kimi hərəkət eləmişdir. Biz də deyirik: oğru Sərxanla Əliqulu deyil. Oğru bufetçi Simuzərdir. Məsələ təkcə bufetçinin şagirddən beş qəpik əvəzinə, on qəpik almasında deyil. Biz məktəb açmışıq, bu məktəbdə şagirdlər tərbiyə alırlar, bufetçi Simuzər həmin məktəbdə şagirdlərə «əliəyriliyin», adamları «aldatmağın» yollarını öyrədir. Belə bufetçi tək Simuzərdir? Xeyr! Ələsgər Ağcığırlı yoldaş, sizə üç dəfə xəbərdarlıq edilmişdir ki, Simuzər məktəbdə şagirdlərin tərbiyəsinə işi və hərəkəti ilə mənfi təsir göstərir. Tədbir əvəzinə mənə zəng vurursunuz ki, «yəni bir bufetçini dolandırmaq olmaz?» Məktəbimizdə o qədər çatışmayan işlər var ki, atılıb qalıb bir tərəfdə. Direktorun işi yalnız bufetçini çıxarıb qəbul etməkdən ibarətdir? Məktəbin direktoru bufetçinin geyimi haqqında sizinlə söhbət eləyib. Cavab vermisiniz:

– Ə, Kərəm, xalqın geyimi ilə nə işin var? Sən atanın goru, qoy bizi oturaq yerimizdə. Qoy işimizi görək, qadın üzük, sırğa taxar da...

Ağcığırlının verdiyi cavab olduğu kimi deyiləndə zaldakılar Ələsgərin tərləmiş və qapqara qaralmış üzünə baxıb gülüşdülər. İcazə alıb dedi:

– Deyirəm, Ələsgər müəllim, Simuzər birdən on barmağının onuna da üzük taxıb məktəbə gəlir, üzüklər bütün

günü şagirdlərin gözlərinin qabağında parıldayır. Dərsdə də bufetçinin üzüklərindən danışırlar. Ələsgər yoldaş nə cavab versə yaxşıdır? Deyir ki, nə pis təsir göstərəcək, ə? Şagirdlərin ata-anaları üzük taxmır?!

Ən şirin şey birdən acıya dönən kimi, gülüş də birdən şirinliyini itirir. Naib Nemətzadə Nəsirzadədən xahiş elədi ki, otursun. Elan etdi ki, kollegiya üzvlərinin çıxardıqları qərarı iclasın sonuna saxlamağa ehtiyac duyulmur. Hər kəs məqalə və prokurorun məktəb məsələlərinə dair fikrinə öz münasibətini bildirmişdi. Nazirlik qərara gəlmişdi ki, prokurorun tutduğu yol – iki şagirdi müdafiə eləyib həbsə almaması yolu doğrudur. Müəllimlərin ürəyincədir. Sərxanın, Əliqulunun oxuduqları məktəbdə «Qanun və şəxsi məsuliyyət»dən əsər-əlamət olsa idi, cinayət baş verməzdi. Məktəbdə şəxsi məsuliyyət hissini itirən təkcə bufetçi Simuzər deyil. Bu sözləri tək-tək müəllim, sinif rəhbərləri, pioner dəstə rəhbərləri haqqında da demək olar. Və demək lazımdır. Bufetçinin zərərli iş üsulu tərbiyə ocağında özünə yer eləmiş, yaramaz hərəkətlər valideynlər tərəfindən də nəzarətsiz, başlı-başına buraxılmışdır.

Nəsirzadə çıxışlara yekun vurub üzünü heç cür sakit olmayan müxbirə tutdu:

– Nazirlik belə hesab edir ki, milis və məhkəmə orqanlarının əməkdaşları təhsil işçilərinin yaxın köməkçiləridir. Sizin yazınız barədə ayrıca söz eşitmək istəyirsinizsə, qulaq asın, deyim. Biz qəzetin işini, ümumiyyətlə, bəyənirik, qiymətləndiririk. Biz onu da qeyd elədik ki, siz bu məsələdə xeyli cəsarətli tərpənmisiniz. Bununla belə, prokuror Hekayət xanıma qarşı irəli sürdüyünüz ittihamlarla biz razılaşa bilmərik. Prokuror həm hüquq, həm pedaqoji məsələdə daha dəqiq hərəkət etmişdir. Biz bu yolu bəyənirik. Mən sizə bir söz demək istəyirəm, Surxay yoldaş.

Sizin adınızı biz tez-tez eşidirik və biz buna şadıq. Siz hələ, necə deyim, müxbirsiniz. Bizim çox hörmət etdiyimiz müxbir adını daşıyırsınız. Ən görkəmli jurnalist, hüquqşünas belə, bəzən müəyyən məsələlərdə səhv edə bilər. Gəlin biz adi səhvlər etməməyimiz üçün də çalışaq.

Biz Naib Nemətzadənin otağından çıxdıq. Surxay, əlində portfel, bizimlə xudahafizləşmədən yanımızdan keçib getdi. Bizi maşınına dəvət edənlər oldu. Hekayət xanım razılıq edib, piyada getmək istədiyimizi dedi. Səməd Məlikov Sadıq Rzayeviç və Ələddin Qaşqay otaqdan bir yerdə çıxdılar. Bizimlə xeyli dayandılar. Onların kollegiyanın gedişindən razı qaldıqlarını görürdüm. Sadıq Rzayeviç öz adəti üzrə şux halda dedi:

– Hekayət xanım, siz bu gün böyük bir ordunu özünüzə dost etdiniz. Müəllim ordusu ən güclü ordudur. Bu ordu sizi sevdi. Biz buna sevinirik.

Hekayət xanım əlimdən yapışdı:

– Gəl tez-tez düşək, Çinarə, – dedi.

Toran vaxtı idi. Bakıda toran vaxtı ecazkar gözəllik yaranır. Mən bu gözəlliyi sevirəm, ona tamaşa etdikcə ürəyim fərəhlə dolur.

Prokurorla Bakının yanan rəngləri içərisində xeyli getdik. Səssiz. Mən dinmirdim ki, prokuror dincəlsin. Səssizlik Hekayət xanıma rahatlıq gətirirdi.

Dayandıq. Başımı qaldıranda qarşımızda bir qapı gördüm. Qapını Hekayət xanım açdı, içəri girdik. Bura prokurorun əmisi Tomralın evi idi. Hekayət xanım işıqları yandırdı.

– Ev belə işıqlı olanda xoşum gəlir, Çinarə. Bayırdan qırmızı işıq əla görünür. Elə bil qırmızı işıq olan yerdə həyat boldur. Pərdələri də bax beləcə çəkək. Hələlik tələsən yerimiz yoxdur.

– Nədən başlayaq, Hekayət xanım?

– Çaydan. Əla çay! Sən çay qoyana kimi mən də paltarımı dəyişim.

Mən çaydanı yaxalayıb, təzə su ilə doldurub qaz pilətəsinin üstümə qoydum. Mətbəxdə ləngidim ki, prokuror paltarını dəyişsin. Prokurorun əmisinin evində idmançılara məxsus kostyumu vardı. Qırx altı ölçüdə. Kostyumu geyib saçlarını arxada bir hörük edib bağladı. Mətbəxdən çıxıb yanına gəldim. O, əmisinin stolunun üstündə yazılı kağızı götürüb xüsusi vurğularla oxudu:

*Sənə hekayətim var,*
*Sənə şikayətim var...*

– Mən bu sözlərə o qədər alışmışam ki, içəri girəndə kağızı stolun üstündə görməsəm, elə bilirəm əmim məndən küsüb. Əmim də hara getdi gərək bu sözləri tələm-tələsik yazıb stolun üstünə qoya.

Mən dinmədim. Prokuroru çaya dəvət elədim.

Çayı arxayın içirdik. Ləzzət verirdi.

Prokurora baxırdım. Onun üzündəki cizgi və ifadələri əzbərdən bilirdim. Prokurorun haqq yolunda qələbəsinin şahidi olanda sevinirdim.

Gözlərimin qabağına kollegiya iştirakçıları gəlirdi. Surxayı görürdüm. Surxay prokurora qarşı ədalətsiz hərəkət eləmişdi. Amma prokuror müxbirin haqqında başqa cür düşünürdü:

– Mən Surxayın pis vəziyyətdə qalmasını istəmirdim. Bu, güzəşt deyil, Surxay mənim tələbə yoldaşım olduğu üçün də deyil. Jurnalist olduğu üçündür. Məhz jurnalist. Son vaxtlarda «jurnalist» sözü şabaş edilir. Bir məqalə çıxır, demək, jurnalistdir. Demək istəmirəm Surxay jurnalist deyil. Ancaq jurnalist haqqında mənim fikrim başqadır. Bunu sən bilirsən...

Prokuror həm də qızlıq həya, ismətini qoruyub saxlamışdı! Heç vaxt qoymaram əclaf kişi prokurora eşq elan etsin. Bu «bir tikə qız» üçün ən uca, ən pak məhəbbət lazımdır. Hiyləgər məhəbbət yox. Qulağımla eşidirdim: «Prokuror olan qızda nə məhəbbət?..» Nifrət edirəm belələrinə!

– Çinarə, – prokuror məni səslədi. Fikrimdən ayrıldım.

– Bəli.

– Bilirsən nədən başlayaq? Qabaqca şeylərin yerini dəyişək. Divanı kitab rəflərinin yerinə, kitab rəflərini divanın yerinə qoyaq. Görürsən, solaxaydı. Buna görə işıq düşmür. Əşyalar da yaxşı görünmür.

Kitab rəflərinin içərisini boşaltmadan götürdük. Mən azacıq gecikəndə prokuror az qalırdı kitab dolu rəfi tək götürsün. Yüyürüb bir tərəfindən yapışırdım. Prokuror oğlan kimi hıqqanıb deyirdi:

– Kim güclüdür? Sən, mən? Elə ikimiz də. Ancaq bir iş var, mən rəfləri ora-bura dartmağa, götürüb-qoymağa vərdiş eləmişəm.

– Yox, – dedim, – mən olan yerdə siz əlinizi işə heç vurmamalısınız, Hekayət xanım.

– Nə danışırsan, Çinarə? Gərək işləyəm ki, bir az gücüm ola! Yeri düşəndə güc lazım olur.

Güldük. Döşəməni yumaq vaxtı gələndə prokuror qoymadı əlimi suya vuram. Döşəmələri iki dəfə özü yudu, silib qurutdu. Kitabların tozunu alandan sonra rəflər təzələndi. Artıq şey, nə vardı, prokuror mətbəx şkafından götürüb bir tərəfə qoydu – qatıq satan uşaqlar gələndə verərik apararlar. Xoşu gəlməyən şeyi əmisinin evində saxlamırdı. Birdən görürdüm ki, lap yaxşı boşqabı sındırırdı, sınıqlarını atırdı zibil qabına. Bir dəfə mən onun boşqab sındırdığına o qədər güldüm ki! Prokuror boşqabla əməlli-başlı

«mübarizəyə!» girmişdi. Boşqab sınmırdı ki, sınmırdı. Mən özümü saxlaya bilməyib dedim:

– Hekayət xanım, deyəsən, boşqaba güc gələ bilməyəcəksiniz? Qoyun qalsın. Qab sındırmaq deyirlər yaxşı deyil.

Prokuror sözlərimə güldü:

– Çinarə, belə şeylərə inanmaqdan bilirsən necə acığım gəlir? Bu boşqab məni lap dilxor eləyir. Gör kənarına nə qalınlığında göy naxış vurublar? Özü də tünd-göy. Bu qabda necə iştahla çörək yeyəsən? Gözəl şeyi kim qıyıb sındırar? Gərək inciməyəsən, bu boşqabdan mətbəxi də, özümü də xilas eləməliyəm.

Mətbəxi sahmana saldıq. Xeyli işıqlandı. Hekayət xanım əlini yuyub sildi. Gəlib qabağımda dayandı:

– İndi vəzifə nədən ibarətdir? Hə, yaxşı yadıma düşdü, Çinarə, yadımda ikən bunu deyim. Pərdələri mütləq dəyişməliyik. Yadıma salarsan, sabahda-zadda şəhərə çıxanda dükanlara baxarıq, qəşəng pərdəliklər var. Metrəsi bir manat iyirmi qəpiyə, alarıq, özüm tikərəm. İndi keçək növbəti vəzifəyə. Hə, indi nə etməliyik?

– Yemək işinə baxmalıyıq, Hekayət xanım. Yemək ümdə məsələdir.

– Afərin! – deyə prokuror məni qucaqladı:

– Qoy bir üzündən öpüm. Bu gün elektrik manqalını işə salaq. Qabaqca yemək «anbarına» baxaq.

Prokurorun əmisinin evində soyuducu vardı. Prokuror soyuducunu «anbar» adlandırırdı. Tomral evdə oldu-olmadı, soyuducuda hər şey olurdu. Bazardan alma alırdıq, yuyub silirdik, qoyurduq «anbara». Tomral rayondan gələndə əntiqə cücələr gətirirdi. Prokurorla işdən sonra gedib cücələri vanna otağında kəsib təmizləyirdik. Suyu çəkiləndən sonra qoyurduq «anbara». Prokuror «anbar»ın qapısını örtmədən təmizlənmiş toyuqlara baxıb deyirdi:

– Aləm sup yeyəcəyik.

Tomral tək idi. Evdə az olurdu. Buna baxmayaraq, prokuror evdə elə şərait yaratmışdı ki, otağa girəndə elə bilirdin ailəli evdir.

Prokuror «anbar»ı açıb məni səslədi:

– Çinarə, gəl gör anbarımızda nə yoxdur? Qarabağ erkəyinin ətinə qədər.

Altı şiş kabab çəkdik. Elektrik manqalında. Kababımız dörd dəqiqəyə hazır oldu. Çox saxlamaq olmaz, quruyar. Quyruqlar şişdə elə qızarmışdı ki, elə bil xınalı kəklik ayağı idi. Çörəyin arasına qoyub ləzzətlə yedik.

Prokurorun əmisinə ürəyi daha çox qızırdı. Əmisinin çox adətlərini götürmüşdü. Çox vaxtlar prokuror evdə nahar eləmirdi. Ailədə bunun səbəbini çək-çevirə salmırdılar.

Zəminzadə gülüb, xəbər alırdı:

– Deyəsən, əminin evində olan xörəklər bizimkindən dadlıdır...

Prokuror atasının zarafatına zarafatla cavab verirdi:

– Doğrudan, belədir, ata, əmimin evində baxmayaraq ki, işdən sonra özüm bişirib, özüm hazırlayıram, amma yeyəndə mənə ayrı cür ləzzət eləyir.

Zəminzadə belini düzəldirdi, əlini enli kəmərinə keçirib arxadan köynəyini düzəldirdi:

– Nə deyirik, sən deyən olsun.

Nə üçün əmisinin evində yediyi prokurorun canına yatırdı? Bunun səbəbi elə beləcə sadə deyildi. Belə söhbətlər zamanı Zəminzadə gülümsəsə də, gözlərində narazılıq qığılcımları görürdüm. Duyurdum – bir gün bu qığılcımlar üzə çıxa bilər, alov törədər.

Mən Zəminzadədə olan bir xüsusiyyəti demişəm: Zəminzadə güzəştə getməyən adam idi. O, «meydanda» çox görünmürdü. Onu «meydana» çəkmək də asan deyildi.

Amma «meydana» gələndən sonra Zəminzadənin kürəyini yerə vura biləcək adamın olduğuna inanmaq çətin idi. Elə bil Zəminzadə adamların gözlərini qorxutmuşdu. Elə bil Zəminzadədən müstəntiq Murtuzayev, Sadıq Ağayarov özü də çəkinirdi. Zəminzadənin haqqında «nahaq» söz deməyə yol vermirdilər. Prokuror atasının işindən narazı olduğunu deyəndə Murtuzayev az qala qapını çırpıb bayıra çıxdı. Sadıq Rzayeviç qaşlarını çatıb, başını aşağı saldı və xeyli bu vəziyyətdə qaldı. Bunları Hekayət xanım görürdü. Bəs Zəminzadə? Zəminzadə məzuniyyətdə yox, dünyanın tamamilə o başında olsun, işindən, ünvanına deyilən bir sözdən xəbər tutan adam idi. Biz Zəminzadə haqqında hələ çox az şey bilirik. Lap az. Zəminzadənin rütbəsini, nüfuzunu necə qoruduğunu bilmək üçün biz Zəminzadəni yaxşı tanımalıyıq. Bəli, mənim sevdiyim prokuror Hekayət xanımın doğma atası Zəminzadəni.

Prokuror azacıq kefsizləyəndə Zəminzadə dözə bilmirdi. Prokuror evə gələnə kimi Zəminzadə ayaqqabılarını soyunmurdu. Oturmurdu. Otağı arşınlayırdı. Qızı prokuror olandan sonra da Zəminzadə gecələri ayılıb Hekayət xanımın üstünə baxırdı: yorğan çiynindən sürüşüb düşməyib ki? Üstü açılmayıb ki?

Mən bu yerdə həm də qəssab Dadaşbalanın neçə il qabaq Zəminzadə haqqında dediyi sözləri xatırlayıram: «Zəminzadə dostuna görə övladından ömürlük üz çevirən adamdır. Cərdə-cürdə adam deyil».

Zəminzadə ilə prokuror adi ata, övlad deyildilər. Zəminzadə evlənəndən sonra on il övladsız qalmışdı. Zaman-zaman övlad həsrəti gizlindən Zəminzadənin qəlbini sökürdü. Amma Zəminzadə həyat yoldaşından ayrılmağı qarşısına məqsəd qoymadı, həyat yoldaşını övlada qurban vermədi. Neçə illər bir yastığa baş qoyduğu ömür yoldaşını atıb

başqası ilə evlənmək fikrinə düşmədi. İllər keçdi. Zəminzadə yenə fikrindən dönmədi. Axır tale üzünə güldü. Zəminzadənin evində övlad səsi eşidildi. Zəminzadə ata oldu, Zöhrə ana. Dünyaya Hekayət gəldi. Hekayətin nəfəsi illərdən bəri evin soyuq qalmış divarlarını isindirdi. Zəminzadə, Zöhrə gecələri səksəkəli yatdılar: «Hekayət beşikdən yıxılar».

Hekayət yıxılmadı, böyüdü. İndi həyatda Zöhrə yox idi. Hekayət vardı. Zöhrə isə ara-sıra qızı Hekayətin yuxusuna gəlirdi. Zöhrə övladı Hekayətin yuxusunda yaşayırdı. Niyə? Zöhrə dünyadan nə üçün getdi? Bunu bilməkdən ötrü biz yenə Zəminzadəni yaxşı tanımalıyıq. Tək biz yox, prokuror Hekayət xanım da atasını yaxşı tanımalı idi. Ana yuxuya gəldi. Yoxsa naməlum qadının qoyub getdiyi qovluq, bəlkə də, belə tez ortalığa gəlib oxunmazdı.

Prokuror üzümə xeyli dinməz baxıb dedi:

– Çinarə.

– Bəli.

– Biz hara tələsirik?

– Heç yana, – deyə mən prokurorun ürəyini oxuyan adam kimi ayağa qalxıb cavab verdim. Hiss elədim ki, prokuror məni hara isə göndərəcək. Belə də oldu. Kabinetin, seyfin açarını mənə etibar edib dedi:

– Qovluğu gətir.

Qapıdan çıxıb, qovluq qoltuğumda, qayıtmağım bir oldu. Bizi çox sürücü tanıyır. Piyada görəndə maşını saxlayırlar. Bu, hərdən köməyə gəlir. Hekayət xanım qovluğu məndən aldı.

Yeyib-içmişdik. Çay qaz pilətəsinin üstündəydi. Prokuror qovluğu yazı stolunun üstünə qoyub açdı. İlkin gözümüzə sataşan sətirlər bu oldu:

«Bilmirəm qovluğu nə vaxt açacaqsan? Sən indi prokurorsan. Bəlkə, vaxt tapıb qovluğu aça bilməyəcəksən. Bəlkə

də, bu qovluq aylarla, illərlə atılıb bir küncdə qalacaq, üstünü toz basacaq, vərəqlər saralıb payız yarpaqları kimi qupquru quruyacaq. Bir gün bir əl onu götürüb atacaq... Ancaq bir gecənin əzabına dözməyə nə var! Bir gecəni yuxusuz qalıb, səhəri yorğun açmağından qorxma. Mənim kimi saysız-hesabsız əzablı gecələr keçirməyəcəksən ki!.. Bu mənim həyatımdır. Bu sənin atan Zəminzadənin həyatıdır. İşdir, qovluğu açsan qorxma, qaldır birinci vərəqi oxu, oxu və qurtar. Bir insanın həyatı sənə çox söz deyəcək. Elə söz ki, yiyələndiyin prokuror sənəti üçün sənə hava, su kimi lazımdır. Sən prokurorsan, amma böyük bir cani ilə bir otağda yaşayıb, nəfəs alırsan!»

Prokuror dirsəklərini oxuduğu vərəqin üstünə qoydu. Başını əllərinin üstündə dayadı. Mən heç vaxt prokuroru bu cür oturan görməmişdim. Onun nazik çiyinləri elə biləsən tərpənmirdi. Axı insan necə nəfəs alır-alsın çiyinlərinin tərpəndiyi görünür, hiss olunur. Prokurorun kürəkləri də, çiyinləri kimi nazik, cansız görünürdü. Saçları ayrılıb sağ-sol çiyinlərinə töküldüyündən uzun, ağappaq boynu görünürdü. Boynunun sağ çiyninə yaxın tərəfində qara xalı vardı. Özümü saxlaya bilməyib əlimi prokurorun saçlarında astaca gəzdirib, xalının üstündə saxladım. Ona doğru əyilib, bir əlimlə başını əllərinin üstündən qaldırdım:

– Bəlkə, bir az uzanıb dincələsən?

– Yox, Çinarə, – deyə prokuror düşüncələrindən ayrılmadan cavab verdi. Sonra üzümə zəndlə baxdı. – Nə etmişəm ki... Ancaq sən gedib dincəlməlisən. Mənim körpə quzum.

Bilmirəm, bilmirəm ki, gözlərdə məhəbbət görməkdən yaxşı şey varmı? Mən prokurorun gözlərindəki məhəbbətdən əl çəkib, ondan bircə an da ayrıla bilmirdim. Prokuror mənə deyəndə ki, sən gedib dincəlməlisən, ürəyim sıxıldı. Əllərimin üstünə soyuq tər gəldi: «Nə üçün prokuror məni

özündən kənar edir? Axı mən onunla bu evdə neçə gecə bir yerdə yatıb qalmışam...» Dinməyib nə düşündüyümü prokuror çox asanlıqla anlamışdı. Gözlərini hələ də üzümdən götürməmişdi. Gülümsədi:

– Biz səhər yenə bir yerdə olacayıq. Həmişə bir yerdə olacayıq. Biz hələ birlikdə çox yerlərə gedəcəyik. Sən prokurorluq sənətinin çox cəhətlərini öyrənməlisən. Bir vaxt gələr mənim quzuma – prokuror Çinarə xanım – deyərlər. Prokuror Çinarə xanım, istəkli prokuror Hekayətdən üstün olmalıdır. İndi isə mən səni yola salmalıyam.

Prokurorun mənə dediklərindən utanıb başımı aşağı saldım. Onu otaqda tək qoyub getmək istəməsəm də, etiraz edə bilmədim. Bayıra çıxanda prokuroru bir addım atmağa qoymadım:

– Qayıdıb içəri girməsəniz, gedən deyiləm, – dedim.

Düşünə bilərsiniz ki, qovluqda olan yazının atam Zəminzadə haqqında olduğunu Çinarə bilmişdi. Buna görə də mən Çinarəni evlərinə yola saldım. İstəmədim ki, atam haqqında yazılanları o bilsin. Əlbəttə, bu fikirdə bir az həqiqət vardır. Mən bunu heç vaxt inkar eləmirəm. Ancaq mənim məqsədim atam haqqında yazılanları Çinarədən gizlətmək deyildi. Qətiyyən. Atamla mənim aramda olan münasibət hələ açıq şəkil almamışdı. Necə deyim, bu hələ bir ailəyə məxsus məsələ idi. Zəminzadə isə mənim atam idi. Mənim üçün hər şey ən əvvəl dəqiq və aydın olmalı idi. Bir tərəfdən də mən Çinarəni yora bilərdim. Yuxusuz qalmağına qıymadım. Qovluqdakı yazını özüm, tək oxumağı lazım bildim. Mən atam haqqında deyilən «cani» sözünü də Çinarədən gizlətmədim. Əksinə ondan belə bir sual etdim:

– Çinarə, doğrudanmı, mən cani ilə bir nəfəs alıram?

– Adamlar haqqında deyilən sözlərin bəzən çoxu düz olmur, Hekayət xanım, – deyə Çinarə cavab verdi.

– Həyatın rəngləri çoxdur və maraqlıdır, Çinarə. İki insanın biri o birini elə istəklə istəyir ki, istədiyi adamda heç bir qüsur, nöqsan görmür, görmək də istəmir, Çinarə. Anam heç vaxt yuxuma girməzdi. Anam heç vədə mənə düz olmayan söz deməyib... Hansı işə baxıramsa, Zəminzadənin əlini orda görürəm. Zahirən sənə elə gəlir ki, Güloğlanın, Güləbətinin, Simuzərin işi ilə heç bir əlaqəsi yoxdur. Həm də bunlar Zəminzadə üçün xırda məsələdir. Bu təsir ondan yaranır ki, ilmələri görmək hamı üçün mümkün deyil...

Çinarə getdi. Oturub qovluğu bir qədər də özümə yaxın qoydum... Həyatı bu vərəqlərdə qalan insan, axı sən kimsən? Sənin başına həyatda nələr gəlib?

«Mənim qayıtmayacağımı biləndə təşvişə düşmə. Uşaqlarımızın ürəyi zədələnə bilər. Ümdə nigarançılığım səndəndir. Həyatın haqda çox danışıb, çox düşünə bilmirəm. Gərək sənin qabağına mən çıxmayaydım. Nə olsun. Olmuşa heyifsilənib baş yormaq olar. Amma bundan bir şey hasil olacaqmı? Ümumən, həyatımız o qədər mürəkkəbdir ki, onu dərhal dərk edib, duymaq olmur. Hər addımda müxtəlif üzlər, müxtəlif gözlər görürsən. Fikirləşirsən ki, insan üzləri, insan gözləridir. Bunlar insanlardır. Ancaq nə biləsən onun daxili necədir? Sən də belə oldun. Mənə inandın!

Qulaq as, məktubu səbirlə oxu. Axıra qədər oxumamış olma. Mənim sənə sözüm var. Onu sənə deməliyəm. İnsanın başına hər cür iş gəlir. Dözmək lazımdır. Dəyanət olandan sonra keçib gedər. Hər şeyi əvvəldən danışacağam. Sənə heç nə qaranlıq, örtülü qalmasın. Nə yazıram, inan: ilk dəfə sizə gəldiyim günü, yəqin ki, xatırlayırsan. Mən belə başa düşürəm ki, xatırlamaq nədir, sən o axşamı heç vaxt unutmayacaqsan. Bilirəm, etiraz edib deyəcəksən düz

danışmıram. Hər şey sənin tərəfindən çoxdan unudulmuşdur. Sən mənimlə saxta dolanıb durmamısan. Demək istədiklərinin hamısına inanıram. Ancaq sənə ərə gəldiyim ilk gecədə səndə yaranan düşüncələri unuda biləcəyinə inanmıram. Bu, mümkün deyil... Çünki bunu mən mümkün hesab etmirəm. Məncə, məktubu oxuyub qurtarandan sonra dediklərimə etiraz etməyəcəksən. Sənin evinə gəlməkdə bir məqsədim vardı. O da sənə kömək eləmək idi. Təmənnasız kömək. Gəlişimin səbəbini onda düz demədiyimi etiraf edirəm. Mənim həyatda necə yol keçdiyimi sən biləcəksən. Mən kimsədən təmənnasız kömək görməmişəm. Sözümlə hamını lənətləmək niyyətində deyiləm. Başqaları ilə nə işim ola bilər? Söhbət öz ailəmdən, mənim yaxınlarımdan gedir. Biz görüşəndən sonra mən sənin işlədiyin köhnə qrammofon və vallar yığılan idarəyə zəng vurdum. Bu işin birdən-birə haradan ağlıma gəldiyini özüm də bilmədim. Zənglə maraqlanan tək mən deyildim. İşçilərin əksəriyyəti yanımda oturmuşdu. Alacağım cavabı gözləyirdilər. Məlum oldu ki, sənin işlədiyin yer bağlanmışdır. Tək mən yox, bütün işçilər mütəəssir oldular. Bunu sən pis qəbul etmə. Burada sənə toxunacaq bir şey yoxdur. İşçilərin təəssüfü isə nə üçün pis qarşılanmalıdır? Təkcə təəssüf etməkdən bir şey çıxmayacağını düşünüb belə nəticəyə gəldim ki, sənə yaşamaq lazımdır. Yeni işə girənə kimi sənə kömək lazımdır. Sən isə bunu kimsəyə bildirməyəcəksən. Bunu mən sənin üzündən oxuyurdum. Sən əyilən adama oxşamırdın. Belə adam üçün çox yuxusuz gecələr yola salmaq olar. Son ümid tikəni belə insanla iki yerə bölmək lazımdır. Əyilməyən insan buna layiqdir!

Sizə gəldim. Bir-birimizə bağlandıq. Mən səni sevirdim.

İlk gəlişin bizi bir-birinə bağladığına çox vaxt təəssüf edirdim. Səhər bütün gecəni yatmadığın üzündən bilinirdi.

Allah bilir, mənim haqqımda nələr düşünmüsən. Evinə gəlişimin səbəbi sənin düşündüklərin deyildi. Mən səni sevirdim. Bu istək məndə sənə qarşı sonralar başladı. Buna görə bir daha sənin evinə getməməyi qət elədim. Və gəlmədim.

Biz birləşmədən ayrılmalı idik. Bunu mən sənə yolda dedim. Sən etiraz elədin. Baxmayaraq ki, bir neçə saniyə qabaq mənim haqqımda nifrətlə düşünürdün. Səbir et, bilirəm nifrətin çox çəkmədi. Elə bildin onu silib atdın. Çünki sən yaxşı adamsan. Sən məni əfv etdin. Buna sənin istəyin haqq verir. Sən bu haqqı mənə verdin. Hər şeyi anladığım halda susurdum. Sən mənim susmağımın səbəbini bilirdin, ya yox, bu mənə tamamilə aydın deyildi. Mən susurdum. Susmalı idim. Mən susurdum, ona görə ki, mənim sevməyə ixtiyarım yox idi. Mənim istəyim heç kimə, sənə də gərək deyildi.

Qulaq as. Səbirlə məktubu oxu. Yəqin, bu mənim səndən sonuncu xahişimdir. Ürəyimdəkiləri sənə danışmalıyam.

Ailəmiz böyük idi: üç bacı, iki qardaş, anam, bir də atam. Böyük bacım və böyük qardaşım özlərinə ailə qurub bizdən elə uzaqlaşmışdılar ki, elə bil onlar bu ailədə doğulmayıb, tanımadığımız insanlardı. Atamın çalışdığı bu idi ki, biz bir tərəfə çıxaq. Yəni iki bacı, bir qardaş. Deyəsən, ümidləri bizə idi. Xüsusilə mənə, guya mən fərasətliyəm. Ev-eşiyi illərlə tək mənə etibar eləmək olar. Dərslərimi pis oxumurdum. Qardaşımla bacım dinməz-söyləməz idilər. Anam deyirdi onlar evdə olanda hiss eləmirsən evdə adam var. Elə ki, mən gəlirəm hay-küy qopur. Mətbəxdə qabqaşıqlar bir-birinə dəyir. «Bu necə yeməkdir? Elə bil mətbəxə qırx ilin acı soxulub». Bu sözü mənim üçün deyirdilər. Anamı başa düşmək olmurdu. Gah da deyirdi, ev mənsiz

yaman pis olur. Sakitlikdən adamın qulaqları tutulur. Mən evdə olanda heç olmasa piano dillənir. Az-maz bildiklərimdən çalardım. O da həvəslə girib-çıxırdı. Boş-boşuna yox, iş görürdü. Əlimi saxlayanda mənə deyirdi ki, nə oldu, yoruldun? Onda başa düşürdüm ki, çalmağımdan xoşu gəlir. Atam sakit adam idi. İri, ətli gözləri vardı. Başının ortası dazlaşmışdı. Gözümü açandan kamança çalırdı. Mən gözümü açandan, qırx ildən yuxarı idi atam bu sənəti işlədirdi. Hey telləri tarım çəkilmiş simlərə sürtürdü. Böyük orkestrdə onun daimi yeri vardı. Qabaq sırada, sağdan sonuncu, həmişə o yerdə oturardı. Anam atana baxıb deyinirdi:

– Elə bil bir az irəlidə, ya geridə otursa, arıqlayacaq. Gözünü hey dirijora dikir. Bir dəfə dinləyənlərə göz yetirsə, nə olacaqmış?

Televiziya konsertlərində hərdən operator atamı tək planda götürürdü. Onda da atamın gözləri yumulu olurdu. Elə bilərdin çala-çala yatır. Anam baxıb deyərdi ki, kişi nə kifirdir, az! Anam qəşəngbaz idi. Qəşəng kişilərdən, xüsusi ilə çatmaqaş, qırmızıyanaq kişilərdan xoşu gələrdi. Bu şərtlə cavan olsun. Həmişə deyərdi ki, kişi belə biyöndəm çıxdı, heç olmasa gözəl bir kürəkənim olaydı. Bacım qışqırıb etiraz edirdi. Üzünü turşudub, çatmaqaş, qırmızıyanaq oğlandan zəhləsi getdiyini söyləyirdi. Anamın cini tutardı. Bacının bəyəndiyini görürəm, – deyirdi. Elə bil bu dünyanın adamı deyil. Başı elə mənim kişiminki kimi soyulub, orda-burda qalan tüklər də elə bil yerindən boz imiş. Özü də nataraz. Bacım gülürdü. Anam gülüşün fərqinə varmırdı: – Heç vecimə də deyil, nə qədər gülürsünüz gülün, – deyib öz işi ilə məşğul olurdu. Evə anamın zövqünə uyğun qonaq gələndə dingildəyirdi. Həvəslə çay düzəldirdi. Mürəbbə çıxarırdı. Stəkanın yanına əla qaşıq

qoyurdu. Yaşmanırdı. Döşünə düşməyən qonaq olanda aynabənddə dinməz-söyləməz oturub, əlini çənəsinə qoyurdu. Üzünü birimizə tutub deyərdi:

– Aparın onun qabağına çay qoyun.

Çayın verilib-verilməməsi ilə maraqlanmaz, ikinci dəfə səsini çıxarmazdı. Mən üçüncü sinfə keçəndən sonra atam kiçik ev tutub ailəsini şəhərə gətirmişdi. Anam evin darısqallığından şikayətlənəndə atam deyirdi ki, ananız çadrasını birinci atanlardandır. Sağ olsun, tez ayıldı, hər şeyi tez başa düşdü. Amma bilmirəm niyə bunun fəal niyyətini nəzərə alıb ona geniş ev vermirlər. Söhbətlər yarıciddi, yarızarafat gedərdi. Anam: – Əcəb eləmişəm, qara çadra nəyimə gərəkdir, – deyərdi. Atamın sözündə çox şey həqiqət idi. Anam qara örpəyi arvadlar içərisində birinci tullamışdı. Ancaq oxumamışdı. Təqsiri atamda görürdü:

– Sənin kimi avamın əlinə düşmüşdüm, necə oxuyaydım?

Atam anamın dərdlərinin tərpəndiyini duyub dinmirdi. Anam nə desə, dinməz-dinməz baxardı. İş yoğunlayardı. Anam atamı lənətləməyə başlayırdı. Atam kamançasını kökləyib, evdən çıxardı. Hərdən belə şuxluq eləməsi ona baha başa gələrdi. Qalan vaxtlarda sakit gedib-gələr, sakit danışar, sakit oturardı. Atamın sakitliyində maraqlı nə isə bir şey vardı. Bu, yaxşı idi. Yoxsa belə adamlarla dolanmaq çətindir. Ümumiyyətlə, nədənsə, atamla anamın münasibəti, davranışları həmişə mənə iki məzhəkəçi artisti xatırladırdı. Biri o birindən uzun. Uzun artist gödəyin qapazı altında... Bir dəfə bunu onlara dedim. Atamın dodaqları xeyli qaçdı. Anam nəyisə, yadımda deyil, götürüb üstümə düşdü. Yekə qız olmağıma baxmayaraq, məni gupadı. Atam nə durub aralaşdırdı, nə bir söz dedi. Elə sakit-sakit baxdı. Anam hikkəli idi. Bu hikkə tez-tez aşkara çıxırdı.

Dediyim sözün ağzımdan necə çıxdığını sonra özüm də bilmirdim. Yalnız ikilikdə qalanda atam astadan dedi: Onun ki, xasiyyətini bilirsən, niyə dilini saxlamırsan? Mən evimizdə quyruqlu quzulardan olmamışam. Atılıb-düşən quyruqlu quzulardan. Demək istəyirəm ki, heç vaxt ərköyün deyildim. Bunları danışmaqda məqsədim başqadır. Axı hər şeyin kökü və onu əmələ gətirən səbəb var. Sənə hər şey aydın olmalıdır. Əsassız şeyə necə inanmaq olar.

Bir gün atam çıxıb getdi. Lap gülməli idi. Ağlamaq əvəzinə adamı gülmək tutur. Bilmirəm necə şeydi? Elə bil atam mənim onilliyi qurtarmağımı gözləyirmiş. Sonuncu imtahanı verib evə gəldim. İçəri girib gördüm ki, atam, kamançası əlində, harasa hazırlaşır. Fikirləşdim ki, indi qastrol vaxtı deyil. Atam hara gedir? Yanında kiçik çamadan vardı. Uzaq yerə gedəndə bu çamadanı götürürdü. Xeyli tutqun idi.

– Hara belə, ata? – deyə bir qədər təəccüblə xəbər aldım. Anam aynabənddə öz işi ilə məşğul idi. Dinib-danışmırdı. Son imtahandan gəldiyim də anamı maraqlandırmırdı. O daim mənə qarşı belə etinasız idi. Bir anama, bir atama baxdım:

– Nə olub? – soruşdum.

– Heç nə, mən gedirəm, – deyə atam sakit cavab verdi. Bir şey başa düşə bilmirdim. Atamın üstüörtülü cavabı bir də sual etməyimi məcbur etdi.

– Necə gedirsən?

– Mən ta bu arvadla yaşaya bilmərəm. Sən də məktəbi bitirdin, birtəhər başını saxlayarsan. Bu günə kimi evə nə qədər pul vermişəm, o qədər də verəcəyəm. Üstündən azacıq yemək-içməyimə götürəcəm. Mənə artıq heç nə lazım deyil. Sağ olun.

Bilmirəm bu, yuxu idi, yoxsa nə idi? Baş aça bilmirdim. Doğrudan da, atam getdi. Nə o, anam tərəfə, nə də anam

onun arxasınca baxdı. Mən yerimdə çaşbaş olub qaldım. Handan-hana anam əlindəki işindən ayrılmadan, başını qaldırmadan dilləndi:

– Qoy getsin, heç vecimə də deyil!

Mən hələ yerimdən tərpənməyib ona baxırdım. Fikirləşirdim, görəsən, doğrudan da, atamın evdən getməyi vecinə deyil? Anam artıq heç nə demədi. Onun hərəkətlərinə altdan-altdan fikir verirdik. Doğrudan da, atamın getməyi anamın vecinə deyildi.

Mən nə etməli idim? Başım çıxmırdı. Daha nə edim, içəri keçib paltarımı dəyişib ev paltarımı geydim. O paltarı ki, onda həmişə iş görürdüm. Elə bil onilliyi bunun üçün qurtarmışdım: iş paltarını həmişəlik əynimə geymək üçün, evin bütün daxili, kənar işlərini görməkdən ötrü. Onsuz da bunlar mənim üstümə qoyulmuş vəzifə idi. Görünür, bunları atam da çoxdan hiss edirmiş. Ona görə də qapıdan çıxanda ancaq mənə bir-iki söz dedi: «Birtəhər başını girləyərsən...»

Zənn edirəm, səni sözlərimlə darıxdırmıram. Axı sən həssas ürəklisən. Sənin həyat, insanlar haqqında fikrin, əqidən mənə məlum olduğundan səni darıxdırmayacağına inanıram. Biz neçə il bir yerdə yaşadıq. Həm də mənim atam, anam kimi yox. Mən səni sevirəm. Biz bu illər necə yaxşı yaşadıq! Ancaq bir səhvimiz oldu: ürəklər cəsarət edib bir-birinə bütün olanları demədilər. Sən də, mən də qorxduq. Qorxduq ki, bir-birimizi itirək. Gizli ürəklə bir yerdə yaşamaq həqiqi sevənlər üçün mümkün deyilmiş. Biz fikirlərimizin qarmaqarışıq vaxtında bir-birimizə qovuşduq. İndi isə ayrılırıq. Sən hər şeyi bilməlisən. Sən buna layiqsən. Ayrılıq yaransa da, mən indi daha yüngüləm. Ona görə yüngülləşmişəm ki, qəlbimi, nəhayət, açıb danışacaq adam var. Bu sənsən!

Məktəbi qurtarmağım münasibətilə məni kim təbrik edəcəkdi? Anam, dediyim kimi, heç vaxt mənə diqqətli olmamışdı. Mən onu ittiham etmək üçün bu sözü demirəm. Yalnız bacım sarılıb məni öpdü. Təbrik elədi. Mənə hədiyyə verdi, hədiyyə üçün çoxdan hazırlıq aparırmış.

Atamın getməyi bir sirr olub məni düşündürürdü. O özünə otaq kirayə eləmişdi. Biz hərdən görüşürdük. Anam mənim atamın yanına gedib-gəlməyimə etiraz eləməsə də, bir söz də soruşmurdu. Atam nə edir? Nə danışır? Nə soruşur? Kirayə etdiyi evin içərisində nə var? Nə yeyir? Nə içir? Elə bil neçə illər bir yerdə ömür edən bunlar deyildi. Bəzən axşamlar da atamla görüşürdük. Televizorun ekranında. Atam orkestrlə birlikdə çıxış edirdi. Yenə həmin yerdə otururdu. Sakit-sakit çalırdı. Anam daha ona baxıb zarafat eləmirdi. Əksinə, qalxıb bir şeyin bəhanəsi ilə aynabəndə keçirdi. Atam gedəndən sonra mənim «vəzifələrim» çoxaldı. Ev işləri ilə bazarlıq mənim öhdəmdə idi. Günlər keçdikcə anam məni əvvəl «oğlan», sonra «kişi» qələminə verməyə başladı. Mən nə oğlan, nə kişi qələminə verilmək istəmirdim. Bu, anamın «tərifi» idi. Məni oğlan kimi qələmə vermək o demək idi ki, günün hansı vaxtında evə nə lazım olsa getməliyəm. Mənə heç nə olmaz! Gündüzlər heç. Çox vaxt axşamdan xeyli keçmiş qayıdırdım. Evin «qəhrəmanı» olmuşdum. Qardaşımın dünya vecinə deyildi. Hər şey onun üçün hazır olmalıdır. Xörək bir dəqiqə gecikə bilməz. Hamı işə, dərsə gedirdi. O yatırdı. Durğuzmaq istəyəndə anam üstümə cumurdu:

– Bilmirəm gədədən nə istəyirsən, niyə qoymursan düzəməlli yuxusunu alsın. Gecə saat iki idi gələndə.

Əvvəllər bir-iki sözlə anama cavab verirdim. İnandırmağa çalışırdım ki, Mehrəlini belə ərköyün eləmək bədbəxtlikdir, avara olmağı bir yana, özünə yük olacaq.

Sözlərimin heç bir təsiri olmadığını görüb daha dinmədim. Onsuz da həmişə mənə deyirdi:

— Uşağın dərdi sənə qalmayıb. Elədiyini eləmirsən, eləmə. Özüm edərəm. Çox elə mənim vecimədir...

Mehrəli mənim üzərimdə qələbə çaldığını başa düşürdü. Buna görə də harada kefi istəsə, orada qalır, kefi istəyəndə saatlarla fit çalır, kefi istəyəndə dombalaq aşırdı. Mehrəli evlənmək fikrinə düşmüşdü. Bu fikri başına salan anam idi. Şəhərdə olan bütün qohumların qızlarını bir-bir Mehrəliyə sadalamışdı. Mehrəli bundan ona, ondan buna vurulurdu. Hər gecəsini qohumların birinin evində keçirirdi. – Ay ana, deyəsən, filankəs bundan yaxşıdır, – deyib, səhər yolunu dəyişirdi. Qohumların heç nədən xəbəri yox idi. Əgər Mehrəlinin hansı niyyətlə onlara gedib-gəldiyini bilsəydilər, yəqin ki, qoparağını götürərdilər. Mehrəli isə başqa fikirdə idi: Qohumlar onun üstündə bir-birilə üz-göz olur. Niyə olmasınlar? Minnətləri olsun ki, Mehrəli kimi oğlana qızlarını versinlər. Çox elə Mehrəlinin vecinədir. Nə çox şəhərdə əla qızlar. Mehrəlinin bircə himinə bənddirlər. Hamısı dəyər bir-birinə. Bu özündən razılıq hissini də Mehrəlinin başından çıxarmaq mümkün deyil. Mehrəlinin kefi kökələndə evi yuxarı-aşağı addımlayıb deyirdi:

– Sən ölməyəsən, bu dünyada bir ağa da olmadıq, qabağımızda heç olmasa üç-dörd qulluq eləyənimiz ola.

Anam şaqqanaq çəkib elə gülürdü ki, bütün bədəni titrəyirdi. Anam «dərdlərinə» məni şərik eləmişdi. Mənimlə olduğu vaxtlarda hey şikayətlənirdi. Bədənindəki müxtəlif ağrılara dözə bilmədiyini deyirdi. Həkimə qaçırdım, dərman üçün ora-bura yüyürürdüm. Evə qayıdan kimi «Gəl məni ovxala», – deyirdi. Vur-hay salıb inandırmağa çalışırdım ki, onun heç bir xəstəliyi yoxdur, hətta həkimlər də dəfələrlə özünə bu haqda deyirdilər. Mehrəli, bacım

gələndə işlər dəyişirdi, anam sağalıb başqalaşırdı. Qanadlanırdı. Ayaqları yera dəymirdi. Mənim də kefim kökəlirdi. Rahat nəfəs almağa başlayırdım. Dərmanları götürüb gizlədirdim. Mehrəlinin yeməyi üçün bir şey kəm olanda məni bazara qaçırırdı. Tez, bir-iki dəqiqəyə qayıtmalı idim ki, Mehrəlinin iştahası qaçıb, xörəyi soyumasın. Bazar alverçiləri məni tanımağa başlamışdılar. Nə üçün tanımasınlar? Gündə neçə dəfə bazarlara baş vurmalı olurdum.

Mehrəli ət xörəyi yeməyəndə anam özünü elə aparırdı ki, elə bil bədbəxtlik üz verib. Bütün günü əsəbi halda dolanırdı. «Ağrıları» tərpənirdi. «Xəstələnirdi». Səbəbkar mən olurdum. Belə vəziyyətin yaranmasına imkan verməməliydim. Bütün tapşırıqları yerinə yetirməli idim. Getdikcə tapşırıqlar mənim üçün qanuna çevrildi. Necə? Nə cür? Tapşırığa gücüm çatırmı? Bu barədə soruşan yox idi. Mən vəzifəmi yerimə yetirməliyəm. Vəssalam.

Mən anamın əsəbləşməyini istəmirdim. İstəyirdim onu həmişə şən görüm. Nə olur-olsun, təki onu xəstə görməyim. Mənim bu cəhətimi anam özü də, deyəsən, bilirdi. Bilirdi ki, mən onun dediklərinə əməl edəcəyəm. Bu necə iş idi, başa düşə bilmirdim. Yoldaşlarım mənə deyirdilər ki, mən xəstəyəm. Mən onları divara söykəyib deyirdim: Kimdir xəstə? Mənə deyirdilər gücünün çox olmağına baxma. Sən dünyada ən gücsüz adamsan.

Bunların nə demək olduğunu mən sonralar dərk elədim. O vaxt dərk etdim ki, artıq gec idi. Mən həyatımı geri qaytara bilməzdim.

Anam bütün varlığı ilə Mehrəliyə, kiçik bacıma bağlı idi. Buna baxmayaraq, bacım mənə deyirdi:

– Anam necə çalır, sən də elə oynayırsan.

Bacımın sözlərini uşaq söhbəti hesab eləyib gülsəm də, düz dediyini başa düşürdüm. Heyhat ki, özümlə bacara bilmirdim.

Günlər tək-tək ötürdü. İşlər də artırdı. Sən demə, günlər tez-tez ötürmüş. Gözlərimdən oğurlanıb neçəsi birdən keçib gedirmiş. Gözümü o vaxt açdım ki, mənimlə oxuyan rəfiqələrim institutu bitirmək ərəfəsindədirlər. Onlarla rastlaşandan sonra düşünürdüm: Rəfiqələrim nə qədər yüksəlmişlər... Danışıqları, geyimləri başqalaşmışdı. Mənim həyatım isə xırdalanıb, sürünürdü. Hiss edirdim ki, rəfiqələrimlə rastlaşanda özümü sərbəst hiss edə bilmirəm. Sıxılıram. Həyatın müxtəlif sahələrindən söz salırdılar. Az müddətdə insan bir-birindən nə çox uzaqlaşır? Tez aralanıb getməyə çalışırdım. Düşünürdüm ki, bunlara nə var ki, ana, ailə veclərinə deyil...

Rəfiqələrim haqqında səhv etdiyimi anlayırdım. Onlar heç də mən düşünən kimi deyildilər.

Bizə təzə ev verdilər. Təzə mənzil alacağımız ağlımıza da gəlmirdi. Bu, birdən oldu. Xeyli vaxt var idi ki, atam ev üçün çalışırdı.

Atamın evdən çıxıb getməsinə bir səbəb də ev üstündə anamdan eşitdiyi danlaqlar idi. Anam deyirdi ki, bu dünyada, görünür, bir gün də rahat yaşamayacaq. Belə bacarıqsız kişilər bilmirəm niyə evlənirlər. Axır, atam gedəndən sonra olsa da, bizə ev verdilər.

Təzə evlər, şübhəsiz, yaxşı idi. Mənim görməli işlərimin müəyyən qismi ixtisara salınsa da, müəyyən qismi artırdı. Rəfiqələrimin bəziləri bizə qonşu idilər. Ən yaxın qonşumuz Zəminzadə idi. Zəminzadə haqqında sənə danışacağam. İndi anamın necə sevindiyini demək istəyirəm. Anam sevinirdi ki, bizə üçgözlü mənzil veriblər. Bu barədə atamın fəaliyyətindən danışmırdı. Şikayətlənirdi ki, təzə ev olsa da, gərək təmir edilə. Onu da kim edəcək? Atam kirayə elədiyi mənzildə qalıb, yenə sakit-sakit kamançasını çalırdı. Anam deyirdi Mehrəlinin arvad almaq məsələsi həll

olunmuş kimidir. Əsas məsələ ev idi, ev də var. Ancaq təzə evə köçəndən sonra bir məsələ ortalığa düşüb yeni problem oldu.

Problem Mehrəlinin instituta girməsi idi. Məsələ ona görə çox çətin idi ki, Mehrəli güc-bəla ilə orta məktəbin axşam şöbəsini qurtarmışdı. Anam Mehrəlinin qiyməti üçün bütün ili məktəblərə ayaq döydü. Müəllimləri üz-gözdən saldı. Mehrəlinin iki aldığı dərsdən qiymətini düzəltdirdi. Axır Mehrəli məktəbi qurtardı. İndi isə imtahan verib instituta girməli idi. Bunun üçün beynində heç bir şey yox idi. Daşkəndin haranın paytaxtı olduğunu Mehrəli bilmirdi. Bir pis iş də bu idi ki, Mehrəlinin yaddaşı yox idi. Mən deyəndə ki, yaddaşsızlıq Mehrəlinin bədəninin çəkisindən, ölçüsündən, ifrat dərəcədə çox yeməyindən əmələ gəlir, anam az qalırdı baxışlarındakı odla məni yandırsın. Anamın hökmü belə idi: Mehrəli ali məktəbə girməlidir.

Bu işə hamı qarışmalı idi. Başda mən olmaq şərti ilə. Ancaq necə? Hansı yolla, hansı vasitə ilə mən Mehrəlinin instituta girməsinə kömək etməliydim? Bu haqda anam heç nə bilmək, eşitmək istəmirdi. Mən Mehrəliyə ancaq dərslərini hazırlamaqda kömək edə bilərdim. Bu da istənilən nəticəni verməzdi, çünki başqa işlərə başım elə qarışmışdı ki, məktəbdə öyrəndiklərimi unutmaqda idim. Anamın söhbətindən məlum olurdu ki, məsələ heç də hazırlaşmaqdan getmir. Bu, dəryada balıq sevdası kimi şeydir. Uşağın başını tovlayıb onu avara qoymaqdır, kömək eləmək lazımdır, Mehrəli instituta girsin, vəssalam! Mən də ürəyimdə deyirdim: «Vəssalam!». Ancaq hansı biliklə, nəhayət, hansı yolla?

Anam Mehrəlinin instituta girməsi üçün ona görə əl-ayağa düşmüşdü ki, Mehrəlinin qız almaq niyyəti ilə qohumların evinə gedib-gəlməyini biləndən sonra qoparağını

götürüblər, Mehrəliyə üz vermirdilər. Anam eşidib inciyəndə qohumları Mehrəlinin evlənmək əhvalatını başlarından eləməkdən ötrü deyirdilər ki, heç olmasa Mehrəli ali məktəbə girsin. Onlar da görsünlər ki, «kürəkənləri» oxuyur. Yoxsa bu vəziyyətdə Mehrəli kimin nəyinə gərəkdir? Çox yeyib, mədəsi pozulmaqdan başqa heç kimə, heç nəyə xeyri yoxdur. Qohumları, xüsusilə qızlar Mehrəlinin qeyrətinə bələd idilər. Bilirdilər ki, Mehrəlidən oxuyan çıxsa, daşdan adam olar. Anasının ayaqlarından öpsün ki, orta məktəbin vəsiqəsini aldı.

Rəfiqələrimlə görüşəndə söhbət başqalaşırdı. Evdəki söhbətlər gözümdə kiçilirdi. Mənə elə gəlirdi ki, kim isə məni bataqlığa salıb. Bədənimin tən yarısı bataqlıqdadır. Güclə ayağımın birini götürüb o birini qoyuram, irəli getmək əvəzinə yerimdə sayıb bir az da bataqlığın dərinliyinə batıram. Rəfiqələrimdən ayrılanda fikrim dönüb yenə anamın üstünə qayıdırdı. Mehrəlinin institut işinə kömək edə bilməyəcəyimi ona dediyim üçün özümü danlayırdım. Min dəfə danlayırdım: «Anamın qəlbini niyə sındırdım?» O, Mehrəlinin instituta girə bilməməsi üçün xiffət edə bilər. Dərd çəkər, xəstələnib yorğan-döşəyə düşər. Onda mən nə edərəm? Bazar-dükan işlərimi tez qurtarıb evə özümü tez çatdırmaq istəyirdim ki, anama deyim Mehrəlinin işi üçün fikir eləməsin. Zarafatla kömək etməyəcəyəm deyirdim ki, görüm mənə acığın tutacaqmı? Nə olur-olsun, çalışmaq lazımdır, Mehrəli instituta girsin. İnstitutu bəhanə edib Mehrəliyə qız vermək istəməyən qohumların sözləri kəsilsin. Evə qayıdanda dediyim kimi də edirdim. Hələ anamı qucaqlayıb öpürdüm də. Deyirdim zarafat eləmişəm. Mehrəlinin institut işinə çalışacağam.

Gözləyirdim ki, anam heç olmasa özü arxayın olmaq üçün mənə deyəcək:

– Hansı yolla sən Mehrəlinin instituta girməyinə kömək edəcəksən?

Belə bir sualı verməyi bir yana dursun, əlimi boynundan dartıb məni özündən kənara itələdi:

– Rədd ol! Hövsələmi bir tikə eləmə. Sənin köməyin başına dəysin. Elə bilirsən səndən minnət götürəcəyəm? Bilmirəm uşağın dərdi niyə düşüb ürəyinə? Ona nə vermisən ala bilmirsən? İşin-gücün Mehrəli ilə çəkişməkdir. Cəhənnəmə kömək elə. Atan çıxıb getdi, dolana bilmədim? Heç vecimə də deyil! Allah vara on il bundan qabaq gedəydi. Mənə minnət qoyma. Kömək eləmirsən, eləmə. Heç vecimə də deyil. Qoy kim nə deyir, desin. Olub-qalanımı sataram, uşağımı düzəldərəm instituta. Sən öz dərdini çək! Sənin üzündən qurtarsaydım, heç vaxt ölməzdim. Uşaqla çəkişmən daş olub tıxanıb boğazıma. Daha nəfəs ala bilmirəm.

Nə edim? Nə deyim? Anama baxırdım, baxırdım. Baxa-baxa qalırdım. Dönüb mətbəxə gedəndə görürdüm, Mehrəli arxamdan gözlərini mənə ağardıb dayanır. Elə bil hər tərəfdən üstümə qəzəblər yağırdı. Qəzəblər məni təngə gətirirdi. Bəlkə, bir yol axtarıb qəzəblərdən yaxamı qurtarım, – deyə düşündüyüm vaxtda müqəssir özümü bilirdim.

Bütün günü çalışırdım anamın ürəyini alım. Onu danışdırıb güldürüm. Təzə evdə çatışmayan təmir işləri üçün adam tapıb gətirirdim. Lazım olan nə varsa, düzəltdirirdim. Bunlar böyük təmir işləri deyildi. Haqqını anam özü verirdi. Təmirçilər çıxıb gedərdilər. Anam görülən işləri baha danışdığımı deyirdi. Yaxşı, həm də ucuz iş görən usta tapmaq olardı. Ancaq kim tapsın?

Birdən bacımın yolu təsadüfən bizə düşürdü. Anam bütün vaxtı məndən şikayətlənirdi. Bacım mənə nəsihət, məsləhətlər verirdi. Ananın nə demək olduğunu başa

düşmədiyimi söyləyirdi. Mən nə qədər kobud adamam. Ustaya kiçik bir iş üçün bir ətək pul verirəm. Halbuki dilə tutub pulun yarısını vermək olar. Mehrəli özgə deyil. Qardaşımız, canımız-ciyərimizdir. Özü də anamız onu necə istəyir! Mehrəlinin institut işinə kömək etmirəm, etməyim. Daha arvadı hirsləndirib xəstələndirmək nə üçündür? Bunlar nə axmaq hərəkətlərdi, mən edirəm. Heç olmasa, camaatdan, qonum-qonşudan ayıbdır. Eşidib bilən mənə nə deyər. Deməzlər anasına divan tutan qız başqalarının nəyinə gərəkdir? Qıza kənardan fikir verirlər. Özünü necə idarə etməyini ətraf qonşudan soruşub öyrənirlər. Qonum-qonşu nə deyər? Desinlər ki, evdə bütün günü anasını əsəbiləşdirir, gün vermir? Xətrimə dəyməsin, mənim kimi qızlar ömürlərinin sonuna kimi evdə qalırlar.

Mehrəli bacımın sözlərindən qeyzə gəlib dilləndi:

– Budur da, hər dəqiqə anamı hirsləndirir. Bir işi görəcəksən ta nə naz-qoz eləyirsən?

Bacım gedərdi. Üzbəüz verdiyi nəsihətlərlə kifayətlənməyib, poçt vasitəsi ilə iri bir məktub göndərərdi. Ananın müqəddəsliyindən danışardı. Zəng vurub məktubu alıb-almadığımı soruşurdu.

Söhbətlərə kiçik bacım qarışmazdı. Amma hey üzümə baxardı. Hiss edirdim bu baxışlarla mənə nə isə demək istəyir.

Otaqlar bomboş idi. Köhnə yaşadığımız otağa çox şey alıb qoymaq, əvvəla, mümkün deyildi. Həm də ki, atam sənətkar adam idi. Yalnız əlinin təmiz zəhməti ilə pul qazanırdı. Nə qazanırdısa bizə sərf eləyirdi. Atamla mübahisəsində anam deyərdi ki, evə az pul gətirmək fərasətsizlikdir. Anama isə pul lazımdır. Otaqlar dolmalıdır. Mehrəliyə bir otaq ayırıb içərisini bəzəmək lazımdır. Anam gəlib-gedənlərdən xəcalət çəkir, başqa heç nə vecinə deyil, bircə

evlərin içərisini düzəldib, Mehrəlini instituta qoya bilsəydi, bundan sonra min yaşardı.

Gecənin çox hissəsini yatmırdım. Anamın arzuları yerinə yetəydi. Onda anam xoşbəxt olacaq. Mən də bunu istəyirəm.

Bazar-dükanlara elə öyrənib vərdiş eləmişdim ki, evdə oturanda darıxmağa başlayırdım. Fikirləşirdim ki, nə qalıb almamışam. Təzə tanış olduğum satıcı qıza neçə gündür dəymirəm. Mənə deyir ki, bu qədər gedib-gəlirəm, arada xeyirli iş görmək olar. O, satışda tapılmayan kişi tuflilərini mənə verə bilər. Pulunu qabaqcadan ödəyə bilməsəm də, eybi yoxdur. Satandan sonra verərəm. Mənə artıq pul qalır: Görəsən, necə olar? Götür-qoy edirdim. Təklif olunan işi bacara bilərəmmi? Ağlıma gətirə bilmirdim. Əgər bacarsam?..

Bir iş görməli idim. Evdə böyük övlad mən idim. Pulun azlığından anam şikayətlənməyə başlamışdı. Başa düşürdüm. Mən nə vaxta kimi himayəçi olmalı idim? Nəyə görə ailəyə bir tərəfdən də mən kömək durmayım? Anama indi pul, özü demişkən, hava, su kimi lazımdır. İşə girməyimə təzə mənzilə köçənə kimi anam razı deyildi. Bazar işləri tökülüb qalacaqdı. Özü yol gedə bilmir, yorulur, təngnəfəs olurdu.

Satıcı qızın mənə elədiyi təklifi, görəsən, anama desəm, o, bu işə necə baxar? Razılıq verərmi ki, mən alverə başlayım? Satıcı and-aman eləyirdi ki, xeyli pul qazanaram. Kişilər qadın satıcılara qarşı xoşrəftar olurlar. Pula qızırqalanmırlar. Qalan bu pula anam yavaş-yavaş istədiyi ev şeylərini ala bilər. Kefi kökəlməyə başlayar, Mehrəli üçün toy tədarükü edər. Lap yaxşı. Nə olur-olsun, anam razı qalsın. Nə ondan, nə Mehrəlidən başqa təmənnam yoxdur, əksinə, istəyirəm Mehrəlinin bütün işləri anamın arzu elədiyi kimi yerinə yetsin.

Bir görüşümüzdə qız təkid edirdi ayaqqabıları götürüb aparım. Şəhər dükanlarında belə çəkmələr yoxdur. Gündə

yüz adam gəlib Çexoslovakiya ayaqqabısı xəbər alsa, azdır. Özü də ən münasib ölçülərdir.

İşimin adı nədir? Bir işin adı alver ola, bunun nəyi pisdir. Bu işlə məşğul olanlara baxmaq olmur, geyimləri göz qamaşdırır. Beli toqqalı vəhşi pişik dərisindən şubalardan tutmuş, rəngli uzunboğaz çəkməyədək. Təkcə ikicəciyinin 6–7 yüz manat qiyməti var. Vay Allah... Mən də əlim əsə-əsə qəpikləri sanayıram ki, birdən biri yerə düşər, əskik olar. Satıcı qızdan utana-utana xahiş elədim ki, anama deyim, sonra çəkmələri gəlib götürərəm. Bu şərtlə o ilk günlər kömək eləsin. Söz verdi. Ancaq bu ərəfədə başqa iş ortalığa çıxdı. Evə gəlib anamı elə şən gördüm ki, gözlərimə inanmadım, bu şən adam mənim anamdır. O, həmişə məni – istidən, soyuqdan gəlim fərqi yoxdur – qaşqabaqlı, xəstəhal vəziyyətdə qarşılayırdı. Gözümü açıb ağlım kəsəndən bu belə idi. İşlər görünməmiş dərəcədə dəyişmişdi. Anam əlində stəkanı silə-silə üstümə gəldi:

– Sumkanı qoy bir tərəfə, – dedi, – sən lap əldən düşdün.

Təsəvvür edə bilməzsən anamın şən olmasına necə sevindim. İlk dəfə ondan qayğılı söz eşitdim. Min dəfə artıq belə yorulaydım, təki anamı qaşqabaqlı, sızıldayan görməyəydim. Bu sözlərim sənə gülməli gəlməsin. Məni başa düşəndən sonra biləcəksən ki, başıma gələnlər nə deməki imiş! Danışdıqlarım həyatım üçün nə qədər vacib imiş. Hər şeyi məktubu oxuyub qurtarandan sonra biləcəksən. Sənin üçün çox şeylər üzə çıxacaq. Çox sirlər bəyan olacaq. Yalnız səbir lazımdır. Səbir lazımdır ki, məktubumu sona kimi oxuyasan. Axı biz ayrılırıq. Mən uşaqlarımı qoyub gedirəm. Elə bilmə hər adam, hər ana bunu bacarar. Xeyr. Bunu canilər edə bilər. Mənə cani deyəcəklər. Desinlər. Bu sözü eşitmək asandır. Bəlkə, canidən daha kəsərlisini tapıb deyəcəklər. Bununla özlərini dünyanın ən müqəddəs adamı

zənn edəcəklər. Doğrudan da, doğmalarının bir saat ayrılığına dözə bilməyən ana həmişəliyin ayrılığına necə tab gətirər? Belə deyilmi, Alaz? Amma mən deyirəm: Yox. Görünür, ana üçün övladdan güclu hislər var. Onun təmiz hisləri zorakılıqla çıxılmaz vəziyyətə salınıb pozulursa, o öz-özündən, ən böyük, ən müqəddəs arzularından da qaça bilər. Hələlik sənin mənə son borcun odur ki, məktubu səbirlə oxuyasan. Səndən ömürlük ayrılsam da, hər şeyi sənə etiraf etdiyim üçün xoşbəxt olacağam.

Anamı şadlandıran səbəbin nədən ibarət olduğunu bilməyə tələsirdim. Kaş anamı mənə qarşı qayğılı, şad görəndə mənə baxaydın. Onda deyərdin ki, dünyanın əsl xoşbəxt adamını görmüsən. Məncə, bədbəxt o kəsdir ki, onunla birlikdə doğulub böyüyənlər belə onu dərk edib duya bilmir, onun ürəyində nələr yatdığını anlamırlar. Belə dərk edilə bilməyən adamlar həyatda ən çətin həyat sürənlərdir. Belələrinin yükü necə ağır olur. Onlar bu yükü tək necə çəkib aparırlar? Başa düşməyən, anlamayanlar da onlara bir yükdür. Ən ağır yük!

Anam dedi ki, bir az hövsələ edim. Bu saat hər şeyi danışacaq. Mehrəlini rahatlasın sonra. Mehrəli ağzını yandıra-yandıra çayını içdi, çörəyini yedi, yoldaşlarına qoşulub hind kinosuna baxmağa getdi. Deyirdilər orada gözəl bir qız var, yaman oxuyur...

Mehrəli getdi. Anam məni oturtdu qabağında.

– İndi qulaq as, – dedi. – Sənə təzə qonşumuzdan danışacağam.

Anamın yanında oturub maraqla onu dinlədim.

Təzə qonşumuza dördotaqlı mənzil verilmişdi. Küçəyə baxan balkonlarımız az qala bitişik idi. Deməli, anamla təzə qonşumuz küçə balkonunda görüşüb tanış olmuşdular. Qonşumuz özü anamı dindirib, çoxdan onu tanıyan

adam kimi hal-əhval tutub, bizim də təzə evimizi təbrik eləmişdi. Ailəmizin tərkibini dəqiq xəbər almışdı. Atam kimdir? Neçə başıq? İşləyənimiz neçə nəfərdir? Uşaqlar harada oxuyur? Atam haradadır? Gələndən gözümə dəymir? Atamın adı ona elə bil tanış gəlir. İndi evdə deyil? Bir kişini görüb söhbət eləmək olardı.

Anam atamın haqqında söz deməyib başını aşağı salanda daha qoşumuz heç nə soruşmayıb. Arif adama oxşayır. Anam utanıb başını aşağı salanda işin nə yerdə olduğunu başa düşüb. Gözlərini qayğıkeşliklə qıyıb, fikrə gedib. Anam hiss edib ki, qonşumuz xeyli mütəəssir olub. Mənim oxumadığımı bilib, anam Mehrəlinin institut işinin ona böyük dərd olduğunu deyib. Qonşumuzun qırmızı yanaqları yumurlanıb, gülüb:

– Afər necə? – Sonra əlini-əlinə vurub gülüb. – Ay səni, Azadə xanım, yamanca övladlarınıza fərq qoyursunuz. Əksinə, birinci növbədə qızı instituta düzəltmək lazımdır. Oğlana nə var, öz başına çarə çəkəcək. Bəs Afət, kiçik qızınız? O nə vaxt orta məktəbi bitirir?

Anam Afətin qurtarmağa hələ iki ili qaldığını bildirir. Mehrəli haqqında qonşunun dedikləri əhvalını qarışdırır. Əlavə edir ki, onun bütün dərdi Mehrəlidir. Qonşu görür anam üçün bütün dünyanın başı Mehrəlidir. Buna əmin olandan sonra Mehrəlinin institut işinə kömək eləyəcəyini deyir. Anamı əmin edir ki, məsələ, doğrudur, çətindir, amma düzələr. Anamın sevindiyindən ancaq uçmağa qanadı çatmır. Qonşuluqda həmişə itaətdə olacağını söyləyir. Dönə-dönə təvəqqe eləyir ki, qonşumuz istədiyi xörəklərdən bir neçəsinin adını desin. Xörəyi yaxşı hazırlayır. Xüsusilə xəmir xörəklərini. Hələlik əlindən bir iş gəlməsə də, qonşu zəhmət çəkib evimizə keçər. Anam, biz ona qulluq edərik. Qonşumuz anamın dəvətini rədd eləmir, ək-

sinə, çox xoşhal olur. Bir dəfə nədir, həmişə gələcəyini bildirir. Hələlik bir balaca başı qarışıqdır. Ancaq biz mütləq, lap bu gündən onlara ayaq açmalıyıq.

Anamı sevindirən o idi ki, təzə qonşumuz xırda-xuruş adam deyildi. Paqonları var. Böyük vəzifə sahibidir. Anamın belə söyləməyə əsasları vardı: yoxsa dördotaqlı mənzil verməzdilər. Ailəsi böyük deyildi. Arvadı, bir qızı, bir oğlu. Anamın yüksək vəzifəli olmasını deməyə bir əsası da bu idi ki, qonşumuz qara maşında gedib-gəlirdi. Qara maşın xüsusi adamlarda vardı. Məsələ burasındadır ki, maşın onun arxasınca gəlir. Şofer qapıda gözləyir. Qonşumuz düşür, minib gedir. Bazarlıq maşınla gəlir.

Yüksək vəzifə, qara maşın anamın öz mülahizələri idi. Çox ola bilər maşın qonşumuzun şəxsi malı olsun. Bu barədə anamla söhbət açmaq qeyri-münasib olardı. Mən onun duru kefini bulandırardım. Yəqin, bir gün qonşular bir-birini yaxşı tanıyacaq. Onda hər şey aydın olacaq. Qonşumuz sadə bir işçi də ola bilərdi. Məsələn, sahə milisi. Mən bu fikirdə idim. Fikrimin nə dərəcədə düz olub-olmamasından asılı olmayaraq anamı dərk etdiyindən döndərmək mümkün olmazdı.

Qonşumuz bizim kimi dərhal verilən təzə mənzilə köçməmişdi. Bir neçə ay mənzilin ağzı bağlı qaldı. Axşamlar sezirdik ki, hərdən qapı açılır. Ayaq səsləri gəlir. Az sonra ayaq səsləri kəsilirdi. Daha səs-səmir eşidilmirdi. Təkotaqlı qonşumuz qadın idi. Evi söküldüyündən ona bu binada mənzil vermişdilər. Oğlu-qızı olduğu halda qarşısına məqsəd qoymuşdu ki, tək yaşayacaq. Onu qərarından çəkindirə bilməmişdilər. Bizə gəlməyə başlamışdı. Qapısı bağlı dördotaqlı mənzilə kimin gəlməsi ilə maraqlanırdı. Bir vaxt gördük ki, mənzildə təmir işi başlayıb. Təmir altı aydan sonra qurtardı. Qonşumuz köçüb gəldi.

Təzə qonşumuz demi çəkirdi. Tez-tez demini qalın dodaqlarının arasından götürüb artırmanın məhəccərinə döyəcləyib içərisini boşaldırdı. Belə vaxtlarda əlinin birini şalvar cibinə qoyub sinəsini bir qədər irəli verərək şux dayanırdı. Hərəkət elədikcə, belindəki bərk çəkilmiş enli kəmər xışıldayırdı. Balkonda belə durub anamla danışdığı vaxt hündür, möhkəm görünürdü, özü isə ortaboy adam idi.

Evimizdə bütün günü söhbət dördotaqlı mənzilə köçmüş paqonlu adamdan gedirdi. Söhbəti anam başlayıb, anam qurtarmalı idi. Anam qonşu haqqında son dərəcə ehtiyatlı danışırdı, ehtiramlı hərəkətlər edirdi. Anam istəyirdi ki, təkotaqlıda yaşayan qonşu qadının ayağı birdəfəlik evimizdən kəsilsin. Anamın fikrincə, qadın sözgəzdirənə oxşayırdı, bir də allah göstərməsin cındırından, necə deyərlər, cin ürkür. Anama elə gəlirdi ki, paqonlu qonşumuzun da qadından xoşu gəlmir.

Anamın demi çəkən qonşumuza qeyri-adi rəğbəti məni düşündürsə də, anamdan heç nə xəbər almırdım. Hər dəfə şəhərdən evə qayıdanda anam yenə məlumatla üstümə gəlirdi:

– Kişinin, kişi nədir, maşallah, cavan oğlandı, bilirsən nə yaddaşı var? Gələn günü bircə dəfə sənin, bacının adını xəbər almaqla yadında saxlayıb, hər mən görəndə sizi soruşur. Bilirsən necə ailəsi var?..

Anam demi çəkən qonşumuzun arvadı Bədirəni, qızı Hekayəti, oğlu Dönməzi tərifləyirdi: – Qohum-əqrəbaya necə ürəyi yanır!..

Qonşumuzla gələcək yaxınlıq çox çəkmədi. Lap tez başladı. Tezliyə səbəb həm Zəminzadə, həm də arvadı Bədirə xanım oldu. Bu işdəki müvəffəqiyyətlərində onları bir-birindən ayırmaq, birinə daha çox üstünlük vermək olmazdı. Ancaq mənə elə gəlirdi ki, Zəminzadə necə olsa

iki ailə arasında yaranan yaxınlıqda daha çox rol oynadı. Bədirə xanım, anam dediyi kimi, ürəyiaçıq adama oxşayırdı. Məni, Afəti yaxından tanıyandan sonra bizdən əl çəkmirdi. – Oğlanla o qədər aram yoxdur, – deyirdi. – Qız üçün ölürəm. Özümüzünkü üçün də beləyəm. Qızı çox istəyirəm.

Bədirə bu sözləri ilk görüşümüzdə dedi.

İlk görüşümüzdə Bədirənin mənə dediyi sözlərdən biri də bu idi: yaman çox bazara qaçırsınız. Bir gündə neçə dəfə gedib-gəldiniz. Balkondan sizi görürdüm. Lap ürəyim ağrıdı. Kişiyə dedim ki, qonşumuzun gül parçası qızı bazara gedib-gəlməkdən həlak oldu. Doğrusu, kişini fikir götürdü. Dedim ki, bir çarə tapmaq lazımdır. Tərs kimi bazar da uzaqdır...

Bədirə danışdıqca gözlərini üzümdən götürmürdü. Hər şeyi başa düşdüyünü deyirdi.

Səhər işlərinə yenicə başlamışdım, qapı döyüldü. Fikir verdim ki, evə köçəndən qapımız belə döyülməyib. Qapı bir neçə dəfə fasilə ilə və nəzakətlə döyüldü. Yaxınlaşdım:

– Kimdir? – Mən də ehtiyatla xəbər aldım ki, anam oyanmasın.

– Xahiş edirəm açın, qonşudur.

Qonşu sözündən sonra qapını açdım. Qapımızda dayanan adamı tanıdım. Demi çəkən qonşumuzun sürücüsü idi. Sürücünün özündən qabaq üzü güldü. Dodaqları tarım çəkildi, tutulub bərabər mişarlanmış kimi görünən dişləri ağardı. Əyilib bir söz demədən iki dolu zənbili içəri qoydu. Belini düzəltdi. Yenə güldü:

– Sizə çatacaq!

Sürücü daha heç nə demədi. Dönüb getmək istəyəndə mən onu saxlayıb xəbər almaq istəyirdim ki, zənbildəkilər nədir, bunları kim bizə göndərib. Key kimi idim. Sürücü

hələ də qapının açıq qaldığını və mənim getməyib qapı ağzında dayandığımı hiss edib geri baxdı. Yenə gülüşlə əlavə elədi:

– Bədirə xanım göndərdi ki, siz bu gün daha bazara getməyəsiniz.

Sürücü getdi. Mən qapını örtüb şeylərə əl vurmayıb anamın durmasını gözlədim.

Evləri, mətbəxi sahmana saldım. Çay qoydum. Fikrimdə göndərilən şeylər idi. Anam durub zənbilləri görəndə nə deyəcək? Anamın səsi gəldi:

– Bu uşağın üstünə baxsan, dünya alt-üst olardı?

Qorxdum, görəsən, nə olub? Yanına getdim. Anam Mehrəli yatan otaqda idi.

– Gedənin üstü görmürsən açılıb? Niyə bunun qəsdinə durmusan, bilmirəm?

Söz demədim. İki zənbil anam üçün iki zənbil sevinc gətirdi. Yaşmanıb kəlağayısının ucunu iki dəfə aşağı dartdı ki, başında yaxşı dayansın.

– Bu boyda xəcalətdən necə çıxaq, ilahi!

Anamın sözü bunlar oldu. Sözlər ürəyimdə qabara çevrildi. Qabarın sağalacağına ümidim qırıldı. Qəfil məni dərin, kor quyuya atdılar. Elə quyuya ki, mən orada işığa heç vədə çıxa bilməyəcəyəm.

Anamın məni yanında oturdub mənə danışdığı sözlər çox idi. Onlardan azını sənə danışdım. Söhbətin mərkəzində mənim Zəminzadənin evinə gedib-gəlmək məsələm dururdu.

Anam təkrar-təkrar deyirdi ki, qonşumuzun ailəsində əksər adam zənənlərdi. Doğrudur, ətrafında üç-dörd kişi fırlanır, kişi deyəndə ki, gədə-güdədi. Əlinin altında ora-bura buyurur. Qonşumuzun evindəkiləri anamın sadalamaqda məqsədi aydın idi: Mən heç nədən çəkinmədən

demi çəkən qonşumuzgilə gedə bilərdim. Axı onların bizə ürəkləri yanır, mənim çöl-bayır işim qəlblərini ağrıdır. Bizə heyifləri gəlir. Belə olanda biz nə üçün qonşumuzun işgücündən yapışmayaq, evlərinə gedib-gəlməyək. Qonşumuz necə sadə insandır. Adi adamlarla bir yerə köçüb yaşayır!

Anamın dediklərindən başa düşürdüm ki, mənim ayağım daha bazarlara az dəyəcək, bəlkə də, heç dəymədi.

– Şükür, bir düz-əməlli qonşuya ürcah olduq!

Bazarlardan azad oluramsa, demək, boş vaxtı Bədirə xanımla olmalıyam. Belə adamlarla qaynayıb-qarışmaq xoşbəxtlikdir. Gecə-gündüz anam mənim başıma bu fikri yeridirdi.

Anamın sözünü təsdiq eləmirdim. Ancaq etiraz da etmirdim. İstəmirdim ki, dediyinə görə, son vaxtlar onda əmələ gələn başağrısı tərpənsin. Bədirə məndən möhkəmcə yapışmışdı. Bir saat aralı dura bilməyəcəyini deyirdi:

– Vallah, qadınlar da bir-birinə vurulur!

Bədirə ərinin nə qədər gözəl xasiyyətli adam olduğunu hər dəfə söyləyirdi. Onun evində mən darıxa bilərdim. Fikirləşə bilərdim ki, qonşuda bu qədər gün keçirməyim ayıbdır. Təzə qonşumuzun acığı tutar. O, işdən gəlir, dincəlib istirahət etməlidir. Bədirə and içib məni inandırmağa çalışırdı ki, Məmmədyar Zəminzadə evinə gəl-get barədə onun özündən qat-qat üstün adamdır. O, ərinin adını çəkəndə öz-özümə dedim: – Deməli, qonşumuzun adı Məmmədyardı. Məmmədyarın ailəmizə xüsusi hörməti var. Hətta mənim, Mehrəlinin institut məsələsi onu ilk günlərdən düşündürür. Anama təqaüd düzəltmək fikri var. Anam qabaqlar bir müddət ZAQS-da işləmişdi. Sonra işdən getmişdi. Səbəb savadsızlığı olmuşdu. Yoxsa indi o da beş adamın biri idi.

Məni işə düzəltmək lazımdır. Tək atamın pulu ilə ailənin dolanması çətindir. Puldan başqa iş adamın gözlərini açır, fəal edir. Gül kimi ailədi. Təzə mənzil, içərisi boş. Yazıq qızlar. Yanlarına bir adam gələndə, yəqin, xəcalət çəkirlər. Azadə xanım necə olsa anadır, bunlar ona dərddir. Dinmir, amma ürəyinə yığılır. Atamı məzəmmət edib anamla barışdırmaq lazımdır.

Zəminzadənin vədləri anamın başının ağrısını kəsir, mənim ürəyimdə bağlanan qabara düyünlər vururdu.

Bədirə ərinin zənglərini tanıyırdı. Çalınan kimi mənə baxıb gülürdü: Zəminzadədir. Bədirə ərinin adını çox az hallarda çəkirdi. Familiyasını deyirdi. Hiss edirdim ki, bununla Bədirə ərinə böyük ehtiramını nümayiş etdirir. Zəminzadənin gəldiyini biləndə Bədirə mənə deyirdi ki, gizlənim. İçəri girən kimi məni xəbər alacaq. Uşaq cəldliyi ilə qaçıb qapını açırdı. Zəminzadə heç vaxt evə sakit girmirdi. Ayağının birini göyə qaldırıb yavaş yerə qoyurdu. Sonra o biri ayağını qaldırırdı. Dəvə kimi lökküldüyə-lökküldüyə yeriyirdi. Qapının astanasında dayanıb gözlərini bizə zilləyirdi. Bədirə ərinin qarşısında durub üzünün cizgisinə baxıb özünü saxlaya bilmir, gülürdü. Zəminzadə gələn vaxtı mən az qala yerə girmək istəyirdim. Keçib mətbəxdə dayanardım. Məni soruşanda Bədirə zarafatla: «Gəlməyib, – deyərdi. – Səndən inciyib. Dünən kefin xəbər almamısan». Bədirənin söhbət qarşısında nə edəcəyimi bilmirdim. Bədənim keyləşirdi. Ayaqlarım yerə mıxlanırdı. Bədirəyə necə deyim belə danışmasın? O, məmimlə elə səmimi hərəkət edirdi ki, demək istədiklərim dodaqlarıma yapışıb qalırdı.

Mən «səmimi» deyirəm. Onda mənə Bədirənin işləri yalnız belə təsir bağışlayırdı. Anamın hər günkü nəsihətlərini, məzəmmətlərini xatırlayıb susurdum:

– Bu insanı elə bil Allah bizə yetirib. Özü də, qadını da uşaq kimi sadədirlər. Uşaqlarından sizi seçmir. Bu adam ancaq ehtirama layiqdir. Mən də ki, ona necə hörmət eləyim? Yoxun üzü qara olsun. Evə gətirə bilmirəm, layiqli yemək hazırlayıb göndərə bilmirəm. Heç olmasa işlərinə yarayaq. Gəl-getləri çoxdur, Bədirə xanıma kömək eləmək lazımdır. Məndə də hanı güc?

Sözlər mənim ünvanıma deyilirdi. Mən hissiz, duyğusuz deyildim. Kötük yox, insan idim. Doğrudur, onda mən həyatı, onun mərd, namərd qanunlarını dərk edə bilmirdim. Ancaq anamın niyyətini başa düşürdüm. Qulağım eşidən hər sözü qəbul edirdim. Düşünürdüm ki, yaşamaq, anamı həyatından razı salmaq üçün siçan-pişik oyununu öyrənmək lazımdır. Başqa çarə yoxdur. Deyəsən, fikirləşdiyim kimi də olurdu: həyatım siçan-pişik oyunu ilə başlayırdı. Mən mətbəxdə olanda Zəminzadə əlini ağzının üstünə qoyub arvadına susmağı işarə edirdi. Onun hərəkətləri mətbəxin qapısındakı şüşəyə düşür, aydın görünürdü. Bədirə lal olub ərini oyuna həvəsləndirirdi. Zəminzadə marığa yatan pişik kimi divara qısılıb, ayağının ucunda mətbəxə gəlirdi. Məni görürdü:

– Ahaaa... yaxşı tutmuşam, buraxan deyiləm.

Mən otağa, Bədirənin yanına getmək istəyəndə qabağımı kəsirdi:

– Heç elə zarafat yoxdur!

Bədirə gülürdü. Zəminzadə ciddiləşəndə Bədirə də dərhal ciddi olurdu. Ərini diqqətlə süzürdü, qarşısında müntəzir dayanırdı. Sıravi əsgər komandirinin əmrini gözləyən kimi.

Zəminzadə evdə az vaxtlarda ciddi olurdu. Buna baxmayaraq, oyunbazlığı ailədəki hörmətinə təsir etmirdi.

Günlər keçirdi. Anamın dediyi kimi söyləsəm təzə qonşularımızla «qaynayıb-qarışırdıq». Mən hiss edirdim ki,

siçan-pişik oyunundan qurtara bilməyəcəyəm. Gecələri yuxum çəkilirdi: Görəsən, adamların hamısını bu cür, güclə «siçan-pişik» oynamağa məcbur edirlərmiş? Yoxsa mən təkəm?

Bədirə anamı tərifləyirdi. Deyirdi o, uşaqlarının ixtiyarını Bədirəyə verib. Təvəqqe eləyib ki, hara göndərmək, evdə nə iş görmək lazım oldu, desin. Zəhmət çəkib telefon eləmək də lazım deyil. Bir balaca balkondakı arakəsməni tıqqıldatsa da kifayətdir.

Bədirənin vurduğu işarələr aydan aydın, sudan duru idi. Ancaq məni dünyaya gətirən anam idi. Başqa tərəfdən düşünəndə qonşular mənə nə pislik edirdilər? Etiraz üçün əlimdə nə əsasım vardı? Əksinə, onlar məni bazarlardan xilas edirdilər. İki zənbil, anama iki zənbil sevinc gətirmişdi. Daha nə istəyirsən, adama yaxşılığı necə edərlər, Afər? Atandan belə hamını yadına sal. Şükür! Belə bir insana ürcah olduq!

Zəng. Anama demək istədim, gəlib dəstəyi götürsün. Qaş-göz eləyib məni başa saldı ki, tez olum, mən cavab verim. Dəstəyi qaldırdım. Anam başımın üstünü kəsdirib dayandı:

– Kimdir?

– Afər xanım, sizsiniz?

– Bəli, anamı istəyirsiniz, bu saat.

– Alo, alo, dayan. Belə niyə tələsirsən? Mənə elə sən özün lazımsan.

Anam mənə bitib durmuşdu. Zəminzadənin sözlərini eşidirdi. Əlini üzünə atıb dırnaqları ilə yox, barmaqlarının ucları ilə üzünü sürtürdü. Xısıntı ilə:

– Cavab ver! – deyirdi.

– Eşidirəm sizi.

– Əvvələn bu saat bizə gəlmək sizə əmr olunur.

Anam güldü. Başı ilə işarə verdi ki, «deynən yaxşı».

– Bir də səhər saat on birdə anan evdə olsun. Göstəriş verilib, usta gəlib qapıya əla zəng düzəldəcək. Birdən bilməzsiniz, pul-zad verərsiniz. Pul-filan söhbəti olmasın. İdarənin texniki şöbəsindən göndərəcəklər. Lazım olan nə varsa, hamısını özü gətirəcək. Eşitdin?

– Az, cavab ver! – anam məni dümsüklədi.

– Eşitdim.

– Düyməni basanda dam-daa, diram-daa eləyəcək. Bülbül oxuyacaq. Bildin də?

– ...

– Az, bizi biabır eləmə, de, bəli!

– Bəli.

– Bədirə xanım səni gözləyir. Bu saat, gecikmədən, yoxsa canım üçün işlər ayrı cür olar.

Anam dinmədiyimi görüb yenə üz-gözünü turşutdu. Səsi dəstəyə düşməsin deyə, əli ilə məni başa saldı ki, deyim bu saat, dəstəyi qoyub gəlirəm. Mən anamın istədiyini yerinə yetirdim.

– Baş üstə, gəlirəm, – dedim.

– Tez, tez, hələ oradasan?

Dəstəyi asdım. Anamın üzünə baxdım. Danışıqdan narazı qaldığını duydum.

– Getmirsən, cəhənnəmə get! Çox vecimədir. Özüm gedərəm. Kişi söz deyir, bunun ədasına bax!..

Mehrəlinin üstünə baxdı ki, görsün əli yorğandan çöldə deyil ki, geyimini tarazlayıb qapıdan çıxmaq istəyəndə dayandırdım:

– Qayıt. Mehrəli hələ durmayıb. Ona çay-çörək vermək lazımdır. Hələ Afət də yatır. Qayıt, bu saat gedirəm.

Mən Mehrəlinin yemək məsələsini qəsdən dedim ki , o qayıtsın. Yoxsa onu ayrı cür qaytarmaq mümkün deyildi. Üzünü mənə çevirib dayandı. Gözlərini gözümə dikdi:

– Məni az hövsələdən çıxart. Mənim də qəsdimə durduğunu bilirəm. Sən öləsən, xam xəyalın baş tutmayacaq. Bax, mənə qulaq as, gör sənə nə deyirəm: bilmək istəyirsən, sənin milyon dəfə minnətin olsun ki, Məmmədyar kimi adamın evinə gedirsən. Elə bilirsən onun iş-gücündən yapışanı yoxdur? Yalvaranlar var. Gözünün qabağında dörd nər kimisi gecə-gündüz ov tulaları kimi ətrafında atılıb-düşür, ora-bura qaçır. Getmirsən, kömək eləmək istəmirsən, birdəfəlik de! Dəqiqədə bir məni yerimdən oynatma. Gədə-güdələrlə mırt vurmağa öyrənmisən. Sizə belə adamlar gərək deyil. Bir kəlmə: gedirəm, getmirəm.

«Siz» deyəndə bilirdim ki, anam məni, bir də atamı nəzərdə tutur. Ailəmizin başqa üzvləri ilə işi yoxdur. Fikirləşməyin yeri deyildi. Onu kənar eləyib qapını açdım:

– Gedirəm, – dedim. – Gedirəm.

Zəminzadə qızı üçün otaq ayırmışdı. Qız otağından gec-gec çıxır, çıxdığı saatlar Zəminzadə üçün bayrama çevrilirdi. Bədirə Zəminzadənin necə şad olduğunu görüb köksünü ötürürdü. Üzünü mənə tutub, astaca deyirdi:

– Dünyada necə dərdlər var...

Bədirənin nə üçün belə dediyi mənə sonra aydın oldu. Hekayət Bədirənin qızı deyildi. Hekayətin anası Zöhrədən sonra Zəminzadə Bədirə ilə evlənmişdi, bir oğlu olmuşdu. Öyrəndim ki, Zöhrə həyatda yoxdur. Zöhrənin başına nə gəlmişdi? Bu haqda az sonra.

Zəminzadənin bir tənbehli sözündən Bədirənin rəngi qaçırdı. Həyəcan keçirirdim. Mən onun belə hallarda necə yazıq-yazıq baxdığını görürdüm. Onu da görürdüm ki, danışqıdıqca dodaqları, əlləri titrəyirdi.

Zəminzadə işdən gəlib, əlini-üzünü, iri əllərini, iri tüklü dəsmalla silib enli, qalın qaşlarını sığallayıb stola oturana kimi Bədirə onunla hərlənirdi. Mətbəxdəki işləri mən gö-

rürdüm. Zəminzadənin bir ayağı mətbəxdə olurdu. Ailəmizə aid suallar verirdi. Evə gələndə anam Zəminzadənin sözlərini bircə-bircə, dönə-dönə soruşurdu. Qonşumuzun bizə göstərdiyi qayğıdan razı qalardı. Hər dəfə bərk-bərk tapşırardı ki, özümü qabiliyyətli aparım. Deməsinlər anaları bunları pis tərbiyə eləyib. Çağırmağı heç gözləmək lazım deyil. Bədirə tək adamdır, bütün işlər onun üstünə düşür. Bir yox, iki-üç qulluqçu saxlamağa imkanları var. Haqları da var. Ancaq Zəminzadə hər adamı evinə, ailəsinin içərisinə buraxmaq istəmir. Onların sayəsində bazara da qabaqkı kimi çox getmirəm. Biz bu hörmətlərin əvəzini necə çıxa biləcəyik? Mənə baxırdı. Məndən cavab gözləyirdi...

Anam mənimlə daha yumşaq danışırdı. Təzə qonşumuz haqqında söhbət gedəndə «heç vecimə də deyil» sözlərini işlətmirdi. Qorxurdu məndə qonşumuza qeyriciddilik yaranar. Zəminzadədən bərk həya edirdi. O, eyvanda olanda anam evdə yaşmanırdı. Ömrümdə birinci dəfə görürdüm o yaşmanır. Vaxtı ilə çadrasını birinci atan anamın Zəminzadədən yaşmanmasını təkotaqlı mənzildə yaşayan qonşumuz məzəli əhvalat kimi binanın bütün sakinlərinə danışırdı. Anamın özünü belə aparması məni qonşumuza qarşı dəqiq olmağa sövq edirdi.

Şükür, neçə vaxt idi anam xəstələnmirdi. Başının ağrılarından şikayətlənmirdi. Bu mənim üçün, bilirsən, bəlkə də, hər şey demək idi.

Günlər keçirdi. Biz iki ailə bir-birimizə daha çox isnişir, «qaynayıb-qarışırdıq». Mən Zəminzadədən əvvəlki qədər utanıb çəkinmirdim. Onlarla bir stolda oturub nahar da edirdim. İlk nahar belə başladı: çox vaxt Zəminzadə gələn kimi çıxıb gedirdim. Bədirə «hərəkətimdən» incidiyini söyləyirdi. Az qala yalvarırdım ki, inciməsin. Mən başqa yerdə

nahar edə bilmirəm. Bədirə onda məndən daha bərk incidiyini deyirdi:

– Belə çıxır biz başqalarıyıq?

– Əlbəttə yox, – deyirdim, – biz az qala doğma olmuşuq.

İncikliyini Bədirə söhbət zamanı anama da dedi. Anam məni müdafiə etmək əvəzinə bütün gecəni danladı, dedi axmaq adamam. Şəhərdəki bütün bazarları qarış-qarış gəzəndə, dükançılarla saatlarla hırıltıya girişəndə utanmırdım. İndi abırlı ailədə bir dəfə nahar eləməyə utanıram. Məni düzəltmək mümkün deyil.

Təzə qonşumuzla bir yerdə nahar etməməyim isə utanmaqdan irəli gəlmirdi. Belə adamlarla bir süfrədə nahar eləmək üçün qabiliyyət lazımdır, bu məndə yoxdur. Çünki oturub-durduqlarım özüm bərabərində adamlardı.

Başımdan heç vaxt görmədiyim ağrılar qalxdı. Başımı tutdum: demək, belə. Təzə sözlər, təzə danışıqlar, ittihamlar üstümə ayaq alır? Heç demə, etdiklərim qara kül olub üzümə çırpılacaqmış. Deməli, anamın nəzərində mən pis hərəkətlərimlə çoxdan nifrətəlayiq bir adam imişəm. Bunu mən indi dərk edirəm. Bəs, görəsən, başqalarının nəzərində necəyəm? İlahi, mən kim olduğumu indi anlamağa başlayıram...

Onda, sən bilsəydin, mən həyatımın hansı anlarını keçirirdim. Mən onda anladım ki, insan bir dəfə ölmür. O, həyatda yaşaya-yaşaya bir neçə dəfə ölür, sonra dirilir. Yenə yaşayır.

Anama cavab verə bilmədim. Ağlıma gəldi ki, bu evdən, bu ailədən qaçıb uzaqlaşmalıyam. Qoy haqqımda başqaları nə deyir desin. Təki anamdan eşitməyim.

Bütün gecəni ağlıma yeni düşən fikirlə əlləşdim. Azacıq yuxuladım. Gözlərimi açanda qəlbimdə ayrı aləm gördüm.

Özümü danlamağa başladım. Mənə elə gəldi ki, qaçmaq fikrinə düşməyimlə anama qəsd hazırlayıram. İlan vuran adam kimi yerimdən qalxdım. Heç nə olmayıbmış kimi anamla gülüb danışdım. Xəbər verdim ki, Bədirə xanım dünəndən tapşırıb, bu gün onlara tez gedim. Hazırlıq görür. Ev almaqları münasibətilə böyük ziyafət olacaq. Anam özünü o yerə qoymadı. Şadlandığını, mənim üzərimdəki qələbəsindən razı qaldığını duyurdum. Ürəyimdə lap yaxşı! Qoy belə olsun. Təki onu şad görüm, həmin gün qonşumuzgildə ilk naharı etdim. Daha utanma. Heç kimdən. Heç kəsdən, Afər!

Bu günü yadında saxla. Sən iki günü yadında saxlamalısan. Bu iki gün haqqında bilmək sənə vacibdir. Hava və su qədər. İki gün haqqında hər şeyi biləndən sonra səni əziyyətlərə salan, sənətinə mane olan tilişkələri sel yuyub aparacaq. Sən məni birdəfəlik unudacaqsan. Nifrət məni sənə yadlaşdıracaq. Mən hələlik səndən danışıram. Uşaqlarımız haqqında yox. Salamat böyüsünlər. Sən xalqa lazımsan. Mən səni məhv etmək üçün yox, səni yaşatmaq üçün gedirəm. Bir də heç zaman sənə əhəmiyyət verməyəcəyəm. Mən sənin səsin yazılmış valları götürə bilərdim. Götürmədim. Çünki mənim onlara günlərlə qulaq asıb, ağlamaqdan daha vacib işlərim var. Mən öz işlərimi görüb qurtarmalıyam. Hər şey mən istədiyim kimi qurtarsa, yaşayacağam. Amma məni axtarmaq fikrinə düşmə. Vaxtın əbəs gedər. Sənə vaxt hər şeydən vacibdir. Məktubu səbirlə oxu. Bunun sənə necə lazım olduğunu biləcəksən. Sənə ikinci gün haqqında danışmazdan əvvəl birinci günü söyləyib başa vurmalıyam. Axı birinci gün hələ yarımçıq qalıb.

Həmişəki kimi Bədirə məni üzügülər qarşıladı. Bədirə güləndə alnında qırışlar əmələ gəlirdi. Qırışlar onu olduğundan yaşlı göstərirdi. Bilmirəm, bəlkə, mənə belə gəlirdi.

Qırışlar ona görə yadımda qalıb ki, Bədirə onda dəyişirdi. Üzü başqalaşırdı. Onu tanımayan adam fikrində çaşa bilərdi. Bir görüşdə onun haqqında yaxşı fikir söyləməkdən çəkinərdi. Bədirə isə yaxşı adam idi.

– Siz qonşum olmasaydınız, mən nə edərdim, – deyirdi. İlk nahara məni səbirsizliklə gözlədiyini söylədi. Təzə evin qonaqlığında yüzdən yuxarı adam iştirak edəcəkdi. Bir toyun adamı. Ev adamları tutacaqmı? Beş gün vaxt qalırdı. Gələn qoyunları doğramaq, yüz əlli çolpanı yolub təmizləmək. Düyünü arıtlamaq, elə tək bunlar nə qədər vaxt aparacaq...

– Gərək Afətlə Azadə xanıma da zəhmət verək. – Bədirə utanan uşaqlar kimi üzümə baxdı. Üzündə yazıq ifadə gördüm.

– Nə zəhmət var? – dedim. – Biz ki bir-birimizə yad deyilik. Qonşu belə gündə kara gəlməyəndən sonra nə qonşudur?

Bədirə məni qucaqladı:

– Səni necə çox istəyirəm! Zəmizadəyə danışıram ki, Afər elə bil məni ovsunlayıb. İstəmirəm bir dəqiqə yanımdan aralansın. Zəminzadə xasiyyətimi bilir, xoşum gələn qızdan əl çəkə bilmirəm. İstəyirəm həmişə yanımda olsun. Qohum-bilişdən neçəsini gətirib yanımda saxlamışam. Zəminzadə bu cəhətdən qızıl adamdır. Ömründə çörəyini yeyənlərə darıxmaz. Əksinə onlara qızından artıq baxırdı. Elə paltarlar, kostyumlar alırdı ki, adamın paxıllığı tuturdu. Qızlar da ki, uçurlar. Bizdən gedəndən sonra yenə Zəminzadənin gözü onların üstlərində olur. Özün bilirsən adamların hamısı bir deyil. Çörəyini yerə vuranlar olur. Yedirib-içirəndən sonra sənə düşmən kəsilirlər. Şər-şəbədəyə əl atırlar. Beləsini Zəminzadənin xəbəri olmadan başımdan eləyirəm. Ürəyi, qəlbiaçıq adamdır. Adına ləkə

gətirə bilərlər. Yaxşılıq elədiyin yerdə rüsvay olarsan. Yaxşılığı gərək biləsən kimə eləyirsən. Səni özümə bacı götürmüşəm. Zəminzadə gülüb deyir: «Adamın bacısı, nə qədər evdədir, yanında olar. Ərə getdi, başqa məsələ».

Bədirə məni qucaqlayıb sinəsinə basdı:

– Qoy evin qonaqlığını yola salaq, başımız açılsın. Səninlə işim çoxdur...

Bədirə nə iş barədə danışırdı? Bilmirdim.

Qonaqlığın şeyləri daşlanıb gəlirdi. Evə o ki var, kəsilib soyulmuş qoyun cəmdəyi daşındı. Evdəki köməkçilər cəmdəkləri yerbəyer edirdilər. Mən köməkçilər barədə sənə yazacağam. Köməkçilər maraqlı «qəhrəmanlar» idi. Mən onları «qəhrəmanlar» adlandırıram. Çünki Zəminzadə də onları «qəhrəmanlar» adlandırırdı. Zəminzadə idarədən zəng vururdu. İşlərin nə vəziyyətdə olduğunu soruşurdu. Göstərişdən çox məsləhətlər verirdi. Bədirə məndən xahiş eləyirdi ki, telefona mən cavab verim. O, işdən ayrıla bilmir, Zəminzadənin bəzən nadincliyi tutur... Zarafata başlayır... Bədirənin xahişlərindən sonra dəstəyi götürürdüm. Hər dəfə Zəminzadə bir məzəli söz deyib güldürür, özü də gülürdü.

– Hə, Afər xanım, cəmdəklər neçə dənə oldu? Kifayətdir, qabağını alım, yoxsa hələ gəlsin? Gözdə-qulaqda olun, cəmdəklər birdən dirilər, nə desən bu kəndlilərdən çıxar. «Qəhrəmanlar» yaxşı işləyirlər? Afər xanım, qoyunların qabağını ala bilmirəm. Qorxuram qoyunlar evi basa. Motal itdən əl çəkir, it motaldan əl çəkmir. Yoldaşlara bir kəlmə söz demək olmur. Qoyun gətirmək üstündə az qala bir-birilə cəngə çıxsınlar. Şabalıd necə, qırx kilo olarmı? Yəqin, azdır! Toyuq-cücə məsələsi nə yerdədi? Qabağı açılıb? Baxın, fərələrdən banlayanı olmasın, haa. Ququlu-qu-u-u.

– Mənim üçün bişirmisiniz? Acından birtəhər olmuşam. Birdən mənsiz yeyərsiniz? Vicdanıma and içirəm, küsərəm. Yarım saata gəlirəm. Gərək bir möhkəm nahar eləyək. Afət gəlməyib? Azadə xanım necə? Gərək bu yoldaşları səfərbər edək. Belə olmaz. Biz işləyək, onlar baxsın? Yox, qəti tədbir görməliyik. Hazırlaşın. Yarım saata gəlirəm:

*Din-dini-dini-dini*
*Din-dini-dini-dini*
*Gəl-gəl, ayaz günləri*
*Qoyunbazın günləri...*

– Görürsən də şairliyimi? Əyri-əskikliyinə fikir vermə.

*Din-dini-dini-dini*

– Yaxşı, privet.

Hərdən söhbətin sonuna yaxın Bədirə qulağını dəstəyə verib, uğunub gedirdi:

– Məzən olsun, ay Məmmədyar. Bilirsən necə insandır? Vaxsey, indi ac gələcək. Tez stolun üstünü düzəldim.

Zəminzadənin suallarına telefonda bir kəlmə ilə olsa da cavab verirdim. Dinməyəndə min məzəli söz deyib məni güldürməyincə dəstəyi yerə qoymurdu. Bədirənin gülməyimdən xoşu gəlirdi. Anam deyirdi: – Başqa qadın olsa, ərinə qısqanar. Bədirə xanım ürəyitəmiz, alicənab xanımdır. Anamın sözləri ətrafında fikirləşirdim: Bədirə nə üçün, nəyə qısqanmalıdır? Anam niyə belə danışır? Anamdan bu barədə heç nə soruşmaq istəmirdim. İstəmirdim. Anamın sözləri yad hislər oyadırdı. Bu hislər mənim üçün təzə idi. Qonşularımız, ailəmiz yatağa girib yuxuya gedəndən sonra özüm, düşüncələrim «azad» olurdu: hamı yatıb. İstədiyim qədər düşünə bilərəm. Bütün gün görüb eşitdiklərimi yeniləşdirirdim. Təzələyirdim. Qısqanclıq nə vaxt yaranır?

Nə üçün ayrı adam olsaydı qısqanardı? Bədirə xanım isə alicənabdır, qısqanan deyil... Nə üçün Bədirə həmişə çalışır ki, əri zəng vuranda telefonun dəstəyini mən götürüm? Bədirənin mənimlə işi hələ ziyafətdən sonradı. Nə işdi, görəsən? Zəminzadə deyir: qızı olan yanında olar. Bəs evimizdə deyiləm, haradayam? Bu azuqə bu qədər haradan gəlir?..

Qonşunun evində olanda elə bilirdim anam daim arxamca hərlənir. Onun sözlərinə, tapşırıqlarına necə əməl elədiyimi güdür, yoxlayır. Gecə keçir. Başlayan gün öz işini görürdü. Mən də öz işimi. Hətta bəzən özümü elə göstərirdim ki, guya bütün bu işlər mənim ürəyimdəndir. Qoy belə olsun. Onda anama xoş gəlir.

Qonşuda işlər öz qaydası ilə gedirdi. Qonaqlıq üçün nadir, tapılmayan şeylər gəlirdi. Hər dəfə evin qapısı açılıb-örtüldükcə, Zəminzadə lay divar kimi evin tən ortasında dayanırdı. Hər dəfə də bir sual verirdi:

– Ceyran əti görmüsənmi? Yəqin, heç yeməmisən də.

Ceyrana maraqla baxıb dinmirdim.

Zəminzadə üzünü Bədirəyə tuturdu:

– Bir saata ceyran ətindən nuş etməliyik. Qabaqca evin içi, sonra çölü. Düz demirəm, Afər xanım? Birinci planda öz qarınlarımız durur.

Bədirə gülüb təsdiqləyirdi. Elə gülürdü ki, elə bil dünyanın ən bəxti gətirən adamıdır.

Ceyran əti də yedik. Anamın da payı getdi. İşə başlamaq lazımdır. Hələ ceyran əti harasıdır. Qoy məclis yola verilsin, günlər ondan sonra başlayır.

*Din-dini-dini-dini*
*Gəl-gəl, a yaz günləri*
*Qoyunbazın günləri...*

– Başladıq, yoldaşlar! Girişin işə. İşsiz çox pis, lazımsız görünə bilərsiniz, hanı almalar?

Alma dolu yeşikləri həyət balkonunda üst-üstə yığmışdıq. Xeyli qoyun cəmdəyi hələ evin ortasında idi. Cəmdəklərin altına qalın şey salmışdıq ki, təzə qaşıtdırılıb, mastikalanmış parket döşəməni bulamasın. Bir neçə erkəyi diri gətirdilər.

Zəminzadə işdə idi. Zəng vurub dedi ki, erkəklər bizi incidib-eləsələr qorxmayaq. Gəlib başqa yerə aparacaqlar. Gələsi adamların üzlərini, burun, qulaqlarını mənə təsvir elədi:

– Qulaq as, – dedi. – Nişanələri yaxşı yadında saxla. Evə gələndə soruşacağam. Görüm yaddaşın necədi. Üç nəfər gələcək. Birinci adam üzünü sağa, ya sola çevirməlidirsə, bütün bədəni ilə birlikdə dönməlidir. Üzü çiyinləri bərabərindədir. Təsəvvür elə ki, qışın üç ayı müddətində donuzluqda bir donuz bəslənir. Qarlar əriyir, donuz sahibi qapını açıb onu bayıra buraxır. Donuz hoqquldaya-hoqquldaya ora-bura cumur. Nadinc bir uşaq da əlindəki çubuqla donuzun arxasına hərdən vurur, donuz başını döndərə bilmir, dümdüz, bütöv bədəni ilə uşağın ətrafında fırlanır. Uşaq gülüb donuzu sirk heyvanları kimi oynadır.

Zəminzadə danışanda tez-tez: – Alo, məni eşidirsən? – deyə xəbər alırdı. Mən yalnız «Bəli» deyə cavab verirdim. Təsvir etdiyi adamın qulaqlarını təmizləməkdən danışanda məni gülmək tutdu. Gözlərimin qabağına gəldi ki, Mehrəli hərdən gözünün birini yumub qulağı gicişdiyindən necə hövsələdən çıxırdı. Anam axırda qorxub deyirdi:

– Ay bala, başına dönüm, əlini qulağından çək. Pərdəsini yırtıb, özünü şikəst edərsən.

Mehrəli bir az da cinlənib deyirdi:

– Cəhənnəmə yırtılsın.

Anam əl-ayağa düşürdü. Qalxıb Mehrəlini dilə tutub özü üstdən ehmal-ehmal sürtürdü. Mehrəli qışqırırdı ki, qulağın içi gicişir, bu arvad da çölünü sürtür. Məsələ uzanırdı...

Məni telefonda gülmək tutanda Zəminzadə məzəli səslər çıxarırdı. Bədirə xanım da gülüb deyirdi: bilirsən kişi necə itoynadandır? Mən sonra bu qədər güldüyüm üçün özümü danlayırdım, ancaq Mehrəli yenə gözümə görünəndə özümü gülməkdən saxlaya bilmirdim.

Zəminzadə dedi ki, təsvir elədiyi adamı – Dəmirlyon çağırırlar. Dəmirlyon heç bir xarici ad-filan deyil. Dəmirlyon «Dörd milyon» sözündən mənşə tapmışdır. Mənşə məsələsi təhlil tələb edir. Bu isə uzun iş olduğundan üstündən keçir. Zəminzadə əlavə elədi: – Birdən bilmərik qoyunları aparmağa gələn adama biz də Dəmirlyon deyərik. Bu onun dostlarına mənsub zarafatdır, əsl adı Fətəlidir. Fətəlinin ləqəbi də var: «Cum». Gələn adamların ikincisi haqqında Zəminzadə az danışdı. Dedi ki, uzun, sallaq qulaqlı bu adam hərbi rütbəli adamların, xüsusilə generalların haqqında xırda-xuruş məlumatlar toplamaq azarkeşidir. Başı, şübhəsiz, Fətəli Cuma bağlıdır. Üzündə iki çala var, biri sağında, biri solunda, əlləri iri və damarlıdır, danışanda Fətəli Cum ona baxırsa, dərhal dili topuq vurmağa başlayır.

– İndi bu yoldaşları tanıdınız, ya yox? – deyə Zəminzadə soruşdu. – Görsən tanıyarsan?

– Bəli, – deyə mən yenə müxtəsər cavab verdim.

Zəminzadə tapşırdı ki, naharı yaxşı, bir qədər də tez hazırlayaq. Gözdə-qulaqda olaq. Fətəli Cum və başı ona bağlı olan adam qoyunları aparmaq üçün başqa adam göndərər, sonra danarlar ki, onların qoyunları aparanlardan xəbərləri yoxdur. Fətəli Cumun gətirdiyi qoyunlar gedər Fətəli Cumun güdazına.

– Bəli, bəli, siz bunları hələ tanımırsınız. Bir balaca xoşluq elədin, özünü də oğurlayırlar. Canım üçün. Məndən ötrü darıxmayın, gəlirəm.

Dəstək asıldı. Mətbəxə keçdim. Bədirə gülürdü. Demək, onun fikri telefonda imiş. Şən görkəmi vardı.

– Gəlirlər qoyunları aparmağa? – deyə Bədirə məndən səmimi xəbər aldı.

– İki nəfər gəlməlidir, – dedim.

– Fətəli Cum dedi?

– Bəli. Tapşırdı ki, gözləyin başqa adam göndərməsinlər. Özləri olmadı, qoyunları verməyin.

Bədirə gözləri yaşarana kimi güldü. Dedi ki, Zəminzadə qiyamətdir. Belə işlərdə təcrübəli və gözüaçıqdır.

İşin başdan aşmasına baxmayaraq, Bədirə hər şeyi yarımçıq qoyub stolun üstünü düzəltdi. Deyirdim, yəqin, Zəminzadə özü ilə nahara başqa adamlar gətirəcək. Dünyanın şeyi stolun üstündə idi. Əks halda, Zəminzadə bu şeyləri necə yeyə bilərdi? Bədirə fikrimi başa düşüb əli ilə üzümə astaca vurdu. Heç kəs olmayacaq, – dedi. – Nigaran olma. Ancaq özümüz nahar edəcəyik, vəssalam! Məgər səndən əziz qonaq olacaq? Hansı ki, sən qonaq yox, ailənin istəkli üzvüsən.

Belə xüsusi hazırlıq bilmirdim məni nə üçün darıxdırırdı. Elə bil məni yarıqaranlıq yerə salıblar. Baxmayaraq, dörd otağın dördü də çıraq kimi alışıb yanırdı. Ara qapıların şüşələri, büllur qablar par-par parıldayırdı, döşəmələrə salınmış iri dördkünc xalılar yazın ortasında çiçəkləri olan çəmənə bənzəyirdi. Elə bil evlər bizim evlərdən deyil, başqa yerdən ayrıca götürülüb bizim yanımıza qoyulmuşdu. Dediklərimin hamısı qara daş parçası kimi ürəyimdən asılmışdı. Nəfəsim çatmırdı. Düşünürdüm ki, məni nahardan xilas edən olsaydı, mən ona borclu olardım. Çıxıb

bu nahardan uzaqlaşmaq istərkən bir əl məndən yapışıb ayaqlarımı yerə mıxlayırdı. Bu əl anamın əli idi. Mən onu rədd edə bilmədim. Mən nahar etməliydim. Qorxurdum ki, anamın neçə gündən bəri düzəlmiş halını yenə pozam. Həm də başa düşə bilmirdim ki, anamın dediyi belə yaxşı adamlarla nahar eləmək nə üçün mənə vahimə gətirirdi? Yoxsa, anam demişkən, bunun səbəbi sadə və aydın idi? Mənim qabiliyyətim yox idi ki, onlarla bir stolda oturum? Axı mən alıb-verənlərə alışmışdım... Birdən-birə özümü bu mühitə necə alışdıra bilərdim? Bədirədə körpə uşaq sadəlövhlüyü vardı. Düşünürdüm ki, o, istədiyi adama qəlbində olub-qalan nə varsa aça bilər. Onunla söhbət eləmək mənim üçün o qədər çətin deyildi. Hərdən dinməz-söyləməz baxıb qalmağım qadına olan heyranlığım idi. O, adamlara tez uyuşa bilirdi. Adamları tez sevə bilirdi. Bəs Zəminzadə mühiti məni nə üçün bu qədər sıxırdı? Bədirəyə demək istəyirdim qalmamağımın «günahını» öz üstünə götürsün. Zəminzadəyə desin ki, getməyim üçün o mənə icazə verdi. Bir səbəb gətirər. Zəminzadənin telefonda dediyi sözlər başımda qaynayırdı. Qapının zəngi çalındı. Bədirə: «Kişinin zəngidir», – deyib qapıya qaçdı. Gələn o idi. Həmin gündən Zəminzadənin zəngini tanıdım. Sonralar bizə gələndə də uzun zəng çalardı. Arası kəsilməyən zəng. Hər dəfə deyərdi zəngimiz əla işləyir. Zəng üçün anam ona min dəfə dil-ağız, min dəfə dua edərdi. Anddan, dil-ağızdan nə anam yorulurdu, nə Zəminzadə: «Bəsdir», – deyirdi. Anamın bu qədər dil-ağız eləməsi üçün xəcalət çəkirdim. Fikirləşirdim ki, qonşumuz Zəminzadə bunu, söz yox, yaxşı qəbul eləməz. Hiss elədim yanılıram. Anamın hər dəfə razılıq eləməsindən onun xoşu gəlirdi. Hər dəfə zəngi, qapını tərifləməklə yada salırdı ki, bu işdə əmək və xərc onunkudur.

Bədirə mətbəxə qayıdıb təəccüblə xəbər aldı:

– Nə üçün belə küncə sıxılmısan? Rəngin niyə qaçıb? Yoxsa sənə bir şey olub, mənə deməkistəmirsən?

Bədirə yaxına gəldi. Az qaldı dodaqları üzümə toxunsun.

– Heç nədən çəkinmə. Bura özgə yer olsa, başqa məsələ. Bəlkə, özünü yaxşı hiss eləmirsən? Belədirsə, de. Sən mənə hər sözünü deyə bilərsən. Ürəyi yükləmək bir şey deyil. Qəlbində nə var aç de.

Bədirə danışdıqca hiss edirdim ya sərgüzəşt xoşlayır, yaxud mənə istər-istəməz kədərimə səbəb olan bir şey ortalığa çıxarmaq istəyir. Mənim qəlbimdə daha başqa nə olacaqdı? Bədirə təkid elədikcə özümdən şübhələnməyə başlayırdım. Mən nahar eləmək istəmirdim. Bu mənim özümdən asılı deyildi. Nə üçün ən kiçik işdə mən müstəqil deyildim, başa düşə bilmirdim. Məndən yapışan əli özümdən kənar eləyib nahardan yaxamı qurtarmırdım. Nəhayət, dilləndim:

– Heç nə olmayıb, – dedim, – bəlkə, mənə icazə verəsiniz gedim. Nahar etməyə nə iştaham, nə də həvəsim var. Siz rahat nahar edin. Mən bir az sonra gələrəm. Xahiş edirəm, Bədirə xanım.

Bədirənin baxışlarından oxuyurdum ki, o mənim həyəcan keçirdiyimi başa düşür. Buna görə də nahara qalmağımı, yəqin, daha israr etməyəcək. Bu vaxt Zəminzadənin mətbəxə gəlməsi ilə iş dəyişdi. Mənimlə ucadan salamlaşdı. Telefondakı məzəli sözlərindən təkrar deməyə başladı. Bizi özü ilə arxa eyvana, erkəklər olan yerə apardı. Erkəkləri görəndə gözləri yerindən oynadı, iynə ilə neştərlənmiş kimi görünən üzünün dərisi səyridi. Yönünü bizə çevirdi:

– Canım üçün, belə zırpı şeylər görməmişəm. – İrəli gedib qoçun buynuzlarından yapışdı. Başını aşağı əydi:

– Sən ölməyəsən, başlarımızı sınayacayıq, – dedi. Qoçla baş-başa dayandı. Bədirə elə gülürdü, barmağını kəssəydin xəbər tutmazdı. Zəminzadə geri çəkildi. Qoç da boynunu yığıb arxaya çəkildi.

– Heç elə şey yoxdu, qabağa gəl, – deyə Zəminzadə qoça tərəf gələndə qoç bir də cəld geri çəkilib, bütün gücü ilə irəli sıçradı. Zəminzadə işi ayrı cür görüb qoçun qabağından qaçmaq istəyəndə qoçun kəlləsi boşa çıxsa da, buynuzunu Zəminzadəyə ilişdirdi. Bədirə elə qışqırdı ki, aşağıda gedənlər ayaq saxlayıb yuxarı baxdılar. Səs gələn tərəfi axtardılar. Bədirə əlini üzünə atıb cırmaq istəyəndə Zəmnizadə ona qəzəbləndi:

– Aləmi bura yığma! – Zəminzadə başını qaçırtmasaydı, qoçun buynuzlarından ikisi də olmasa biri kəlləsini, söz yox, deşəcəkdi. Qoçun buynuzu Zəminzadənin sağ çiyninə düşdü, bir buynuzunun ucu üzünə ilişib dərisini cızdı. Qan ağ köynəyini tala-tala qırmızı rəngə boyadı. Qoç hələ də ondan əl çəkmək istəmirdi. Zəminzadə ona tərs-tərs baxsa da, gözü qorxmuşdu. Mən dilimi, dodaqlarımı gəmirib özümü saxlayırdım ki, gülməyim. Zəminzadə özünü sındırmaq istəmirdi:

– Canım üçün, mən ilişdirəcəydim, o ilişdirdi! Bu kişi məni şəhid elədi! Eybi yoxdur, sizin yolunuzda qoy mən şəhid olum.

– Axmaq Fətəli Cumdan bundan artıq xeyir görmək olmaz, – deyə rəngi ağappaq ağarmış Bədirə dilləndi. – Elə bil ki, bu ölmüşləri qəsdlə gətirib.

Öz-özümə dedim: «Vay sənin halına, Dəmirlyon. Dörd milyon öldü».

Bu söz haradan ağlıma gəldi, bilmirəm. Deyirlər ağla gələn başa gəlir. Doğrudan da, Fətəli Cumun dörd milyonu öldü. Ziyafət günü Zəminzadə milyonların ölüm

xəbərini məclisdəkilərə çatdırdı. Milyonlar necə ölmüşdür, bu barədə sonra.

Qanın artdığını görüb Bədirə əl-ayağa düşdü. Təmiz pambıq gətirib üç faizli perekislə Zəminzadənin üzünü təmizlədi. Qan bir az da çoxalıb, sonra dayandı.Təcili yardımın çağırılması məsləhət görülmədi. Əhvalat lətifə kimi şəhərə yayıla bilərdi. Zəminzadəni az adam tanımır. Bundan başqa ayrı məsələ vardı. Erkəklərin məsələsi. Söz-söhbət uzana bilərdi. Nə erkəkdir? Necə erkəkdir? Haradandır? Zəminzadə belə məsələlərdə ustalaşmış adamdı. İynə məsələsi həll olunmalı idi. Görəsən, buynuz zəhərli olmaz ki? Buynuzun uclarına baxmaq lazımdır. Yenə bir şey bilmək olar. Ancaq necə? Kim cəsarət edib qoçu tutub buynuzun uclarına baxsın? Balkon tərəfə tərpənən kimi qara qoç gözlərini elə ağardırdı ki, vahiməsi adamı basırdı. Zəminzadə üzünü çevirib ehtiyatla qapıya tərəf baxdı. Elə bildim yenə qoça doğru gedib qoçdan qisasın alacaq. Bəs nə üçün Zəminzadə gözlərini qoçdan çəkmir?!

– Canım üçün, heyvərə şeydir, – deyə Zəminzadə dilləndi. – Heç onun yanına getmək olar?

Bədirə getmək istəyəndə Zəminzadə onu dayandırdı:

– Getmə!

Müzakirə qurtaran deyildi. Nahar eləmək hələlik yaddan çıxmışdı.

– Üz bədənin pis yeridir. Buynuz gözün altına toxunub. «Eybi yoxdur, Fətəli Cuma borc olsun!»

– Kefinizi pozmayın. – Zəminzadə ehtiyatla güldü. Sarığın altında üzünün dərisi çəkilib yaranı qanada bilərdi. Məsləhət oldu ki, həkim gəlib iynəni evdə vursun. Doğrudur, qırx gün gəlməlidir. Bunun eybi yoxdur. Qırx gün həngamədir. Xəstəxana işçilərinə küy düşəcək. Kim bilir gələn həkim necə adam olacaq? Evdə min iş, min söz-

söhbət olur. Bunların hamısı ağlabatandır. Gözü götürmə-yənlər nə qədər istəsən.

Bədirə ərini qəti inandırdı ki, perekisdən sonra heç bir infeksiya baş verə bilməz. Və cəmi iki gündən sonra elə itəcək, heç məlum olmayacaq ki, buynuz üzün hansı tərə-finə toxunub. Bir-iki gün işə getməmək lazımdır, vəssalam. Onsuz da telefonla hər cür məsələni həll etmək, göstərişləri vermək olur.

Bədirə qoçun hücumundan qorxub çığıranda səsini eşidən qonşulara deyirdi ki, qoç Dönməzin üstünə gələndə qorxmuşdu. Allah rəhm elədi. Yoxsa uşaq əldən getmişdi.

Anamgil küçəyə baxan otaqda olduqlarından heç nə-dən xəbər tutmamışdılar. Zəminzadə köynəyini dəyişib əlasını geydi. Bizi məcbur elədi ki, nahara oturaq. Bədirə ərinin üzünü enli sarğı ilə sarımışdı. Toz keçməsin deyə, sarğının kənarlarını içəri qatlamışdı.

Plovun altından çıxarılıb boşqablara qoyulmuş cücə-lərdən ətri otağa yayılırdı. Bir tərəfləri qıpqırmızı idi. Zəminzadə cücələri parçalayıb boşqablarımıza qoydu.

– İşinizdə olun, – dedi. – Canım üçün, dərmandır. Əsas məsələ plovu möhkəm yeməkdir. İcazə versəydiniz, mən azca konyak içərdim. Qorxan adam üçün konyak yaxşıdır. Amma elə bilməyin, mən qorxmuşam. Mən elə oğullardan deyiləm. Dezinfeksiya üçün konyak çox yaxşıdır. Mikrob-ları əzişdirib məhv edər. İcazənizi gözləyirəm, yoldaşlar. Söz yox, icazə verməsəniz, içməyəcəyəm.

O danışdıqca gözlərini gah mənə, gah Bədirəyə zillə-yirdi.

– Dezinfeksiya üçün içmək olar, – deyə mən dilləndim.

Bədirə mehriban-mehriban güldü. Durub yastı konyak şüşəsini, bir də qəşəng badə gətirdi. Konyakla doldurdu. Ərinin qabağına qoydu. Zəminzadə konyakdan sonra

plovu xüsusi iştahla yeməyə başladı. Zəminzadə özünü sadə aparırdı. Dəfələrlə anamgilin nə üçün gəlmədiyini xəbər aldı. Anam işə kömək eləmək üçün səhər gələcəkdi. Bədirə evimizə iri buludda plov göndərdi. Ərinə söz demədi. Bunu başqa cür yozmaq səhv olardı. Bədirə plovu göndərməyi haqqında ona görə ərinə söz demədi ki, mən sıxıla bilərdim. Bunu Bədirənin hərəkətlərindən hiss edirdim. Bədirə adamların yaralı tərəflərinə toxunmağı, deyəsən, xoşlamırdı.

Nahardan sonra Zəminzadə özü təzə çay dəmlədi. Həvəslə. Göstəriş verdi ki, evin ortasını boşaldaq, yerə iri və qalın şey salaq. Əti doğramaq üçün nə lazımdırsa gətirək. Zəminzadə «komanda» verirdi ki, tez, bacardıqca cəld hərəkət edək. Özü də bizimlə yanaşı mətbəxə qaçırdı, bizlə yanaşı otağa qayıdırdı. Qapının zəngi çalındı. Mən Zəminzadənin doğradığı əti tuturdum. Qapını Bədirə açdı. Bir-birinin ardınca dörd nəfər içəri girdi. Dördü də ehtiramla belini əyib qonşumuza salam verdi. Zəminzadə üzünü mənə tutdu:

– Bu dörd «qəhrəman» qonaqlıq qurtarıb bütün işlər əvvəlki səliqəsinə düşənə kimi sizin sərəncamınızda olacaqlar. Sizdən icazəsiz addım atmağa ixtiyarları yoxdur. Nə qədər bacarırsınız işlədin. İş bu yoldaşların cövhəridir. Eşitdiniz? Daha məndən köməkçi istəməyin. Bu yoldaşları minib çapsanız da, bir kəlmə dinib-danışan deyillər.

Zəminzadə sözlərini, deyəsən, zarafatla deyirdi. Ancaq onun zarafatla gedən danışığında mənə elə gəlirdi ki, bir kəskinlik var. Zəminzadədəki üzə çıxmış bu keyfiyyəti dördlərin gülüşlərində də duyurdum. Son cümləni deyəndə Bədirənin qızardığını gördüm. Dördlərin isə vecinə deyildi.

Zəminzadə danışdıqca mən onun üzünə baxa bilmirdim. Gülmək istəyirdim. Amma gülmək mənim tərəfim-

dən yüngüllük olardı. Fikirləşirdim, bəlkə, Zəminzadə zarafat eləmir? Doğrudan da, yaxşı işlədiklərinə görə, bəlkə, dördlərə qəhrəman adı veriblər? «Qəhrəmanlar» cəld papaqlarını, pencəklərini çıxardılar. Aparıb asqıdan asdılar. Bədirənin onlara yemək hazırladığını başa düşüb etiraz elədilər. Yeyib gəldiklərini söylədilər. Zəminzadənin üzünün nə üçün sarındığını həyəcanla xəbər aldılar. Zəminzadə onların hərəsinə bir söz dedi. Dördlər güldülər. Biz də güldük. Dördlərin heç birinə məlum olmadı ki, Zəminzadənin başına nə fəlakət gəlmişdi. Zəminzadə elə şərait yaratdı ki, daha sual verən olmadı. Sonra Bədirə mənə danışdı ki, dördlər özgə deyillər. Hər ikisinin guya qohumlarıdır.

«Qəhrəmanlar»ın ikisi Zəminzadənin yanında oturub məni əti tutmaqdan azad etdilər. Başqa ikisi Bədirənin dediklərini yerinə yetirməyə başladılar. Onlara söz deyilmirdi. Lazım olan işi özləri əla görürdülər. Öz-özümə düşünürdüm ki, «qəhrəman»lar ailəyə məhrəm adamlardı. Birinci dəfə deyil, onlar daim bu ailənin içərisində olublar.

Zəminzadə əti tələsmədən doğrayır, səliqə ilə yığırdı. Hamısını bir yerə yox – yumşaqları ayrı, sümüklü tikələri ayrı qoyurdu. Üçüncü hissə də vardı. Bu hissə onun dediyi «toxunulmaz» fonda gedirdi. «Toxunulmaz fond»un nə demək olduğunu bilmirdim, hər bilmədiyimi Bədirədən xəbər almağı qeyri-münasib hesab edirdim. «Qəhrəmanlar»dan biri «toxunulmaz fond»un nə demək olduğunu xəbər aldı. Zəminzadə üzünü ona çevirdi:

– Adaxlı, bəs hələ indiyə qədər bu Muzdur bilmir «toxunulmaz fond» nə deməkdir?

– Kolxozun toxunulmaz fondunun nə demək olduğunu bilirəm, – deyə Zəminzadənin «Muzdur» adlandırdığı adam cavab verdi. – Ancaq bu, siz dediyiniz «fond»u başa düşə bilmədim.

Zəminzadə ət baltasını qaldırıb «hı» deyə iri sümüyün üstünə endirdi, sümüyü iki yerə böldü.

– Gördün, Muzdur? Əti belə doğrayarlar! Adaxlı, indi sən Muzduru başa sal ki, bizim bu «fond»umuz nə deməkdir?

Adaxlı Muzduru başa saldı:

– «Fond» yalnız Məmmədyar dadaşa məxsusdur. «Fond»dan başqa bir adam istifadə edə bilməz. Ətin xüsusi yerlərindən qoparılan tikələr var, onlar yalnız «toxunulmaz fond»a daxildir.

– O cümlədən böyrəklər, şirin bağırsaq...

– Bəli, bəli! – deyə Muzdur Adaxlının sözünü təsdiq elədi.

– Onda «bizim» sözünü çıxmaq lazımdır.

– Hə də, yox, «bizim», amma...

– Amma aiddir şəxsən Məmmədyar yoldaşa.

– Bəli, şəxsən!

Adaxlı ilə Muzdurun mübahisəsinə güldük. Gülüşlə yanaşı bütün gözlər Zəminzadədə idi: qonşumuz gülüşü necə qiymətləndirir?

– Hə!.. – Zəminzadə baltanı bir də budun üstünə endirdi. – Canım üçün, Muzdur demaqoqluqda çox inkişaf edib. Daha Muzduru irəli çəkmək olar.

Baltanı bir də budun üstünə endirdi:

– Sən heç bu «fond»dan xeyir görməmisən, Muzdur?

– Siz xeyir deyirsiniz, hərdən qulağıma dəyir belə «fond» var.

– İndi gözünlə gördün ki?

– Gördüm, bəli!

– Afərin, daha səsini çıxarma! Yoxsa o biri tikələrdən də məhrum olarsan. Hə! Canım üçün, yaman dadlı sümüklərdi. Bax, bunları sən çəkərsən dişinə, Muzdur. Sənin

əməyin bu işdə hamıdan çoxdur. Adamın sovesti var. Danmaq olmaz. Sümük, baxma, həm dişi möhkəmlədir, həm içi iliklə doludur. İlik də ən xeyirli şeydir.

– Əla, – deyə Muzdur Zəminzadənin sözlərini təsdiqlədi.

Sözün uzanmasını layiq bilməyib təslim oldu:

– Sümüklərə də bərəkət, dadaş! Sümüklər olmasa, nə eləyərik? Yaxşısı budur dartaq dişimizə, qarnımıza nə getdi getdi.

– Bax, ona görə həmişə deyirəm; Muzdur ağıllı qəhrəmandır.

Zəminzadənin sözlərinə sakit qulaq asmaq olmurdu. O, hamını işə səfərbər eləmişdi. Hamını işlətməyi bacarırdı. Bir nəfər bekar durmurdu. Məzəli sözlər «qəhrəmanlar»ı və bizi ruhlandırırdı. Hərəkətdə, gediş-gəlişdə idik. Evdəkilərin belə həvəslə işlədiklərinə baxan olsaydı, güman edərdi ki, bu adamlar dünyanın dərdsiz adamlarıdır, bu adamlara böyük səadət, xoşbəxtlik üz verib. Yalnız səy, səy lazımdır. Keçmiş mənzərələri yadıma gətirəndə, Zəminzadənin böyük adam olduğuna şübhə edə bilmirdim. O, adamları ələ almağı, yorulub əldən düşənə kimi işlətməyi, öz aramızda qalsın, ac yola salmağı məharətlə bacarırdı.

– Muzdur, yeyib-içmiş kimi gedin, sabah gün çırtlamamış burada olun. Daha gördünüz başımız bu gün necə qarışdı. Əsas iş qonaqları yola salmaqdı. Belə deyil?

– Əlbəttə, belədir.

«Qəhrəmanlar»ın dördü də birdən dilləndi.

– Afərin. Varam sizin dördünüzün də bir nəfər kimi özünüzü aparmağınıza. Gedin. Səhər qarın məsələləri möhkəm həll olar. Bütün bunlar, qoyun-moyun, filan, hamısı sizindir. Belə deyil?

– Əlbəttə, belədir.

– Afərin. Onda səhər gün çırtlamamışdan.

– Baş üstə.

– Afərin. Gedin. Amma yeyib-içmiş kimi.

– Baş üstə, əşi, hamısı bizim deyil? Sabah dediyiniz vaxt, gün çırtlamamış burdayıq.

Muzdur belə vaxtlarda hamıdan etibarlı tərpənirdi.

– Ə, Adaxlı, sən bir az dələduzsan ha!.. Heç yerə tərpənməzsən. Ə, Dinməz, sən yaxşı oğlansan, amma bir az çox yatırsan. Düz beşdə geyinərsən. Ərizə Vəli, sən işini bilənsən də. Sənə də deyək? Sənə də deyək vaxtında gəl? Allaha şükür, hamıya ağıl öyrədirsən. İntizamda gərək sən birincilər sırasında durasan. Getdik!

Qonşumuz çox vaxt «qəhrəmanlar»ı özü yola salırdı. Ziyafəti başa vurmaq üçün işləyənlərə başçı Muzduru təyin etdi. Tapşırdı ki, Muzdurun göstərişlərindən çıxmayaq. Muzdur ona olan xüsusi inamdan zövq alırdı. Qonşumuzun həmişə bir tərəfə zarafata söykək sözlərini ciddi qəbul edirdi. Hər şeyi dəqiq yerinə yetirirdi.

Axşamlar yerimin içərisində gündüz gördüklərimi fikirləşirdim. Məni qınama, mənim üçün yeni bir aləm açılmışdı. Görmədiklərimi bu aləmdə görürdüm. Eşitmədiklərimi eşidirdim. Məndə maraq doğuran bu aləmdə çox şeylər vardı. Hamısını düzgünmü dərk edirdim? Onda bu suala, bəlkə də, cavab verə bilməzdim. Məni ən çox düşündürən bir məsələ idi: Zəminzadə, doğrudanmı, anamın təriflədiyi kimi yaxşı adamdır? Qonşularımızdan heç bir pislik görmədiyim halda bu sual məni nədən ötrü düşündürürdü, bilmirəm. Günlər adladıqca, əlbəttə, mənə müəyyən şeylər aydın olmağa başlayırdı. Yenə deyirəm müəyyən şeylər. Təzə qonşularımıza ayaq açandan məni sevindirən səbəb də vardı. Səbəbin qonşumuzla bağlı olduğunu inkar edə bilməzdim. Anam elə bil cavanlaşmışdı. Sağlamlığı xeyli yaxşılaşmışdı. Tanış-biliş bunların səbəbini təzə

mənzildə görürdü. Söz yox, təzə mənzilin təsiri yox deyildi – qaz, işıq, su! Əsas səbəb isə Zəminzadə qonşumuza gündən-günə yaxın olmağımızdı. Anam məndən razı idi.

Dörd «qəhrəman»a  Adaxlı, Muzdur, Dinməz, Ərizə Vəli adlarını Zəminzadə qonşumuz özü qoymuşdu. Dörd «qəhrəman»ın hər birinin özünəməxsus həyat tarixçəsi vardı. Yaxın olduqca Bədirə xanım hər şeyi mənə danışırdı. Danışıqlar bizi bir-birimizə daha yaxşı tanıtdırır, mehribanlaşdırırdı. Dördlərin bir cəhətləri ümumi idi. Onlar, doğrudur, yaşayırdılar, Zəminzadənin məclislərini yola verirdilər. Məclislər qurtarıb, adamlar dağılandan sonra yemək stolunun arxasına onlar keçirdi. Yeyirdilər, içirdilər, kefləri yuxarı da olurdu. Ancaq cızıqlarından çıxmırdılar. Sərxoş olmamaq üçün özlərini nəzarət altında saxlayırdılar. Zəminzadə özü də onların cızıqdan çıxmalarına yol verməzdi. Dörd «qəhrəman» yaxşı bilirdi – Zəminzadə qonşumuz onlarla gülüb zarafat eləyir, ancaq onların kiçik səhvlərini o saat görür və qəfil tutulan göy üzü kimi bom-boz olur. Onda «qəhrəmanlar» buraxdıqları səhvi göz qırpımında geri götürürdülər. Səhvi geri götürməklə iş qurtarmırdı, görürdüm ki, kiçik səhv Zəminzadənin yadından heç vaxt silinib getmir. Uzun nəsihətlər başlayırdı. Yeri gəldikcə «qəhrəmanlar»ın səhvlərini adam içində üzlərinə çırpırdı. Ən dəhşətlisi bu idi ki, «bağışlanan» səhvlər gizli cəzalara məruz qalırdı. Cəzalar birdəfəlik verilib qurtarmır, neçə il uzanırdı. Bu uzanmanın nə demək olduğunu biləcəksən. İndi isə mən dördləri birləşdirən ümumi cəhətin nədən ibarət olduğunu deməliyəm. Bəlkə də, dörd «qəhrəman» haqqında sənin fikrini məşğul eləməzdim, əgər sən insanların səadəti, onların taleləri haqqında düşünüb yaşayan adam olmasaydın. Dörd nəfər haqqında sənə ona görə bir qədər geniş danışmaq istəyi-

rəm ki, mənim həyatımı bütünlüklə dərk etməyin üçün sənə lazımdır. Mən bu fikirdəyəm ki, insanların başına gələn fəlakətlər bir-biri ilə zəncir kimi bağlıdır. Zənciri əmələ gətirən, şübhəsiz, halqalardı. Bu halqaları həyatda mən tək-tək insanlar hesab edirəm. Buna görə də ətrafındakıların talelərinə göz yumub, üstündən addımlayıb keçmək olmaz. Ola bilsin, hamı üçün belə deyil. Sən isə mənimlə əlaqədar hər şeyi bilməlisən. Bizim ayrılmağımız, sənin tutduğun yol və sənətin bunu tələb edir. «Qəhrəmanlar»ı birləşdirən ümumi cəhət o idi ki, onların heç biri həyatda öz yerini hələ tapa bilməmişdi. Bunun üçün onlar heç bir təşəbbüs göstərməyib, bütün ümidlərini Zəminzadəyə bağlamışdılar ki, faciələri də buradan başlayırdı. Elə adam var ki, həyatdan onun tələbi yalnız müvafiq iş, otaq, yemək-içmək, bir də ailədir. Yaxud bir ad-san gəzdirə bilsin. Nə yaxşısı, nə əlası. Ortadan aşağı olsa, pis deyil.

Dördlər hələlik nə birincidən, nə ikincidən idilər. Onlar həyatda yerlərini axtarırdılar. Çalışırdılar. Bütün güclərini Zəminzadənin göstərişlərini yerinə yetirməyə sərf edirlər. Yuxularını qurban verirdilər. Ümidlə yaşayırdılar. Gözləyirdilər ki, Zəminzadənin köməyi ilə cığırlarına düşəcəklər. İlk köməkdən sonra yerdə qalanı, əlbəttə, onların özündən asılıdır. Düşünürdüm: deməli, Zəminzadə ad-san sahibidir. Vəzifə onun məsləhətlərindən çıxmamaq, Zəminzadəyə sadiq olmaqdan ibarətdir.

Adaxlı otuz üç yaşa qədəm qoymuş, ortaboy, əzələləri möhkəm adam idi. Nazik, uzun qara bığları, son dəbdə olduğu kimi, yan tərəflərdən çənəsinə qədər sallanmışdı. İstədiyi bu idi ki, ali hüquq təhsili alıb, görkəmli hüquqşünas olsun. Bu da yalnız Zəminzadənin köməyi sayəsində düzələ bilər. Adaxlı belə hesab edirdi ki, insan hüququnu müdafiə eləməkdən şərəfli  peşə ola bilməz. Belə şərəfli işi

daşımaq insanın özü üçün şərəfdir. Adaxlının fikri ilk vaxtlar belə idi. Mən Zəminzadə qonşumuza təzəcə gedib-gəlməyə başladığım vaxtlar. Günlər keçdikcə Adaxlı fikrini dəyişirdi. Həyata münasibəti başqalaşırdı. Mən əvvəl bunun səbəbini bilmirdim. Sonralar anlamağa başladım ki, Adaxlının hüquqşünas olmaq fikrindən daşınması qətidir. Neçə il bu ümidlə Zəminzadənin qulluğunda mil durmuşdu, nəticədə bir şey hasil olmamışdı. Zəminzadə yalnız bir neçə ildən sonra ona məsləhət görmüşdü ki, hüquqşünas olmaq xəyalından daşınsın. Bəlkə, işə düzəldi. Görək! Yenə ümid!

Zəminzadənin məclisləri müxtəlif münasibətlərlə düzəlsə də, məclislərdə yeknəsəqlik olurdu. Neçə illərdə bu yeknəsəqlik davam edir. Adaxlının gözləri eyni duz qablarına, eyni çəngəl-bıçaqlara, badələrə toxunur, eyni vədlər, eyin məzəli sözlər eşidir. Doğrudur, Adaxlı öz gözləri ilə görür, inanır ki, hüquqşünas olmaqdan ötrü ali məktəbin hüquq şöbəsinə girmək dəryada balıq sövdası kimi şeydir. İndi o hər hansı ali məktəb olur-olsun, girməyə hazırdır. Təki ali təhsil ala bilsin. Bu, çoxu ondan ötrüdür ki, söhbət zamanı utanıb başını aşağı salmasın. Boş keçən həyatı üçün əlində bir əsası olsun. O çalışıb, ali təsil alıb, həyatda yerini tapa bilmirsə, bunun üçün kim müqəssirdir? Son fikri Zəminzadəyə demək asan məsələ deyil. Münasib vaxt lazımdır. Zəmizadə Adaxlını işə düzəltmişdi. Maaş alırdı. Maaş dairəsində yeyirdi, içirdi, geyinməyə bir şey də düzəldib ala bilirdi. Bunların hamısı Zəminzadənin xidməti idi. Məclis olanda neçə günlərlə Adaxlı işə getmirdi. Boş buraxılan günləri üzrlü hesab eləyib ona pul yazırdılar. Bunların hamısı Zəminzadənin hörmətinin səbəbinə başa gəlirdi. Zəminzadənin xidmətləri bununla bitmirdi. Adaxlı ata-anasından görmədiyi qayğını Zəminzadədən görmüşdü. Bədirə buna görə ərindən razı qaldığını söyləyirdi.

Zəminzadə Adaxlını özü nişanlamışdı. Özü məsləhət bilmişdi ki, Adaxlı onun bəyəndiyi qızla evlənsin. Xoşbəxt olsun. Adaxlı başını aşağı salıb pörtmüşdü. Utanıb nə «hə», nə «yox» demişdi. Səhəri Bədirəyə demişdi ki, dadaşı məsləhət görəndən sonra o nəkarədir? Zəminzadənin bu sözdən xoşu gəlir. Nişan üzüyünü Zəminzadə özü alıb qızın barmağına özü keçirir. Öyrəndim ki, Adaxlının nişanlısı bir vaxt Zəminzadənin evində yaşayıb. Zəminzadə onu kənddən gətirib. Adı Məryəmdir. Məqsəd bu olub ki, qızı oxutdurub təhsilli eləyər. Məryəm onun evində yaxşı tərbiyə alar. Görüb-götürər. Əməlli-başlı adam olar. Ailələri, qohumları Zəminzadədən razı qalarlar. Məryəm orta məktəbdə oxuduğu vaxt birdən-birə məktəbə getməkdən imtina edir. Bədirə işdən baş açmadığını ərinə söyləyir. Zəminzadə soyuqqanlı cavab verir ki, kənd uşağıdır, ola bilsin şəhərdə təhsil almaq onun üçün çətindir, eybi yoxdur, qayıdıb evlərinə getsin, onilliyi qurtarandan sonra yenə gələr. İş başqa şəkil alır. Zəminzadə Məryəmə axıra qədər kömək edəcəyini söyləyir. Qız üçün kirayə ev tutur. İşə düzəldir. Məryəm müstəqil yaşamağa başlayır.

Məryəm Adaxlının nişanlısı olur. Zəminzadə şərt kəsir ki, Adaxlı özünü tamamilə «doğrultmayınca» qız onun ola bilməz!

Dinməz və Muzdur da Zəminzadənin məsləhəti ilə evlənmişdilər. Ərizə Vəli ipə-sapa yatmırdı. Vəli ev almaq üçün cəmi bir dəfə ərizə yazıb vermişdi. Bu işi Zəminzadə ilə məsləhət edib, onun fikrini öyrənmədən gördüyünə görə Zəminzadəni qəzəbləndirmişdi, onu aylarla dindirməmişdi:

— Al görüm, ərizə ilə necə ev alırsan?

Vəli dönə-dönə səhv hərəkət elədiyini deyəndən sonra Zəminzadə günahından keçib, ona «ərizə» ləqəbini vermişdi.

Fikirləşirdim: Zəminzadə tabaşir ilə dairə çəkib onları dairəyə salıb, dairədən kənara çıxa bilmirlər. Nə üçün? Səbəbini anlaya bilmirdim. Getdikcə sual məni daha çox maraqlandırırdı.

Nə üçün?

Nə üçün?

Nə üçün?

Mən birinci gün haqqında əsas hadisələri sənə demişəm. Sən elə bilmə Zəminzadənin günləri beləcə «boş» keçib gedir. Xeyr. Belə düşünmək ona görə səhv olar ki, sən hələ Zəminzadəni tanımırsan. Zəminzadəni tanımaq heç də asan məsələ deyil. İnsan həyatın özü qədər mürəkkəbdir. Zəminzadələr isə xüsusi və mühüm mövqe tuturdular. Onları tanımaq üçün təmkinli olmaq çox şeyi həll edir. Mən, bəlkə, həyatımı bu məktubla tamamlayacağam. Katibə qız olanda nə olar? Axı mənə indi də belə deyirlər. «Katibə!» Mənim həyatım da bir insan həyatıdır. Bir insan ömrüdür. Nə üçün mənim həyatım kor quyu kimi səssiz-səmirsiz batmalıdır? Mən buna yol verməyəcəyəm. Mən məhəbbətimi tapdım və onu öz əlimlə itirirəm. Buna məcburam. Uşaqlarımı itirirəm. Buna da məcburam. Mən sizi itirməliyəm. Mən sizi təmizlik naminə, həqiqət naminə itirməliyəm. Ayrı cür mümkün deyil. Bu itki hesabına mən korlanmış həyatımın intiqamını almalıyam! Bir vaxt sən və mənim uşaqlarım məni başa düşəcəksiniz. Onda uşaqlarım mənim günahımdan keçərlər. Yaxud uşaqlarımı, səni nə üçün atdığımı biləndən sonra qoy məni necə mühakimə edirlər, etsinlər. Təki mən insanların üzünə qara eynəksiz baxa bilim!

Dörd «qəhrəman»ın Zəminzadəyə necə itaətkar olduqları haqqında anam gecə-gündüz danışırdı.

— Adamlar belə itaət edirlər ki, ev-eşik sahibi olurlar –deyirdi. – Sənin atanın peşəsi bir köhnə kamançanı sızıl-

datmaq idi. Ömründə Məmmədyar kimi adamlarla durub-oturmadı. Kara gələn tanışı olmadı. Adam, adam səbəbinə ucalır. Adam səbəbinə hörmətə minir. Kim idi bizi tanıyan? Allah bu təzə evi bizə verənin köməyi olsun. Məmmədyar kimi şəxsə rast gəlib, qonşu olduq. Atadan görmədiyiniz hörməti Zəminzadədən görürsünüz. Siz də insan olun. Əlinizdən gələni əsirgəməyin. Kişinin bir sözünü iki eləməyin. Çalışmaq lazımdır, həmişə hörmət, həmişə izzət!

* * *

Qonşumuz ət doğraya-doğraya məzəli sözlər dedikcə istəməsəm də, gülməli olurdum. Çox zaman məzəli sözlər öz çərçivəsindən çıxırdı. Zəminzadə gözlərini məndən çəkmirdi. Mənim utanıb-qızardığımı görüb hiss elədiyi halda özünü o yerə qoymurdu, məni danışdırmağa çalışırdı:

— Utananın oğlu olmaz,—deyə gözlərini tez-tez açıb yumurdu.

Gecə keçirdi. Qoyunların hələ cəmi biri doğranmışdı. İşin çoxu sabaha qalırdı. Dördlər tapşırıq alıb getdilər. Mən də getməli idim. Artıq bu məndən asılı deyildi.

— Heç elə şey yoxdur, sən, ümumiyyətlə, evə getmək məsələsini bizə həvalə elə. Mən də, Bədirə də sənin icazəni Azadə xanımdan almışıq. Bunu ona görə deyirəm ki, sənin gec-tez məsələn özündən yox, bizdən asılıdır. Bu iş hələ evimizin şirinliyini verəndən bir neçə gün sonraya kimi qüvvədə olacaq! Dalısına baxarıq. Xahiş edirəm, qanuna əməl edəsən!

Qonşumuz danışdıqca çay gətirməmi xahiş edirdi. Bəzən iki, hətta üç dəfə məni geri qaytarıb çayı onun istədiyi kimi rəngini və isti eləməyimi tələb edirdi. Tələb onun zarafatları içərisində əriyirdi. Ətə vurduğu baltanın zərbindən qonşumuz istilənmişdi. Bədirə gülüb göz vurdu:

— Evdə lap uşaq kimidir. Hələ harasıdır. Lap itoynadandır. Başqaları ərləri bir saat işə gec gedəndə darıxırlar—kişi çıxıb getməz, bir görək nə var, nə yox,—deyirlər. Mən isə yox. Məmmədyar yüz il işə getməyib evdə otursa, darıxmaram.

Qonşumuz özü məni yola salmaq üçün geyindi. Həm də bir az havada olmaq istədiyini dedi. Bədirə ərinin üzünə müqəssir kimi baxdı. Ürəyi odlanmış kimi:

— Doğrudur,—dedi.—Səhərdən evin havasındasan. Çıx, nəfəsini heç olmasa dər. Afəri də evlərinə ötürərsən. Tək buraxmağa ürək eləmirəm. – Bədirə üzünü mənə tutdu, – yaxşı oldu, Məmmədyar səni lap qapınızdan içəri salar. Özü də havada hərlənər. – Yenə ərinə tərəf döndü:

– Bəlkə, Azadə xanıma da deyəsən. Yoxsa gecdir? Yatarlar, yaxşı düşməz!

Bədirə ərindən xəlvət məni öpdü. Onlarda qalmamağıma təəssüfləndiyini bildirib xahiş elədi ki, səhər heç yerə getməyim, birbaş onlara gəlim. Zəminzadə Bədirənin açdığı qapıdan məni qabağa buraxıb özü çıxandan sonra qapını örtdü. Qapı bağlandı. Bədənimdən ani bir gizilti keçdi. Səbəbini bilmədən geri qayıtmaq istədim. Qapının zəngini çalmaq istədim ki, Bədirə qapını açsın. Deyim: eybi yoxdur. İşlərimi səhər görərəm. Gecəni isə onunla qalmaq istəyirəm. Mənim düşündüklərim, bəlkə, bir dəqiqə də çəkmədi. Heç nə xəbər almadan dayanmışdım. Başımı qaldıranda başqa üz gördüm. Ətim biz-biz oldu. Şüursuz addım atıb, pillələri enməyə başladım. O, qabaqda düşürdü. Pillələri endikcə mənə kömək eləyirdi ki, yıxılmayım. Aşağı mərtəbənin işıqlarını nadinc uşaqlar vurub sındırmışdılar. Qaranlıq pillələri düşüb qurtardıq. Açıq havaya çıxdıq. Ayağımız yerə dəymək üçün beş pillə qalırdı. Ancaq bu beş pillənin qabağını qara bir maşın kəsmişdi.

Yalnız sağdan, ya soldan düşmək olardı. Bu mənim üçün çətin idi. Ona görə çətin idi ki, beş pilləni tullanmaq lazım idi. Dayandım. Bu vaxt maşının dal qapısı açıldı. Zəminzadə əlimdən yapışdı:

– Maşına əyləşin!

Qapıdan çıxanda bədənimdən keçən gizilti yenidən təkrar olundu. Məni tər basdı. Əlimi onun əlindən çəkmək istədim, bacarmadım. Zəminzadə barmaqlarını mənim barmaqlarımın arasından keçirib tutmuşdu. Əlimi çəkmək istəyəndə elə bil barmaqlarımı dəmir arasında sıxdılar. Əlim boşaldı. Zəminzadə yumşaq səslə əlavə etdi.

– Belə sakit havada beş dəqiqə maşınla hərlənməmək cinayətdir. Oturun! Kiçik dairə vurub qayıdarıq.

– Yox, – dedim. – Məni buraxın. Mən evə getməliyəm.

– Oturun!—deyə Zəminzadə «sakitcə» dilləndi. – Oturun.

– Yox! Məni hara aparırsınız? Mən evə getməliyəm. Anam gözləyir.

Barmaqlarım yenidən alışıb-yanırdı.

– Maşına oturmalısan! Anadan arxayın ol! O, səni gözləmir. Bilir bizdəsən. On dəqiqədən sonra evdə olacaqsan.

– Yox! – dedim.

Zəminzadənin sürücüsünə baxdığını gördüm. Sürücü bizə yanaşdı. Onu hiss elədim ki, maşındayam. Zəminzadə yanımda oturmuşdu.

Əlimi buraxmışdı. Barmaqlarım bir-birindən aralanmırdı. Göynəyib sızıldayırdı. Bütöv qolum hərəkətsiz kimi idi. Maşının şüşələri qaldırılmışdı. Nə edim? Fikirləşdikcə cəhdlərimin mənasız olacağını görürdüm. Maşın gedirdi. Zəminzadənin üzündə gördüyüm qorxulu ifadə çəkilirdi. Mən bunu o hərdən üzümə baxanda sezirdim. Maşının hansı səmtə gedəcəyi haqqında heç bir söz demirdi. Dön-

gələrdə sürücü özü sükanı ya sağa, ya sola əyirdi. Sürücü hələ bir kəlmə də dillənməmişdi.

– Afər xanım, mən istəyirəm sən bizim Qeyrətəlini yaxşı tanıyasan, – deyə Zəminzadə dilləndi.

Mən cavab verəcək halda deyildim. Zəminzadə danışmadığımı görüb söhbəti dəyişdi:

– Heç vaxt ağlıma gətirməzdim mənim sözümü yerə salarsan, – dedi. Tez də davam etdi. – Doğrudur, yerə salmadın, amma bilmirəm nə üçün tərəddüd edirdin. Nədən qorxub çəkinirsən? Bir halda ki, mənimləsən. Hələ də ağlıma sığışdıra bilmirəm, Afər xanım məndən çəkinərmiş. Düşünürsən ki, anan gecikdiyin üçün danışar? Anandan yüz faiz arxayın ola bilərsən.

Zəminzadə gülmədən, məzəli söz demədən ciddi danışırdı. Dinmirdim. Onun sualları cavabsız qalırdı. Sürücü dilləndi:

– Dadaşım, siz adamların səhvlərini həmişə birinci dəfə bağışlamısınız. Məncə, Afər xanımın da səhvindən keçərsiniz. Maşallah, ürəyiniz genişdir. Afər xanım sizin təklifinizi yerə salmaq niyyətində deyildi. Ancaq sizdən utanırdı. Bilirsiniz, həmişə ilkin belə olur. Dadaşım, Afər xanım, məncə, başa düşən qızdır. Öz günahını özü yuyar...

– Afərin, Qeyrətəli, – deyə Zəminzadə sürücünün sözünü kəsdi. – Həmişə səndən ağıllı söz eşitmişəm. Afər xanım, Qeyrətəlini mən sizə təqdim etmək istəyirdim, başqa söz ortalığa düşdü. Qeyrətəlinin dedikləri ilə, söz yox, siz də şəriksiniz. Mən yenə xahiş edirəm, siz Qeyrətəlini yaxşı tanıyasınız: mənim ən yaxın dostlarımdan biridir. Ondan heç bir məxfi işim, söhbətim olmayıb. Etibar eləməli yoldaşdır. Hara getsəm, fərqi yoxdur, Qeyrətəli yanımda olmalıdır. Bunları deməkdə məqsədim odur ki, onun maşınında özünü sərbəst hiss edəsən. Maşın nə vaxt lazım oldu, mənə

demədən zəng vurub Qeyrətəlini çağıra bilərsən. Çəkinmək, utanmaq lazım deyil.

Mən dinmirdim. Nə cavab verim, bilmirdim. Qulağım Zəminzadədə olsa da, başımda onun bu sözləri hərlənirdi: «Anan səni gözləmir. Anan səndən yüz faiz arxayındır. Bilir ki, bizdəsən»... Sözlər Zəminzadənin dediyi kimi olmasa da, qırıq-qırıq başımda dolanırdı. Düşünürdüm və onun sözlərinə haqq qazandırmalı olurdum. – Doğrudur, —deyirdim,—siz tamam haqlısınız, məni anam gözləmir. Məni heç kim gözləmir! Anam məndən arxayındır... Qoy ardını da mən deyim: anam nigaran olmayacaq. Buna da arxayın olmaq olar. Bədirə xanımın da evimizə zəng vurmayacağına arxayınam. Mən hələ sizdə ikən Bədirə anamın məndən arxayın olub yatdığını bilirdi. Mehrəli haqqında düşünməyə dəyməz. O, anasının dizinin dibindədir. Onun üçün hər şeyi anam edir. Mehrəli üçün hər cür qurbana hazırdır. Təki Mehrəli bir tərəfə çıxsın!!

Demək istədiklərimi Zəminzadə ilə Qeyrətəli çoxdan ölçüb-biçmişdilər. Bəlkə də, maşın, gecənin sakitliyindəki bu gediş təsadüfi idi. Gözlərimin qabağına Qeyrətəlinin qara maşınla çəkdiyi hasar gələndə, təsadüfə inana bilmirdim. Bəzən maşının içərisində qorxu, vahimə məni götürürdü. Gah da maşının yumşaq, rahat gedişinə aludə olurdum. Maşın Xəzərin sahilinə—Şıx kəndinə sarı yollanmışdı. Ətraf duman içində idi. Qulaqlarıma dəyən səslər sahilə çatıb, geri qayıdan ləpələrdən gəlirdi. Mən qorxurdum. Kimsəsizliyimdən qorxurdum. Zəminzadə ətrafda heç nəyi hiss eləmirdi. Sürücü ona doğru dönəndə Zəminzadə dilləndi:

— Bəlkə, lap sahilə yaxın sürəsən? Axı sən dənizbazsan. Amma bu dəfə çimməyinə icazə vermirəm.

Qeyrətəli sahibinin sözlərindən məst olan adamlar kimi xoşhallanıb üzünü sükana çevirdi, kürəyini oturacağın

söykənəcəyinə sıxdı. Maşın ləpələrin islatdığı yerdə dayandı. Qeyrətəli cibindən nə isə çıxarıb Zəminzadəyə verdi:

— Dadaşım, düz deyirsən. Mən dəniz vurğunuyam. Məni dənizin sularına aparan başqa məqsəd deyil, dənizə olan istəyimdir.—Qeyrətəlinin Zəminzadəyə verdiyi tapança idi. Zəminzadə onu arxa cibinə qoyanda gördüm. Sürücü maşından düşüb bizdən aralandı. Getdikcə o, gözdən itirdi. Maşın, mən, bir də Zəminzadə qaldıq. Hara gəlib çıxdığımı elə bil indi dərk elədim: nə üçün bura gəlmişəm? Gecənin bu vaxtında məni bura kim gətirib? Nə üçün mən belə uzağa, qaranlığa, vahiməli suların yanına düşmüşəm? Mən gecə sudan qorxduğum kimi heç nədən qorxmurdum. Öz-özümə verdiyim suallar mənim vahiməmi artırırdı.

Zəminzadənin isti nəfəsini yanaqlarımda hiss etdim. Ondan aralanmaq istədim. Bacarmadım. O, əlini arxamdan keçirib məni tutmuşdu.

— Üşüyürsən?

— ...

— Hiss eləyirəm sıxılırsan.

— Məni nə üçün bura gətirmisiniz? Siz məni evimizə ötürməyinizi yoldaşınıza vəd etdiniz!

— Doğrudur. Ancaq səni bura ona görə gətirmişəm ki, sənə deməli sözlərim var. Sözləri sənə hökmən deməliyəm! Mənə yaxşı qulaq as. Çalış suallarıma cavab verəsən. Sən yenə evinizə qayıdacaqsan. Mən heç vaxt vədimə xilaf çıxmamışam. Səni özüm qapınızdan içəri salaram. İndi de görüm mənim həyatımda nə hiss edirsən?

— Başa düşmürəm məndən nə soruşursunuz. Məni evimizə qaytarın.

Zəminzadə məni özünə tərəf çəkdi. Əlini atıb sarığı üzündən tamam götürdü.

— Mən bu gündən ona görə yaşayacağam ki, sizin bütün xahiş, arzularını yerinə yetirim. Nə üçün belə yazıq-yazıq danışırsınız? Siz burada kimsəsiz deyilsiniz. Nədən çəkinirsiniz? Ürəkli olun. Ürəyinizə, yenə deyirəm, heç bir pis fikir gəlməsin. Deyin görüm, mənim həyatım sizə necə təsir bağışlayır?

— Mənim belə sualdan başım çıxmır.

— Demək istəyirəm ki, mən necə yaşayıram?

— Qəssablar kimi.

— Kimlər kimi? Sizdən küsərəm. Mən ət doğruyuram, elə bilirsiniz qəssabam?

— Bağışlayın, mən elə demək istəmirdim.

— Burada baş çıxarılası nə var? Qəssablar necə dolanırlar?

— Deyirdilər ət satanlar milyoner olurlar...

— Demək istəyirsən mən də milyonerəm?

— Onlar oğurlayırlar.

— Necə oğurlayırlar?

— Onu bilirəm... camaatdan.

— Yaxşı, belə oğurluqla bizim işimiz yoxdur!

— Bəlkə, mən fikrimi deyə bilmirəm. Məni bağışlayın. Demək istəyirəm ki, sizin yaşayışınız o qədər yüksəkdir, adamın az qala başı gicəllənsin. Belə yaşayış haqqında mən daha nə deyə bilərəm?

— Zənn edirsiniz mən xoşbəxtəm?

— ...

— Niyə cavab vermirsiniz?

— Mən hələ xoşbəxtliyin nə demək olduğunu bilmirəm.

— Mən sizin bu qədər ağıllı qız olduğunuzu bilmirdim.

— ...

— Əgər insan sevmədiyi adamla həyat sürürsə, o insan dünyanın bədbəxt adamıdır. Suallarımı cavabsız qoyursunuz...

— Başa düşmədiyim suala necə cavab verim?

— Görünür, biz bir qədər aydın danışmalıyıq. Mən sizi ona görə bura gətirmişəm ki, son günlərdə məni xoşbəxt edən, mənə həyat, həyatda uçmağa qanad verən səbəbi sizə deyəm.

— Belə səbəb, əlbəttə, hamı üçün maraqlıdır. Bir səbəb ki, insana uçmaq üçün qanad verir.

— Mən sizi sevirəm, Afər xanım! İnanın, nəyə deyirsiniz and içim. Məni tanımayanlar mənə baxanda zənn edə bilərlər ki, kədərin nə olduğunu ömrümdə bilməmişəm. Mən həyatda hər şeydən təmin olunmuş adamların birincilərindənəm. Yox. Belə deyil. Mən indi özümü əsl insan hesab edirəm. İşdə yadıma düşürsünüz. Onda dünyanın gözəl, nadir şeyləri gözlərimin qabağına gəlir. Onların hamısını sizin üçün gətirmək istəyirəm. Sevdiyin insanın qayğısını çəkmək bilirsiniz necə gözəl işdir? Əgər siz bunu mən hiss elədiyim kimi duya bilsəydiniz... Mən Bədirəni heç vaxt sevməmişəm. Sevməyə-sevməyə yaşamışıq və yaşayırıq. Mən bu günə kimi Bədirəyə nə demişəm, nə söhbətlər eləmişəmsə, hamısı boğazdan yuxarı olub. Düşünə bilərsən ki, bu, riyakarlıqdır, bu, insana qarşı amansızlıqdır. Əgər mən onu sevmirdimsə, nə üçün həyatımı ona bağlamışam? Bir insanla gecə-gündüzləri bir yerdə keçirt, illərlə fikrini, düşüncələrini onunla bağla, onunla bölüşdür, əsl ürəyindəkiləri isə açıb ona danışma. Göz-gözə, üz-üzə baxa-baxa onu da, özünü də aldada-aldada yaşa. Belə bir adama indi necə inanmaq olar? Belə düşünməkdə haqlı olarsan. Ancaq, Afər xanım, belə düşünmək birtərəfli olardı. İnsan, insan həyatı bilirsən nə qədər mürəkkəbdir? Adamı ovsunlayırlar. Adamı rahat, isti yuvasından elə çəkib çıxarırlar, adamın xəbəri olmur. Dil tökürlər, qayğını çəkməyə başlayırlar. Andlar, amanlar içirlər ki, dünyada səndən başqa varlıq

yoxdur. Gecələri zəng vurub yuxudan ayıldırlar. Dəli olursan. Görəsən, nə işdir? Min dəfə üzr istəyib guya narahat elədiklərinə görə peşman olduqlarını deyirlər. Səni yuxuda narahat gördükləri üçün gözlərinə yuxu getmədiyini deyirlər. Bir saatda on dəfə əhvalını xəbər alırlar. İnanırsan. İnanırsan ki, dünyada sənə ən yaxın, sənə qəlbi ilə bağlı olan bir adam var. Həyat qurursan. Heyhat ki, bu həyat qurulandan sonra necə tora düşdüyünü görüb çapalaya-çapalaya qalırsan. Dərhal belə adamı başından necə rədd edəsən? Əhatən dostdur, düşməndir. Şəxsiyyətin var! Adın beş-üç adama yox, bütün respublikaya məlumdur. Adamlara özün məsləhət, öyüd- nəsihət verirsən. Belə olan halda boğazına keçən natəmiz adamdan necə aralanasan?

İndi mənim faciəmi dərk edə bilərsinizmi? Bir kəlmə sözündən başa düşdüm ki, sən hər şeyi anlayan, dərk eləməyi bacaran qızsan. Fikirləş, mən necə mühitdə yaşamışam. Necə insanla həyat sürməkdəyəm. Mənə insanlar etibar edilir. İnsanların taleyi əlimizdədi. Mən adi vətəndaş olsaydım, əlbəttə, düşdüyüm tilsimi çoxdan parçalayıb, özümə istədiyim yaşayışı qura bilərdim. Yenə təkrar edirəm, nə edəsən? Bir halda sən özün vicdan keşiyində durmusan, vicdanları qoruyursan, ləkələnməsin. Özün vicdansızlığa necə yol verəsən? Budur məni illərlə istəmədiyim adamla yaşamağa məcbur edən. Mən səni ona görə bura gətirdim ki, qoy, nəhayət, mən həyat faciəmi istədiyim bir insana açım. Elə bir insan ki, o mənə xoşbəxtlik, nikbinlik, yüngüllük gətirmişdir. Bunun üçün mən sənə ömrümü borcluyam, Afər xanım. Sən məni batıb boğulmaqda olduğum bulanıq sudan çəkib çıxarmısan. Mənim beynimdə, hətta əqidəmdə kütlük yaranmağa başlamışdı. Həyat mənim üçün mənasızlaşırdı. Bu, insan üçün ən pis xəstəlikdir. Belə xəstəlikdən sağalanları hələ eşitməmişəm.

Hər şeyi mənə sən qaytardın. Məni sən sağaltdın. Bunları mən sənə necə deməyə bilərdim? Buna görə də mən səni evinizə yox, bura gətirdim. Sənin xoşbəxtliyin üçün mən necə həyatımı qurban verməyə bilərəm? Sənin həyatın, sənin taleyin məni gecə-gündüz düşündürür. Fikirləşirəm ki, nəyə görə sənin kimi qız bütün insani qayğılardan məhrum olsun? Nə üçün sən gözlərini hələ dünyaya geniş açmamış adamların qayğılarını öz üzərinə yükləyəsən? Bir halda ki, sən başqalarını yaşatmağa qadirsən. Bəs səni kim yaşatmalıdır? Mən sənin üzərində isti nəfəs olmadığını duyduqca hissə-hissə sökülürəm. Sən anan üçün yanırsan. Mən bunu başa düşürəm. Sən qardaşının bir tərəfə çıxmasına əlləşirsən. Bu, ananın arzusudur. Bəs sən özün? Sənin haqqında kim düşünməlidir? Sən körpə ikən mənim qolumdan yapışıb məni ölümdən qurtarırsan. Bəs səni kim həyatın qorxulu yolundan, amansız üzündən, ağırlığından xilas etməlidir? Bir yazıq qızın bazar-dükanlarda saldığı ləpiri kim silib təmizləməlidir? Min dəfə inandığım qüvvəyə təşəkkür edirəm ki, sənə mən rast gəldim. Mən səni həyatın ağırlığından, pis adamların çirkin əməllərindən xilas edəcəyəm. Bunun üçün mən indi dünyanın ən çox sevinən adamıyam. Elə bilmə ki, mən insanların pis əməllərinə məruz qalmışam. Mənim nə yollar keçib bu mərtəbəyə çatmağımı bilsən, mənə rəhmin gələr, köməyini məndən əsirgəməzsən. Gözlərinizin qarşısına belə bir mənzərə gətirin: Üç adam bir-birin dalınca dənizdə üzür. Onlar yırtıcı balıqların içərisinə düşüblər. Qabaqda gedən nəhənglərlə vuruşur, qabaqlarında xeyli duruş gətirir, nəhayət, nəhəng balıqlar onu udur, ikincisini udur. Qalan tək üçüncüdür. O udulmamaq üçün suyun lap dibinə enir, qalxır, başını birtəhər götürüb qaçır; özünü dənizə tökülən sellərə vurur ki, bəlkə, salamat qala...

Zəminzadə ara vermədən danışırdı. Yanılmırdı, bir söz deyib, ikincisi üçün fasilə vermirdi. Mən düşünürdüm; sözləri ürəkdən gəlməyən adam necə belə, birnəfəsə danışa bilərdi? Şofer isə hələ gözə dəymirdi. O, Bədirənin adını çəkəndə, mənim bütün bədənim uyuşub açılırdı. Özümü nizələr qabağında gedən əsir kimi hiss edib, səsimi çıxartmadım. Məzəli sözlərlə bizi güldürən bu adam necə qorxulu imiş! Amma o, həyatını danışdıqca kövrəlirdim. Bədirə gözümdən düşməyə başlayırdı. Bəlkə də, mən Bədirə haqqında bir neçə söz xəbər alardım. Bədirə hiss eləmir ki, əri onu sevmir? Tutaq ki, hiss edir. Axı Bədirənin özünün də istəyi, məhəbbəti var. Bu nə üçün nəzərə alınmamalıdır? Yoxsa elə şeylər vardı Zəminzadə hələ onları açıb mənə danışmaq istəmirdi?

Zəminzadədən heç nə soruşa bilmədim. O, buna imkan vermirdi. Az vaxtda «bütün ürəyindəkiləri» boşaltmaq istəyirdi. Dəniz kənarına gəldiyimizdən nə qədər vaxt keçdiyini bilmirdim. Vaxt haqda artıq düşünmürdüm. Dünya mənə daha maraqlı, sirli, mürəkkəb görünürdü. Mən hara getmişdim? Haranı görmüşdüm? Mənim getdiyim yer, sənə dediyim kimi, bazarlar idi. Bir də anama axtarıb dərmanlar tapdığım apteklər. Danışdığım adamlar alver edənlər idi. Onların sözləri, söhbətləri Zəminzadəninki kimi deyildi. Mənim onlarla söhbətim alacağım şeyin yaxşısı-pisi olmasından, ucuzluğundan gedirdi. Belə vaxtlarda şey satanların bəzilərini mərd, namuslu görürdüm. Bəziləri mənə baxıb qaş-gözlərini oynadırdılar: – Hamısı sənə qurbandır, pulsuz apar! İlk günlər belələrinə nifrət edirdim. Özümə söz verirdim ki, bir də onlardan şey almayım. Sonralar bu sözlərə öyrənişməyə başlayırdım. Nifrət əvəzinə gülümsəyib keçirdim. Zəminzadənin sözləri mənim üçün yeni idi. Heç vaxt ağlıma gətirə bilməzdim ki,

Zəminzadə, dediyi kimi, «çətin», «xəlvət», «aşkar» yol keçib. Mən buna şübhə eləmirəm. Özümə haqq qazandırmaq niyyətində də deyiləm. Bir şeydə təsəlli tapıram: sən mənim haqqımda tez hökm çıxarmayacaqsan, Alaz. Məni mühakimə edən ən ağıllı, ədalətli hakim sən olacaqsan. Mən buna inanıram. Axı məni dünyanın işlərindən kim xəbərdar eləmişdi? Kim? Mən insanları necə tanıya bilərdim? Bu barədə mənə kim danışmışdı? Doğrudur, mən on il oxumuşdum. On il! Məgər bu on il az imiş? Dünyanı görmək, adamları tanımaq üçün yalnız savad lazımdır? Əlbəttə, savadsız da, bəlkə, yaşamaq olar. Lakin on ildə müəllimlərim mənə nə demişdi? Məni düz başa düş, Alaz. Mən elə deməklə müəllimlərimə lənətlər yağdırmaq fikrində deyiləm. Onların zəhmətlərini mən necə, hansı ixtiyarla inkar edə bilərəm? Ancaq bütün bunlarla yanaşı, həyat məndən çox kənarda idi. Həyat ya qollarını, qəzetçilərin dediyi kimi, geniş açaraq, ya da mənim dediyim kimi, gözlərini ağardaraq məni gözləyirdi. Mən həyatın astanasındayam. Həyatın astanasında Zəminzadə ilə rastlaşmışam.

Zəminzadə «vicdanlar ləkələnməsin deyə» onun keşiyində duran şəxsiyyət idi. Yanlış məhəbbət, demə, ən böyük adamları belə bədbəxt edə bilirmiş. İndi Zəminzadə dünyada ən çox sevinən adamlardan birincisidir. Mən onun dediyinə necə inanmayım? Onun sevincinə səbəb mənəm. Nə üçün inanmayım? Amma yenə şübhə edirəm: görəsən, doğurdanmı, belədir? Deməli, mən anamın dediyi qədər lazımsız adam deyiləm... Mən hələ oxuya bilərəm. Mənim üzərimdə nəzarət edən olar. Mənim taleyim də insanları düşündürürmüş. Mən heç vaxt belə şeyi ağlıma gətirməzdim. Adamlar onda özünü nə yaxşı hiss edir? Dünyada nə dadlı nemətlər var. Amma bunların heç birisini mən ailəmin içərisində bu günə kimi hiss edə bilmə-

mişəm. Qonşumuz mane olmasaydı, maşında beləcə rahat oturub onun sözlərini səhərə kimi bir-bir başımda dolandırardım. Elə bil dünyanı yenidən, birinci dəfə görürdüm. Zəminzadə əlini məndən çəkmək istəmirdi, bərk-bərk özünə doğru sıxmışdı. Mən özüm də ona tərəf xeyli əyildiyimi duyurdum. Zəminzadənin nəfəsini boynumda hiss edirdim. İsti nəfəs yaxşıdır... Mən bunu heç hiss etməmişdim.

– And iç ki, məni xoşbəxt edəcəksən.

– ...

– Məni qəlbən duya bildinsə, sən məni yaşadacaqsan. Mən buna əminəm. Mən səndən ötrü o mənzilə köçdüm. Mənə bir neçə yerdə mənzil təklif elədilər. Çoxuna baxdım. Səni bu binada yaşayan görəndən sonra qət elədim ki, mən yalnız səninlə qonşu olmalıyam! Sən elə bilmə görülən hazırlıqlar, doğrudan da, yaşadığım yeni mənzilin qonaqlığı üçündür. Yox. Mənzil heç vaxt qonaqlıq verəcək qədər məni maraqlandırmayıb. Bütün hazırlıqlar səndən ötrüdür: Sənin ayaqların mənim evimə atıldığına görədir. Məqsəd yalnız budur. Mən yeni mənzildə ilk badəni ürəyimdə sənin sağlığına qaldıracağam. Dil qoy başqa söz desin. And iç ki, məni yaşadacaqsan!

Mən daha heç nə eşitmirdim. Dünyadan, insanlardan ayrı bir aləmdə idim. Gücsüzdüm. Kimsənin taleyini düşünmürdüm. Heç kimin həyatı məni maraqlandırmırdı. Dünya və dünyanın insanları qoy öz dərdlərini özləri çəksin. Bu günə kimi onlardan hansı biri məni düşünüb? Mən nə üçün onları düşünməliyəm? Zəminzadə ürəyini vəd edir. Ancaq axmaqlar belə səadəti başqasına güzəştə gedər. Mən ki axmaq deyiləm. Bədirə özü öz dərdinə dərman gəzsin. Ana odur. Qoy uşaqlarının taleyini özü düşünsün.

Mən elə bil hərarətdən sayıqlayırdım. Yox. Mən sayıqlamırdım. Hər şeyi indi aydın görməyə başlayırdım. Ayı-

lırdım. Ayılırdım. Zəminzadənin dodaqları üzümdə, gözlərimdə gəzdi: «Mən səndən çox razıyam, Afər xanım. Sən yer üzünün ən səmimi, ən ağıllı, ən təmiz qızısan. Sən mənim itən həyatımı özümə qaytardın. Babamın, atamın da ruhunu şad etdin! İndi mənim həyatımın mənası var. Sən bilsən ki, bu gecə mənə nə qədər səadət bəxş elədin, o zaman öz əməlindən ömrün boyu razı qalarsan. Çox sağ ol, Afər xanım. Sağ ol. Bax belə, belə...»

Zəminzadə qaynar nəfəsini məndən çəkib maşının qapısını açdı. Göydəki ulduzlara diqqətlə baxdı. Mən həyatı, səmanı indiki kimi gözəl görməmişəm. Ondakı şirinliyi bugünkü qədər hiss eləməmişəm...

Üzünü mənə çevirdi:

— Görün, Ay nə qədər gözəldir? İndi bizim üçün sirli olanlar yalnız ulduzlardı, Afər xanım. Mən bu saat sizinlə birlikdə o ulduzlardan birinin yanına gedərdim. Ömrün sonuna qədər, görəsən, çata bilərdikmi? Bilirsən hansı ulduza gedərdik? Görürsünüz, bax, lap o zəif işığı gələn ulduza. Yəqin, o bütün ulduzlardan uzaqdı. Soruşa bilərsən: nə üçün ən uzaqda olana? Ona körə ki, orda yalnız ikimiz olardıq. Bizi görən, bizə dəyib toxunan olmazdı. Gəl bu axşamdan həmin ulduzu özümüzə götürək. Deyirlər axı, hər insanın bir ulduzu var! Bu ulduz onun bəxtidir. Bildin hansı ulduzu dedim?

O, əlini arxa cibinə uzadıb şoferin ona verdiyi tapançanı çıxartdı.

— Bu ulduzlarda bütün insanların əksi qalır. Gözləri, baxışları qalır. Bax, mənim babamın, atamın əksi də oradadır, amma onlar məndən ötrü unudulmazdırlar. Bilirsən özümüzə seçdiyim ulduz hansıdır?—deyə o yenə soruşdu, üzünü səmadan çəkmədən əlavə etdi:

— Səsdən qorxmursan ki?

— Nə səsindən?
— Güllə.
— Nə etmək istəyirsiniz?
— Qorxma! Mənim qatilim sən deyilsən!

O yenə də sağ əli ilə məni qucaqlayıb özünə sıxdı. Sol əlində tutduğu tapançanın lüləsi ilə ulduzu göstərdi:

— Əlimin tuşu ilə baxın.

Ulduza baxmaq üçün mən xeyli ona tərəf əyilməli idim. Bu vaxt tapança açıldı. Qulaqlarımı qapayıb güllənin hansı istiqamətdə yol aldığını bilmədim. Zəminzadə iki əli ilə məndən yapışdı. – Bu güllə bizim ilk günümüzün şahidi olacaq. Bu gün mənim həyatımda dönüş, yenilik günüdür. Mənim, sənin haqqında lap pak arzularımın təməl günüdür. Bu günü xatirəmizdə yaşatmaq üçün bizim bəxt ulduzumuza yol alan güllə bizə həmişə kömək edəcək. Bu gecəni yatmayıb səhərə kimi oyaq qalacağam. Sabahkı gəlişini gözləyəcəyəm.

Qeyrətəli güllə açılan kimi elə bil göydən düşdü. Maşının yanında hazır oldu. Zəminzadə son sözlərini deyəndə Qeyrətəli sükanın arxasında idi. Maşın dövrə vurub, gəldiyimiz yola çıxdı.

Pillələri qalxıb açarımla qapını açıb otağa daxil olana kimi Zəminzadə məni gözlədi. Mən içəri girib qapını örtəndən sonra qonşumuz düşüb getdi. Qonşuluqda olan tək qadının qapısının açılıb-örtüldüyünü eşitdim. Nə üçün yatmayıb?

Bu mənim birinci günümün, demək olar, sonu idi. Ancaq hələ tamamlanmamışdı. Evimizdə sakitlik idi. Hamı yatırdı. Anama yaxınlaşıb baxdım. Həmişəkindən şirin yatırdı. Bunu onun üzündəki həyatından razı qalmış adamlara məxsus ifadədən hiss edirdim. Anam yatanda üzünə çox baxmışdım. Bu məndə adət halını almışdı. Qabaqlarda,

yatdığı vaxtlarda onun üzü çox qaşqabaqlı olardı. İndi isə rahat nəfəs alırdı. Mehrəli yerində tez-tez çevrilirdi. Nəfəsi tıncıxırdı. Bu hal Mehrəlidə qorxulu deyildi. O, yatarqarına çox yeyirdi. Qorxurdu gecə yuxuda acsın. Buna görə də anam onun gecə yatmazdan qabaq yeməsi üçün bir şey hazırlayırdı. Mehrəli qarnı tutduqca yeyib, üstündən dolu dəm çaynikini içib yerinə girərdi. Çox gecələrdə vəziyyəti yeməyin zərbindən ağırlaşırdı. Onda da biz yatmırdıq. «Gecələr az yemək lazımdır», – deyəndə anam mənim üstümə düşürdü: «Sən bilmirəm bu uşaqdan nə istəyirsən? Bircə nə istədiyini bilsəydim, əncam çəkərdim. Bəlkə, uşağı evdən didərgin salaq? Balaca da deyil, aparıb «detdoma» verəm. Bəs qəsdin nədir? Niyə uşaqdan əl götürmürsən? Bircə onun evdən didərgin düşdüyünü görməyəcəksən. Getmək istəyirsən, özün cəhənnəm ol. Qoy uşaq rahat yaşasın. Bu xarabada rahat nəfəs alaq».

Anamın bu töhmətləri ilə iş bitsəydi, nə vardı. Belə əsəbiləşən gündən sonra həftələrlə xəstəhal olurdu. Dindirirdim, dinmirdi. Yeməkdən imtina edirdi. Corablarını çıxarıb ayaqyalın gəzirdi.

— Axı soyuq dəyər? — deyirdim.

— Cəhənnəmə dəysin. Bəlkə, pis üzdən canım qurtarsın.

İçəri girib Mehrəlinin əziyyət çəkdiyini görəndə fikirləşirdim ki, yenə çox yeyib. Başqa qorxulu ağrı, sancı yoxdur. Allah eləsin, gecəni mədəsi pozulmasın. Afət dünyadan xəbərsiz yatırdı. Bəlkə də, xəbərsiz sözünü mən düz demirəm. Mənə elə gəlirdi ki, Afət həyatda, bizim ailədə nə baş verirsə, hamısını anlayır, başa düşürdü. Mənim evdə ailə üzvlərinə olan münasibətimdən onun xoşu gəlmirdi. Bu barədə neçə dəfə söhbətimiz olmuşdu. O mənə bir dəfə, «Sən xəstəsən, bacım», – deyəndə, hirsimdən az qaldım ağzımdan çıxanı ona deyim. Deyim ki, başından

yekə danışırsan. Sözün mənə yaxşı təsir eləmədiyini Afət özü də başa düşdü. Tez əlavə elədi ki, başqa bir xəstəliyi nəzərdə tutmur. Mən fanatikəm!!

Afətin nə üçün mənə belə deməsi uzun müddət məni düşündürürdü. Afətin özünəməxsus davranışı vardı. Onun davranışından inanırdım ki, gələcək həyat yolunda möhkəm və inadkardır. O, həyat yolu üçün kimsə ilə məsləhətləşməyəcək. Məsləhətləşsə belə, fikrindən daşınmayacaq. Afət evarası, məhləarası işlərdə başını yoran deyildi. Bu haqda düşünmək onun ağlına da gəlmirdi. Hər şeydə özünün fikri vardı. Anamın dediklərinə yeri gələndə etiraz edir, hətta çəkinmədən anama: səhv edirsən deyirdi. Mən anamla kobud hərəkətinə görə təklikdə bacımı məzəmmət edirdim. O dinib bir kəlmə mənə söz deməsə də, yenə özü bildiyi kimi hərəkət edirdi. Anam mənə deyəndə Afət ağıllı qızdır, o, başını aşağı salıb mənalı-mənalı gülümsəyirdi. Bunların hamısı ilə birlikdə Afət mənim üçün körpə idi. O sanki körpələrə məxsus bir yuxuda idi. Mən onu dünya qədər istəyirdim.

Yuxuda olan ailə üzvlərinə baş çəkib yatdığım otağa keçdim. Otaqların birində ayrı yatırdım. Yerimin üstünü açdım: deməli, doğrudan da, məni evdə heç kim gözləmirmiş. Məndən nigaran qalan olmayıb. Deməli, Zəminzadə doğru deyir. Məndən anam nigaran qalsaydı, heç olmasa içəri girəndə oyanardı. Axı çox ayıq yatırdı. Kiçik şaqqıltı olan kimi gözlərini açırdı. Anamın oyanmamağı mənim ürəyimdən oldu. Bərk yatanda yaxşı dincəlirdi. Səhər duranda özünü yaxşı hiss eləyirdi.

Soyunub yatağıma girdim. Amma yerə girmək o demək deyildir ki, bu birinci günüm qurtardı. Günü başa vuran yalnız saatın iki əqrəbi idi. Mənim birinci günüm hələ bitmirdi. Necə də bitə bilərdi? İnsan hər əməlindən, başına

gələnlərdən sonra beləcə rahat yuxuya gedə bilsəydi, nə var idi? Mən həyatın elə bir coşqun yerinə düşmüşdüm ki, mənə yatmaq yox, baş sındırmaq lazım idi. Nə üçün sən o zaman mənə rast gəlmədin? Mənə kömək lazım idi. Sən mənə kömək edə bilərdin. Mən buna əminəm. Ah, o axşam mən insanların köməyinə necə möhtac idim! Məni gələcəkdə tanıyıb, mənə lənətlər yağdıranlar, əgər bu ehtiyacımı azacıq da olsa hiss edə bilsəydiniz! Bu mənim üçün çox şey demək olardı. Lakin gecənin kimsəsizliyində mən kimi tapa bilərdim? Evimizdə olanlardan hansını oyada bilərdim? Dünyada insan üçün ən dəhşətli şey odur ki, onu əhatə edən doğmalar onu başa düşməsin. Əgər mən uşaqlarımın yanında qalıb onlara ana olsaydım, birinci buna əməl edərdim: çalışardım ki, övladlarım mənə yaxın dost, sirdaş olsunlar! Biz heç nəyi, heç nəyi bir-birimizdən gizlətməyək! Qorxub, utanıb ürəklərimizdə sirr gəzdirməyək! Axı həyat bir yerdə mıxlanıb qalmır. O irəliləyir. Bu irəliləməyə kor-koranə göz yummaq, keçən günlərin hökmü ilə yaşamaq ailə həyatına ağırlıq, ətalətdən başqa heç nə gətirməz!

Mənim insan köməyinə ehtiyacım vardı. Mən bütün ürəyimi açmaq istəyirdim. Kimə? Ailə üzvləri gözlərimin qabağına gəlirdi. Düşünürdüm. Düşünə-düşünə soyunub yerimə girmişdim. Mən yata bilməzdim. Yatmağa ixtiyarım yox idi. Başımda qaranlıq fikirlər qalaq-qalaq idi. Səhərin tez açılmasını istəmirdim. Mən nələr etdim? Yadıma salmağa çalışdım. Güllənin səsi qulağımdan getmirdi. Hələ də maşında Zəminzadə ilə yan-yana oturmuşdum. Əlini üstümdə hiss edirdim. Adyala bərk-bərk bürünürdüm: Zəminzadə Bədirəni sevmir... Mən buna nə təəccüb edirdim, nə heyifsilənirdim. Bəlkə, maşında huşumu itirmişdim? Deyəsən, bir neçə dəqiqə heç nədən xəbərim olmayıb.

O dəqiqələrdə nə baş vermişdi? Heç nə aydınlaşdıra bilmədim. Bir şeyi mütləq qət eləməliydim. Sabah Zəminzadənin evinə gedim, ya yox? Fikrimi bu sual ətrafımda cəmləşdirdim. Başqa fikir üçün iqtidarım yox idi. Gedim, ya yox? Kimsədən səs çıxmırdı. Nə ailə üzvlərindən, nə məktəb rəfiqələrimdən. On il bir sırada mənimlə oturub oxuyan rəfiqələrim indi əlçatmaz idilər. Mən onları necə tapa bilərdim? Nə üçün onlar məndən bu qədər aralı düşmüşlər? Buna səbəb kim idi? Mən rəfiqələrimi sevirdim. Bir gün onları görməyəndə darıxırdım. Səhəri xeyli vaxt görüşmədiyimiz mehriban dostlar kimi görüşürdük. Bəs indi siz haradasınız? Axı biz söz vermişdik ki, yaman gündə bir-birimizin əlindən tutaq. Bəs indi haradasınız? Tələşlə, tər içində rəfiqələrimi ona görə gəzirdim ki, onlar əllərini mənə uzatsınlar. Məni düşüb dərinliklərinə getməyə başladığım bataqlıqdan çəkib çıxarsınlar. Məni sənin evinə gətirən qüvvənin mənbəyi də öz həyatımdan, başım çəkənlərdən doğdu. Səni görüb, sənin vəziyyətini biləndən sonra həyatımdakı birinci günü, birinci gecəni xatırladım. Sanki bunların hamısı dünən baş vermişdi. Vaxt itirmədən sənin yanına gəlmək istədim. Əlimi sənə uzatmaq məqsədi ilə. Mənim səndən ayrı təmənnam yox idi. Necə deyərlər, başı çəkən bilər. Sən ki vaxtında insan köməyinin olmadığının zərbəsini görüb duymuşdun. Bəs nə üçün başqasına etmək istədiyin köməyi gecikdirirdin? Yanına yüyürərək gəlmək istəyirdim. Qorxurdum. Qorxurdum məni dünyanın ən pis adamı sayan «dostlarım» mənə sərsəri adını da versinlər. Mən istəyirdim sən biləsən ki, həyatda kimsəsiz deyilsən. Səni duyub başa düşən var. Sən özünə bir müddət iş tapa bilməsən də, yaşayarsan! Mənim haqqımda kim düşünməli idi? Zəminzadənin dediyinə görə, mən oxuya bilərdim. Anama bağlılıq özümü tamam yadımdan çıxar-

mışdı. Bunları yadıma salan Zəminzadə idi. Mənim həyatımla birinci maraqlanan Zəminzadə! O bədbəxt idi.. Mən onu xoşbəxt eləmişdim. Onun gözlərində ev-eşik, yüz dəfə seçilib alınan mebel, vəzifələr, şöhrət yalnız mən idim. Mənsiz Zəminzadə həyatın səfil adamı idi. O mənim qarşıma başqa şərt qoymadı. Bəs məni qorxudan hislər nə idi? Ürəyim mənə «get» demirdi. İstəmirəmsə, nə üçün gedim? Məgər getməyə bilməzdimmi?

İnsan həyatında baş verən burulğanlar beləcə asan yatırıla bilsəydi, nə var idi? Onda yaşamaq su içmək qədər asan olardı.

Səhərin açılmasına az qalırdı. Zəminzadənin evinə getməliyəm, ya yox? Tez-tez bu sualı verirdim ki, yuxu məni aparmasın. Bir qərara gələ biləm. Sualla özümə müraciət eləyəndə qarşımda anam dayanırdı. Onu müxtəlif hallarda görürdüm: acıqlı, əzazil, heç bir şeylə hesablaşmayan. Gözlərində, üzündə mənə qarşı nifrət. Xəstə, yorğan-döşəkdə bəxtindən daim şikayətlənib inildəyən. Mehrəliyə elədiyi vəsiyyətləri...

«Mən ölməzdim. Sən də yetim qalmazdın, bala. Məni Afər öldürdü. Onu xoşbəxt olmasın. Yer üzündə nə qədər pis, sağalmaz bəla var, ona düçar olsun. Ona görə ki, səni yetim qoydu. Məni yorğan-döşəyə saldı. Axır saatımdır. Gəl yanımda otur, Mehrəli, ürəyimdə qalıb məni dərdə salan sözlərimi deyim. Bu qızdan kənar ol. O səni də məni salan dərdə salar. Fələk də onun öhdəsindən gələ bilməz. Uzaq, uzaq, amanın günüdür. Uzaq! Məni Afər vərəmlətdi. Ondan min uzaq! Sənin Afər adında bacın yoxdur. Bunu bil, sözlərimə əməl elə!..»

Gözlərimi gücüm gəldikcə qapayırdım. Üzümü balışa sıxırdım ki, anamın sözlərinin dalını daha eşitməyim! Nə qədər bu vəsiyyətləri mən eşitmişdim? Anamda müxtəlif

vəziyyətləri nə qədər görmüşdüm? Dözürdüm. Çalışırdım elə hərəkət eləyim, bunlar təkrar olunmasın. Sual məndən əl çəkmirdi: gedim, ya yox? İki cavab vardı. Birinci bu idi: getməlisən! Deməк, təslim olmalıyam... Gedişimlə onun mənə elan elədiyi məhəbbəti qəbul eləmiş oluram. Demək, mənim həyatımda dəyişiklik baş verəcək. Rəqibim peyda olacaq. Bu rəqib məni sevən, məni bir saat görməyəndə darıxan Bədirədir. Mən üzdə özümü ona sadiq göstərib ona kömək eləməli, işini görməliyəm. Qəlbimdə isə nifrət! Bu nifrət ürəkdə sakit yatıb qala bilməz. Getdikcə çoxalmalıdır. Bir gün Bədirə ilə üz-üzə gəlməliyəm. Nə üçün yox? Bir halda ki, mən ondan çox sevilirəm. Bədirəyə Zəminzadənin olsa-olsa yazığı gəlir... İşlər dəyişər, Bədirə məni eşitməyə məcbur olar. Mənə təslim olar! Mən ondan cavan və gözələm. O məni yox, mən onu buyuraram. Bunun üçün məndə dözüm olar. Getdikcə nifrətim güclənər. Onda daha güclü olaram, kimsəyə rəhmim gəlməz. Nə üçün gəlsin? Mənim həyatım üçün kim cavabdeh idi? Mən kimin yadına düşürdüm? Kim öz səadətini mənimlə bölüşdü?

Anam xoşbəxt yaşayar. Mehrəli «yetim» qalmaz. Bir tərəfə çıxar. Yəni ev-eşiyi, vəzifəsi olar. Anamdan daha yaxşı, şirin sözlər eşidərəm. Bununla dünyanın ağır yükü üstümdən götürülər.

İkinci cavab bu idi: «Getməmək, vəssalam!» Həyatımı qoruyub saxlamaq... Həyatda hər şeyi düzgün dərk edənədək saxlamaq. Bunun üçün anamın bütün iztirablarına dözməli idim. Tək iztirab olsaydı, dözərdim. Onun həyatına bais ola biləcəyimə qorxurdum. Nə olur-olsun. Evdən çıxıb gedə bilərəm. Hara, fərqi yoxdur. Heç nəyi qulağım eşitməz. Heç nəyi görmərəm. Həyatdan yapışaram. Həyat mənə hər şeyi öyrədər. Əlimdən tutar. Bilmədiklərimi mənə danışar. Gözlərimi açar. Bir vaxt elə bir adam tapılar ki, hər

şeyi ona deyərəm. Deyərəm mən gecənin birində Zəminzadə ilə dəniz kənarında olmuşam. Mənim dəniz kənarına getməyim ağlıma gəlməzdi. Məni Zəminzadə apardı. Zəminzadə yox, məni anam tora itələdi! Nə oldu? O oldu ki, Zəminzadənin nəfəsini üzümdə, bədənimdə hiss elədim. Ondan uzaqlaşmağı bacarmadım. Hər şeyi etiraf eləyirdim: Zəminzadə ulduzları gülləyə tutdu. Çox yox, bir güllə atdı. Ən fərəhli günü olduğu üçün belə edirdi. O özünə bəxt ulduzu tapdı. Həmin ulduzu danışdığım adama göstərərdim.

Adam mənim günahımdan keçməsə, eybi yoxdur. Çünki hələ mən tamam ləkəli deyiləm. Həyat məni qaldırıb ayaq üstünə qoya bilər!

Bəs anam? Gücsüzləşirdim. Taqətsizləşirdim. İkinci cavab haqqında düşünərkən taqətsizlik mənim gözlərimi qapadı. Birinci gecə sona yetdi.

* * *

Səhər məni yuxudan anam oyatdı. Gözlərimi açanda gördüm anam qarşımda dayanıb baxır. Nə vaxt durmuşdu, bilmirəm. Anam çox az hallarda əyninə yaxşı paltarlarından geyərdi. Gözlərimi açanda onu çoxdan bəri görmədiyim səliqədə gördüm. Sevindim. Saçlarını daramışdı. Başına təzə Gəncə yaylığı örtmüşdü. Ağ yelənli yaylıq ona yaraşırdı. Başqa vaxtlarda — hələ Zəminzadə ilə qonşu olmadığımız vaxtlarda mən anama deyərdim bir əməlli-başlı geyinsin. Onun hər cür paltarı var. Məktəb yoldaşlarımdan utanırdım. Onlar elə zənn edirdilər, anamın heç nəyi yoxdur. Anam mənim üstümə çığırardı:

— Heç vecimə də deyil. Allah hamısını vurub. Kimin məndən xoşu gəlmir, mənə baxmasın.

Yadımdadır, atamla da belə mübahisələri olurdu. Anam atamla söhbəti uzatmayıb bir cümləsi ilə yekun vururdu: «Heç vecimə də deyil!»

Geyim onun nəyinə yaraşır? Başqalarının qadınları kimi o, bəxtəvər deyil.

Köhnə evdə qonşularımız Zəminzadə qədər görkəmli adamlar deyildi. Anam deyərdi ki, nə qədər xırda-xuruş adam var, elə bil bilə-bilə ətrafımıza yığıblar. Bizdən sonra şəhərə köçənlər əməlli-başlı ev aldılar.

Təzə mənzildə anam geyim cəhətdən dəyişmişdi. Buna bilirsən necə sevinirdim? Səliqə ilə geyinəndə anamın kefi də yaxşı olurdu. Hətta mənə «az», «bu qız» yox, adımı deyirdi. Mehrəliyə yumşaq şapalaq vururdu. Mehrəli ərköyün bəbələrə məxsus görkəm alır, qəribə hərəkətlər edirdi. Gülməyim tuturdu. Mehrəli cinlənirdi: – Elədiyi bazarlıqdan utanmır. Hələ bir dili də var danışır. Bütün günü donquldanırdı. Yeməklərin hərəsinə bir cür irad tuturdu. Saatlarla arxası üstündə çarpayıda ləmpəyə baxır, mızıldanırdı. Anam bilirdi ki, Mehrəlinin qəzəbi tutub. Gəlib cod tüklərini ovuşdururdu: – Fələk də onunla bacarmaz. Dur, qurban olum, çörəyini ye. Ona baş qoşan özünü gərək dənizə atsın. Ay aman, elə bil gədəyə düşmən doğulub. Dur, dur, anan başına fırlansın.

Dilimi tərpətdiyim üçün peşman olurdum. Susurdum. Anam deyindikcə Mehrəli gözlərini mənə bərəldirdi. Qardaşım anam tərəfindən əzizlənib, hər kiçik söz üçün müdafiə olunduqca dözümsüzləşirdi. Tənbəlləşirdi. Evlənmək eşqi aşıb-daşırdı.

– Bircə bu tələbəlikdir, nədi, bunun «qnişkasını» əlimizə alsaydıq, işimizi bilərdik. Qalan şeylər asandır. Öz-özünə düzələcək.

Zəminzadənin qonşu gəlməsi Mehrəliyə təsəlli vermişdi. İnanırdı ki, anam Zəminzadənin vasitəsilə onu instituta qəbul etdirəcək. Bu ümid Zəminzadənin məclisdə anamın şərəfinə dediyi sağlıqdan sonra həll edilmiş məsələ kimi oldu. Sağlıq barədə sənə danışacağam.

Anamı başımın üstündə kefi kök görəndə sevinmədim. Zəndlə baxdım. Fikirləşdim ki, bəlkə, anamın mənə yaxşı sözü var. Halbuki anamın məqsədi mənə aydın idi. Məni oyatmağından bilirdim — qonşumuzgilə gecikmişəm. Onlara kömək lazımdır. Məni gözləyirlər. Bunu bilə-bilə gözlərimi anamdan çəkmədim.

– Dursana, – deyə anam dilləndi. – Bütün gecəni yatıb doymamısan?

Mənə tamam aydın oldu ki, gecə evə nə vaxt gəlməyimdən anamın xəbəri olmayıb. Zəminzadənin dəniz kənarında dediyi sözlərə ürəyimdə haqq qazandırmalı oldum. Anamın sualına cavab vermədim. Fikirləşirdim ki, indiyə kimi onun sorğu-suallarına neçə dözmüşəm? Necə hər şeyi izah edib onu ya inandırmağa, ya başa salmağa çalışmışam? Məndə ilk dəfə idi laqeydlik yaranırdı. Həmin gündən bu, qəlbimdə kök salmağa başladı. Sonrakı günlər anamın suallarının çoxunu cavabsız qoymağa başladım. Elə bil müəyyən şeyləri dərk edirdim. Qəlbimə yaxın adamları indi-indi tanımağa başlayırdım. Bu hal məndə maraq oyadırdı. Heç kimə bir söz demədən tək qalıb, məndə yaranan vəziyyəti aydınlaşdırmağa çalışırdım. Deyəsən, batmış günlərim bir-bir baş qaldırıb üzə çıxmaq istəyirdi. Mən buna yaman sevinirdim. Demək, mənim üçün başqa bir həyat da var. İndiyə kimi bu həyatı nə fikrimə gətirə bilmişəm, nə hiss edib duymuşam.

Anam dinməyib ona diqqət etdiyimi görərək yenə dilləndi:

— Deyəsən, bu da təzə işdir? Başına hava gəlib, nədi? Sözümə niyə cavab vermirsən? Qalx ayağa! Camaat səni gözləyir. Səhərdən Bədirə xanım üç dəfə soruşub. Kişi özü zəng eləmişdi. Utanıb yerə girdim. Dedim bir balaca əlində işi vardır, bu saat gəlir. Kişi məni lap utandırdı, – yoxsa

yenə bazara göndərmisən? – dedi. And içdim, aman elədim ki, yox, evdədir, indicə gəlir. Ağzımdan söz qurtarmamış qapının zəngi çalındı. Gedib açdım. Kişinin şoferi idi. Dedi, Məmmədyar yoldaş dünən axşamdan tapşırdı ki, tez gəlim, Afər xanım bir də bazara getməsin. Onsuz da işi yoxdur. Dur ayağa. Bizi rüsvay elədin!

Hələ də diqqətlə anama baxırdım. Ona elə gəlirdi mən onun sözlərini dinləyirəm. Mən isə yalnız baxırdım. Biz bir yerdə yaşayırdıq. Biz ana-bala idik. Buna baxmayaraq, biz bir-birimizi nə duyurduq, nə ürəyimizdə baş qaldıran fırtınalardan xəbərimiz olurdu.

Deyirdim, görəsən, elə bir gün olubmu, anam məni özü ilə üz-üzə oturdub, mənə bircə zəndlə baxsın? Məni səbirlə dinləsin. Bir dəfə mənim dediklərimə haqq qazandırsın. Övladının qəlbini oxusun...

Yadıma gəlmir. Bu, bəlkə də, mənim tərəfimdən axmaq ittihamlar idi. Yoxsa axşamın sehrli səyahətindən sonra məndə romantik düşüncələr yaranmışdı? Anam gülüb başıma vurdu:

– Ala, kül başına, – dedi, – daha nə vecimizə, qızımız xanım olub. Afər xanım...

Sənə demişdim, anamın mənimlə zarafatı belə olurdu. Xeyli sonra zənn edirdim, anam əsl sözünü mənə zarafatla deyir.

– Yaxşı, – dedim, – keç o biri otağa, geyinirəm!

Anamın yanında heç vaxt nə geyinib, nə soyunmuşdum. Köhnə evimizdə yorulub gec ayılıb geyindiyim vaxt gözləyirdim anam bayıra çıxsın, sonra geyinim.

Özümə qalsaydı, mən geyinmək istəmirdim. Elə bil qollarımı bağlamışdılar. Ayaqlarım tutulmuşdu. Qalxmağa heyim yox idi. Hər şey gözlərimdə solğun görünürdü. Ürəyim açılmırdı. Xəbərsiz-ətərsiz uzaq bir yerə getmək fikri-

nə düşürdüm. Elə bir yerə ki, mənə heç kəs mane olmasın. Məni təkbaşına buraxsınlar. Onda, deyəsən, hər şeyi yaxşı dərk edib, anlaya bilərəm. Bu o demək deyildi ki, mən insanlardan qaçıram. Əsla! Dünyaya, cəmiyyətə yara olan insanlardan. Səadətini başqalarının bədbəxtliyi, əzabları üzərində qurmaq istəyən xudpəsəndlərdən. Yalan sözlərə inanıb özünü bədbəxt edənlərdən. Öz-özümdən də...

Geyinə bilmirdim. Mənə elə gəlirdi ki, ayağa qalxmağa halım yoxdur. Şikəst olmuşam və şikəstlik məndən heç vaxt getməyəcək. Yenə anam gəlib qarşımda dayanacaq. Nifrət dolu üzünü görəcəyəm. Mənə tənələr vuracaq ki, nə üçün durub geyinmirəm? Mən durmaq istəmirdim. İnsanların üzünə çıxmaq istəmirdim. Ona görə yox ki, insanlardan həyatıma müsbət təsir edəcək bir kömək görməmişdim. Bunu mən onlardan tələb də eləmirdim. Haqqım yox idi. Mən insanlara nə vermişdim ki, onlardan nə tələb eləyəydim? Durmamaq, insanlara görünməmək adi bir istək kimi məndə yaranmışdı. Durub qapını bağlamaq istədim. Heç olmasa anam bir az gec gəlsin. Sən bilsəydin, mən nə qədər tək olmaq istəyirdim, bəlkə də, məni qınamazdın. Mənim ürəyimi ovundurmaq, sakit etmək üçün bir adam lazım idi. Ailə üzvlərinin heç birindən təmənnam yox idi. Yalnız və yalnız istəyirdim ki, məni bir övlad kimi anlaya bilsinlər. Durub qapını bağlamaq istəyirdim. İstəyirdim ki, heç olmasa, günün müəyyən saatlarını tək olum. «Məndən əl çəkin! Qoyun həyatımda bir günü, bu günü necə istəyirəmsə elə yaşayım! İstədiyim vaxta qədər yatacağam. Nə vaxt istəsəm duracağam. Heç yerə getməyəcəyəm...»

Qapı açıldı. İlahi, anam idi! İçəri girdi. Onun rəngi dəyişmişdi. Hövsələdən çıxmışdı. Gördüyüm səliqə alt-üst olmuşdu. Yaylıq başından sürüşüb yerlə sürünürdü.

– Niyə durmursan?

– Elə yatmaq istəyirəm ki! Dincəlmək nə yaxşıdır!

Yataqda ərklə dediyim sözlər mənə baha oturdu.

– Cəhənnəmə yat! Heç bu yataqdan qalxmayasan! – Anam qapını çırpıb getdi. Onun səsi gəlirdi:

– Özüm gedərəm. Səni Allah vurub. Durub-durmamağın heç vecimə də deyil. Kişi özü zəng vurub. Arvad dili ilə üç dəfə xahiş eləyib. Bu gör özünü nə naza qoyub. Gəl, gəl düş qabağıma. Sənin bütün ağrıların onun canına. Elə sən də bir azdan onun tayı olacaqsan, qorxma. Sizin əlinizdən nə vaxt qurtaracağam, bilirəm. Gəl düş qabağıma, mənimlə gedək.

Mən hələ də yataqda idim. Bütün diqqətimi toplayıb anamın sözlərini eşidirdim. O, Afəti özü ilə Zəminzadənin evinə aparmaq istəyirdi. Yataqdan necə qalxdığımı bilmədim. Donu əynimə taxıb özümü o biri otağa atdım. Anam Afətlə qapıdan çıxanda qabaqlarını kəsdim. Anam məni hiddətlə itələdi. Yıxılmaqdan özümü güclə saxladım. Onun əlindən yapışdım. Gülümsəyib qucaqladım.

– Acığın tutmasın, bu saat gedərəm. Beş dəqiqə gecikməklə heç nə olmaz.

– Sən məni o dünyaya göndərməyincə məndən əl götürməyəcəksən. Rədd ol! Özüm gedərəm. Başqasına qulluqçuluq eləmək sizə baxmaqdan yaxşıdır. Heç olmasa, oğlumu bir tərəfə çıxararlar.

— Yox,—dedim.—Mən səni buraxmayacağam!

Anam sinəmdən necə vurub itələdisə gözlərim qaraldı. Heç nə görmədim.

— Yox,—dedim.—Sən getməyəcəksən! Sən getsən də, mən bacımı səninlə getməyə qoymayacağam! Mən bacımı Zəminzadənin evinə buraxmayacağam! İstəyirsən bərkdən deyim, hamı eşitsin. Bütün insanlar eşitsin. Eşitsin ki, mən

bacımı Zəminzadənin evinə getməyə qoymuram. Qoymayacağam! Bacım Zəminzadənin evinə getməməlidi! Mənə nə edirsən et. Mən sağ ikən bacım ayağını o evə basmayacaq! Çəkil!

Dəmirə dönmüş barmaqlarımla bacımdan yapışıb yatdığım otağa saldım. Qapını örtdüm. Bədənimlə qapını tutdum.

— Üstümdən analıq adını götürsən də, bacımı Zəminzadzənin evinə buraxmayacağam! Zəminzadə düşüb-çıxan pillələrə mənim bacımın ayağı dəyməyəcək! Məndən bunun səbəbini xəbər alan olarsa, cavab verərəm. Sakit ol. Mən sənin niyyətini qəbul edib Zəminzadənin evinə gedirəm. Bu sənin üçün kifayət deyil? Azdır? Sən mənim zəifliyimdən, gücsüzlüyümdən istifadə edib bacımı məni itələdiyin yola sala bilməyəcəksən. Bacımı qorumaq üçün məndə güc var!

Anam ağzını açmaq istəyəndə telefon zəng vurdu. Qapını buraxıb dəstəyi qamarladım. Bədirə idi. Dəstəyi yerinə atdım. Anama üzümü tutdum:

– Arxayın ola bilərsən. Nə desələr edəcəyəm! Nə işləri olsa görəcəyəm!

Bir dəqiqəyə yaxın gözlədim. Bəlkə, o məni başa düşüb Zəminzadənin evinə gedən yoldan qaytardı... Heç olmasa nə demək istədiyimi başa düşəydi. Gözlərimdən oxuyaydı. Göz ki ürək qədər gizlində deyil. Onu oxumağa nə var? O heç nə demədi. Üzünü məndən çevirib getdi. Evin ortasında qaldım. Mehrəli dünyadan xəbərsiz qapısı örtülü otaqda yatırdı. Qapıya doğru getdim. Bu, ikinci günün başlanğıcı idi. Qapını açdım.

Nəhəng adamla üz-üzə, döş-döşə gəldim. Bu, təkotaqlı mənzildəki qonşumuz Cahanbanı idi. Elə bildim dağla üz-üzə gəldim. Cahanbanı nə vaxtdan idi bizə gəlmirdi. Salam

verdim. O, əvəzində,—Geri qayıt,—dedi.—Səninlə söhbətim var! Cahanbanı sözlərini mənə hökmlə dedi. Geri döndüm. Mən qapıdan çıxmaq istəyəndə anam gəlib qapının astanasında dayanmışdı. O əsəbi halda gözlərini Cahanbanıya zillədi. Təkotaqlı qonşumuz anamın qəzəbli baxışlarına əhəmiyyət verməyib içəri girdi, qapını örtdü. Anamla üz-üzə dayandı: — Azadə,—deyə birinci sözə Cahanbanı başladı,—mənə nahaq belə zəhərli baxırsan. Mən sənin qapında qalmamışam. Nə cür baxırsan bax, sözümü deyəcəyəm. Afəri hara göndərirsən?

Mən anamın əsəblərinin gərildiyini görürdüm. Anamdan qabaq, bəlkə də, mən Cahanbanıya cavab verərdim. Onun nə demək istədiyini başa düşmüşdüm. Bilirdim ki, Cahanbanı mənim cavabıma əsla məhəl qoymayacaq. Özü dediyi kimi, sözünü deyəcək. Anamla Cahanbanı «döyüşə» girdilər:

— Səni nə vaxtdan bəri mənə darğa təyin ediblər?

— Məni darğa təyin etməyiblər, mən sənin qonşunam.

— Nə vaxt sən qonşunun qapısını açıb içəri girsəm, sən də mənim evimə gələrsən. Səni bura heç kim dəvət eləməyib.

— Azadə!—deyə Cahanbanı ilk sözünə nisbətən xeyli hövsələ ilə dilləndi. —Qulaq as, gör sənə nə deyirəm! Özünü o pəncərədən atsan da, gedən deyiləm, yaxşısı budur bir az səbir elə. De görüm qızı hara, kimin evinə göndərirsən? Artıq-əskik danışma. Sualıma cavab ver. Qızın gecə Zəminzadə ilə haradan gəlirdi?

Anam üzünü mənə çevirdi:

— Niyə durub baxırsan? Bu dəli köpəkqızının qolundan yapışıb bayıra atsana! Hara getsəm, bir dəlim yanımdan əskik olmayacaq. Sən kimsən? Nə hədlə evimə soxulub məni sorğu-suala tutursan?

Anamla Cahanbanı arasında «döyüş» qızışırdı. Anam əvvəldən daim hücumda idi. Cahanbanı hələlik özünü sax-

layırdı. Mən onun hücuma keçməsindən qorxurdum. Mən Cahanbanını itələyib bayıra salmaqdan da çəkinirdim. Mənə elə gəlirdi ki, bu nəhəng arvad bir əli ilə məndən yapışıb, məni anama göstərdiyi pəncərədən tullayar. Anamın səbirli olmasını istəyirdim. O, Cahanbanını hiddətləndirə bilərdi.—Deməli, məni pusursan?—deyə anam yenə hücuma keçdi. Cahanbanı iki-üç addım irəli gəlib stulda oturdu, gözlədi ki, anam, bəlkə, sakitləşə. Anam xeyli söyləndi, qonşunun dönmədiyini görüb bir az sakitləşdi.

— Mənə dişinin dibindən çıxanı dedin, yaxşı, rahat oldun ki? İndi qoy bir kəlmə də mən deyim, məni özünə qonşu yox, düşmən hesab elə. Başındakı ləçəyi təmiz saxla! O kəlağayı biz anaların abır-həyası, qeyrətidir. Onu tapdalama! Tutduğun yoldan qayıt. Lənət şeytana elə! Mənim atama söydün. Sənin evinə ayağım dəyməyəcək, amma Cahanbanı gördüyünə göz yumanlardan deyil. Qızı qara maşından uzaqlaşdır. Qızın gecə maşından düşdüyünü görmüşəm! Qızı odun içərisinə atmısan, dart çıxar!

Cahanbanı mənə bir kəlmə söz demədi. Qalxıb getdi. Mən gözləyirdim görüm anam «döyüşə» nə ilə yekun vuracaq. Anamın sözü bu oldu: «Dəli olasan, bu qədər paxıl olasan... Bircə dəli Cahanbanımız əskik idi. Tfu sənə, övlad, övladdımı tutub kilkəsindən qoyaydı dizinin altına! Mənə dərs verməyinə bax!»

Mən qonşuya doğru addımladım.

Mən anamın səsinə möhtac idim. «Qayıt geri!» Başqa heç nə! Ömrüm boyu ona satılmış qul olaraq qalardım. Ümidimi üzməmişdim. O məni geri çağıracaq. Qapı örtülməmişdi. Anam arxamda dayanıb mənə baxırdı: niyə dilin tərpənmir? Niyə lal olmusan? Qaytar məni. İndi qapını örtəcəyəm. Niyə dinmirsən? Niyə qaytarmırsan? Bilmirsən ki, niyə çağırırlar?

Heyhat, qapı örtüldü. Qapını örtdüm. Arxasından anamın ayaq səslərini izlədim. Heç nə eşitmədim. Heç kim məni çağırmadı.

Pillələri enməyə başladım. Hər addımda qulağım səsdə idi. Səs nə gəzirdi? Hər pillə mənə bir dərd, bir düşmən idi. Ona görə düşmən ki, pillələri məni yerin aşağı qatına aparırdı. Bu pillələr məni Zəminzadənin evinə aparırdı.

Səni bu məktubumla necə əsəbiləşdirdiyimi bilirəm. Ancaq səbir elə. Mən anayam. Mənim məhəbbətim yox deyil. Bu, yalançı, yaltaq, aldadıcı məhəbbət deyil. Mən hər şeyi, dünyada olub qalan uşaqlarımı qoyub gedirəm. Kim bilir, indi mən dünyaya lazımammı? Dünya mənim kimi ağır yükü üstündə gəzdirmək istəyirmi? Hələ başıma nələr gələcək, bilmirəm. Yolum haralara, haralardan düşəcək? Məni yollarda görənlər ürəklərində mənə nə deyəcəklər, bilmirəm. Hələlik xahişim məni səbirlə dinləməyindir.

Sən məni sevdin. Pisi sevdin. Elə bildin mən yaxşıyam. Demək, mən yaxşı ola bilərmişəm...

Bədirə məni üzündə gülüş qarşıladı. Zəminzadə Bədirənin arxasında uşaq kimi gizlənmişdi. Bədirə mənimlə lap illərdən bəri görüşmədiyi adam kimi görüşdü.

— Məmmədyara deyirəm, Afər olmasa, bircə gün dayana bilmərəm. Az qala ürəyim partladı. Deyirəm ki, bəlkə, bir şey olub, Allah eləməmiş. Axı Afər gecikməzdi. Nə yaxşı gəldin. Xoş gəldin.

Bədirə dartıb məni içəri apardı. Zəminzadə qamətini dik tutub əlinin ucunu mənə verdi. Bu, incimək əlaməti idi. İnciyib ki, onun dediyi vaxtda gəlməmişəm. Qeyrətəli gəlib kağıza bükülü iki qoltuq nə isə gətirdi. Başı ilə mənimlə salamlaşıb dinməz-söyləməz getdi. Bədirə xəbər verdi ki, Zəminzadə Qeyrətəlini irəli çəkib, yaxşı vəzifə vermək istəyir. Qeyrətəli Zəminzadəyə sadiq bir şofer tapmadığından qalıb

məəttəl. Bilmir necə eləsin. Sən hələ Qeyrətəlini əməlli tanımırsan. Allah qoysa tanıyarsan. Hələ bu günə kimi evin bir sirri kənara çıxmayıb. Bu bizim kimi ailə üçün çox vacib şeydir.

Öz-özümə dedim ki, bu fikir Zəminzadədə, yəqin keçən axşam yaranıb.

«Qəhrəmanlar» gəldi. Dərhal qollarını çırmayıb iş görməyə, Zəminzadəyə kömək eləməyə başladılar. Zəminzadənin kefi yavaş-yavaş açılırdı. Məzəli sözlər deməyə başlayırdı. Məni tez-tez çağırıb çay gətirməyimi, çayı təzələməyimi, yenidən çaynikin içərisini təmizləyib dəmləməyimi tələb eləyirdi ki, çayı gətirib qoyandan sonra onun yanından getməyim. Oturub əti tutmaqda ona kömək eləyim. «Qəhrəmanlar» əti tuta bilmirlər. Mən onlardan yaxşı tuturam. Dördlər bir ağızdan sahiblərinin fikrini təsdiq edirdilər. Mənim qulağım hələ də qapıda idi. Anamın acığının soyuyub, onun gələcəyini gözləyirdim. Ola bilməz gəlməsin. Müxtəlif saatların elə olur müxtəlif sirri olur. Evlərin içərisindəki havanın təsiri belə başqadır. Bir də fikirləşirdim ki, mənim başıma nələr hərləndiyini anam haradan bilsin? Haradan bilsin ki, mən ona xəyanət edib gecənin nə vaxtınacan evə gəlməmişəm? Necə ağlına gətirə bilər mən gecəni Zəminzadə ilə maşında dəniz kənarında keçirmişəm. Haradan bilsin?

Zəminzadə haqqında bəzi fikirlər nəyin əsasında məndə yaranmışdı? Mən özüm Zəminzadənin evinə gəlib-getdiyim halda bacımın gəlişini niyə istəmirdim? Anam məndən soruşa bilərdi: «De görək, Məmmədyar sənə nə pislik edib? Dünya boyda kişidə hansı pis hərəkətləri görmüsən? Mən belə həyasız olmamışam, bilmirəm bu üzü kimdən almısan?»

Düşündükcə anamın gəlməsi ümidindən daşınırdım. Zəminzadə məni yanından tərpənməyə qoymurdu: «Vaxt daralıb, əti doğrayıb tez əldən çıxartmaq lazımdır».

Dördlər vaxtaşırı bir şey gətirmək, ya aparmaq, axtarıb tapmaq üçün çıxıb-girirdilər. Bədirə tez-tez yanımıza gəlsə də, mətbəxdə uzun bir söhbət başlayırdı. Dördlər onun söhbətinə maraqla qulaq asırdılar. Bərkdən gülürdülər. Bədirənin söhbəti eşidilirdi. Çünki ət doğranan otaq mətbəxə yaxın idi. Qapılar taybatay açıq idi. Demək, içəri girən də olmayacaq. Məmmədyar üçün şərait yaranırdı. Şəraitin qəsdlə yarandığını demək mənim üçün çətin olardı. Hər halda şərait vardı ki, Zəminzadə arvadından cəmi bir neçə metr aralıda mənə sözünü desin. Mətbəxdə söhbətin şirin getdiyini Zəminzadə eşidib yavaş soruşdu:

— Bundan sonra da mənim sözlərimə belə əməl edəcəksən?

Dinmədim. Mənim üçün ona cavab vermək çətin idi. Bunu Zəminzadə dərk etməli olduğu halda heç nədən çəkinmir, heç kimlə hesablaşmırdı. Axı söhbəti Bədirə eşidə bilərdi.

Bunu ona görə yazıram ki, maraqlıdır. Zəminzadə elə bil həyat yoldaşı Bədirədən arxayın idi. Arxayın idi ki, Bədirə söhbəti eşitsə də, əhəmiyyət verməyib, özünü eşitməməzliyə vuracaq.

Bu, sirli münasibət idi. Bədirə ilə Zəminzadənin bir-birinə olan münasibətini demək istəyirəm. Bu duyğunu mən keçirəndə Bədirəyə həm nifrət eləməyə başladım, həm də ona yazığım gəlirdi. Yazıq gəlmək, əlbəttə, zəif hislərimin nəticəsi idi. Əsas nifrət idi ki, mən sonralar uzun zaman nifrətim haqqında düşünürdüm.

Sualına cavab vermədiyimi görüb Zəminzadə xoş yox, acı bir tərzdə xəbər aldı:

— Eşitmirsən?

Sorğunun tonuna təəccüb edib, istər-istəməz onun üzünə baxdım. Zəminzadə elə bil nə keçən gecəki adam idi, nə beş dəqiqə bundan qabaqkı. Üzünün sarığı açılmışdı.

Onun üzünə baxmasaydım, heç vaxt təsəvvürümə gətirməzdim ki, Zəminzadənin belə dəhşətli üzü də varmış. Mən onun üzünün ifadəsindən çox şeylər oxudum. Mənə elə gəldi ki, Zəminzadənin əsl simasını indi görürdüm. Ancaq üzü elə tez-tez dəyişirdi ki, çaşıb qalırdım. Elə bil gözübağlıca oyun göstərirdi.

Zəminzadənin sərt sorğusundan bir şeyi başa düşürdüm – o, mənim tələyə düşdüyümü zənn edir. Məni tələnin içərisində görür. Onun əlində əsası var. Gecə ulduzları nişan açıb güllə atmaqla bu dəqiqələri hər ikimizin hafizəsində yaşatmaq istəmişdi. Onun sorğusunun tonundan çox şeylər dərk edirdim. Zəminzadə sadəlövh adam deyildi. Mən insanın bu qədər və bu dərəcədə mürəkkəb varlıq olduğunu bilmirdim.

Zəminzadənin sorğusuna sualla cavab vermədim. Bir kəlmə ilə:

— Yox,—dedim.

Sual verməklə söhbəti uzada bilərdim. Evdəkilər bizim nə haqda danışdığımızı eşidib, duya bilərdilər. Rüsvay ola bilərdim. Bunu anlayırdım. Mən bir qız kimi daxilimdə baş qaldıran hərarətimin əsiri deyildim. Mən bu hərarətin qarşısında keyləşib, hər şeyi dərhal unudaraq başqasına təslim olan deyildim. Bunu deməkdə məqsədim odur ki, Zəminzadənin verdiyi suala «yox» deməyimin səbəbi sadə yozulmasın. Zəminzadə biləndən sonra ki, mən onun dediklərini yerinə yetirəcəyəm, verdiyim vədə vaxtında əməl eləyəcəyəm, daha gecikmək olmayacaq, üzü yenə də dəyişmədi.

– Qulaq as,—dedi.—Axşam sürücü bizi aşağıda gözləyəcək. Dünən maşın dayanan yerdə. Düşən kimi oturarsan maşına. Mən təxminən iki-üç dəqiqə sonra gələcəyəm. Eşitdin?

Zəminzadənin sözlərindən onun üzünün ifadəsinin dəyişilməməsinin səbəbi mənə aydın oldu. Tək onun evinə vaxtında gəlməklə iş bitmirdi, onun axşam üçün daha geniş planı vardı. Deməli, Zəminzadənin üzü yalnız bu plana əməl edəcəyimə razılıq verəndən sonra dəyişə bilərdi. Mən də sürətlə düşünməyə alışırdım. Zəminzadənin ikinci günkü tələbinə əməl etməyəcəyimi qət elədim və etirazımı bildirdim. Zəminzadənin gözləri yerlərini dəyişdi. Sağ göz sola, sol sağa keçdi. Mənim etirazım Zəminzadə ilə bütün görüşlərə son qoymaq demək deyil. Fikrimi ona dedim. Əlavə elədim ki, onun dediyinə tamam etiraz eləmirəm. Mənim də ona deyəcək sözüm var. Daha doğrusu, sözüm yox, xahişim var. Gecə maşınla dəniz kənarına yox...

Zəminzadə güldü, üzü dəyişdi, hiss elədim ona xeyli təsəlli verdim.

— Bir şeyi bilməyini bilirsən necə istəyirəm?—Zəminzadənin üzünün əti oynadı.—İstəyirəm sən biləsən ki, dünyanın ən xoşbəxt adamı sənsən!

Mən alt dodağımı dişlərimin arasında sıxdım. Zəminzadəyə işarə elədim ki, onun sözlərini mətbəxdə eşidə bilərlər. Zəminzadənin üzünün əti daha tez-tez səyriməyə başladı, pörtmüş vəziyyətdə əli ilə bildirdi ki, mətbəxdəkilərin başları möhkəm qarışıb. Doğrudan da, belə idi. Bədirə nəfəsini saxlamadan danışır, «qəhrəmanlar» gülürdü.

— Qulaq as, nə deyirəm. Ona görə sən dünyanın ən xoşbəxt qızısan ki, necə xahişin olur-olsun, yerinə yetəcək! İstəyirəm bax bircə bunu biləsən. Na vaxt, hara deyirsən gedək. Sözün, bəlkə, vacibdir?

— Yox,—dedim.—Sonra.

— Axı nə vaxt? Canım üçün bədənimə yaman güc gəldi. Durub indi buynuzlu qoça bir kəllə ilişdirəcəyəm.—Zəminzadə başını yana əyib kəlləsini göstərdi. Məni gül-

mək tutdu. Cavabımdan çox razı qaldığını dedi.—Eybi yoxdur. Məclisimiz qurtaran axşamı. Məclis sənin şərəfinədir. Mənim böyük planlarım var, onları açıq havada sənə deməliyəm. Oldu?

Mən başımı buladım.

Zəminzadə büsbütün dəyişdi. Dördləri səslədi:

— Ə, Adaxlı, Muzdur, niyə soxulmusunuz o kuxnaya? Niyə gəlib ətə siz də kömək eləmirsiniz? Bu dərəcədə müftəxorluq olar? Sizi gərək pambıq yığmağa göndərəm.

Dördlər içəri girdilər. Onlar gülürdülər, gözlərində işıq yanırdı.

— Dedik lazım olsaq, özünüz çağıracaqsınız,—Muzdur astaca dilləndi.

— Yox, qəhrəmanlıq boyunduruğunu gərək boynunuzdan götürəm. – Dördlər yenə gülüşdülər. Bədirə onların arxasınca gəldi. Paltarı ləkələnməsin deyə, döşlük bağlamışdı. Əlində qazanlara tökülən əti qarışdırmaq üçün uzun saplı taxta qaşıq vardı. Özünü son dərəcə şən göstərirdi.

— Muzdur yaman ac idi. Üç bu qaşıqla bir əti ağzı yana-yana bir dəqiqədə ötürdü.

— Heç Adaxlının, Dinməzin, Ərizənin yediklərini demirsiniz,—deyə Muzdur yarıincik, yarızarafat gülüb Bədirəyə baxdı. Zəminzadə də «zarafatla» dedi:

— Muzdurun toxluğuna çarə yoxdur, olmayacaq da! Demək, biz doğrayırıq, bunlar yeyir? Ta bu nə oldu ə, Muzdur? Yəni qazanda bir şey qalıb? Yooox, bax belə zarafata yoxam...

Zəminzadə ayağa qalxıb mətbəxə keçəndə Bədirənin üzü tutuldu. Ona baxdığımı duyub vəziyyətini dəyişdi. Dördlər də Zəminzadənin arxasınca mətbəxə keçdilər. Qazanların içərisində hərlənən qaşığın səsi gəldi. Zəminzadənin əlindəki

dəmir qaşığın qazanların yanına dəydiyi eşidilirdi. Fikrimdə Bədirə dolanırdı. Zəminzadə ilə Bədirə arasında olan münasibət getdikcə mənə daha sirli görünürdü. Zəminzadənin dördlərə olan münasibəti də mənim üçün açılmamış bir sirr kimi qalırdı. Nə üçün dördlərin evlənmək məsələlərinə də rəhbərliyi Zəminzadə edir? Dördlərə Zəminzadənin ürəyi yandığındanmı onlara arvadları özü seçirdi? Dördlərin həyatda öz yerlərini tutmağa, doğrudanmı, Zəminzadə kömək edirdi? Bədirə bilirmi əri Zəminzadə onu sevmir. Bilirsə bu nə dözümdür? Yoxsa Zəminzadə məni aldadır? Deyirlər qısqanclıq mədəni hərəkət deyil. Necə olsa. Əksinə, Bədirə həmişə cəhd edir Zəminzadəyə bildirsin ki, onun elədiyi və tutduğu bütün hərəkətlər xoşuna gəlir. Hətta ürəyindəndir. Əri elə bir iş tutmaz ki, o, etirazını bildirsin. Bədirənin hərəkətləri sübut edir ki, o nəinki indi, heç vaxt ərinə qarşı çıxmayacaq. Bədirənin hərəkətlərindən başa düşdüklərim bu idi. Bəs daxili? Qəlbindəkilər? Zəminzadə Bədirənin düşündüyü kimi müqəddəs idimi? Yoxsa bütün şübhələri, sualları mən yaradırdım? Mən Zəminzadənin ailəsinin içərisinə nifaq salmağa başlamışdım.

Suallar başımda bir-birinin dalınca dövrə vurduğu vaxt onlar içəri girdilər. Dördlər yenə gülürdülər. Bununla sübut etmək istəyirdilər ki, Zəminzadənin onlara yemək üstündə acığı tutmayıb. Zəminzadə kefi gələndə belə şux zarafat edir. Zəminzadə bir də təkrar elədi ki, belə zarafatdan xoşu gəlmir. Qonaqların yanında biabır olmaq olar.

Yox, məsələ qonaq məsələsi deyildi. Deməli, başqa qarına gedən hər tikənin üstündə Zəminzadənin nəzarəti var. Nəzarət açıq şəkildə aparılmır, başqaları nəzarəti sezməsin deyə, Zəminzadə xüsusi üsullardan istifadə edir. Zarafatlarında, məzəli sözlərində dördlərə çatdırır: «Çox yemək adamı az yeməkdən qoyar!»

Məclis günü yaxınlaşdıqca Zəminzadənin evinə gəlib-gedən adamların sayını bilmək mümkün deyildi. Surətlərini yadda saxlamaq olmurdu. Qapının zəngi hey çalınırdı. Dördlərdən biri qapını açırdı. Gələnin kim olduğunu Zəminzadənin qulağına pıçıldayıb xəbər verirdilər.—Keçsin yan otağa,—Zəminzadə tələsmədən durub gələn adamın yanına keçir, gələnlər tez də gedirdilər. Qapının ağzında yenə bu sözləri eşidirdim:

— Kişi evdədir?

— Bədirə bacını bir dəqiqəliyə olar? Çox xahiş edirik, inciməyin.

Dördlər ehtiramla gələnləri qəbul edirdilər. Hiss edirdim bu işdə onların səriştələri, təcrübələri var. Zəminzadə gələnlərin hamısının görüşünə getmirdi. Dördlərə başa salmışdı ki, sağ gözünü yumanda gələn adama desinlər o, evdə yoxdur, yan otağa keçmək istəyirlər keçsinlər. Gələnlər içəri girib, sol tərəfə dönərək Zəminzadənin dediyi yan otağa daxil olurdular.

Muzdur xahiş elədi ki, evdə olmadığını bildirmək üçün Zəminzadə sağ yox, sol gözünü yumsun. Zəminzadə bunun səbəbini Muzdurdan xəbər alanda Muzdur mənalı, həm də utancaq halda qonur gözlərini süzdürüb dedi:

— Belə yaxşıdır!

Zəminzadə razılaşmayıb sağ gözünün üstündə dayandı.

Muzdur daha etiraz eləmədi.

— Siz deyən olsun!

Zəminzadə sağ gözünü yumanda cəld qalxıb qapıya yaxınlaşır, Bədirənin çəkdiyi ipək pərdəni azacıq aralayıb yan otağa girən adama baxırdı. O, qapıdan çıxan kimi Zəminzadə özünü yan otağa salıb qayıdırdı. Mənə baxıb gülə-gülə deyirdi:

— Canım üçün, mallarım quzu kimidirlər. Balışın altına qoyub dinməz-söyləməz gedirdilər. «Qəhrəmanlar»ı

gözdən qoymuram, balışın altına xata yetirərlər. Vicdansız şeydilər.

Dördlər içəri girəndə yan otağa girən adam getmiş olurdu. Zəminzadəyə baxıb təəccüblə xəbər alırdılar:

– Bəs kişi necə oldu? Getdi? Nə tez? Heç biz getdiyini görmədik?

Zəminzadə gülüb deyirdi:

– Sizi qara basır. Nə adam?

Dördlər bir-birinin üzünə baxa-baxa qalırdılar. Muzdur irişib deyirdi:

– Həngamədi lap!

Zəminzadə məni əti tutmaqdan azad elədi. Dördlər onun başında cəm oldular.

– Qadınlar nə qədər istəyirdilər, indi danışsınlar, – deyə Zəminzadə yerini rahatladı. Qapının zəngləri isə kəsilmirdi. Hər zəng çalınıb, qapı açıldıqca Bədirə mənə baxıb gülümsəyirdi. Deyirdi ki, məclisdən qabaq belə narahatçılıqlar olur. O qədər adam gəlir-gedir, yorulub əldən düşürlər. Gələn adamlar Məmmədyarın dostları, yaxın tanışlarıdır. Eşidiblər yeni mənzilə köçmüşük, qonağımız olacaq, dil-ağız eləməyə gəlirlər...

– Necə dil-ağız? – Mən Bədirədən maraqla xəbər aldım. Birinci dəfə idi Zəminzadənin ailəsinə məxsus məsələ ilə maraqlanırdım. Verdiyim sualdan özümün də razı qalmadığımı elə bil Bədirə də hiss elədi. Özünü o yerə qoymadı. Dərhal cavab verdi:

– Şəhər yeridir. Bilirlər hər şey pulla başa gəlir. Pulla başa gəlməyi bir yana dursun, istədiyini tapa bilmirsən. Hər məclisin xərci bir qız toyuna çəkilən xərcdən artıq çıxır. Məmmədyar da görürsən tək adamdır. Bir ildə elə üç dəfə uşaqların ad günüdür. Eləməyə bilmirik. Tanış-biliş özbaşına, biz xəbər eləməmiş tökülüb gəlir. Hələ gördük-

lərin nədir? Adamların çoxu gəlməyib. Uzaqda yaşayanlar var. Əlləri şəhərə çatmır. İşi buraxa bilmirlər. Onlar qonaqlıq qurtarandan sonra da olsa, gələcəklər. Bilirlər ki, Məmmədyar dostluqda belə şeydən inciyəndir. Küsməsin, küsdü onunla dil tapıb barışmaq bilirsən necə çətindir?

Bədirə adamların girdikləri yan evə işarə eləyib güldü:

– Balışın altı «xalq kassa»sıdır.

Elə aləmə düşmüşdüm ki, baş verən hadisələr o qədər idi, baş çıxara bilmirdim. Gördüklərim mənə nə həqiqət, nə yuxu kimi, möcüzə kimi gəlirdi.

Mən uzaq ölkəyə səyahətə çıxmamışdım. Bir-birinə bitişik olan iki evin birindən çıxıb o birinə girmişdim. Məni düşüncələr burulğanına salan iki aləm arasındakı uçurum idi.

Bəzən keyləşirdim. Məndə çaşqın fikirlər peyda olurdu. Bu qədər dostu Zəminzadə haradan tapıb? Bu adamların elə bil şüurları, hərəkətləri Zəminzadə tərəfindən avtomatlaşdırılmışdı. Onların fikir, əqidə və ixtiyarları da avtomatlaşdırılıb. Bu nə sirr idi? Baş çıxara bilmirdim...

Getdikcə dəyişirdim. İstəmirdim atam haqqında töhmətli sözlər eşidəm. Anamın – indi gözlərinlə görürsən ki, dünyada necə yaşayırlar? – sözlərinə görə atam gözlərimdən düşmür, əksinə, atamın haqqında ürək ağrısı ilə düşünməyə başlayırdım. Atam hər gün başını çiyninə əyərək kamançasını çalırdı. O qədər çalırdı, otuz gün gəlib tamam olurdu. Onda atam əlini kamançasından çəkirdi. Otuz gündən sonra əlinə gələn pulun çox hissəsi bizə gəlirdi.

Yaxşı ki, başım qarışmışdı. Adamlar hey gəlir-gedirdilər. Zəminzadə onları qarşılayanda necə dəyişirdi, ilahi! Mən Zəminzadədən qorxmağa başlayırdım.

İki otağı birləşdirən orta divar öz-özünə aralanıb açıldı. Otaqların içərisi böyük meydanı xatırladırdı. Meydana stollar, stullar düzbucaq və şaquli vəziyyətdə qoyulmuşdu

ki, çox adam otura bilsin. Genişlik haqqında söhbət gedəndə Zəminzadə üzünü mənə tutdu:

– Bircə təzə layihə ilə tikilən bina tez başa gəlsəydi, bu darısqallıqdan qurtarardıq.

– Darısqal olsa da, Afər xanım kimi qonşumuz var. Onları qoyub heç yerə gedən deyiləm.

Bədirə ərinə məzəmmətedici nəzərlə baxdı:

– Azadə xanımı burada kim qoyub gedə bilər? – Zəminzadə mənim yox, anamın adını çəkdi. – Qabaqca qonşumuz, sonra özümüz!

Bədirə ərindən son dərəcə razı qaldı.

– İndi isə möhkəm iş başına, – deyə Zəminzadə evə soxulan ac toyuqları kişləyən qollarını açıb evdəkiləri tərpətdi.

Zəminzadə anamın adını çəkəndə gizli mənə baxıb gözünü yumdu. Mənim göz vuran kişilərdən uşaqlıqdan zəhləm gedirdi. Atam mənə deyəndə: «Qızım, bax, belə göz vur görüm», – atama dayanıb baxardım. Sonra üstünə düşürdüm ki, bir də göz vurmasın. Onda atamdan acığım gəlirdi. Üzü dəyişib pis olurdu. Zəminzadə mənə göz vuranda Muzdurla onun işarə üstündə gedən söhbətləri yadıma düşdü. Mənə aydın oldu ki, nə üçün Zəminzadə sol gözünü yox, məhz sağ gözünü yumacağının üstündə dayandı. Zəminzadənin sol gözünün başqa vəzifəsi varmış. Zəminzadə sol gözünü yumanda nə demək istədiyini başa düşdüm. O, əsas anamı yox, məni qoyub getməyəcəyini deyirdi.

Məclisi düzəltmək üçün xeyli köməkçi gəlmişdi. Mən onları birinci dəfə idi görürdüm. Zəminzadə «qəhrəmanlar»a «komanda» verib hərəsini bir iş üçün ora-bura qaçırırdı...

– Ə, sizə havayı yerdən qəhrəman adı vermişəm? Tez olun!

Ortada çay tələb edirdi. Çay gəlirdi. Çayı içə-içə göstərişlərini verirdi:

– Qabların, badələrin yaxşılarını yuxarı başa! Aşağı başa nə cür qab qoyulsa, eybi yoxdur! Aşağı ilə yuxarını bərabərləşdirməyin. İşləri kökündən korlaya bilərsiniz! Danışıqlara baxmayın!

– Əşi, – deyə Adaxlı ona baxıb irişdi, – indi məclislərin yuxarı başı, aşağı başı yoxdur.

Qonşumuz qara bulud kimi tutuldu. Bədirə qulağıma güclə eşidiləcək səslə dedi ki, Məmmədyarın «əşi» sözündən acığı gəlir. «Doğrudan da, yaxşı deyil də. Dünya boyda şəxsiyyət sənin üçün bəyəm nədi? Bilmirəm, vallah, qohum olsalar da, bunlar nə vaxt adam olacaqlar? Afər can, nə boyda dərdimiz var?!»

Adaxlının müraciətindən Zəminzadə tutulsa da, özünü o yerə qoymadı, məharətlə vəziyyətdən çıxdı. Zəminzadə çox vaxt tənəli sözlərini ciddi yox, zarafatla deyirdi. Onda da belə hərəkət elədi:

– Adaxlı özünə yol açır, – dedi. – Yeri aşağı baş olduğunu bildiyi halda, istəyir özü ilə bizi bir günün içərisində bərabərləşdirsin. Tutaq biz də sən deyənə razı olduq. – Zəminzadə sözünə davam elədi. – Bəs sənin vicdanın hardadır? Sən vicdanına sığışdırırsan ki, dünyada əlini bir işə vurmadan bizimlə bərabər durasan? Necə bilirsən?

«Qəhrəmanlar» hiss elədilər ki, deyəsən, Zəminzadə ciddiləşir. Başlarını aşağı saldılar. Muzdur Adaxlıya töhmətedici nəzərlə altdan yuxarı baxdı, Zəminzadəyə sarı döndü:

– Həngamədi lap!

Zəminzadə nəzərlərini Adaxlının üstündən hələ götürməmişdi. Hamı susmuşdu. Adaxlı tər içində başını qaldırdı. Zəminzadəyə baxdı. Elə bil demək istəyirdi: – Müqəssirəm.

Başım da sənə halaldır. Zəminzadə qılınc kimi sərt idi. Adaxlı Zəminzadənin nəzərlərinin hökmünə tab gətirməyib başını aşağı saldı, güclə eşidiləcək səslə dedi:

– Düz deyirsiniz. Mən heç vaxt sizinlə bərabər ola bilmərəm.

– Bəs nə başından yekə danışırsan?

— Qələt elədim. Mən elə demək istəmirdim. Bir də belə yekəbaşlıq eləmərəm. Bağışlayın.

Zəminzadənin azacıq eyni açılanda hərəkət yarandı. Zəminzadə güldü. Otaqdakılar da gülməyə başladılar.

Adaxlı Zəminzadənin qəzəbinin əsas səbəbini başa düşmüşdü. O hər kəlmənin başında gülümsəyirdi. Gülüş Adaxlının Zəminzadəyə olan sədaqətini, itaətini göstərirdi.

«Başımı kəssəniz, qanım sizə halaldır».

Elə bil məni yerə mismarlamışdılar. Tərpənə bilmirdim. Adaxlının vəziyyəti məni nə üçün qorxudurdu, bilmirdim. Ürəyimdə təsdiq eləyirdim ki, Zəminzadə yanılmayıb, mən tələnin içərisindəyəm. Özü də ortasında. Bir anda qarşımda ildırım kimi çaxıb, yenə sönən səhnə insan faciəsindən yaranmış, heç vaxt yaddan çıxmayan matəm mərasimini mənə xatırladırdı. Ən ağır mərasim insanın başına gələn son fəlakətdən yaranır. Tamaşa elədiyim mərasim isə diri, hələ nəfəs alıb həyatda yaşayan insanın mərasimi idi. Dirilərin mərasimi! Bu mərasim mənim üçün dözülməz dərəcədə qorxulu idi. Mən Zəminzadəyə baxanda adi vəziyyətimi saxlaya bilmirdim. Adaxlıya çox ustalıqla elədiyi hücum zamanı elə bil hamını unutmuşdu. Məzəli sözlər sanki çoxdan, lap çoxdan daşlara çırpılıb parçalanmışdı...

Zəminzadə Adaxlıya bir neçə məzəli söz deyib onu şoferi ila «Badamlı» almağa göndərdi. Yüz şüşə su azlıq edər. Heç olmasa əllisini də almaq lazımdır. Qeyrətəliyə tapşırdı ki, Adaxlını rahat aparıb gətirsin. Başqa yerdə işi varsa, eybi

yoxdur, onunla getsin. Hələlik özü bir yerə tərpənməyəcək. Adaxlı Zəminzadənin ehtiramından pörtüb qızardı:

— Ayrı yerim yoxdur, dadaşım,—dedi.—Burada olmaq hər şeydən vacibdir. İşlərimiz çoxdur.

— Yaxşı, onda gedin tez qayıdın!

Adaxlı getdi.

—Görürsən, bir şey yadımdan çıxdı!—Zəminzadə Bədirənin üzünə baxdı.

Muzdur bir addım irəli çıxdı:

— Nə lazımdır, qaçım deyim.

Zəminzadə Muzdurun sözünü eşitmirmiş kimi qıymış gözlərini Bədirədən çəkmədi:

— Gərək deyəydin o qızı da gətirəydi.

— Lap dilimin ucunda idi.—Bədirə təəssüflə dilləndi. Bir də fikirləşdim özün deyərsən.

Üzünü mənə tutdu:

— Adaxlının nişanlısını görməmisən. Bilirsən necə yaxşı qızdır.

Bədirə yenə ərinə üzünü tutdu:

— Bəlkə, bunların biri tez getsin?

Muzdur, Dinməz, Ərizə Vəli yarışda qaçış üçün yerə əyilmiş idmançılara oxşayırdılar, işarəni gözləyirdilər:

– Yaxşı onda biriniz... – deyə Zəminzadə dilləndi.

Dinməz Zəminzadənin sözünü tamamlamasına imkan vermədi. Muzdurdan və Ərizə Vəlidən qabaq özünü qapıya atdı.

– Yaxşı, onda de qoy qızı da maşına qoyub gətirsin! Heç olmasa bir işə yarayar.

Mən Dinməzdə bu cəldliyi görüb məəttəl qaldım. Gözlərimə inanmadım ki, qapıya sıçrayan Dinməzdir. Zəminzadə mənim təəccübümün səbəbini başa düşüb alt çənəsini oynatdı, şəstlə güldü:

– Görürsən də, Afər xanım, siz elə bilməyin Dinməz həmişə dinməzdi. Hətta Muzdura da göz açmağa macal vermədi.

Muzdur fəaliyyətsizliyindən pərt oldu, özünü dik tutub döşünü irəli verdi, qonur, bir qədər də badamı gözlərini süzdürüb dedi:

– Lap həngamədir ha!

Qarşıda baş verən hər hadisə məni məcbur edirdi düşünüm. Onsuz da düşüncələr başımda qaynayırdı. Saatın döyüntüsü axşamı yaxınlaşdırırdı. Axşam Zəminzadəyə görüşmək üçün söz vermişdim. Görüşü düşündükcə bilmirəm divarların hər biri gözlərimdə niyə böyüyür, niyə hərəsi bir rəngə çalırdı. Zəminzadə mənə nağıllarda olan lay divarlar arasındakı tilsimi xatırladırdı, qorxurdum. Bir çıxış yolu tapmalı idim. Amma necə?

Buyruqları şüursuz yerinə yetirirdim. Dayanıb özümə sual verirdim. Belə nə üçün edirəm? Düz-əməlli yeri. Bədirə ilə ağlı başında olan adam kimi danış. Kömək elə. Zəminzadə ilə görüşmək üçün başqa fikrə düşürsənsə, əsla sezdirmə!

Hər dəfə Bədirə mənə deyirdi ki, onun üçün çox işləyirəm, xəcalət çəkir...

– İş görmək borcumdur, – dedim. – Anam məni buraya nə üçün göndərib? Nə iş var görməliyəm. – Bədirə sözümün dalını deməyə qoymadı:

– Dönməzin canı üçün, bir də səndən belə söz eşitsəm, ömürlük inciyərəm. Bu nə sözdür sən danışırsan? Sən bu evin doğma, özü də əziz qızısan. İş cəhənnəm olsun. Mən adam tapmıram işlədəm? Səndən heç belə söz gözləməzdim. – Bədirə məni qucaqladı. – Allahın altında biləydin səni necə çox istəyirəm! Dönməzin canı üçün, balalarımla səndə fərq qoymuram. Bəlkə, Azadə xanıma bir şey lazımdır? Məmmədyar Qeyrətəlini səhər göndərmişdi. Bəlkə, bir şey yaddan çıxıb.

Bədirəyə dil-ağız elədim. Dedim, yaddan çıxan heç nə yoxdur. Sağ olsunlar. Hər şeyi şofer Qeyrətəli gətirib.

– Onda söz ver, belə söhbət heç vaxt aramızda olmayacaq. Yaxşı?

– Yaxşı, – dedim.

Bədirəyə kömək eləməyə başladım. Qapının zəngi çalındı. Ürəyimdə dedim, yəqin, gələn Zəminzadənin avtomatlaşdırdığı dostlarındandır. «Xalq kassası»na əlavə etmək üçün gəliblər.

Gələn Adaxlı idi. Onun yanında qız vardı. Bədirə qızı mənə göstərib dedi:

– Afər can, Adaxlının nişanlısıdır. Necə qızdır? Xoşuna gəlirmi? – məndən cavab gözləmədən Bədirə gedib qızın üzündən öpdü. Adaxlının nişanlısı Məryəmlə də belə tanış oldum.

Axşama kimi nə edə bilərdim? Nə? Fikirləşib bir yol tapmaq istəyirdim. Elə yol ki, məni görüşə aparmasın. Anam gözlərimin qabağından çəkilsəydi, onda, bəlkə, mənim üçün düşünmək asan olardı. Anam bir addım kənara durmaq istəmirdi. Elə bil Zəminzadənin evində necə işlədiyimi güdürdü. Mənimlə hərlənib, mənim nə düşündüyümü üzümə oxumaq istəyirdi. Demək istəyirdi:

– Nə etmək fikrini yaxşı başa düşürəm. Nə edirsən, et! Bərkə qalanda vecimə də deyil. Səndən başqa evdə qız var. Özüm varam!

Qız Afətdir. Mənim əvəzimə Afətin əlindən tutub Zəminzadənin evinə aparar. Necə ki, səhər gətirirdi. Bədirəyə Afət kömək eləyər. Anasının «dərdini» daha yaxşı başa düşər. Kişisiz ananın gününə yaxşı dayaq olar. O başa düşər ki, tək qardaş, ananın gözünün ağı-qarası bir oğul olmaq nə deməkdir. Ana madar oğlunun gələcək günü üçün necə özünü oda-suya vurmasın? Onun bir tərəfə çıx-

ması, evlənib ev-eşik olması üçün bəs nə etsin? Varından-yoxundan necə keçməsin? Anamın belə əl-qol atması, Mehrəlidən ötrü bütün sakitliyini itirməsi ürəyimi ağrıdırdı. Düşünürdüm: nə etsin? O da oğlunu xoşbəxt, evli-eşikli, ucalmış görmək istəyir.

Anamın hərəkətləri gözlərimin qabağına gəldikcə üzməyi bilməyən adamın suda əl-qol atıb çapalaması yadıma düşürdü. Axşam üstümü haqlayırdı. Fikrimi cəm edib görüş haqqında qərara gəlməli idim.

Qabaqca gücüm çatan qədər Afəti Zəminzadənin evindən həmişəlik uzaqlaşdırmalı idim. Necə? Ürəyimi kimə açıb danışa bilərdim? Anama? Bu, mümkün deyildi. Anam onsuz da məni dinləməyəcəkdi. Nahaq yerə onu əsəbiləşdirib şikəst edə bilərəm, qorxurdum. Afətin özü ilə, bəlkə, danışım? Axı Afət kütbeyin deyil. Ətrafımızdakı hadisələrə onun öz münasibəti olduğunu hiss edirdim. Mən Afəti sahibli hesab edirdim. Çünki onu həyatın amansız üzünə qarşı ayıq olmağa çağıran bir adam vardı. Onun ürəyini açacaq şəxs vardı. O, həyatda anlaşılmaz nə varsa, hamısını soruşub öyrənə bilərdi. Bu adam mən idim. Onun bacısı. Mən Afətə çox söz demək istəyirdim. Həyat mənim gözümü azacıq açmışdı. Görüb dərk elədiklərimi ona demək istəyirdim. Qoy hər şeyi bilsin. İnsan yaman mürəkkəbdir. Həyatda insanın amansız düşməni – adamları tanıya bilməməsidir. Biri başqaları üçün həyat yaradır. Digəri uçurur. Həyatı bilmədən, insanı tanıdamadan həyatda necə addımlamaq olar? Belə addım atmaq kor adamın boşluğu yer bilib irəli getməsidir.

Axşam yaxınlaşırdı. Yaxınlaşan axşam özü ilə böyük ziyafət gətirirdi. Ziyafətdə neçə adam iştirak edəcək? Neçə adam ayağa qalxıb sağlıq deyəcək? Yeyiləcək, içiləcək. Hətta dördlərin də qarınları doyub, beyinləri qızışacaq.

Musiqi, nə bilim, nə. Bunların hamısı bir yerdə mənə vahimə gətirirdi.

Zəminzadə mətbəxə, bizim yanımıza gəldi. Mənə baxıb güldü. Bədirəyə lap yaxın dayandı:

– «Badamlı»ları sanadın?

Bədirə Zəminzadənin saymazyana verdiyi sualdan özünü itirdi:

– Görürsən, başım xörəklərə qarışıb, necə huşumdan çıxıb. Bu saat sanayaram.

– Tez say gör nə qədərdir, mən gəlirəm.

Zəminzadə yenə mənə baxıb güldü. Adamlar olan otağa keçdi. O, Bədirə ilə elə yavaş danışırdı ki, mən onların yanında olduğum halda sözləri güclə eşidirdim. Bədirə «Badamlı»nı bir-bir saydı. Yeni qurtarmışdı. Zəminzadə içəri girdi.

– Nə oldu?

– Saydım. Əlli dənədir.

– Həəə?

– Lap bir-bir saydım.

– Boş şüşə vermişdin?

– Yox. Dedim sənə deyim, sonra.

– Eybi yoxdur. Mən çıxandan sonra çağırıb nə qədər boş şüşə var, verərsən aparsın, təhvil verib pulları gətirsin.

Zəminzadə mənə tərəf döndü, – Afər xanım, – dedi. – Elə bilməyin məsələ pul üçündür. Bunlar elə adamlardı, iplərini azacıq boşaltdın, həyasızlaşırlar. Səni söküb talan eləmələri bir yana, quyruqlarını da atırlar bellərinə.

* * *

Zəminzadənin məclisində oturan adamları tanımırdım. «Qəhrəmanlar» ziyafətdə oturmaq üçün hələ səlahiyyət almamışdılar. Məclisin aşağı tərəfində bir-iki boş stol vardı.

Məclis o qədər böyük idi, boş stullar gözə çarpmırdı. Boş stulları o vaxt görmək olardı ki, dayanıb məclisə göz yetirəsən. Zəminzadə mənə tapşırıq vermişdi onun yanında oturum. Mən mətbəxdə Bədirəyə kömək etmək bəhanəsi ilə qonaqların yanına gedib oturmamışdım. Zəminzadə bir neçə dəfə gəlib sol gözü ilə mənə işarə elədi ki, əlimdə nə var qoyum, gəlim oturum.

Bədirə əlimdə nə vardı alıb, mənə and verdi ki, içəri keçim. O bütün işləri özü görəcək.

Məclis olan otağa girəndə dumana düşdüm. Heç nə görə bilməyib dayandım. Muzdur qolumdan ehmal tutub məni stollara yaxın aparmaq istəyəndə əşyalar gözümdə öz yerlərini tutdular. Qolumu çəkdim ki, özümün oturmağa qabiliyyətim çatar. Duman çəkilməyə başlayırdı. Zəminzadə məclisin başında ayaq üstündə dayanmışdı. Adamlar dinməzcə ona və mənə baxdılar. O girəvələyib gözü ilə mənə işarə elədi ki, yanında oturum. Hələ adamları yaxşı görmürdüm. Daxili gərginliyim buna aman vermirdi. Qulaqlarımın dibi uyuşub açılırdı. İçərisindəki gurultulu səs kəsiləndə Zəminzadənin sözlərini eşitdim:

– Yoldaşlar, sağlığına tost demək istədiyim ananın böyük və istəkli qızı Afər xanımdır. Tanış ola bilərsiniz.

Oturanlar mənə baxdılar. Zəminzadənin səsini eşidib yenə üzlərini ona tərəf çevirdilər:

– Afər xanımın birinci növbədə anasını sizə təqdim etmək istəyirəm.

Zəminzadə sözünün mabədinə keçdi. O, arxayın danışırdı. Oturanların gözləri bir göz kimi Zəminzadənin ağzına dirənmişdi. Mən çalışırdım onun dediklərini yaxşı eşidim. Hərdən Zəminzadəyə baxırdım. Onda dərhal gözləri gözlərimə sataşırdı.

– Yaxşı da edərsiniz, – yerdən enli, çal bığları hamarlanmış kişi dilləndi. – Analar haqqında nə qədər söz desək azdır, yoldaş Zəminzadə, üzr istəyirəm sözünüzü kəsdiyim üçün, buyurun.

Zəminzadə çalbığlının nə sözlərinə, nə özünə əhəmiyyət verdi. Onun oturduğu tərəfə belə baxmadı:

– Qabaqca Azadə xanıma əziyyət vermək istəyirəm. Azadə xanım, bir dəqiqəliyə ayağa qalxın, yoldaşlar, sizi görüb əməlli-başlı tanısınlar. – Anam məclisin baş tərəfində əyləşmişdi. Sol tərəfində Afət oturmuşdu. Anam onu gördüyümü bildi. Dik gözlərimin içinə baxdı, tez də üzünü yana tutdu. Ən yaxşı hesab elədiyi və illərdən bəri geymədiyi paltarını geymişdi. Həmişə Zəminzadəni görəndə azacıq yaşmanırdı. İndi yaşmanmaq yox idi. O, sərbəst oturmuşdu. Zəminzadənin təklifini məclis müdafiə elədi. Hamı qanrılıb anam səmtə baxdı. Anam halını, sərbəstliyini pozmadı:

– Nə deyirəm, – dedi, – qalxım daa.

Zəminzadə söhbəti dəyişib çarpaz qoyulmuş stolların arxasındakı adamlara adları ilə müraciət elədi:

– Qaşdanov, deyəsən, sənin yerin narahat kimidir.

– Qətiyyən, yoldaş Zəminzadə.

– Kəklikzadə, Nəzakət xanım gözümə yaxşı dəymir.

– Nəzakət xanım buradakı kimi özünü heç yerdə yaxşı hiss eləmir, yoldaş Zəminzadə.

– İnanaq?

– Mənim tərəfimdən ayıb olar, Məmmədyar yoldaş.

– Ötürün.

– Təşəkkür edirəm.

– Camal, niyə yemirsən?

– Ə-ə-əla ye-ye-yeyirəm.

– Vəzifə Xalid, balacalanmısan, çox ye.

– Miriş, özünü yaxşı apar və möhkəm ol.

– Baş üstə, dadaşım.

Zəminzadə məclisin aşağı tərəfindəkilərə müraciət elədikcə, məclis şənlənir, canlanırdı. Yuxarıdakılar gülümsəyirdilər.

Barmaqlarımın ucuna kimi tərlədim. İstəyirdim anam otursun. Bəsdir ayaq üstündə dayandığı. Zəminzadə ona əhəmiyyət vermirdi. Afətə göz elədim ki, anamın ətəyindən dartıb, desin otur. Afət çiyinlərini çəkib üzünü yana tutdu, mənə tərəf baxmadı. Məclisdəkilər anamı unudub, Zəminzadəyə diqqət edir, gülüşürdülər.

Ürəyim elə hiddətlə döyünürdü, elə bil indicə partlayacaqdı. Zəminzadə anama tərəf dönmədən, nəhayət, dedi:

– Yoldaşlar, Azadə xanımı hamınız tanıdığınız üçün mən şadam.

Anam yenə oturmadı.

– Azadə xanımın mənalı həyat yolu var. – Zəminzadə davam etdi. – Təəssüf, biz onun fədakar həyatı haqqında mətbuatımızda yazılara rast gəlməmişik. Hansı ki, bu, lazımdır. Azadə xanım haqqında yazmağa dəyər. Mən istəyirdim çox uzaq olmayan tariximizə balaca toxunam. Tarixlə burada oturan yoldaşların həyatı, mübarizəsi bağlıdır. Azərbaycanın tarixinə nəzər salın. Qara örtüklərə bürünən, ömrünü qaranlıqlarda çürüdən Azərbaycan gözəlləri işığa çıxır. Gözlər açılır. Kimlərlə durub-oturduqlarını görürlər. Din, mövhumat qorxub çəkildi. Onu azad həyat, şən həyat əvəz etdi. Azadə xanımlar peyda olur. Əllərinə qızıl bayraqlar alıb inamla irəli, xoşbəxt günlərə doğru addımlayırlar. Vicdansızlar, xalqı soyub var-yoxlarını əllərindən alanlar, gücsüzlərin namusuna toxunanlar özlərinə yer tapa bilməyib gizlənməyə məcbur olurdular.

Belə bir ağır şəraitdə qadınlarımız qara örpəklərini açıb qaranlıq günlərin üzünə çırparaq mübarizəmizə qoşuldular. Azərbaycan qadınları içərisində qara örpəyi atanlar cərgəsində, birinci cərgədə bizim Azadə xanım durur.

Məclisin üzü anama doğru döndü. Kim isə Zəminzadənin nitqinə mane olmayan yavaş səslə anama müraciət etdi:

— Bajı, bəlkə, oturasınız. Yoruldunuz.

Anam bərkdən cavab verdi:

— Xoşdur.

Zəminzadə üzünü bacıma tutdu:

— Afət xanım, xahiş edirəm ayağa qalxasınız.

Zəminzadə onu ayağa qaldırdı. Afət anamla yanaşı dayandı.

— Afər xanımı gördünüz. Fikir verirsiniz, yoldaşlar, Azadə xanım necə güllər, çiçəklər becərib? Bizim borcumuz min əziyyətlə becərilən belə gülləri, çiçəkləri həyatın yaman üzündən, pis adamların bədnam niyyətlərindən qoruyub saxlamaqdı. Mən pis adamlar deyəndə təəccüblənməyin, biz həqiqəti deməkdən heç vaxt qorxub çəkinməmişik. Bizdə hələ pisniyyətli, siyasi cəhətdən o qədər də sağlam olmayan adamlar, natəmiz məişət düşkünləri, pozğunları var. Sayı az da olsa, var.

Zəminzadə söhbətinə ara verdi. Dayandı. Zəminzadə sözünə davam etdi:

— Mən sizdən heç nə gizlətmək istəmirəm. Azadə xanım da, yəqin, bizdən inciməz...

— İşini gör. Adam da səndən inciyər?—Anam cavab verdi. Elə bil qonşumuz anamın sözlərini eşitmədi.

— Azadə xanımın həyat yoldaşı bir balaca nə üçünsə ailəsindən inciyib. Həyatda hər şey ola bilir.

— Əlbəttə.

— Doğrudur.

O yoldaşı mən şəxsən tanıyıram. Təmiz adamdır. Ömrünü sənətə bağlayıb. Deyirdim ad-sana layiq görülə biləsi sənətkardır. Onu başa salarıq, başa düşməsə məcbur edərik, qayıdar ailəsinin üstünə. Mən bu ailəni öz ailəm hesab eləmişəm. Deyirəm, siz də biləsiniz. Mənim dostlarımsınız. Yeri gələndə heç bir köməyinizi onlardan əsirgəməyəsiniz. Biz yalnız özümüz üçün yaşamırıq. Biz həm də yaxşı adamları yaşatmalıyıq. Vicdanımız bizdən belə tələb edir.

— Çox doğrudur!

— Məmmədyar yoldaş, gözəl deyirsiniz.

Mən yerlərdən deyilən sözlərə, sözlərin sahiblərinə fikir verirdim. Anam hələ ayaq üstündə dayanmışdı. Mənə elə gəlirdi ki, məclisdəkilər anamı tamam unudublar. Dördlərin hərəsi məclisin bir tərəfində ayaq üstündə dayanıb gözlərini Zəminzadəyə zilləmişdi. Fikirləşirdim ki, «qəhrəmanlar» bir-birinə bitişib yerə sərilərək ona körpü olmağa hazırdılar.

Düşüncələrimin mərkəzində anam, Afət dururdu. Neçə gün əvvəl Zəminzadənin anamı məclisə dəvət etmək fikrini anama deyəndə o, etiraz elədi: — Sən get, bəsdir, — dedi. İndi ayaq üstə durub əyləşmək istəmir. Afət mənə bir dəfə baxıb üzünü yana çevirdi. Aydın məsələdir: o məni görmək, eşitmək istəmir. Buna ixtiyarı yoxdur. O mənim bacımdır. Kiçik bacım. O məni başa düşməlidir. Dediklərimə əməl etməyə mən onu məcbur etməliyəm. Afət Zəminzadənin evini tərk etməlidir. Mən onun burada olmasına dözə bilmirəm.

Afəti Zəminzadənin evində görməyim fikirlərimi sınıq-sınıq etmişdi. Nə üçün o mənə baxmır? Mən ona işarə eləmək istəyirdim. Onu çağırıb danışmalıyam. Söhbətdən heç kəs xəbər tutmamalıdır. Zəminzadə anamın haqqında dediyi sözləri hardan yığıb toplamışdı? Mən ki ailəmiz

barədə ona söz deməmişdim. Məlumatlar Zəminzadədə hardandır? Zəminzadə mənə getdikcə vahiməli görünürdü.

— Yoldaşlar,—Zəminzadə, deyəsən, nitqini tamamlamaq istəyirdi,—Azadə xanımın, dediyim kimi, belə şərəfli həyat tarixi var. Keçmiş inqilabçılardan olmağına baxmayaraq, görürsünüz, Azadə xanım necə təravətli və cavandır. Borcumuz budur—onun kiçik işlərinin üstündə də gözümüz olsun. Azadənin istəkli oğlu var. Bütün ana qəlbi ona bağlıdır. Biz onun tək oğluna yox, bir cüt qızına da hərtərəfli qayğı göstərəciyik. Təklif eləyirəm hamı ayağa qalxmaq şərti ilə badələrimizi Azadənin, onun əla ailəsinin sağlığına içək!

Adamlar ayağa qalxdılar. Badələrin bir-ikisi içildi, çoxu dolu yerə qoyuldu. Zəminzadə bunların fərqinə varmadı.

— Yoldaşlar, bəlkə, Azadə xanımın sözü var, icazə verək danışsın.

Zəminzadənin anama söz vermək təklifi onun oturmasına işarə idi. Anam nə danışacaq? Yəqin ki, «sağ olun» deyib oturacaq. Mən belə güman elədiyim halda anamın oturmaq əvəzinə dodaqları tərpəndi.

— Yoldaşlar, Məmmədyar Zəminzadə yoldaş hamımızın böyüyüdü. Nə deyirsə, düz deyir. Şura gələndə heç şeyimi ondan əsirgəmədim. Dedim, yoldaşlar, nəyimi istəyirsiniz, götürün, Ər-mər getdi işinə. De ki, niyə? Fikri köhnəydi. Sözünə baxmadım, verdim şuralara, nəyim vardı. Di sağ olun.—Əl vurdular. Anam sağına, soluna baxıb haqqında da danışılmayacağını yəqin eləyəndən sonra oturdu. Adamlar bir-birinin qulağına nə isə pıçıldayıb gülüşdülər. Muzdur hələ də var gücü ilə əl vurub deyirdi:

— Həngamədir, həngamə!

Zəminzadə qalxıb mətbəxə keçdi. Qayıtdı. Əyilib anamın qulağına söz deyib güldü. Anam da Afətə baxıb güldü.

Zəminzadə əlini bir neçə dəfə Afətin saçlarına çəkdi, keçib öz yerində oturdu. Təklif elədi badələr dolsun, sağlıq deyiləsi adamlar çoxdur, məclis hələ indi-indi qızışır. Zəminzadə stolun üstünə nəzər salıb bir neçə «Badamlı» şüşəsini əydi, üstünə baxdı. Üzünü Afətə tutub ondan «Barjomi» gətirməsini xahiş elədi. Anam dərhal Afəti dümsüklədi ki, tez dursun. Afət otaqdan çıxanda mən qalxıb onun arxasınca getdim. Bilirdim Afət mənim çağırmağıma əhəmiyyət verməyəcək. Dayanıb məni eşitmək istəməyəcək. Buna görə arxadan heç bir söz demədən onun qolundan yapışdım. Elə bil arxasınca gəldiyimi bilirmiş. Tərəddüd etmədən dayanıb gözlərini gözlərimə dikdi.

— Nə var, nə deyirsən?

Qolunu buraxmadım. Əksinə, bir az da bərk yapışıb mətbəxin qapısından qaytarıb otağa saldım. Yaxşı ki, müqavimət göstərmədi. Onsuz da xeyri yox idi. O hiss eləmişdi ki, mən onu əlimdən buraxmayacağam.

— Gəl,—dedim, – «Barjomi» bu otaqdadır.

Otağa girəndə Adaxlı ilə Muzdur çaxır şüşəsini başlarına çəkirdilər. Məni görəndə dayanıb üzümə baxıb irişdilər:

— Allah xatirinə bağışlayın, Afər xanım,—Muzdur öz ədası ilə ayaqlarını cütləyib üzr istədi.

«Barjomi» şüşələrini onlara göstərib:

— Götürün, – dedim.—Ağlınız kəsmir stolların üstünə «Barjomi» qoymaq lazımdır? Bilmirsiniz, ağanız «Barjomi» istəyəcək? Bu nə səhlənkarlıqdır? Nə saymamazlıqdır?

Muzdur əlini alnına uzadıb.

— Vay! Vay!—deyə başını buladı.—Çox sağ olun yadımıza saldınız.— Şərabın təsiri, elə zənn eləmək olardı, onlardan çəkildi. Rəngləri belə ağardı. Onlar bilirdilər ki, Zəminzadənin işində səhlənkarlıq göstərmək nə deməkdir. Mən daxili həyəcanımın gücündən qəzəblə dedim:

—Götürün butulkaları! Aparın üstünü yaxşı-yaxşı təmizləyib stollara düzün! Birinci növbədə ikisini Zəminzadənin qabağına qoyun.

Muzdurla Adaxlı getdilər. Zəminzadədən öyrənmişdim ki, bu «qəhrəmanlar»la necə rəftar eləmək lazımdır. Doğrudan da, onlar sərtlik görəndə necə dərhal tabe olurdular! Yanılmamışdım. İlk təcrübəm əla nəticə verdi. Qulluq göstərənlərin hər ikisi göz qırpımında şüşələri götürüb bayıra çıxdılar. Mən nə qədər Afətlə otaqdayam, onlar çətin bura gəlsinlər. Onlara əmr etməkdə məqsədim də elə bu idi.

Zəminzadəyə qulluq göstərənlərlə sərt danışmağım Afətə təsir etdi. O, suçlu adamlar kimi dayanmışdı. Hiss edirdim gözünü qorxutmuşam. Birbaş mətləbə keçməli idim. Bədirə bizim burada olduğumuzu bilib gələ bilərdi. Hər ayaq səsi eşidəndə elə bilirdim Zəminzadə, yaxud anamdır. Dayandığımız otaq ağzına kimi məclis üçün alınan yemək, içmək şeyləri ilə dolu idi. Stolun üstünə lazım olanlar bu otaqdan aparılırdı. Odur ki, Afətlə söhbətim tez tamamlanmalı idi. Yoxsa hər şey gec ola bilərdi. Afətin lap qabağında dayandım.

— Sənə nə demişdim?

Dinmədi. Çox gərgin idi. Onun susmasına dözə bilmirdim. Anamın bütün danlaqlarına, saqqız kimi uzanan töhmətlərinə, sızıltılarına, hıqqıltılarına, daha nə bilim nələrinə dözən mən, indi hövsələsiz olmuşdum. Elə bil məndə anadangəlmə hövsələ yoxmuş.

— Niyə cavab vermirsən?—Onun qolundan tutub silkələdim. Afət silkələnib, çənəsi taq-taq bir-birinə dəysə də, yenə təmkinini pozmadan cavab verdi:

— Nə olsun demişdin?

— Demək, mənim sözlərim sənin üçün heç bir şeydir?

– Səndən qabaq mənim qabağımda anam var.

– Bəs mən kiməm?

– Sən bacımsan.

– Bizim bədənimizdən axan qan bir qandır. Biz bir atanın, bir ananın övladıyıq. Anamız isə hər şeydən əzizdir. Ancaq səndən xahiş elədim ki, Zəminzadənin evinə gəlməyəsən. Nə üçün gəldin? Bəlkə, mənim təqsirimdir, səni yaxşı başa salmadan «gəlmə» demişəm?

– Mən uşaq deyiləm. Nə demək istədiyini yaxşı anlayıram.

– Onda nə üçün gəldin? Qoyaydın anamız tək gələydi. Onsuz da darıxmazdı. Burada adam çoxdur!

– Mən anamın sözünə baxmalıyam.

– Bəlkə, ana ömründə bir dəfə səhv edir? Nə üçün eşitmək istəmirsən?

– ...

– Bir vaxt mənə dediyin sözlər yadındadır? Axı sən ağılsız qız deyilsən.

– Mən heç bir yaramaz hərəkət eləməmişəm ki, sən mənə ağıllı, ya ağılsız deyəsən.

– Mənimlə belə danışmağına acığım tutmur. Əksinə, xoşuma gəlirsən. Sən bir vaxt məni də belə danışmağa çağırırdın. Çünki mən deyilənlərin, buyruqların heç birinə etiraz eləmirdim. İstədiyimi də, istəmədiyimi də yerinə yetirirdim. Onda sənin məndən necə acığın gəldiyini bilirdim. Sən məni eşitməyib bu evə gəldiyin üçün pis iş görmüsən.

– Demək, buraya gəlməyi mənə həmişəlik qadağan edirsən?

– Bir bacı kimi buna ixtiyarım yoxdur? Tutaq sən dediyini tələb edirəm.

– İxtiyarın olardı. Əgər özün...

– Əgər özüm nə? Mənimlə açıq danış. Mən buna icazə verirəm. Vaxt azdır. Adam gələ bilər. Nəyi başa düşməliyəm?

– Bu evə gəlməməyi birinci sən özünə qadağan etməli idin.

– Bilirdim sən bunu deyəcəksən. Ancaq sən ki, bunun səbəbini bilirsən. Zəminzadənin evinə gəlməyi özümə nəyə görə qadağan edə bilmədiyim sənə çoxdan aydındır.

– Sən evə səhərə yaxın gələndə mən oyaq idim. Gözlərimi qapayıb özümü elə göstərdim ki, yatmışam.

– Niyə belə edirdin?

– Səni utandırmamaq üçün.

– Sən amansızmışsan. Sən daşdan yonulmuş adama oxşayırsan. Mən bunu indi dərk edib, görürəm. Ancaq incimirəm. Belədirsə, məni insanlardan utandırıb üzümə qara çəkən yola səni necə buraxa bilərəm? Gedək bu evdən. Sən düz deyirsən. Mən indi insanların üzünə baxa bilmirəm. Mənim gözlərimə ömürlük qaranlıq çökməlidir ki, insanlar məni görüb tanımasınlar. Səni düşdüyüm zülmətdən xilas etmək istəyirəm. Sən mənim ürəyimin ləkəsiz parçasısan. Mən istəmirəm bütün ürəyim ləkə içərisində qalsın. Məni anla. Mən özüm bu evə gəlmədim. Məni bura itələdilər. Sən ki bunu bilirsən. Sən ki mənim «xəstə» olduğumu birinci deyənsən. Sən bilirsən ki, mən fanatik olmuşam. Mənim bu evə gəlməyim üçün bir dəfə yox, məni min dəfə itələyiblər. Mən bu təkan qarşısında acizdim. Gücüm yox idi geri dönüm. Mən, məni yaradanın istəyini sındırmamaq üçün gəldim. Səni bura gəlməyə qoymayacağam. Qoymacağam, qoymayacağam. Gedək, tez, tez ol, gedək. Mən hələ sənə çox şeylər danışmalıyam. Gec olar, gedək. Mən səni gələcəyin yaman günlərindən xilas eləmək istəyirəm. Sən də məni xilas elə. Gedək! Sonra mənim günahımı bütün insanlara danışarsan. Mənim haqqımda düşündüklərin doğrudur. Mənə bütün ömrün boyu nifrət edərək yaşayarsan. Gedək, bacım. Təki bilim bu nifrət bacımın mə-

nə olan məhəbbətindən yarandı. Axı mən anadan natəmiz doğulmamışdım. Bir gün gələr, səni görəndə başımı dik tutaram. Hələlik sənin qarşında başımın aşağı olduğunu boynuma alıram. Bizi, səni və məni doğan anamızı tərifləyirlər. Bizim gələcəyimizin xoşbəxtliyinə elə bu stol başında elə bir adam zəmanət verir ki, ondan təmənnasız kömək gözləmə. Bunlar səni aldatmasın. Gedək. Mən sənə çox şeylər danışacağam. İndi ancaq getmək, tez buradan çıxmaq lazımdır. Mən səni burada qoymayacağam, gedək!

Qapıda anam qabağımı kəsdi. Afəti əlimdən qoparıb aldı.

– Onu mən doğmuşam, sən yox, – dedi. – Qoy onun gəlişini Bədirə qısqansın, sən niyə qısqanırsan?

Pillələrin sayını yarı edib düşdüm. Evimizə qalxan pillələri də belə çıxdım. İçəri girib qapını elə bağladım, bayırdan aça bilməsinlər. Anamın dalımca gəlməyəcəyinə arxayın idim. Bilirdim gəlməyəcək. Bacımı gözlədim. Nəfəsim toxtayıb onun dediyi sözləri, verdiyi cavabları yadıma saldıqca əlimi bacımdan da üzməyə başladım. Ümid həmişə, hər yerdə adama lazımdır. İnsan məhv olmamaq üçün birinci ümidini qoruyub saxlamalıdır. Ümidini itirmiş insan həyatda yoxdur. Afətin dalımca gələcəyi ümidilə gözlədim. Gəlmədi. Vaxt itirə bilməzdim. İnsanın saniyələrə nə yaman ehtiyacı olurmuş? Şagird vaxtlarında içərisinə dəftər, kitab qoyub məktəbə apardığım portfelimi axtarıb tapdım. Dəftər götürüb ağ vərəq cırdım. Məktəb karandaşımla kiçik məktub yazdım. Anama yazacaq çox sözlərim vardı. Onların heç birini yazmadım. Yalnız bu sözləri qoyub getdim:

«Məni hec vaxt axtarma. Həmişəlik gedirəm. Geri qayıtmaq üçün getmirəm, bunu yəqin bil. Başa düşürəm, cəhənnəmə ki, getdi, – deyəcəksən. – Hara gedir, getsin. Heç

vecimə də deyil! Bu sözləri söyləyəcəyinə şübhəm yoxdur. Ancaq bir şeyi dərk edə bilsəydin! Qoy sənin dərk edə bilmədiyin mənim ürəyimdə qalmasın. Yer üzündə nə qədər analar var, məni eşitsinlər. Eşitsinlər və bilsinlər ki, dünyanı, onun işlərini vecinə almayan anaların övladlarının başına nə müsibətlər gəlir! Sənin bütün əzablarına dözərdim. Amma son ittihamlarına dözə bilmədim. Bu ittihamlar mənim xəstəliyimin dərmanı oldu. Məni dünyaya gətirdin, mənə həyat verdin. Mən də verdiyin həyatı sənin yolunda qoyub gedirəm. Sağ ol».

Məktubun altından imzamı qapını açıb evdən çıxmaq istəyəndə qayıdıb yazdım: «Afər!» Heç nə fikirləşmədim. Dünyada qorxacağım heç bir şey yox idi. Dünyanın ən güclü, ən zalım, ən nifrətəlayiq adamı özümü bilirdim. Qapıdan çıxarkən üstümə pələng gəlsəydi, onu dişlərimlə, caynaqlarımla parçalayıb gəbərdəcəyimə arxayın idim. Bir şey etməliydim: Özümə heç olmasa bir, ya iki əlavə geyim götürməliydim. Bunu hər şeydən vacib bildim. Necə götürüm? Əlimə heç nə götürə bilməzdim. Müqavimət göstərmək lazım gəlsəydi, mənə yük olardı.

Mənə nə olubsa sənə hamısını və düzgün yazmalıyam. Vaxt itirə bilməzdim. Əynimdə və var, hamısını soyundum. Alt və üst paltar, nə lazımdırsa, hərəsindən ikisini çamadanımdan çıxarıb yenidən üst-üstə əynimə geydim. Heç bir şey götürmədim. Məndə olan açarı yazdığım məktubun üstünə qoyub qapıdan çıxdım. Qapını arxamca örtdüm. Qapı bağlandı. Pillələri tez-tez düşüb bir neçə tin ötdüm, gedəcəyim yer müəyyən olan adamlar kimi yeriməyə başladım. Hara üz tutmuşdum, hara gedirdim bilmirdim. Bacardığım qədər çıxdığım evdən tez uzaqlaşmağa çalışırdım. Fikirləşdiyim bu idi, arxamca gəlib məni tapmasınlar. Yəqin evə birinci Mehrəli gələcək. Mətbəx əşyalarını bir-

birinə vura-vura xeyli mətbəxdə dolaşacaq. Yeyib-içəndən sonra yerinə girib yuxuya gedəcək. Çətin ağlım kəsir mən yazdığım məktubu tapıb əhəmiyyət verib oxusun. Gedirdim. Kənardan mənə baxan olsaydı nə düşünərdi, bilmirdim. Özümü elə tutmağa çalışırdım ki, guya mənim həyatımda heç bir vulkan baş qaldırmamışdır. Şəhərin yersiz, yurdsuz sakini deyiləm. Ötüb keçən adamlar kimi mən də bir niyyətlə tələsik gedirəm.

Özümdə nahaqdan bu fikirləri yaratmırdım. Mənə elə gəlirdi, hamı mənə baxır, mənim hara baş alıb getdiyimi bilir. Onlardan biri indicə məni dayandıracaq, məni evimizə qayıtmağa məcbur eləyəcək. Mən onun dediyinə əməl etməyəcəyəm. Yox, məni qayıtmağa heç kim məcbur edə bilməz. Mən qayıtmaq üçün evdən çıxmamışam. Məni dayandırmaq səs-küyə səbəb olar. Adamlar hər şeydən xəbər tuta bilərlər. Tutsunlar.

Ayaqlarımı daha tez-tez atmağa başlayırdım. Bir adamın zəndlə baxdığını görəndə yerişimi yavaşıdıb saymazyana getməyə çalışırdım. Görünür, evdən xeyli aralanmışdım. Neçə tin çarpaz keçmişdim. Şəhərin mərkəzindən uzaqlaşdıqca adamlar seyrəlməyə başlayırdı. Adamlar azaldıqca mənim də yerişim özümdən asılı olmayaraq yavaşıyırdı. «Hirsləndiyin vaxt görəcəyin işi sonraya saxlamağa çalış». Məktəb rəfiqələrimin birinin anasının dilindən eşitdiyim bu sözlər ürəyimə gəldi. Bu sözləri yadımdadır ki, iki oğluna tövsiyə eləyirdi. Sonra üzünü rəfiqəmə və mənə tutdu: – Qızlar, siz də yadınızda saxlayın. Səbəbini bir vaxt bilərsiniz.

Hislərim keyidikcə rəfiqəmin anasının sözlərini təkrarlayırdım. Bu sözlərin üstündən neçə illər keçmişdi. O vaxt biz hələ yeddinci sinifdə oxuyurduq. Onda mənim ağlıma heç vaxt gəlməzdi ki, rəfiqəmin anasının dediyi sözləri xa-

tırlayacağam. Bir vaxt mənə gərək olacaq. Bəlkə, qayıdım? Onda daha yeyin yeriməyə başlayırdım. Dayanmalıyam. Şəhərdən bu qədər uzaqlaşmaqla hara üz tutmuşdum? «Bəlkə, qayıdım?» sualı, yəqin ki, yaxınlaşmaqda olan gecənin vahiməsindən doğur. Yersiz, yurdsuz həyatımın birinci günü başlamışdı. Adamların çəkilib getdiyi, boş qalan küçələr gözümün qabağına gəldikcə soyuq tər məni üşüdürdü. Özümü əsla itirməməyə, sərbəst aparmağa çalışırdım. Gücüm hələlik öz yerində idi. Bir neçə saat müxtəlif küçələrdə hərlənə bilərdim. Gəzdiyim müddətdə bunu həll etməliydim: Hara getmək? Harada gecələmək? Atam evdən getdiyi müddətdə üç-dörd mənzil dəyişmişdi. Axırıncı yeri mənə məlum deyildi. Məlum olsa belə, atamın yanına gedib ona yük olmaq istəmirdim. Hamıdan uzaqlaşmaq istəyirdim. Neçə illərdən bəri sakitliyini tək yaşamaqda görən atam qoy istədiyi kimi yaşasın. Gah gəmilərin, gah qatarların fiti eşidilirdi. Deməli, mən gəmilərin lövbər saldığı yerlə sərnişin qatarı dayanan vağzalın arasındayam. Yer tapıb axşamlamaq mənə çətin görünsə də, özümdə, qəlbimdə rahatlıq hiss edirdim. Gecənin vahiməsi getdikcə yaxınlaşsa da, bu azadlıqdan zövq alırdım. Quş kimi yüngül idim. Elə bil fit verən qatarlar mənə təsəlli idi. Hər dəfə səslənmələri ilə deyirdilər: qorxma, biz hələ səhərə kimi burdayıq. Birimiz getsə də, ikimiz qalacağıq. Vaqonları təmizləyən qadınlar gözlərimin qabağına gəlirdi. Məktəb rəfiqələrimdən ikisinin anası qatarda işləyirdi. Moskvaya gedib-gəlirdilər. Bəzən gecə, bəzən səhərə yaxın evə gəlirdilər. Rəfiqələrimiz dərsdə bir kağıza bu sözləri yazıb bizə verirdilər: «Bu gecə yatmaq yoxdur. Anam dördün yarısında gələcək. Yəqin mənim üçün bir şey gətirəcək. Konfet öz qaydası ilə. Kim bizə getmək istəyir, gecəni mənimlə qalmaq istəyir, yazılı xəbər eləsin. Ancaq çox yox, üç

nəfər». Müəllimin gözlərindən ustalıqla yayınan məktub bütün sinfi gəzirdi. Getmək istəyənlərin sayı birdən ona çıxırdı. Məktub yazan rəfiqəmizə sayın çoxluğu ləzzət eləyirdi. Anamın belə işlərdən xoşu gəlmədiyini sinfimizin uşaqları bilirdi. Odur ki, rəfiqəm tənəffüsdə mənə yanaşırdı: Sən gedəcəksən! Bütün uşaqlar ona tərəf çıxırdılar. Deyirdilər birlikdə gedib anamdan icazə alarlar ki, gecəni mən də rəfiqələrimlə sinif yoldaşımızın evində qalım. Qəti etiraz edirdim. Onlar incimirdilər.

Vağzala gedə bilərəm. Mənə heç kim dəyib-toxuna bilməz. Rəfiqəmin anasının adını verib onu gözlədiyimi deyərəm. Onu vağzalda hamı tanıyır, mənə hörmət edərlər. Rəfiqəmin anası məni evlərinə aparar. Bütün əhvalatı biləndən sonra məni dünyasında buraxmaz. Kişi kimi qadındır. Dalımca gələn olsa, onların bilirəm, cavabını verər. Vağzala getməyi ona görə düşünürdüm ki, rəfiqəmgil də təzə tikilən mikrorayonların birinə köçmüşdülər. Mənə yazılı ünvan vermişdi. Paltarlarım olan çamadanın içərisinə qoymuşdum. İstirahət günü olsa da, ünvanı vağzalın növbətçisindən ala bilərəm. Necə olsa, rəfiqəmin anasını taparam. Hələ biz aşağı siniflərdə oxuyurduq. Onda rəfiqəm deyirdi ki, anası onun mütləq Xarici Dillər İnstitutuna girməsini istəyir. Rəfiqəm indi ingilis dili öyrənirdi. Bunu təfsilatı ilə ona görə xatırlayırdım ki, rəfiqəmin anasının sözündə necə möhkəm olduğunu bir daha özümdə yəqinləşdirim. Özümdə yəqinlik hasil edim ki, məni nəinki yaxşı qəbul edər, həm də gələcək üçün mənə yol açmamış bir yana buraxmaz.

Hər qara maşın görəndə diksinirdim. Qorxu məni götürürdü. Özümü gizlətməyə çalışırdım. Bunu elə edirdim ötüb keçənlər hiss etməsinlər. Zəminzadə məni öz qara maşını ilə axtarmaz. Bu maşın, yəqin şəhərdə məşhurdur.

Hamı tanıyır. Zəminzadə məni başqa maşında izləyə bilər. Məcbur olurdum bütün maşınlardan üzümü gizlədim. Ötən maşından iki gözün mənə zilləndiyini görəndə divarlardakı afişaları bəhanə edib dayanırdım. Üzümü onlara tutub oxumağa başlayırdım. Gözləri mənə zillənən sürücününü ötüb keçdiyini hiss edəndən sonra gəldiyim yolla geri qayıdırdım. Beləliklə, izimi itirməyə çalışırdım. Səkinin sağ tərəfinə keçmək istəyəndə milis işçisi iki dəfə fit verdi. Əhəmiyyət verməyib küçəni keçdim. Xeyli gedəndən sonra qayıdıb fit verən milis işçisinə baxdım. O gülürdü. Mən milis işçisini tanıdım. Məktəbə getdiyim vaxtlar onu, demək olar, hər gün görürdüm.

Yolumu dəyişib başqa küçəyə keçmək istəyəndə qarşımda maşın dayandı. Qəfil maşın haradan çıxdı, bilmədim. Sürücü bir saniyə gec saxlasaydı, maşın üstümdən keçəcəkdi. Karıxıb nə irəli, nə geri gedə bildim. Maşının sağ, sol qapıları açıldı. İki adam düşüb hərəsi bir tərəfdən mənə doğru gəldi. Yalnız bu vaxt mən onları tanıdım. Zəminzadə ilə sürücüsü Qeyrətəli idi. Qorxudan özümü itirmişdim. Onları görəndə nə edəcəyimi bilmədim. Necə dayanmışdımsa elə də qaldım. Bərkdən qışqırıb demək istədim mənə yaxın gəlməyin. Geri dönmək istəyəndə ayaqlarımın tərpənmədiyini hiss edib dayandım. Mən, deyəsən, yerə yıxılırdım. Zəminzadə əyilib şoferin qulağına nə isə dedi. Sürücü tez qayıdıb maşına mindi. Qapının birini örtüb maşını işə saldı. Zəminzadə mənə yaxınlaşdı:

– Afər xanım, – dedi, – həyəcanlanmaq lazım deyil. Allah sizin də, mənim də başımın üstündə dayanıbmış. Siz yenidən doğuldunuz. Sizi göydən bizim əlimizə saldılar. Çox xahiş edirəm narahat olmayın. Bizim gəlişimiz sizi əsəbiləşdirməsin. Adamları gecənin belə vaxtında başımıza yığa bilərik. Bu, biabırçılığa səbəb olar. Səhər bütün şəhər

sizdən, məndən danışar. Söz-söhbətin qabağını almaq olmaz. Burada küy qaldırmağa heç bir ehtiyac yoxdur. İstədiyiniz dəqiqə mən çıxıb gedə bilərəm. Getməmişdən qabaq sizinlə danışmalıyam. Ağılsız hərəkət edib hay-küy qaldırmayın. Yenə deyirəm: istəsəniz, bu dəqiqə gedə bilərəm. Küçədən ötüb keçənlər bizə baxırlar. Bir tin bir yerdə getməliyik. Mən sözümü deməliyəm. Sonra necə istəyirsinizsə, eləcə də hərəkət edə bilərsiniz.

Qeyrətəli bizdən xeyli aralandı. Hiss edirdim o haradasa qabaqda, Zəminzadənin tapşırıq verdiyi yerdə dayanıb bizi gözləməlidir. Məni məcburi maşına mindirmək fikrində deyillər. Dediyim fikir onun ürəyindən keçsə də, Zəminzadə buna yol verməz. O, ağılsız adam deyildi. Mənə elə gəlirdi o hər hərəkətini ölçüb-biçir, gələcəyi, işin aqibətini düşünmədən hərəkət eləmir. Mənim yanımca sakit, yaxın adam kimi gedirdi. Hər şeydən əvvəl məni inandırmağa çalışırdı ki, evimizə qaytarmaq məqsədi ilə gəlməyib. O məni tapmalı idi. Biləndə mən evdən birdəfəlik çıxıb getmişəm, bu gedişi əsaslandıracaq heç nə ona məlum olmadığı halda, o mənim arxamca necə gəlməyə bilərdi? Bütün gecəni necə dolanmaya bilərdi? Ailə üçün, qız üçün evdən getməkdən böyük qəbahət ola bilməz. Halbuki, səbirli iş görmək, fikirləşib yaxşıca yol tapmaq mümkündür.

Çatdığımız tində Zəminzadə ayaq saxladı. Qeyrətəli aralıda, sağ tərəfdə dayanmışdı.

– Biz burada maşına oturmalıyıq. Gecdir. Küçələri belə hərlənməyin mənası yoxdur. – Zəminzadə arxası maşına dayandı. Elə bil maşını ötüb keçənlərdən gizlətməyə çalışırdı.

Mən maşına minməyə etiraz etsəm, o, üzünü tutduğu səmtə mənimlə getməyə hazırdır. Onda maşın yenə də ar-

xada qalacaqdı. Maşına otursan, o heç yerə sürülməyəcək. Mən istəsəm, başqa bir küçəyə burulub orada dayanıb azacıq söhbət eləmək olar. Söhbət tək mənə yox, onun özünə də hava, su kimi lazımdır. Ancaq camaatı nəzərə almaq lazımdır. Tanıdı-tanımadı, adamlar baxıb hər cür düşünə bilərlər. Bu, yaxşı deyil, adamlarla hesablaşmaq vacibdir.

Zəminzadə saata baxdı:

– Görün nə qədər vaxt keçib. Saat üçə işləyir. Maşına oturmaq lazımdır, Afər xanım. Əmin olun, mən sizi evinizə qaytarmaq fikrində deyiləm. Ancaq biz getməliyik. Bilirsən, evdəkilər indi yatmayıb. Baxma, necə olsa anadır. Mən onları sakit eləməliyəm. Bunun üçün səninlə razılaşmaq lazımdır. Boş vaxt keçirməklə heç bir məsələ həll olmaz. Siz ağıllı adamsınız. Oturun maşına. Necə istəsəniz, elə edərik.

Gecə özü ilə gətirdiyi vahiməni indi mənim bədənimə yeridirdi. Zəminzadə çıxıb gedə bilərdi. Mən onda özümü küçədə tək görürdüm. Tək qalmaqdan başıma nələr gələcəyindən qorxsam da, heç nəyi üzə vurmurdum. Mən insanlar arasındaydım. Zəminzadə ilə maşına otursam belə, o bunu mənim indiki vəziyyətimin nəticəsi kimi başa düşməməlidir. Mən buna əmin olmalıyam. Onun səsinin ahəngindən anlayırdım ki, indi Zəminzadə məni birinci gündə gördüyü qızdan az da olsa fərqləndirir. Mən bu neçə gündə dəyişmişdim. Danışsam da, o, mənimlə hesablaşmalı olduğunu duyurdu. Bu, mənim Zəminzadə üzərindəki ilk kiçik qələbəm idi. Zəminzadə aləminin sirlərini öyrənib açmağım üçün mənə dözüm, qurban da lazım idi. Zəminzadə dəniz kənarındakı söhbətə toxunmurdu. Bunun üçün vaxt, imkan yox idi. Bəlkə də, bu barədə danışmağı o, sonraya saxlamışdı. Hələlik onun bütün cəhdi bu idi ki, mən maşına oturum. Bundan sonra çox söhbətlər ortalığa çıxa bilərdi. Mən maşına doğru getməyə başladım. Bunun üçün

o, canfəşanlıq eləmədi. Özünü bir qədər də ciddi, qayğıkeş göstərdi. Mənə izah etməyə başladı ki, evdən getməyin, bəlkə, başqa bir mühüm səbəbi var. Onun isə heç nədən xəbəri yoxdur. Nəyə görə hər şey aydınlaşdırılmasın, örtülü saxlanılsın? Səhv ola bilər. Təbiidir. Başa düşən, ağıllı adam səhvini düzəltməlidir. Əgər bunu etməyə qabiliyyəti yoxdursa, o adam özündən küsməlidir. Sonra başına hər cür bəlalar gələ bilər. Əlbəttə, bu sözləri deməkdə o, birinci növbədə özünü nəzərdə tutur. Maşına çatanda Qeyrətəli maşından düşdü, az qala yüyürüb qapını açdı. Əli dəstəkdə, maşına oturmağımızı gözlədi. Zəminzadə axırıncı sözlərini yavaş dedi və şoferinə göstəriş verdi ki, sürsün, dayandığımız küçədən çıxsın.

Maşın addım-addım gedirdi. Elə bil maşının belə yavaş getməsi ilə Zəminzadə mənə etibarını göstərib, demək istəyirdi, sən özün dillən. Hara istəyirsən ora gedək. Maşın onun sözlərinin ahənginə uyğun gedirdi. Tini dönəndən sonra Qeyrətəli maşını bir az da yavaş sürdü. Maşının getdiyi güclə hiss olunurdu. Qeyrətəli arxaya dönüb üzünü Zəminzadəyə tutdu:

— Deyirdiniz yadınıza salım, nə isə götürəcəydiniz.

Maşının şüşəsindən bayıra baxdım. Düşündüm ki, görünür, Zəminzadənin iş yerinə yaxınıq. Maşın dayandı. Sağ və sol tərəfdə ancaq yaşayış binaları idi. İdarəyə bənzəyən yer gözümə dəymirdi. Yaşayış evləri bizim yaşadığımız binalara bənzəmirdi. Çoxlu pəncərələri, balkonları olan binanın yalnız bir-iki pəncərəsindən işıq gəlirdi. Görünür, ev sakinlərinin əksəriyyəti çoxdan yuxuda idilər. Zəminzadə maşının dayanmasına etinasız idi. Cibindən açar çıxarıb Qeyrətəliyə uzatdı:

— Yaxşı ki, yadıma saldın, düş, gündüz apardığım sənədləri gətir. Stolun üstündədir. Kağızları qarışdırma.

Şofer düşmək istəyəndə Zəminzadə onu saxladı. Göstəriş verdi qabaqca maşını lap sağa versin. Gecədir, arxadan maşın gəlib bizi vura bilər. Qeyrətəli maşının bir tərəfini adamlar gedib-gələn səkiyə çıxartdı. Onsuz da gediş-gəliş kəsilmişdi. Motoru söndürüb maşından düşdü. Qeyrətəli nə gətirməli idi? Bu bina ilə Zəminzadənin nə əlaqəsi vardı. Əgər Qeyrətəli bu binada yaşayırsa, mənzilin içərisini Zəminzadə yerli-yataqlı haradan bilir? Qeyrətəlinin açarı onun cibində nə gəzir? Heç nə başa düşə bilmirdim. Şofer binaya yaxınlaşanda Zəminzadə mənə doğru əyildi:

— Qulaq asın, Afər xanım, mənim qabaq yaşadığım mənzil bu binadadır. Bilirsən, təzə otaqların təmir işi uzandı. Ona görə köhnəni hələ təhvil verməmişəm. Doğrusu, bir az da uşaqlardan qaçıram. İşləməyə mane olurlar. Gündə olmasa da, həftədə iki, üç dəfə bura gəlib, məşğul oluram. Doktorluq mənim üçün bir şey olmasa da, addır, gərək alasan. Əslində yükdür, ancaq nə edəsən. Materiallarla heç olmasa tanış olasan. Mane olan olmur. Bizim söhbətimiz üçün buradan yaxşı şərait yoxdur. Səhəri küçələrdə açmaq da olmaz. Sizi milis şöbəsinə apararlar. Səhərə kimi saxlayarlar. Sonra ləkəni üstünüzdən silə bilməzsiniz. Düşünün, cəmi iki mərtəbə qalxacağıq, yorulmazsınız. Azacıq söhbət edərik. Ən əsası odur mən hər iki evə xəbər verməliyəm, sizdən nigaran qalmasınlar. Arxayın ola bilərsiniz, sizin harada olmağınız haqqında söz-söhbət olmayacaq. Mən heç sizi görməmişəm. Lakin xəbər tuta bilmişəm ki, elə qorxulu yerdə deyilsiniz. Başınıza heç bir fəlakət gəlməyib. Ardını sizin öz razılığınızla həll edərik. İndi hələlik işləri sakit həll eləmək lazımdır. Bədirə və ananız bilirlər sizin dalınızca gəlmişəm. Deyərəm tanış yerdən mənə xəbər veriblər ki, keçmiş rəfiqələrinizin birinin evindəsiniz. Kiçik inciklikdir, bir-iki günə evə qayıdacaqsınız.

Deyəcəklərim mənim uydurmalarımdır. Mən sizin evdən getmənizin səbəbi haqqında heç nə bilmirəm. Siz məni başa salmalısınız. Görürsünüz, bizim yarım saat bir yerdə olmağımız nə qədər vacibdir? Yarım saatda mənim ora getməyimin əhəmiyyəti yoxdur. Mənzildə telefon var. Bədirəyə xəbər vermək kifayətdir. O, ayrı söz danışan deyil. İstəyir boğazına diri koramal salsınlar. Azadə xanıma necə xəbər vermək lazımdır, o bilir. Xahiş edirəm, düşün.

Zəminzadə qapını açmaq istəyirdi, Qeyrətəli gəldi. Xəbər verdi ki, onun tapşırdığı kağızları tapa bilmədi. Stolun üstündə xeyli kağız var. Qarışıq salmaqdan qorxur. Zəminzadənin Qeyrətəliyə acığı tutmadı. Əksinə, mədəni və lütfkar sahiblərə məxsus tonda təşəkkür elədi. Bildirdi ki, indi biz beş dəqiqəlik özümüz yuxarı çıxacağıq. Qeyrətəli isə maşında olsun. Zəminzadə maşından düşdü. Qeyrətəli açıq qapını əli ilə tutub başını maşının içərisinə doğru əydi:

– Buyurun, Afər xanım!

İnsan kimi mexanizm, görəsən, yarana bilərmi? Bir göz qırpımında o, bir neçə şeyi fikrindən keçirə bilir. Bu anda düşündüklərimi çəkmək mümkün olsaydı, beynimdəki yükün ağırlığı məlum olardı. Mənim beynim isə belə ağır yükü götürməyə birdən-birə girişmişdi. Əgər beynim tədricən yüklənsəydi, əlbəttə, yükün ağırlığı o qədər hiss olunmazdı. Zəminzadənin məni tələyə saldığını maşından düşəndə bir daha təsdiq elədim. O məni tələdə görsə də, öz iradə və arzusuna tabe etdiyini duysa da, hər kiçik hərəkətində ehtiyatlı idi. Düşünürdüm ki, Zəminzadənin avtomatlaşdırdığı adamlar onun təsir dairəsindən çıxa bilsələr, onları Zəminzadə dondura bilər. Bu donmaqla onlar, bəlkə, üç yüz il sonra əriyib gözlərini aça bilərlər. Yəni Zəminzadə onları dinməz-söyləməz istədiyi kimi özü ilə sürüyüb aparar.

Bu qorxunc səhnələr məni vahiməyə salsa da, bütün ixtiyarımı əlimdən ala bilmirdi, gördüyüm həyatın məndə yaratdığı maraq məni odun içərisinə çəkib aparırdı. Bu odda yanıb kül olacağımı bildiyim halda gedirdim. Zəminzadənin köhnə evindən daha qaranlıq yerlərə, onun lap dərinliklərinə, adamların qorxub ayaq basa bilmədiyi uçurumlara getməyə hazır idim. Bu səy «qəhrəman» olmaq səyi deyildi. Mən insan olduğumu başa düşmüşdüm. Mən insan idim. Bunu dərk elədiyim üçün özümü başqalarından gücsüz bilmirdim. İnsan adı nə böyük imiş! İnsan özü üçün bədbəxtlik və xoşbəxtlik yaradır.

Maşına minəndə nə qədər gücsüz idimsə, düşəndə o qədər sərbəst idim. Zəminzadə qapını açıb özü qabaqca içəri girdi. İşığı yandırıb məni mənzilə dəvət elədi. Xahiş elədi ki, üstünə naxışlı xalça salınmış divanda oturum.

— Afər xanım,—Zəminzadə ciddiləşdi.—Hələ də inana bilmirəm ki, sizi tapmışam. İnana bilmirəm, biz bir yerdəyik. Siz əldən düşmüş, böyük sarsıntılar keçirmisiniz. Burada dincələrsiniz. Sizə kimsə mane olmayacaq. Sabah biz söhbət edərik. Darıxmayın. Heç sıxılmayın.

Zəminzadəni qonaqlarını tələsik yola salıb mənim arxamca gəlməyə məcbur edən dəniz kənarında mənimlə etdiyi əhdü-peyman olmuşdu. Yoxsa gəlməyə də bilərdi. Yazdığım məktubu gətirdib oxumuşdu. Evdən getməyimin səbəbini biləndən sonra xeyli toxtayıb, özünə gəlmişdi. Məktubu anama qaytarmayıb özündə saxlamışdı. Bir qonşu kimi özünə borc bilmişdi ki, məni təcili axtarıb tapsın. Mənim evdən getməyim o demək deyil ki, mən anamdan əlimi tamam üzməliyəm. İstədiyim qayğını mən Zəminzadənin köməyi ilə anama göstərəcəyəm. Ancaq özüm də yaşamalıyam. Oxumalıyam. Həyat meydanından səssiz-səmirsiz geri çəkilmək olmaz. Bu o demək deyil ki,

özünü adamların gözünə soxasan, yox, həyatda varlığını sübut eləməlisən. Sübut eləməlisən ki, sən varsan, səni saymalı, səninlə hesablaşmalıdırlar. Bunun üçün faydalı iş görməlisən. Faydalı işin sədası hər yerə yayılacaq. Onda insanlar biləcəklər ki, sən varsan. Sənin həyatın nə qədər zəngin, lazımlı və mənalıdır. Dosta da, düşmənə də bu lazımdır. Zəminzadənin çalışdığı nədir? Çalışdığı odur ki, ümumi həyatımız irəli getsin. İnsanlar firavan həyat sürsünlər. Hər şey yaxşılığa doğru dəyişsin. Hər şey gözəl olsun. O, insanları başının tükündən tutmuş dırnaqlarına qədər xoşbəxt görsün. Gecə-gündüz əlləşdiyi bu məqsəd üçündür!

Zəminzadə ayağa qalxdı, geyinib qarşımda dayandı. Mənə şirin yuxu arzulayıb, yatmazdan qabaq bir şey dilimə vurmağımı yenə xahiş edib, qapıya doğru getdi, orada ayaq saxladı:

— Burada qonşular sizin gəlməyinizdən xəbər tutmayıblar. Əlbəttə, hələlik tutmasalar yaxşıdır. Mən gələnə kimi durmayıb yatarsınız. Dincəlin. Mənə birinci bu lazımdır. Yuxuqabağı sizə bir xəbər də verim, gülüb eyniniz açılsın. Bilirsiniz nə xəbərdir?

— Yox,—dedim.

— Dörd milyon öldü. Bu bilirsiniz nə deməkdir? O deməkdir ki, Fətəli Cum damdadır. Böyük komediyadır. Səhər hər şeyi ətraflı bilərsiniz. Hələlik.

Zəminzadə qapını ehmal çəkib bağladı. Çox keçmədi, pərdə salınmış pəncərənin qabağından keçən maşının səsi uzaqlaşdı. Deməli, Qeyrətəli onu gözləyirmiş...

* * *

İç-içə olan otaqların orta qapısı mən içəri girəndən açıq idi. Yan-yana qoyulmuş taxta çarpayılar görünürdü. De-

məli, bura yataq otağı idi. İki çarpayının üstünə iri parıldayan örtük çəkilmişdi. Zəminzadənin getməsi ilə, deyəsən, mənə yüngüllük gəlmişdi. Evdən çıxandan ürəyim yanırdı. Tinləri, küçələri adlayanda dilim-ağzım qupquru idi. Nəfəsim lap təngiyirdi. Mətbəxə keçməyə məcbur oldum. Su kranını açıb, ovcumu qoşalayıb birnəfəsə doyunca içdim. Zəminzadənin qoyduğu çay, hazırladığı yemək mətbəx stolunun üstündə qalmışdı. Ac deyildim. Yenə su istəyirdim. Otağa qayıtdım. Otaq gözlərimdə başqalaşdı. Hara baxdım, gözlərimə pul dəydi. Mən oturan müddətdə pulları görməmişdim. Radioqəbuledicinin üstündə bir dəstə pul atılıb qalmışdı, bir hissəsi yerə tökülmüşdü. İçi kitab dolu şkafın şüşəli gözlərinin birinə pul qoyulmuşdu. Belə təsir bağışlayırdı ki, pullar nə vaxtdansa yaddan çıxıb qalıb. İki pəncərənin ortasında yazı stolu qoyulmuşdu. Stolun üstündə qəzetlər üst-üstə yığılmışdı.

Otaqda çox hərlənə bilməyib oturdum. Nə edim? Düşünürdüm. Görəsən, içərisində olduğum mənzil şəhərin hansı səmtindədir? Durub qapıya doğru getdim. Əl vurmadım. Zəminzadə hər şeyi mənə etibar eləyib. Gecəni hansı bucaqda yatmağı haqqında düşünən adamın qarşısında gör necə şərait açılmışdı. Qayıdıb yerimdə oturdum. Mən, nədənsə, elə bilirdim səhəri gün Zəminzadə mənim evdə necə davrandığımın hamısını biləcək. Biləcək ki, mən otağın hansı səmtində gəzmişəm. Yataq otağına girmişəm, ya yox? Yataq otağına girmək fikrində deyildim. Başqasının evində mənim yatmağa nə ixtiyarım var? Anamdan, Mehrəlidən, Afətdən arxayınam. Yatıblar. Qoy dincəlsinlər.

Divara vurulmuş xalçalarda çoxlu güllər, çiçəklər, yaşıl otlaqlar var. Heyvanlar gör necə keflə otlayırlar! İstədikləri yerə gedirlər. Çay nə gözəl axır. Ağacın altında iki inək ya-

tıb. Sərinləyirlər. Xalçalar necə səliqə ilə vurulub! Görəsən, Zəminzadə özü vurub?

Nə düşündüyümdən özüm də baş aça bilmirdim. Yatmaq istəyirdim. Bircə bərk yuxuya gedə bilsəydim. Xalçanın üstündə uzandım. Əlimi başımın altına qoydum. Ayaqlarımı qarnıma yığdım. Nə rahatdır, İlahi! Məni kimsə qucağına götürüb yumşaq yatacaq döşənmiş çarpayının üstünə qoydu. Hələ yerdən qaldırmaq istəyəndə and verdim, mənə dəyməsin. Yerim yaman rahatdır. Yatmaq istəyirəm. Sözümə baxmayıb məni götürüb, çarpayının üstünə qoydular. Yaman yatmaq istəyirdim. Çarpayıda gözlərim yenə yumuldu. Yuxuya getdim. Yenə məndən əl çəkmirdilər. Nə üçün məni soyundurursunuz? Mənə belə yaxşıdır. Anam gözümə dəymirdi. Bəs məni soyunduran kimdir? Elə rahatam ki... Doğru deyirəm. Qoyun yatım. Yaman yatmaq istəyirəm. Yenə yuxuya getdim. Qoymursunuz yatam. Köynəyimlə nə işiniz var? Mənə dəyməyin. Yox, yox, yox, yooox!..

Gözlərimi açanda özümü Zəminzadənin çarpayısında gördüm. Günün nə vaxt olduğunu müəyyən edə bilmədim. Bütün bədənim ağrıyırdı. Bitişik çarpayının örtüyü qırış-qırış idi. Məktub qoyulmuşdu: «Məndən incimədin ki? Mənə göstərdiyin misilsiz hörmət üçün sənə ömürlük minnətdaram. Mən işə getdim».

Məktub əlimdən düşdü. Yorğanı başıma çəkib ağladım. Göz yaşlarım balışı islatdı. Qadınların ilk güvəndiyi silah göz yaşlarıdır. Bu, deyəsən, iradələri zəif qadınlara daha çox aiddir. Göz yaşları axıdılandan sonra onlarda ya təslim olmaq hissi yaranır, ya amansız nifrət. Yorğanı üstümdən götürüb döşəməyə çırpdım. Qalxıb qapını bağladım ki, Zəminzadə bir də içəri girə bilməsin. Bunlar sərsəri hərəkətlər idi. Yenə yatağa sərildim: «Görəsən, daha anam məndən razıdırmı?»

Zəminzadə mənimlə edəcəyi söhbətin üstündən keçmişdi. Məndən heç nə soruşmurdu. Nə üçün, nəyə görə mən evdən getdim? Heç nə onu maraqlandırmırdı. Bu barədə söhbətə onsuz da yol verməyəcəkdim.

Mən susurdum. Dilsiz-ağızsız əşyalar mənə elə bil gözlərini ağardırdı. Sanki mənə deyirdilər: indi sən kimsən? Biz əşyalar insanı daha başqa formalara sala bilərik. Biz içərilərində şeylər yığılmış adi qutular, çamadanlar deyilik. Biz Zəminzadənin təhlükəsizliyi üçün avtomatlaşdırılmış naməlum predmetlərik! Bizdə milyard volt gücündə cərəyan cəm edilmişdir. İstənilən vaxt, istənilən obyekti qara külə döndərə bilərik.

Əşyalardan qorxmağa başlayırdım. Xalçaların üstü tərpənirdi. Zəminzadənin üzü dəyişirdi. Mən onun üzünün dəyişdiyini çox görmüşdüm. Burada isə üz başqa cür dəyişirdi. Bədənində qanı çəkilmiş sümüklər görünməyə başlayırdı.

Gözlərim divardakı heyvanlara zillənirdi. Heyvanlar mənə təsəlliydi. Biri daim üzümə baxırdı. Deyirdim: «Get otla. Baxma. Yoxsa sən də mənə nifrət edəcəksən». Dinmirdi. Elə baxırdı. Mən onları əlimlə sığallamaq, tumarlamaq istəyirdim. Əl vurmağa qorxurdum. Bu heyvanlar olmasaydı, Zəminzadənin evdə olmadığı vaxtlar nə edərdim? Yəqin Zəminzadə mənə iş düzəltmək niyyətindədir. Hələlik mənə bir söz demir. Ancaq iş olacaq. Buna görə anama yazdırmaq istədiyi məktubda iş tapacağımı qeyd elətdirmək istəyir.

Düşdüyüm bəlanın sonu na olacaq? Bilmirdim. Hələ ki, Zəminzadənin evində oğurluq yaşayırdım. Oğurluğun isə bir gün başı tutulmalıdır.

Qapının zəngi çalındı. Zəminzadə mənə demişdi, qapının zəngi bir dəfə ehmal, qısa çalınanda açım. Yenə qabaq-

ca xəbər alım kimdir. Mülayim qadın səsi olsa, açım. Qadın lazımlı adamdır. O mənimlə azacıq söhbət eləyib gedəcək. Mən Zəminzadədən başqa söz xəbər almadım. Gələn qadın mənimlə nə söhbət edəcək? Qapının arxasında kimin olduğunu xəbər alanda mülayim qadın səsi cavab verdi:

— Mənəm, qızım. Qorxma, aç!

Ortaboylu, dolu bir qadın idi. Məni görən kimi qolumdan yapışdı:

— Gəl, qabaqca səni öpüm,—dedi. Özünə doğru çəkib üzümdən iki dəfə öpdü. Sonra yerdəki sumkasını götürüb kətilin üstünə qoydu. Geyimini yüngülləşdirib ev şəraitinə saldı. İşgüzar tərzdə saçlarını düzəldib xəbər aldı:

– Afər xanımsan, səhv eləmirəm?

– Xeyr, səhv eləmirsiniz.

– Gözəl addır.—Tez-tez nəfəs ala-ala özünü mənə belə təqdim elədi.—Mən də Şəmsiyyə xanımam. Bir mənə de görüm darıxmırsan?

Necə cavab verəcəyimi bilmədim. Sualları saymazyana verdiyindən istər-istəməz:

– Xeyr,—deyə cavab verdim.

– Bilirəm darıxmazsan.

Qadın ayağa qalxdı.

– Səliqə-səhmansız olmaqdan xoşum gəlməz, – dedi. – Son günlərdə iş başımı elə qatıb, saçlarımın rəngi bir tərəfə dursun, nə ayaq, nə də əl dırnaqlarımı təmizlədə bilmişəm. Təvəqqe eləyirəm bağışlayasan, qızım. O, sumkasını açmaq istədi. Nə fikirləşdisə, əlini saxlayıb üzünü mənə tutdu:

– De görüm, gələndən bir yerə çıxmısanmı?

Mən başa düşdüm ki, o mənim saçlarımı düzəltdirməyə işarə edir. Dedim ki, getməmişəm və mən o qədər də bəzək-düzək xoşlayan deyiləm. Şəmsiyyə xanım sumkanı buraxıb belini düzəltdi.

– Bilirdim belə cavab verəcəksiniz. Həm cavansınız. Həm də, görünür, ailənizdə bəzək işlərindən xoşları gələn olmayıb.

– Düz deyirsiniz.

– Hamsını demirəm, amma bizim azərbaycanlı ailələrimizin əksəriyyətində bu cəhət çatmır. Çoxları dünyaya anadan gözəl gəlirlər. Gözəl də böyüyürlər. Amma bu o demək deyil ki, qadın gözəl görünmək üçün heç nədən istifadə eləməsin! Düzmü deyirəm, qızım?

– Hər halda siz məndən yaxşı bilərsiniz.

– Bilirdim belə cavab verəcəksiniz. Bərəkallah. Məmmədyar yoldaş insanları tanımaqda heç vaxt yanılmamışdır. Məmmədyar Zəminzadə adam sərrafıdır. Yalnız böyük insanlarda belə zənd olur.

Qadın Zəminzadənin adını və familiyasını xüsusi vurğu ilə deyirdi. Buna görə də çox aydın və dolğun səslənirdi.

– Mənə təmiz qab verə bilərsənmi?

– Nə qab istəyirsiniz?

– Balaca ləyənçə olsun. Ancaq təmiz qab verin, xahiş edirəm.

Qadın məni saya salmadan əyilib sumkasının ağzını açdı. Eyni vəziyyətdə məndən soruşdu:

– Tapa bildiniz, qızım?

Çaşbaş olduğumu hiss edib belini düzəltdi.

– Bildim tapa bilməyəcəksiniz, – dedi. – Siz narahat olmayın. Mən hər şeyi özüm edərəm. Deyəsən, mən bu evə sizdən bir balaca yaxşı bələdəm. Şübhə eləmirəm ki, bir neçə gündən sonra siz də mənim qədər bələd olacaqsınız. Belə deyilmi?

Mən cavab vermədim.

Qadın mətbəxə keçib tez qayıtdı. Əlində qab vardı. Qabı mənə uzatdı: «Təvəqqe eləyirəm, təmiz yuyub, içərisinə su tökəsiniz, qaynasın. Sonra nə eləmək lazım olduğunu

mən sizə deyərəm». Kor kimi onun dediklərinə əməl edirdim. Qabı yuyub, içinə su töküb qaz pilətəsinin üstünə qoydum. Qadın məni çağırıb yanında oturtdu. Onun nə eləmək fikrində olduğunu başa düşə bilmirdim. Heç nə soruşmurdum. Sumkasından heç nə çıxarmamışdı. Elə bil mənim bütün həyatıma bələd idi, məni Zəminzadənin evinə o gətirmişdi. Diqqətlə gözlərimə baxıb dedi:

– Sizi mən saçlarınızı düzəltməyə və partnixaya aparmalıyam.

Bir söz demədiyimi görüb əlavə elədi.

– Ancaq bir neçə gün gözləməliyik.

Yenə bir söz demədim. Qadın məqsədini özü tamamladı:

– Bilirsiniz nə üçün deyirəm bir neçə gün gözləməliyik?

– Xeyr.

– Bildim belə cavab verəcəksiniz. Zəminzadə şoferin iş yerini dəyişir. Bilirsinizmi Zəminzadə Qeyrətəlinin yerini necə dəyişir? Hara qoyur?

– Xeyr.

– Bilirdim belə cavab verəcəksiniz. Zəminzadə idarə söhbətini çox nadir danışar. Zənn edirəm sizə danışacaq.

Şəmsiyyə xanımın göz yaşları qəfil başlayan yağış kimi ələnməyə başladı. Sumkasından dəsmalını çıxarıb gözlərini qapadı, ağladı. Gözünün yaşını, burnunu, ağzının yanlarını silib sakitləşdi, üzr istədi:

– Təvəqqe eləyirəm məni bağışlayın, Afər xanım. Mən Zəminzadə haqqında sakit danışa bilmirəm.

Mən Şəmsiyyəyə baxırdım. Fikrimdə dolanan bu idi: Oğul isə alqışlayıb... Doğrudurmu? Özüm də bilmirəm nə üçün bu sualı verdim.

Şəmsiyyə yenə ağlamağa başladı. Astma xəstəliyinə tutulan adamlar kimi çiyinləri qalxıb endi. Dəsmalla gözlərini qapadı:

– Yazıq kişi gərək sağ olaydı, oğlunun necə yüksəldiyini görəydi. Görəydi ki, qurbanı olduğum hökumətimiz uşaqlarını necə adam edib! Sizdən heç nə istəmirəm, Afər xanım, yalnız Məmmədyar yoldaşı başa düşün. Bilin Zəminzadə bizim fəxrimizdir. Bizim pənahımızdır. Zəminzadə olmasa, nə edərik? Allah eləməsin, onun başından bircə tük düşsün. Bir gün nədir, bir saat yaşaya bilmərəm. Qədrini bilin! Cavansınız, bilməzsiniz, hərəkətlərinizlə onu əsəbiləşdirərsiniz. Siz ondan ötrü yaşamalısınız. Onu əyləndirməyi bacarın! Sizdən xahişim budur.

Şəmsiyyənin göz yaşları yay günlərində qızmış asfalt döşəmənin üstünə düşən yağış damcıları kimi quruyub yox oldu, mətbəxə keçib qayıtdı:

– Başımız qarışıb, su tamam qaynayıb quruyub. Təzədən su qoydum.

Mən gələn qadının nə eləmək istədiyini xəbər ala bilmədiyim üçün getdikcə həyəcanlanırdım. Zəminzadə onun gəlişini bilirdi. Mənə tapşırmışdı qapını açım. Şəmsiyyə yenə məndən üzr istədi. Yaxşı hərəkət etməyib ağladığı üçün özünü məzəmmətlədi. O mənə yaxınlaşdıqca məni dərman iyi vururdu. Düşünürdüm ki, yəqin, tibb işçisidir. Bəlkə, Zəminzadənin xüsusi həkimidir. Zəminzadədən muğayat olmaq üçün mənə müəyyən şeyləri başa salacaq. Mən bunu onun hər kəlməsindən duyub hiss edirdim. Şəmsiyyəyə otuzdan yuxarı yaş vermək olmazdı. Daha cavan görünürdü. Qulaqlarındakı sırğalar çiyninə qədər sallanırdı.

– Afər xanım, siz dünyanın birinci xoşbəxt adamısınız. Bilirsiniz nə üçün bu sözü sizə deyirəm, çünki sizi mən Zəminzadənin mənzilində görürəm. Xahiş eləyirəm, yenə məni düz başa düşəsiniz. Məsələ yalnız təmin olunmaq məsələsi deyil. Pul, gözəl geyimlər, bəzək şeyləri məsələsi

deyil. Məsələ ondadır ki, Zəminzadə təmiz adamdır. Xalq adamıdır. Bütün zəhməti, əməyi, canı xalqdır, kütlədir. Onun amalı insana aid qanunu gözləri kimi qoruyub saxlamaqdır. Siz elə bilirsiniz bu saat Zəminzadənin ayağının altını siçovul kimi qazıyanlar, ona şər yaxıb, böhtan atanlar, qəssab Dadaşbalanı ona bağlayanlar yoxdur? Nə qədər istəsəniz.

Şəmsiyyənin sözləri birdən o qədər qarışıq olurdu, dediklərindən baş aça bilmirdim. Zəminzadəni bir vaxt haradan qovmuşdular, kim qovmuşdu, nə vəzifə daşıyırdı, sonra necə bir də milis rəisi oldu? Heç nə başa düşə bilmirdim.

Şəmsiyyə elə bil ki, suyu qəsdən qazın üstündə qoyub buxarlandırırdı. Yenidən üstünə su töküb odun üstünə qoyurdu. Qaynar suyun ona nədən ötrü lazım olduğunu mən nədənsə xəbər almırdım. Getdikcə mənimlə nəzakətlə rəftar edən qadından çəkinməyə başlayırdım. Görəsən, nə vaxt çıxıb gedəcək?

O, mətbəxdən qayıdıb gəldi. Ağ parçaya bükülü bir şey çıxartdı. Parçanın arasındakı ağzı qapalı ağ dəmir qutunu stolun üstünə qoydu.

O, hərəkətlərində təmkinli idi. İndi, bayaqdan bəri, danışan qadına oxşamırdı. Başını qaldırıb mənə baxmırdı.

Qutunu açdı. İçərisindəki iynəni çıxartdı. Əsməyə başladım. Mənə elə gəldi ki, indicə yıxılacağam, özümü güclə saxladım. Şəmsiyyə eyni təmkin və soyuqqanlılıqla dedi:

— Afər xanım, əyləşin.

Onsuz da ayaq üstündə durmaq iqtidarında deyildim. Dinməz oturdum. Üzümdə, bəlkə də, qan qalmamışdı Gözlərimə tor gəldi. Başımı tutdum. Şəmsiyyənin səsi yenə gəldi:

– Uzanın. – Eyni soyuqqanlı ifadə ilə mənə müraciət elədi. Şəmsiyyə daha mənə «siz» demirdi. Onun simasında

buz soyuqluğu vardı. Sakitliyi adi bir insan sakitliyinə bənzəmirdi. Ölü sakitliyinə daha çox yaxın idi. Mən ona tabe oldum.

— İynənin iriliyi səni qorxutmasın.

Mən dinə bilmədim. Çalışıb gözlərimi onun gözlərimdən uzaqlaşdırdım. Başıma nə gələcək, bilmirdim. Qadının fikri nədir? O, məndən nə istəyirdi, nə üçün məndən əl çəkmirdi? Kimi köməyə çağırım? Burada kim var? Qadın isə elə bil bayaqdan bəri danışdığı üçün yorulub indi dincini alırdı. Sakit-sakit dilləndi.

— Həyəcanlanma. Qorxmaq lazım deyil. Özünü ələ al, mən gözləyərəm. Sakit ol. Səni bəyənmişəm. Məndə özünə qarşı şübhə yaratma. Uzan!

O mənə sarı gəldi. Mən geri çəkilə-çəkilə özümü qadından qorumağa çalışdım.

— Mənə dəyməyin. Əl vurmayın. Mən sizdən qorxuram.

Qadın biləyimdən elə möhkəm yapışdı ki, az qaldım çığırım. Çiyinlərimdən ağır əli ilə basıb çarpayıya oturtdu.

— Uzanın! Kimin evində olduğunuzu unutmayın. Mən bunu heç kimə, heç yerdə deməyəcəyəm.

Qadın mənimlə yenə yumşaq danışdı, «siz» deyə rəftar elədi:

— Siz gəncsiniz. Sizə bir neçə il ana olmaq yaramaz! Qorxmayın. İynələr heç bir ayrı fəsad yaratmır. Siz gəzməlisiniz. Dünya səyahətlərinə çıxmalısınız. Zəminzadənin arzusu belədir. Yoxsa uşaq sizin yalnız əl-ayağınıza dolaşar. Gəncliyinizdə qocalarsınız. Məmmədyar Zəminzadənin məhəbbətini isə parçalamaq olmaz! Siz onun məhəbbətini qorumalısınız. Sakit dayanın.

Onun əlindən xilas olmağa çalışdım.

— İstəmirəm! Mənə iynə vurmayın.

— Sakit olun. Dəli hərəkətinizlə mənim nifrətimi qazana bilərsiniz. Əks halda sizi hərtərəfli müayinə etməli olacağam. Siz hər şeyi itirə bilərsiniz.

Qadın məni buraxmadı. Mən tamam taqətsizləşdim. Elə gücsüzləşdim ki, heç bir şeyin məndən ötrü əhəmiyyəti qalmadı. İynə ətimə yeridiləndən sonra heç nədən xəbərim olmadı. Gözlərimi açanda otaq mənə qaranlıq görünürdü. Boğanaq hava boğazımı göynətdi. Şəmsiyyə gözünü qırpmadan mənə baxırdı:

– Sabah məni gözləyərsiniz!

Qapı açılıb örtüldü. Səs kəsildi. Qadın çıxıb getdi...»

* * *

Afərin həyatında baş verən nə vardısa prokurorun atası Məmmədyar Zəminzadə ilə bağlı idi. Zəminzadəni «gizlətmək» mümkün deyil. Afər hara dönür, hara baxır, hara addım atırdısa, Məmmədyar Zəminzadəni görürdü. Prokuror da belə idi. Zəminzadə Afəri açıq-açığına təqib etmirdi. Afərin ətrafında Zəminzadəni, bəlkə, görən də yox idi. Amma Zəminzadə Afərin yolunu elə kəsmişdi ki, Afər başqa yol tapa bilmirdi həyatını xilas etsin. Burada bir şəxsi heç vədə nəzərdən kənar qoymaq olmaz. Bu şəxsin Afərin həyat faciəsinin yaranmasında «fəaliyyəti» Zəminzadəninkindən az deyildi. İnsan yıxılmır. İnsanı yıxırlar. İnsan dəli deyil özünü uçurumdan çapıq qayaların üstünə atsın. İnsanı uçurumdan itələyirlər. Afəri Zəminzadənin yırtıcı pəncəsinə atan doğma anası Azadə idi. Prokuror Afərin həyatını vərəqlədikcə mən düşünürdüm: ömrü boyu kamançasını sızıldadan ata niyə evindən çıxıb getsin? Öz-özümə verdiyim sual az sonra özümə gülünc gəlirdi. İnsan ağır və uzun əzablara dözür, kamançaçı kimi həyatını sakit yola verir. Yaşayır. Gün, an, saniyə gəlir. Bütün əzab, iztirablar bu

anların birində sona yetir. «Qaçıb qurtarmaq» müdriklikdir. Belə adamların iradəsi poladdandır deyirəm. Kamançaçalanın necə təbiətdə adam olduğu mənə aydın idi. Afər bir-iki sözlə doğma atasını elə təqdim etmişdi ki, mən bu atanı görürdüm. Əgər kamançaçı Azadənin pəncəsindən nəhayət bir gün xilas ola bilmişdisə, yeni, xoşbəxt həyat deməkdir. Bircə gün istədiyin kimi yaşamaq arzusuna qovuşmaq... Azdırmı?

Prokuror Zəminzadənin adını çəkməyə bilməzdi. Prokurorun dodağında hər dəfə təkrar olunan «Zəminzadə» yalnız sərtlik yaradırdı. Mən bunu hiss edirdim. Prokuror qovluqdakı kağızları bir-bir, sürətlə oxuyurdu.

«Xeyli yerimdən qalxa bilmədim. Özümü getdikcə daha heysiz hiss edirdim. Ağzımda xoşa gəlməyən tam vardı. Uzun müddət yataqdan qalxa bilməsəm, bu mənim üçün dəhşətdir. Qalxmamaq ölümüm demək idi. Mən qalxmalıydım. Mənə qəssabxana təsiri bağışlayan bu evdən qaçmalı idim. Görünür, mən həyatda qaçmaq üçün doğulmuşam. Bəlkə, başıma daha artıq işlər gələcəkdi, nə bilim? Mən belə düşünürdüm. Hazırkı vəziyyətim dözülməz idi. Tez, bacardıqca tez bu evdən getməliydim. Ola bilər qadının mənə vurduğu iynə məni həmişəlik şikəst etmişdi. Mən tərpənməliyəm. Əgər əzələlərim tərpənsə, qalxa bilsəm, bu mənim həyatımda ən böyük xoşbəxtliyim olacaq. Dünyada heç nəyi vecinə almayan anamın halı, görən, necədir? Mənim başıma gələnlərlə kifayətlənirmi?.. Mən anamı düşündüyüm üçün elə bilməyin ki, onun yanından getməyimə peşman olmuşdum. Bir şey yaxşı idi: həyat səhvlərimi mənə deyirdi. Məndə dözüm yaradırdı. Bəs nə bilirsən, Afər? Həyatda mübarizə elə bilirsən halvadır? Xeyr, belə deyil. Məndə nifrət hissi çoxaldıqca gücüm artırdı. Mən Zəminzadə dünyasından qaçmayıb qadının ağrılı iynələrinə dözməyə hazır idim. Geri qayıtmağa yox.

Çarpayıdan qalxa biləcəyimi ağlıma gətirməzdim. Qalxdım. Geyindim. Axşam idi. Həmin gecə Zəminzadənin gəlməyəcəyini bilirdim. Bu, yaxşı idi. Ayaq üstündə çox dura bilmədim. Kətildə oturdum. Hər şeyi nəzərimdən keçirməliydim. Zəminzadə Qeyrətəlini irəli çəkib. Yeni vəzifə ilə mükafatlandırıb. Şübhəsiz, Zəminzadənin başqa şoferi var. Ona Zəminzadə etibar eləyib hər sözü deyə bilməz. Qapının zəngi iki dəfə çalındı. Bu Qeyrətəlinin zəngi idi. Zəminzadə onunla ərzaq göndərirdi. Zəng məni karıxdırdı. Yenidən çalındı. Gedib qapını açdım. Gələn Qeyrətəli idi. Yanında başqa adam vardı. Mən onu birinci dəfə görürdüm. Qeyrətəlinin bazarlıq gətirdiyi zənbili o götürmüşdü.

Qeyrətəli salam verdi. Maraqla mənə baxdı. Onun məqsədini anladım. O məndən soruşmaq istəyirdi: «Xeyir ola, Afər xanım, hara belə hazırlaşırsınız?»

Qeyrətəli marağını gizlətdi. Onun axmaq oluğunu söyləməzdim. Zəminzadə axmaq adamı heç vaxt yanında saxlamazdı, onu irəli çəkməzdi. Amma Qeyrətəli fikrini ağartmadı. Hiss edirdim ki, onun əlinə sanki Zəminzadəyə çatdırmaq üçün göydən mükafat saldılar. Geri, Zəminzadənin yanına qayıdanda deməyə sözü var.

— Birinci, qardaşımla, xahiş edirəm, Afər xanım, tanış olasınız! – dedi. – Doğma qardaşımdır. Belə qeyd eləməkdə məqsədim odur ki, elə bilin yenə sizi maşında mən gəzdirirəm. İkinci, bu gülləri alın. Zəminzadə yoldaşdan icazə almışam ki, gülləri sizə təqdim edim.

Qeyrətəli üzünü qardaşına tutdu:

– Götür gülqabını, su ilə doldur, gətir.

Gülləri suya qoydu.

— Mən minnətdarlığımı sizə də bildirirəm, Afər xanım. Ayağınız yüngülmüş. Yoldaş Zəminzadə məsləhət

bildi yoldaşlarla ki, mən yaxşı işə keçim. Neçə ildi əli-ayağı təmiz maaşa xidmət edirəm. Məmmədyar yoldaşı gəzdirmək mənim üçün yüksək şərəfdir. Mənə qalsa, heç bir vəzifəyə durmazdım. Qabaqda Zəminzadə yoldaş var. Mənə ayıb olar onun sözünün qabağına söz deyəm. Mənim yerimdə qardaşım işləyəcək. Sizə bir şeyi xəbər verim: mənə yeni mənzil verdilər. Üçotaqlıdır. Sabah köçməliyəm. Yoldaş Zəminzadə bu gecə gəlməyəcək. Mənə dedi bunların hamısını sizə yetirim. Təyyarə meydanındadır. Qonaqlar gələcək. Biz də ora getməliyik. Qardaşımın adı Əbdüləzəldir. Bir az köhnəlmiş addır, çətindir, yəqin, diliniz öyrəşər. Elə müxtəsər Əbdül də deyə bilərsiniz. Sabahkı bazarlıq gec olmasın deyə, bu gün gəldik. Əsas məqsəd Zəminzadə yoldaşın gələ bilməyəcəyini sizə çatdırmaq idi. Başqa işiniz yoxsa, icazə verin gedək.

Getdilər. Qapını ehtiyatla açdım, çıxıb tez bağladım ki, məni görən olsa, hansı mənzildən çıxdığımı bilməsin. Pillələri ehtiyatla düşdüm. Əgər buradan uzaqlaşa bilsəm, mənə ölüm yoxdu. Hər işim yaxşı olacaq. Ürəyim istəyən kimi olacaq. Mənə elə gəlirdi həyatımı bu binadan cəmi on metr aralana bilməyim xilas edəcək. Pillələri enib artırmada ayaq saxladım. Otaqdan çıxan müddətdə bir nəfər də olsun nə binaya qalxan, nə binadan düşən olmuşdu. Deyirdim bu onu göstərir ki, işim yaxşı olacaq. Bir neçə addım atmaqla binadan çıxırdım. Ürək eləmirdim. Qorxurdum işlərim korlana. Məni görərlər. Artırmada dayanmaq da yaxşı deyildi. Mən binadan çıxıb sürətlə uzaqlaşmalı idim. Evimizdən gedəndə hara üz tutduğum müəyyən deyildi. İndi hara üz tutacağımı bilirdim. Cəsarətli olmaq lazımdır. Vaxt itirməklə heç nə əldə edə bilməyəcəkdim. Çıxdım. İlk dəfə səmaya baxdım. Elə bil səmanı görməyin min illik həsrəti vardı məndə. Sola dönmək istədim. Fikrimi dəyişdim. Sola dön-

səydim adam çox olan enli küçəyə düşməli idim. Sağa döndüm. Bir neçə addım getdim. Özümü sərbəst hiss edib sevindim, iynənin ağrıları elə bil yoxmuş. Yüyürmək istədim. Bu vaxt arxadan bir əl biləyimi qamarladı. Dönüb baxdım. Qeyrətəli idi. Biləyimi gücü gəldikcə sıxaraq yavaş səslə dedi:

– Bir yerə getmək istəyirsiniz, əyləşin maşına!

Hər şey mənə aydın idi. Harasa gedəcəyimdən şübhələnən Qeyrətəli binanı tərk etməyib məni güdürmüş. Sükanın arxasında Əbdüləzəl oturmuşdu.

Qayıdıb pillələri qalxmalı oldum. Qeyrətəli cibindən açar çıxarıb otağın qapısını açdı. Azacıq aralı dayanıb əli ilə içərini göstərdi:

– Buyurun!

Otağa girdim. O, heç bir söz demədən qapını çəkib örtdü. Gözlərim qapıdan çəkilmədi. Gələn olmadı. Səhər açıldı. Hər an Zəminzadənin gəlişini gözləyirdim. Onun mənim haqqında hökmü necə olacaqdı, bilmirdim. Zəminzadə gəlmək bilmirdi. Xeyli keçdi. Qapıya açar salındığını eşitdim. Zəminzadədir. Zəminzadə özünü elə apardı ki, guya axşam nə hadisə baş verdiyindən xəbəri yoxdur. Qeyrətəli ona heç nə deməmişdir. O belə hərəkət edəndə daha qorxulu görünürdü. Otaqda gəzişirdi. Gəzişdikcə ev əşyalarına nəzər yetirirdi. Elə edirdi ki, mən onun nəzərlərilə nə demək istədiyini başa düşüm. Hər şey öz yerindədirmi? Bir otaqdan başqasına keçirdi. Pullar qoyulan yerə baxmaq yalnız Zəminzadənin evdəki gəzintisi zamanı yadıma düşdü. Pullar yox idi. Zəminzadənin pullara əhəmiyyət verməməyindən onları nə vaxtsa götürdüyünü yəqin elədim. Zəminzadə sakit, lakin qəzəbli idi. Mənə elə gəlirdi divarların hər tərəfindən məni görürlər.

Zəminzadə yazı masasını bağlı qoyurdu. Cibindən açar çıxarıb bir-bir gözlərini açıb, dönə-dönə baxdı. Başa düşür-

düm. O məni təhqir eləyir. Mənə demək istəyir ki, sənə artıq inanmaq olmaz. Sən quldursan. Sən oğurluq da edə bilərsən. Qaçmaqda fikrin təkcə başını qurtarmaq deyil. Ola bilsin kiminləsə əlaqədə olub hələ çox işlər görəcəydin. Ancaq bacara bilmədin. Səni Qeyrətəli pələng kimi yaxaladı. Bəs birinci qaçışın sənə dərs olmadı? İkinci dəfə qaçmaqda fikrin nədi? Sən bilmirsən sən qarışqa yuvasında da gizlənsən, tapdırıb çıxartdıraram? Sən indi özün dilinlə deməlisən ki, heç kimə lazım deyilsən. Sən oğrusan, pozğunsan. Sən kim olduğunu etiraf elə. Sonra rədd ola bilərsən. Doğma ananın sənə olan nifrətini gözəl bilirsən. Buna baxmadım, səni küçələrdən qaytardım. Mənə xəyanət eləmək niyyətinə düşdün. Mənə belə bir şey lazım idi. Onu da özün etdin.

Bunları Zəminzadənin addımlarından, baxışlarından oxuyurdum. İynənin təsiri baş qaldırırdı. Ağzımda dilim yanırdı. Xoşa gəlməyən tam çoxalırdı. Mən iynədən sonra heç nə yeməmişdim. Bütün gecəni susuzluq məni əldən salmışdı. İstədiyim qədər su içəndən sonra yanğım daha da şiddətlənirdi.

Zəminzadə addımlayır, mən onu izləyirdim. Axır dayandı. Mənə tərəf döndü:

— Bu gün otaqları təhvil verməliyəm. Mən elə zənn edirdim, otaqların məndən sonrakı sahibi hələ bir neçə ay gözləyə bilər. Demə, yazığın qəti imkanı yox imiş. Neçə ayı utandığından susub. Bu gün xəbər tutanda ki, böyük ailə cəmi on kvadrat metr sahədə yaşayır, əzabdan səhər çayını da içməmişəm... Təcili zəng vurdurub yanıma gətirtdim. Dedim üç saata şeylərini yığışdırıb bağlasın. Köçməyinə özüm kömək edəcəyəm. Qəribə insanlar var. Nəyə görə utanıb, çəkinib? Otaqlar onun ola-ola. Məəttəl qaldım. Yox, yaxşı insanlar var. Vəziyyəti belə dözülməz olduğu halda həya eləyib, susub.

Zəminzadə təəssüflə başını buladı. İki dəfə otaqda var-gəl elədi.

— Olmaya sənə məsələ pis təsir elədi?

— Nə məsələ,—deyə mən heç nə başa düşməmiş kimi ondan xəbər aldım.

— Otaqları sahibinə vermək məsələsi.

— Bəs biz harada yaşayacağıq?

Zəminzadə təəccübünü gizlədə bilmədi. Mənə xeyli baxdı. Onun məndən heç vaxt bu sözü gözləmədiyini sezdim. Demək, mən heç yerə getmək fikrində deyiləm. Hələ yeni mənzil barəsində fikirləşirəm. Mənə vurulan iynədən elə bil üç-dördünü daldabal ona vurdular. Başa düşdü ki, onun sözdən tutulub qaraldığını mən başa düşə bilərəm, vəziyyətini dəyişməyə çalışdı:

— Mən o qədər kiçik adamam ki, sənə bir otaq da tapa bilməyəcəyəm?

— Mən sizin böyük adam olduğunuza şübhə etmirəm, gələcəkdə də etməyəcəyəm. Tək mənə nə üçün? Bəs siz?

Zəminzadə eyni təəccüblə yenə mənə baxdı. Bu dəfə mən onun təəccüblü nəzərlərində gizli təbəssüm sezdim. Mən təbəssümün mənasını yaxşı dərk eləsəm də, özümü saymaz göstərdim. Neçə vaxtdan bəri ilk dəfə idi onunla belə sərbəst danışırdım. Otaqları tərk edəcəyimin sevinci elə bil mənə ümidlər vəd edirdi.

Zəminzadə gözlərini qıyıb mənə baxdı. İrəli gəlib qolumdan tutdu, məni çarpayının üstündə oturtdu.

— Heç vaxt ağlıma gətirməzdim ki, sən belə tez mənimlə bu qədər səmimi danışacaqsan. İcazə ver, durum zəng vurum. Təzə mənzilimizə getməliyik.

O qalxıb dəstəyi götürdü. Nömrəni yığdı, yalnız bir kəlmə sual etdi:

— Gəlirsən?

Dəstəyi yerinə qoydu.

– Hazırlaş.

Zəminzadə məni təkotaqlı mənzilə gətirdi. İçəri girəndə elə bildim mənim taleyimi bu otaqda gizlədiblərmiş. Otağı Zəminzadə kirayə eləmişdi. Aynabəndində evin qoca sahibəsi yaşayırdı. Onun gözünün biri şikəst idi. Bunun səbəbini sona qədər mən ondan soruşmadım. Arıq, boyca hündür ev sahibəsinin üzü qırış-qırışdı. İri sümüklü əlləri möhkəm idi. O mənə:

— Xoş gəlmisən,—dedi. Bu çəlimsiz adam mənə elə gəldi dağdır. Güclüdür. Nəhəngdir.

Deməк, Zəminzadə mənimlə münasibətinə bu evdə nöqtə qoyur. Bir çarpayı. Stol və oturacaq üçün kətillər.

Ev sahibəsi mənə təsəlli verdi ki, qab-qacaq, nə lazım olsa, mənə verəcək. Heç nədən korluq olmayacaq. Otağın iki pəncərəsi aynabəndə baxırdı. Mən pəncərələrdən yalnız sahibəni görəcəydim.

— Sıxılma!—sahibə bir gözü ilə mənə baxdı.

— Yox,—dedim,—sıxılmıram. Bura hər yerdən yaxşıdır.

— Qurban olum sənə, görəcəksən xeyirli evdir. Kim bu evdə olub, yaxşı otaqlar alıb gedib. Belə yaxşı-yaxşı vəzifəyə çatıb. İnşallah, sən də alarsan.

İstəyirdim Zəminzadəyə təşəkkür edim. Deyim ki, daha buranın son nöqtə olduğunu bilirəm. İndi sən gedə bilərsən. Sən hər şeydən azadsan. Məndən qabaq Zəminzadə dilləndi:

— Canım üçün, xaladan olmaz. Belə adam tapmaq, əvvəla, çətindir, ikinci də, belə adamla yaşamaq ongözlü otaqlarda yaşamaqdan qat-qat yaxşıdır.

— Çox düzgün deyirsiniz.

O əyilib qulağıma pıçıldadı ki, «siz» deyə müraciət etmək lazım deyil. Arvad şübhələnir. Sonra deyər yad ada-

mın günaşırı burada nə işi var? Zəminzadənin nə demək istədiyi mənə aydın idi. O məndən tamam əlini üzmür. Mənim hələ ümid yerim var. Kirayənişinlik müvəqqətidir. Mənə kim deyər Zəminzadə səni bura atıb gedir? Bəsdir. Daha sən ona lazım deyilsən. Hər gün olmasa, günaşırı gəlib-gedəcək. Əla!

İynədən zəhərləndiyimi hiss edirdim. Özümü inandırmağa çalışırdım ki, zəhərlənmə yoxdur. Özümü bir cürə hiss eləməyim gərginlikdən əmələ gələn şeydir. Ötüb keçəcək. Su istəyirdim. Bədənim, mədəm alışıb-yanırdı. Zəminzadə getdi ki, otaqları təcili yığışdırıb sahibinə təhvil versin. Ev sahibəsi qolumdan yapışdı:

— Gəl otur. Üz-gözündən görürəm yorğunsan. Gecəni yatmamısan, nədi?

Ev sahibəsi məni öz otağına apardı. Bura işıqlı idi. Aynabənddən həyət-baca görünürdü. Məni yerdə, üstündə ağ çaynik olan neft pilətəsinin yanında oturtdu. İki ağüzlü balış gətirib yanıma qoydu. Məcbur elədi uzanmasam da, heç olmasa dirsəklənim. İçərisinə hil salınmış çay verdi. Dəmir qutuda doğranmış qənd gətirdi... Dayana bilmədim. Başımı balışa qoyub, üşüyən adamlar kimi büzüşüb yatdım. Röyadan gələn bir səs eşitdim:

— Yat başına dolanım. Mən də sənin anan!

Nazik bir şey üstümə örtüldü. Daha nə oldu, bilmədim. Heç nədən xəbər tutmadım. Ayılanda işıqlar yanmışdı. Ev sahibəsinin adını öyrəndim. Gülsümə idi. Yavaş girib-çıxırdı ki, mən oyanmayım. Mən isə oyanmışdım. Gülsümə xala oyandığımı bildi. Gəlib yanımda oturdu. Durmaq istədim:

— Bir az uzan, durarsan, —deyə əlini alnımda gəzdirdi.

Gülsümə xala belə elədikcə elə yaxşı olurdum! Başım yüngülləşirdi, ağrılarım azalırdı.

— Yaman çox yatmışam.

— Lap yaxşı eləmisən,—Gülsümə xala ömrümdə görmədiyim mehribanlıqla cavab verdi. — Sənin üçün turşulu kələm şorbası bişirmişəm. Durub yaxşı yeyərsən. Kələm şorbası xeyirli şeydir. Bədəninin yumşalmasına kömək eləyər.

Gülsümə xala elə bil mənim həyatımda baş verənlərə bələd idi. Xəbər verdi ki, maşınla mənə şey gətiriblər. Dinmədiyimi görüb susdu. Qalxıb əl-üzümə doyunca su vurdum. Gülsümə xala təmiz dəsmal gətirdi. Üzümü yaxşı-yaxşı quruladım. Ərzaq dolu zənbili gətirib ortaya qoydu Dayanıb üzümə baxdı.

Mən Zəminzadənin göndərdiyi zənbildən gözlərimi ayırdım. Xeyli yüngülləşdiyim halda dolu zənbil mənə ağırlıq gətirirdi. Heç kim ümidsiz olmasın. Mənim ümidim vardı. Mən xoşbəxt idim. Gülsümə xala vardı. O, dağ idi. O, nəhəng idi. Hara ayağımı basırdımsa, mənimlə hərlənirdi. Üzümü aynabənddən görünən həyətə tutdum. Gülsümə xala gəlib yanımda dayandı. Dinməz, söyləməz.

— Gülsümə xala,—dedim.—Səndən bir xahişim var.

— Nədi, qurban olum, de.

— Ev kirayəsini sənə mən özüm verəcəyəm.

O, mat-mat üzümə baxıb dinmirdi. Anlayırdım ki, o başa düşür, mən hələ məqsədimi tamamlamamışam. Mən ona ürək sözümü deməkdən çəkinmirdim. Nə isə qəlbimdə dolu bir arxayınlıq vardı:

—Ancaq mənə iki ay, üç ay möhlət verin. Sonra pulları bir yerdə verərəm. Mənə inanın. Bəlkə, elə oldu, tez də verə bildim.

Gülsümə xala, yazdığım kimi, bir gözündən şikəst idi. Şikəst gözü tez-tez səyriyirdi. Sulanırdı. Əlini qolumun üstünə qoydu. Bir az da mənə yaxın gəldi:

— Gör sənə nə deyirəm: neçə il xətrin çəkir bu evdə oturacaqsan. Mənə pul lazım deyil. Bax budu, sənə deyirəm, ürəyinə heç bir fikir gətirmə. Başqa adamın pulu da mənə lazım deyil. Gəl otur, çörəyini ye.

Gülsümə xala dinməz-söyləməz zənbili əlinə alıb açıq qapının yanına qoydu. Mən onun arxasınca heyran-heyran baxa-baxa qaldım. Qayıdıb yanıma gəldi.

— Bircə gəl otur. Səhərdən heç nə dilinə dəyməyib. Nə olub? Dünya ki, Allaha şükür, dağılmayıb... Otur, mənim də sənə sözüm var.—Əlini dizimin üstünə qoydu.—Əlində bu evə çöp də gətirməyəcəksən. Nə yedim, ondan yeyəcəksən. Adam nədən ötrüdür? Dünya görmüşük. Bir kəlmə xoş sözün mənə bəsdir.

Gülsümə xala iki dəfə mənə məcburi kələm şorbası içirtdi. Təkid elədi ki, üstündən yenə çay içim. Hər şey keçib gedər. Yanğım da, ağzımın zəhər kimi tamı da. Mən hələ yatmamışdan özümü yaxşı hiss elədim. Deyəsən, zəhərlənməyim keçirdi, sevinirdim. Gülsümə xalanın hissi, duyğuları məni heyran etmişdi. Mən özümə həyat tapmışdım. Həyat! Ancaq məni bu həyatdan ayırmayacaqlar ki? Mənə mane olmayacaqlar ki? Yox, ayırmayacaqlar, – deyə özümə cavab verdim. Gülsümə arıqdır. Bir dəri, bir sümükdür. Amma o, dağdır. O məni arxasında gizlədəcək.

Biləsən, onda nə qədər xoşbəxt idim! Məni başa düşən vardı. Bu mənim üçün hər şey idi. Ax, onda insan necə qiymətli olurmuş. Bilirsən həyatda sən də varsan. Bilirsən insansan. Bu böyük adı daşımağa layiq olduğunu dərk elədikcə, yaşamağa can atırsan. Gəbədəki heyvanları unutmamışdım. Bu mənim tərəfimdən nankorluq olardı. Heyvanlar mənim o anlarda ən yaxın dayağım oldular. Yoxsa Zəminzadənin qala kimi qorunan evində necə yaşa-

yardım? Mən kiminlə danışardım?.. Mənə qucaq boyda təsəllini, ümidi kim verərdi?

Gülsümə xala mənə təmiz, rahat yer düzəltdi. Yatmaq vaxtı deyildi. O, hara isə getməli idi. Məni yanına çağırdı:

— Necə olub mənim evimə gəlmisən? Səni gətirən adamlar kimdir? Nəçidir? Bunlarla işim yoxdur. Mənə de görüm işin, gücün nədir? Oxuyursan? İşləyirsən?

Gülsümə xalanın sorğularına cavab verməyə bilməzdim. Başıma gələnləri ona açıb danışa bilməsəm də, suallarına cavab verməliydim. Həyatım ləkəli idi. Həyatımda onun ürəyini açacaq bir şey yox idi. İnsan özü öz gözündən düşməsin. Bu, təhlükəli və xatalı işdir. Onun düşüncələrini çirkləndirmək istəmirdim. Ona dedim: orta məktəbi bitirmişəm. Nə oxumaq, nə işləmək imkanım olmayıb. İşləmək indi mənə sizin verdiyiniz çörək, su kimi lazımdır. Ayrı mənim heç bir imkanım yoxdur.

Ev sahibəsi məndən daha bir kəlmə söz soruşmadı. Mənə tapşırıq verdi, qapını içəridən bağlayım. O gələnə qədər heç kəsi içəri buraxmayım. Kim olur-olsun! Onun nəyə işarə elədiyini başa düşdüm. Mənə bu lazım idi.

Gülsümə arıq idi, amma dağ idi. Bir gözlü idi, amma mən tanıdıqlarımın hamısından yaxşı görürdü. Mən yanılmamışdım. O bilərəkdən məndən heç nə soruşmurdu: Anam, atam var, yoxdur? Varsa, nə iş görürlər? Tək-tənha nə gəzirsən? Məni evə buraxmaq olarmı? Olmazmı? Heç bir söz. Mən onun hərəkətlərindən hiss edirdim ki, bu sualların cavabını o artıq məndən almışdır.

Gülsümənin tapşırığına əməl elədim. Bu qərarla qapını bağladım ki, açmayacağam. Kim olur-olsun.

Alaz, məktubu səbirlə oxu. Bu sənə lazım olar. Sən də Zəminzadənin caynağına ilişə bilərsən. Sənin həyatında hər şey asanlıqla, sakitcə alt-üst ola bilər.

Məktubum səni heç vaxt kövrəltməsin. Burada nə var ki? Bir vaxt sənə saxta arvad olan katibə qız Afər sağdır.

Ev sahibəsi gəlib çıxdı. Özü dedi onunla yan-yana yatım. Aynabənd ikimizi də tutar. Başımı balışa qoydum.

Səndən qorxmağa başlayıram. Ağlıma gör nələr kəlir. Yox! Onları mən sənə yazmayacağam. Qoy bu cüzi fikirlər özümdə açılmamış qalsın. Mənə indi ağır, daş kimi yüklər lazımdır. Səndən isə yaman qorxmağa başlayıram. Qorxuram, sən Zəminzadənin caynağına keçəsən. İlahi, bunu mən heç vaxt istəmirəm. Sənin şairlik sənətin ölərsə, bu mənim üçün əzabdır. Həyatım boyu çəkməli olacağım dözülməz əzablardır.

Zəminzadə mənimlə görüşürdü. Mənə xəbərdarlıq elədi ki, guya əqidəsi şübhəli olan bir adama ərə getmişəm. O adama ki, öz yazılarında Zəminzadənin dostlarına sataşır. Adamları yollarından azmağa vadar eləyir. Hətta məni hədələdi də, dedi ki, bu ona baha oturar.

Gör nə vaxtların yadıma düşür... Sən aləmə səs salmışdın. Səsin pəncərələrdən, həyətlərdən, küçələrdən gəlirdi. Hamı səni sevirdi. Sevirdi ona görə ki, sənətində vicdansız deyildin. Sən həqiqəti deyirdin. Sən insanlar üçün yaşayırdın. Fırıldaqla şöhrət qazananlar az qala səni küçənin ortasında saxlayıb didmək istəyirdilər. Sən onlara əhəmiyyət vermirdin. Bir gün səs düşdü ki, arvadın çıxıb getdi. Hadisəni hərə bir cür yozdu. Səni istəyənlər bir cür, istəməyənlər başqa cür. Şayiələrlə sənin səsini batırmaq istədilər. Amma sənət məhəbbəti səni yaşatdı. Sən Afərdən ötrü gecələri hönkür-hönkür ağlayırdın. Səsini eşidən olmadı. Onun yoxluğu səsini daha da ucaldırdı. Sən Afəri— katibəni axtarırdın. Yazıq katibə, sən isə tapılmadın. Sənin başına nələr gəlib? Kim səni məndən uzaqlaşdırdı? İndi haradasan? Ərinin, uşaqlarının necə olduğunu görəsən

bilirsənmi? Bilirsənmi ərini necə susdurdular? Bilirsənmi indi o nə edir?»

* * *

Prokuror oxuduğu vərəqdəki son sətirlərin üzərində gözlərini saxladı. Elə bil gecə keçdikcə prokurorun oxu sürəti yavaşıyırdı. Tez-tez dayanıb dərindən nəfəs alırdı. Tomralın evində sakitlik idi. Kim bilirdi ki, ucsuz-bucaqsız kainatın bu sakit küncündə prokuror naməlum bir insanın həyat səhifələrini vərəqləyir? Kim bilirdi ki, onun indi tez-tez dayanıb dərindən nəfəs almasının səbəbi nə idi? Həyat səhifələri ələ keçmiş insanın taleyi nə ilə tamamlanacaq? O indi həyatda varmı?

Bir vaxt Gülsümənin evində kirayənişin qalıb oxuyanların neçəsi vəzifə sahibi olmuşdu. Gülsümə onların köməyi ilə Afəri işə düzəltdi. Lakin təqiblərdən, izlənməkdən yaxa qurtara bilmirdi. Düşünmək olar ki, Afər ərə gedib ərindən çıxandan sonra Gülsümənin yanına qayıda bilərdi. Bir yerdə işə girib yaşayardı. Bir müddət keçərdi. Onun haqqında danışıb, lənətləyənlər yorulub susardılar. Hər şey yaddan çıxardı. Katibə yaşayardı. Məsələ isə tamam başqa idi.

Katibə Zəminzadədən aralanıb özünə ailə qurdu. Özü də qurduğu ailəni dağıtdı. Zəminzadənin təhqirini özünə dəhşətli bir ləkə saydı. O, Alaza ləkəli ərə gəlmişdi. Katibə ləkəli həyatını heç kimə layiq bilmirdi.

Alazdan aralanacağını qət edəndən sonra gələcək planlarını ölçüb-biçdi. Bir vaxt hər addımda onu qamarlayan qorxu hissləri əvvəlki kimi vahiməli deyildi. Katibə insanlardan çəkinmək yox, əksinə, insanların daha gur olan yerlərinə addımlayırdı. Gecə başına nələr gələ biləcəyini düşünmürdü. Harada qalacaqdı? Harada axşamlayacaq? Ondan ötrü fərqi yoxdur. Üzündə əmələ gələn ifadədən

onu cani qadına bənzətmək olardı. Ötüb getdikcə adamlar onun üzünə baxmaqdan çəkinir, ötüb keçəndən sonra qanrılaraq arxasınca baxır, üzlərini döndərərək yollarına davam edirdilər. «Beləsi uf demədən adam öldürər».

Afər yolunu anasının yaşadığı binanın qarşısından saldı. Pəncərələrə baxdı. Zəminzadə köçüb getmişdi. Səkkizotaqlı mənzildə yaşayırdı. Anası Azadə Zəminzadə ilə əlaqəsini üzməmişdi. Bacısı Afətin başına gələn faciəni xatırladı. Üzünü də turşutmadı. Afəti küçədə maşın vurmuş, həmin saat ölmüşdü. Qara maşın. Sonra deyilən yalan çıxmışdı. Qəzaya uğramağının təqsiri özündə olduğundan heç kimə dəyib-toxunmamışdılar. Anası qızının qanını tələb etməmişdi. Məsləhət belə olmuşdu. Milis tərəfində iş bağlamış, arxivə verilmişdi. «Özünə sui-qəsd etmişdir».

Anası Azadə cavanlaşmışdı. Katibə güldü. Ötüb keçənlər ona dəliyə baxan kimi baxdılar. Katibə qaşlarını oynadıb yenə güldü. Niyə mənə belə baxırsınız? Gözünüz düşüb? Adamlar ondan tez aralanmağa çalışırdılar. Dörd «qəhrəman» yadına düşdü. Bu dəfə də xeyli güldü.

Milis nəfəri fit verdi:

– Vətəndaş qadın, yolu düz keçmədiyiniz üçün cərimə olunursunuz.

– Nə qədər?

– Bir manat.

– Əgər yoxumdursa?

– Onda mənimlə getməli olacaqsınız.

– Hara?

– Şöbəyə.

– Orada adama nə edirlər?

– Siz... Mənim vaxtım yoxdur.

– Ha... ha... hə...

Milis işçisi zəndlə baxdı, qışqırdı:

– Afər xanım!

– Çox şadam. Mən də xanım olmuşam.

– Zarafatı buraxın bir yana. Bu dəfə sizi buraxan deyiləm.

– Məni aldadırsınız, yoxsa, doğrudan, buraxmayacaqsınız?

– On beş dəqiqədən sonra hər şey sizə aydın olar, Afər xanım! Növbəmi əvəz edən bu saat gəlməlidir. Bilirsiniz sizi necə gözləmişəm...

Afərin həyatı ağır dastan, ağır «tarix» idi, Bu tarix prokuror üçün ikiqat ağır idi. Buna baxmayaraq, prokuror Tomralın evindən çıxıb açıq havada gedəndə təmkinli idi. Yadına salmağa çalışırdı ki, milis ilə Afər sonra hara getdilər?

...İyun ayının istisi səkilərə döşənmiş qırı yumşaltmışdı. Bu, yayın bərk isti olacağına işarə idi. İmkanı olan şəhər sakinləri havası, suyu sərin yerlərdə yayı keçirmək haqqında düşünürdülər. Axşama yaxın, işdən sonra səkilər adamla dolu olurdu. Gəlib-gedənlərin içərisində iki adam seçilirdi. Onların biri dünyanın ən xoşbəxt adamı kimi addımlayırdı. Nə havanın istiliyinə, nə də adamların diqqətinə fikir verirdi. Cəhd eləyirdi ki, yanınca gedənə dəyib-toxunan olmasın. Yanındakı adamdan bir addım nə irəli, nə geri qalsın.

Bu, Afərin şagird vaxtlarında tanıdığı boğazı uzun milis işçisi, onun yanınca gedən isə Afər idi.

Onlar şəhərin mərkəzindən aralı təzə binanın qabağında dayandılar. Milis işçisi binanı göstərdi:

– Başına dönüm, Afər xanım, bu evdə oluram, gedək.

Afər azacıq duruxdu, amma içəri girməyə etiraz eləmədi.

Milis işçisi sevinirdi. Yüyürüb otağın qapısını açdı, geri çəkildi. Qabaqca katibə, onun arxasınca özü içəri girdi. Qapını bağladı.

– Allah sizdən razı olsun, Afər xanım. Ömrümdə belə sevinməmişdim. Siz gəldiniz, məni sevindirdiniz. Allah sizi həmişə sevindirsin.

Milis işçisi əl-ayağa düşdü. Çay tədarükü görməyə başladı. Çaydanı dörd-beş dəfə yaxaladı. Su ilə doldurub odun üstünə qoydu. Stolun üstünü sahmana saldı. Sildi, təmizlədi. Katibə kömək etmək istəyəndə qolundan yavaşca tutub oturmasını xahiş elədi.

– Başına dönüm, Afər xanım, gəlmisiniz, bunun özü mənə böyük hörmətdir. Oturun, mən nə iş lazımdır görəcəyəm. Uşaqlıqdan hər işi özüm görərəm. Bircə anam var. Allah sizinkini də salamat eləsin. İndi hər şeyimiz var. Sağlığınıza, inəyimiz də, üç-dörd qoyunumuz da var. Anam da elə sağlığınıza ona görə gələ bilmir. Heyvandır, necə olsa, saxlayır. Sağlığınıza elə həmişə təzə südümüz olar. Bu çarpayının qabağındakı xalçanı da anam toxuyub. Zirəkdir. Otağı da mənə təzə veriblər. Deyiblər evlənərsən. Yoxsa tutub əlindən alarıq. Tək adama otaq düşmür. Bir otaqdır, bəsimizdir. Bağışla! Bir az üzlülük eləyirəm. Sağlığınıza iki dəst də yorğan-döşəyimiz var. Elə sənə deyim, yaxşı adamlar var. Bakıya gələndən sonra məni milis işçisi düzəltdilər. Sağ olsunlar. Razıyam. Adım da Şabandır. Allah sizin də canınızı salamat eləsin! Gecə-gündüz fikirləşirdim ki, görəsən, Afər xanım mənə icazə verər, bir kəlmə ona sözümü deyim...

Şaban birnəfəsə danışırdı. İstəyirdi dünyada nəyə sahibdir, nəyi varsa, hamısını tez açıb desin. Afərin onun həyatında bilmədiyi heç bir şey qalmasın. Yadından çıxarıb bir şeyi deməzsə, katibə ondan inciyər. Çıxıb gedər. Yenicə

əlinə keçən səadətindən həmişəlik məhrum olar. O, Afəri sevir.

Afər onu sakitcə dinləyirdi. Şabanı sevindirən, ona ümidlər verən Afərin onu sakit dinləməsi idi. İnsan başqasını dinləyir, hamı bunu görür. Ancaq dinləyənin qəlbindəkiləri görüb, oxumaq çətindir. Şaban üçün isə Afərin gözlərinə, sakit görünən surətinə baxmaq nə qədər xoş idi. Şaban xörək hazırlamağa başladı. Afərin xörəyə də etiraz eləmədiyini görəndə ürəyində min dəfə şükür elədi: Onun istədiyi qız hər şeyə razıdır. O heç yerə getməyəcək. Niyə də getsin? Allah eləməsin. Afər bircə biləydi ki, Şaban onu neçə illərdi ürəyində gecə-gündüz necə əzizləyə-əzizləyə gəzdirib, yaşadıb. Onu necə sevir. Neçə dəfə onu başqa yerə dəyişdirmək istəyəndə rəislərindən xahiş eləyib, yalvarıb ki, ona dəyməsinlər. Öz yeri yaxşıdır. Sevir. Sevdiyi qızın yolu onun dayandığı postdan keçib gedir.

Afər Şabana diqqətlə baxırdı. Milis işçisi elə bil onun küçədə, iş başında gördüyü adam deyil. İşdə nə qədər qarayaxa, əzazildirsə, evdə o qədər yumşaq təbiətlidir. Mülayim, hətta yazıqdır.

– Necə oldu bu qədər gözləyəndən sonra məhəbbətinizi açıb dediniz?—katibə sakit sual etdi.

– Başına dönüm, Afər xanım, niyə mənə «siz» deyirsiniz? «Sən» deyin. Mənə baxmayın. Mən «siz» deməliyəm. Heç səbəbini xəbər almayın. Ürəyimdə and içmişdim ki, əgər Afər xanımı bir də görsəm, bir də mənimlə rastlaşsa, istəyir yanında on adam olsun, ürəyimin sözünü deyəcəyəm. Başına dönüm, Afər xanım, birdən inciyərsiniz. Bir az, deyəsən, pis danışdım.

Afərin gözü Zəminzadədən qorxmuşdu. Gözlərini milis işçisindən çəkmirdi. O elə bilirdi ki, Zəminzadəni görəndən sonra həyatın bütün mürəkkəbliklərinə, ziddiyyət-

lərinə bələd olmuşdu. Onu aldatmaq qabaqkı kimi asan deyil. Bir gün dəniz sahilində Zəminzadə ona milisdən də dadlı sözlər deyirdi. Bütün taleyini onun qarşısında açmışdı. Bəlkə, desin, burax bu şirin sözlərini. Özünü tülkülüyə vurma. Mənim indi böyük təcrübəm var. Sən Zəminzadənin yanında oyuncaqsan. Saxla bu şirin sözlərini. Bir xam qadın sənə rast gələrsə, ona deyərsən, bəlkə, onu aldada biləsən.

Afər baxırdı. Dinib-danışmırdı. Heç bir söz deyə bilmirdi. Bir vaxt ən adi hesab elədiyi adamı, indi son dərəcə mürəkkəb orqanizm kimi görürdü. Şaban ürəyində yeni bir aləm yaratmışdı. Nə olsun sıravi milis nəfəridir, bilik dairəsi məhduddur! Hər insanın özünə məxsus diləyi var. O, istəyinə çatmışdı. İllərlə Afəri ürəyində yaşatmış, onunla isinmiş, onunla birgə nəfəs almışdı. Otaqda çarpayısına uzanan vaxtlar evin hər tərəfində onu görmüşdü. Onunla evlənmək ümidi ilə yaşamışdı. Məgər bu, azdır? O, bəlkə də, güman eləmirdi ki, bir gün istəyi doğruya çıxar. Afər onun evində olar.

– Başına dönüm, Afər xanım, icazə versəniz, bu axşam anama məktub yazaram! Yazaram həm arxayın olsun, həm də yır-yığış eləsin, gəlsin. Utanmazlıq eləyirəm, anadır, necə olsa gəlini üçün şey-mey alıb. Bilirsiniz, qocam necə sevinəcək? Tale səni şad eləsin, xoşbəxt eləsin. Artıq şey nəyə gərəkdir. Vallah, Afər xanım, belə sadə dolanmaq nəyə desən dəyər.

Katibə fikirləşirdi ki, o, milis işçisinə nəsib olacaqmı? Olmasa, necə? Bu, milis işçisi üçün ölümdən betər olardı. Onun fikrini bilmədən Şaban nəyə görə bu qədər arxayın danışırdı? Nə üçün o, Afərlə evlənmək məsələsini həll olmuş kimi dərk edirdi? Şabanın dedikləri, anasına məktub yazmaq üçün icazə istəməsi, belə fikir yaratmırmı?

Yoxsa o, Afərin başına gələnlərdən xəbərdar idi? Bilirdi ki, ərə gedəndən sonra katibəninki gətirməmişdi. Buna görə katibə onun otağına gəldi...

Afərin daxilində başqa fikirlər dolaşmaqda idi. Başına gələnləri açıb boğazı uzun milisə desinmi? Belə bir günün gələcəyini ağlına necə gətirə bilərdi? Nə olsun, şagird vaxtlarında güldüyü adamın da ürəyi, isti nəfəsi varmış. O, anasına məktub yazmaq üçün icazə istəyir.

– Mən icazə verməsəm, məktub yazmayacaqsan? — Afər sükutu pozdu. Milis işçisinin xahişini yerinə yetirib ona «sən» deyə müraciət elədi.

– Əlbəttə, Afər xanım, başına dönüm. Güclə iş olmaz. Mən bilim ki, siz razısınız. Allah eləməsin «yox» deyərsiniz. Qismətim olmasanız, neçə ildən sonra sizi necə tapa bilərdim?

– Bu illərdə mənim həyatımda nələr baş verdiyi səni maraqlandırmır?

– Niyə maraqlandırmır? Sizsiz bir dəqiqəm olubsa, kor olum. Ancaq şükür ki, sağ-salamatsınız. Başqa nə ola bilər?!

— Çox şeylər, Şaban!

Milis işçisi bir tərəfdən sevindi ki, Afər onun adı ilə ona müraciət eləyir. Bir tərəfdən də ürəyi sıxıldı. Nə şeylər ola bilər?

Afər Şabanın üzündə qəmgin ifadə görüb əlavə elədi.

– Mənim ərim olub.

– İndi yoxdur ki?

Milis işçisi tələsik xəbər aldı. Gözlərini ümidlə Afərə zillədi.

– Yox. İndi görürsən, mən sənin yanındayam.

– Mənim diləyim odur ki, biz bir-birimizdən ayrılmayaq.

– Qulaq as. Mən ərimin evindən həmişəlik getmişəm. Səbəbini soruşma. Çünki mən sənə heç nə deməyəcəyəm. Bir şeyi bilməlisən—mənim uşaqlarım var.

– Başına dolanım, Afər xanım, haradadırlar, mən gedim gətirim. Nəyə istəyirsiniz, and içim. Onları canımdan artıq saxlayaram. Baxmayın indi bir az kasıbıq. Yavaş-yavaş hər şey düzələr.

– Onları heç kəs tərpətməyəcək. Bu barədə narahatlıq lazım deyil.

Milis işçisi susdu. Gözlərdəki baxışlar susmurdu. Baxışlar qarşısındakı adamdan rəhm gözləyirdi.

– Demək, sən məni belə də qəbul edirsən?

– Gəlin bu barədə danışmayaq, Afər xanım! Mən sizdən heç nə soruşmuram. Siz də mənə heç nə deməyin. Elə hesab eləməyin mən axmaq adamam. Qoyun başqaları mənim haqqımda nə düşünür, düşünsün. Təki siz yox. Mən yerdən çıxmamışam. Bağışlayın, Afər xanım, ədəbsizlik edirəm. Mən də bir kişinin oğluyam. Mən də düşünə bilirəm. Bilirəm evlənmək, özünə ömür yoldaşı tapmaq nə deməkdir. Allah qoysa, anamı görəndə dediklərimi təsdiq edərsiniz. Biri evlənmək üçün illərlə yoxlama aparır, bağışlayın, ədəbsiz danışıram, dalına düşüb xəlvət pusur, qonum-qonşuya gizli adamlarını göndərir. Mənə bunlar lazım deyil. Razı olsanız, bu məndən ötrü dünyanın ən əziz neməti olar. Başına dönüm, Afər xanım, artıq sözlərimi bağışlayın. Mən sizin qədər savad almamışam.

Afər dinmədi. Yox demədi. Milis işçisinə elə gəldi ki, «qonaq» yorulub. Onu birinci növbədə tək buraxmaq lazımdır. Belə olduqda rahat istirahət eləyə bilər. Şeylərini yığışdırdı. Afərin qabağında dayandı.

– Siz dincəlməlisiniz, Afər xanım. İcazə verin, mən gedim. Qapını bağlayın. Arxayın yatın. Siz məktəbə gedən-

də mən həmişə sizə diqqət eləyirdim. Öz-özümə fikirləşirdim; görəsən, belə tez yuxudan necə durur? Yatın. Allah köməyiniz olsun. Səhər gələcəyəm.

– Hara gedirsiniz?—katibə sakit xəbər aldı.

— Yataqxanamız var. Bəzən iş çox olanda, vacib olanda, orada qalırıq.

– Sabah da iş çoxdur?

– Xeyr. Sizə görə getməliyəm. Siz rahatlanın. Mən nankor adam deyiləm. Ancaq indi sizə yadam. Gedirəm ki, siz öz evinizdəki kimi yatıb dincələsiniz. Səhər tez durmağa çalışmayın. Mən bir az gec gələcəyəm.

Hər şey Afərin başında qarışdı. Heç nə dərk edə bilməyib yorğun gözlərini qapadı. Səhər yuxudan ayılanda otaq boş idi. Milis işçisi hələ gəlməmişdi. İyun günəşi yandırırdı. Buna baxmayaraq, otaq sərin idi. Afər bütün gecəni ayılmadan bərk yatdığını, yaxşı dincəldiyini hiss elədi. Fikri xeyli aydın idi. Gözlərini necə açdısa, elə də saxladı. Nə sağa, nə sola baxdı. Dodaqları tərpəndi.

– Doğulduğum ailə haqqında heç nə soruşmadı. Görəsən, indi mən kiməm? Buraya nə üçün gəldim? Necə gəldim? Yox, mən buraya özbaşına gəlməmişəm. Nahaq yerə belə düşünürsünüz. Məni bu evə gətiriblər. Bəli, gətiriblər. Siz özünüzə gülün. Mənə gülmək olmaz. Olmaz. Mən bilirdim buraya gələcəyəm. Gəlməliyəm. Yoxsa siz məni nə hesab eləyirsiniz?

O dediklərini özü güclə eşidirdi.

– Əla yerdəyəm. Burada olmağım heç kimin ağlına gəlməz. Sən də, uzunboğaz milisioner, yaman mənə dillər tökürsən. Ay tülkü. Mən Zəminzadə pəncəsindən çıxmışam. Bilsə buradayam, dərinə saman doldurtdurar. Bunlar heç. Mən indi kiməm? Mənim kim olduğumu, kim mənə deyə bilər? Heç bir səs gəlmir. Özünüzə gülün.

Dəli özünüzsünüz. Mən isə siz dəliləri ağıllı eləmək istəyirəm.

Tülkü harada qaldı? Məni neçə dəfə aldatmaq olar? Amma səhv edirsiniz. Mən aldanmamışam. Bunu siz çətin başa düşərsiniz. Çünki başınızı yormaqla işiniz yoxdur, bilirəm. Zəminzadənin evindəki öküzlər, inəklər, qoyunlar yadıma düşür. Divardakıları deyirəm. Birdən ayrı şey ağlınıza gələr. Bunlar haradan hara? Mənim daha heyvanlarla işim yoxdur. Mənə indi insanlar lazımdır. Durmaq və qabaqca yaxşıca yemək lazımdır. Ev sahibi gələr. Mən nə üçün ona tülkü deyirəm? Məni bağışlamaq olar. Düzü, başımı itirmişəm.

Afər gözlərini hərləyib otağa baxdı. Nəzərləri divardan asılmış enli kəmərə və qobura sataşdı. Qoburun nə olduğunu bilirdi. Bilirdi ki, onun içində tapança saxlanılır. Məktəb illərində yolu düz keçmədikləri üçün uzunboğaz milis işçisi fit çalıb, onları dayandıranda, rəfiqələr milis işçisindən təngə gəldiklərini söyləyib, ona sataşırdılar.

– Boş qobur gəzdirir. Hələ sizə tapança versələr, nə edərdiniz?

Milis işçisi gülürdü. Bərkdən fit çalıb qızları qaçırdırdı. Afər gözlərini qoburdan xeyli çəkmədi. Geyinib qobura doğru getdi. Əlini uzadıb götürdü. Qobur boş deyildi. Tapançanın dəstəyi bayırda idi. Qoburu açıb, tapançanı çıxarıb baxmaq niyyətinə düşdü. Nə fikir başına gəldisə, yenə qoburu ehmal əlindən buraxdı ki, kəmər mıxdan çıxıb yerə düşməsin. Fikir içərisində qayıtdı. Evin tən ortasında dayandı. Xeyli müddətdə donunun cəmi iki düyməsini bağladı. Qayıdıb yenə qobura baxdı və cəld mətbəxə keçdi.

Mətbəxində çox şey yox idi. İki, ən çoxu üç adama məxsus çay dəsti, bir neçə boşqab, qaşıq vardı. Mətbəxə qoyulmuş ensiz stolun üstünü yaş əsgi ilə silib təmizlədi.

Mətbəxi səliqəyə saldı. Çaydanı sürtüb təmizləyəndən sonra su doldurub boşaltdı, yenidən doldurub, qaz pilətəsinin üstünə qoydu. Pilətəni silib parıldatdı. Yağlı boya çəkilmiş divarların əli çatan hissəsini sabunlu su ilə yudu. Ləkələr divardan getdiyinə görə elə bil divarlara yenidən rəng çəkilmişdi. Pəncərəni xeyli açıq qoydu ki, mətbəx iyi çəkilsin. Pəncərə açıq qalan müddətdə özünü bayırdan keçən adamlardan gizlətdi ki, onu görən olmasın. Stəkan, nəlbəkiləri yuyub təmiz-təmiz sildi. Çörək tapdı. Doğrayıb stolun üstünə qoydu. Çayı dəmlədi. Qapının zəngi yavaş çalındı. Zəng yavaş çalınsa da, qəfil olduğundan katibə diksindi. Ona elə gəldi ki, Zəminzadənin otağındadır. Toxtayan kimi qapıya getdi. İkinci zəng çalınmadı. Qapının arxasında kim isə yavaş-yavaş nəfəs alırdı. Katibə yəqin elədi ki, gələn ev sahibidir. Xəbər aldı. Milis işçisi olduğunu bilib qapını açdı. Ev sahibi axşam yatmağa gedəndə açarı unudub özü ilə götürməmişdi.

Çay mətbəxdə içildi. Milis işçisi o qədər sevinirdi ki, bir günlük ömrü olan pərvanələrə dönüb, Afərin başına dolanmaq istədi. Afər ona deyəndə ki, pərvanə nə üçün, onlar insanlardı, milisin sevincini isə onun əlindən heç vaxt almaq fikrində deyil, məlumdur ki, ev sahibi axşamı öz otağında qalmalı idi. Bunun üçün ev sahibinə imtiyaz verilsə də, o az qala imtina elədi. Sevincdən əlinə düşən tikəni yeməyib saxlamaq istədi. İstədi ki, anası gələnə kimi, qızlara məxsus arzu ilə toy qədər başqa yerdə—yataqxanada yaşasın. Bəlkə, evdə qalmaq tamam Afərin ürəyindən deyil. Yaxşı ki, hər şey qısa fasilədə bitməli oldu. Afər ona dedi ki, bütün istənilən arzular yerinə yetirilərsə, həyat maraqsız olar. Nə olsun, onunku belə gətirmişdi...

Bakıda bəzən küləkli olmayan iyun gecələri sakit, yumşaq keçir. Katibə ilə milis işçisinin ilk gecəsi də əla idi.

Şaban tez-tez and içib deyirdi ki, tale onun arzusunu yerinə yetirib. Ömrü boyu hamıdan, hətta yol qaydalarını pozanlardan da razıdır. Necə razı olmasın? Yol hərəkəti qaydaları pozulmasaydı, o, katibəni haradan tapa bilərdi? Hər ikisi gülürdülər.

– Deyirsən tətiyi belə çəkmək lazımdır! — Afər əlində tutduğu tapançanı milis işçisinə göstərib sual edirdi. Tətiyi çəkmək üçün gücü çatmadıqda yenə gülürdü. Şaban deyirdi ki, tətiyi çəkmək vərdişə bağlıdır. Bir neçə dəfə güc verib çəksə, öyrənəcək. Ancaq içərisində birdən güllə gizlənib qala bilər. O, güllələri sayla bir yerə qoydu. Ona görə saydı ki, güllələrdən biri tapançanın içərisində qala bilərdi. Afər Şabanın narahatlığını duyub tapançanı yerindən asdı.

Milis işçisi iş vaxtını başa vurub evə gələndə, ayaqları yerə dəymirdi. Vaxt itirər. Afər onu gözləyər. O gecikməməlidir. Həm də yolunun üstündə olan mağazalara girirdi. Xoşuna gələni tanış satıcıdan xahiş eləyirdi, ona göstərsin. Almaq istədiyi şeydən özünün ağlı bir şey kəsməyəndə, satıcıya müraciət eləyirdi: Bacı, siz məndən yaxşı bilərsiniz, utanmazlıq eləyirəm, bu necədir? Almağına dəyər, ya yox? Satıcı müsbət rəy söyləyəndə əlini cibinə salıb, dərhal kassanın qabağına gəlirdi. Aldığını qoltuğuna vurub, yenə bir mağazaya baş salırdı, sonra evinə gəlirdi. Bir tərəfə çəkilib iş paltarını dəyişirdi. Aldığı Afərin xoşuna gələndə, həvəslə əllərini bir-birinə sürtüb, əmrə müntəzir dayanırdı.

– Afər xanım, bir işin var, kömək eləyim, — deyirdi. Afər vaxtaşırı bu adam haqqında fikirləşməli olurdu. Bəzən Şabanın sevincinə qibtə edirdi. Bəzən isə onun sevincindən kədərlənirdi. Hər iki hal səbəbsiz deyildi. Birinciyə səbəb bu idi ki, katibə hiss eləyirdi ki, o heç vaxt Şaban kimi

sevinə bilməyib. İkinciyə səbəb bu idi ki, katibə istəməzdi ki, insana nəsib olan haqlı sevinc onun əlindən alınsın. O, milis işçisinin vəziyyətini gözlərinin qabağına gətirirdi. Onun gözü ilə dünyaya, insanlara baxırdı. Onda hər şey küt, açılmamış görünürdü.

Şaban Afərə şad xəbər söylədi. Anasını gətirmək üçün iş yerindən icazə almışdı. Anasını nə üçün gətirdiyini iş yerində danışandan sonra ona üç gün icazə vermişdilər. Axşam yola düşməli idi. Əvvəl fikirləşdi ki, bəlkə, Afəri özü ilə aparsın? Fikrini açıb söyləməkdən çəkindi. Afər yol yorğunu ola bilərdi, digər tərəfdən, kənd yeridir, camaatı nəzərə aldı. Çalışacaq ki, kəndə düşəndən lap bir-iki saat sonra qayıtsın. Ev-eşiyi, heyvanları qonum-qonşuya tapşırar. Heç nə deməzlər, üç-dörd gün baxarlar. Ona kimi anası qayıdıb gələr. Bir az vaxt keçər, məzuniyyətini götürüb Afərlə havasını dəyişər, yaxşı-yaxşı ona qulluq eləyər.

Afər Şabanı sakit-sakit dinləyirdi. Sakit-sakit baxırdı. Ona rast gələndən katibədə süstlük yaranmışdı. Daxilində isə elə bil təlatüm baş qaldırırdı. Tək olanda başına o qədər fikirlər tökülürdü ki, ağırlığından otağın yuxarı-aşağı başına var-gəl edirdi. Başını silkələyirdi. Onda elə bil fikirlər dağılırdı.

Şabana yalnız bir neçə sual verdi: kəndə nə qədər yoldur? Düşən kimi, yəni düşəndən neçə saat sonra qayıtsa, şəhərə nə vaxt gəlib çata bilər? Əgər axşamı qalarsa, şəhərə nə vaxt gəlib çıxar? Verdiyi sualları təkrar edirdi ki, hər şeyi dəqiq bilsin. Şaban hiss eləyirdi ki, Afər ondan ötrü darıxa bilər. Ondan ayrı qalmaq istəmir. Belə olmasaydı, bu qədər narahat olub, suallar verməzdi. Hər şeyi öyrənmək istəməzdi. Bəlkə, birlikdə getməyi təklif eləsin? Adamlar kəndin  ortasına, evinin qabağına toplaşıb dur-

mayıb ki, onlar gedən kimi görsünlər. Bir də görəndə nə olacaq? Deyər çoxdan evlənib. İş elə gətirdi ki, kəndə gəlib toy eləyə bilmədi. Camaat bilir ki, milisdə işləmək nə deməkdir.

Şaban işindən danışanda ciddiləşirdi. Tez yadına düşürdü ki, işdə yox, Afərin yanındadır. Yumşaq görkəm alırdı. Afərin suallarının əvəzində dedi ki, onu bir gün də tək qoymayacaq. Cəmi bircə gündən sonra yanındadır. Getməkdə dediyi kimi, əsas məqsəd odur ki, anası alıb yığdığı pal-paltarı gətirsin. Neçə günlük yemək-içmək alıb qoyub. Mümkün olsa, anasını da gətirər. Xoşuna gələcək. Anası Afəri oğlundan artıq istəyəcək. Salamat qalsın.

Şaban evdən tələsik çıxdı. Vağzala tələsik gəldi. Elə bil zənn elədi ki, belə getsə kəndə tez çatıb, tez də qayıdar.

Afər qapını örtdü. Bağladı. Çarpayının üstündə oturdu. Şabanı gözlərinin qabağına gətirmək istədi. Onun sözlərini yadına salmağa çalışdı. Bacarmadı. Afərə elə gəldi ki, milis işçisindən eşitdiyi sözlərin hamısı onun üçün yalnız nağıl imiş. Dünyada Şabanın varlığını hiss edə bilmədi. Belə adam yoxdur. Gördükləri, eşitdikləri xəyalına gələn insan əks-sədaları imiş. Qapının zəngi çalındı. Çarpayının üstündən ayağa qalxdı. Qapıya doğru gəldi. Xəbər aldı:

– Kimsən?

– Mən!

Aldığı cavabdan sonra özünə gəldi. Milis işçisinin nəyi isə yadından çıxardığını zənn edib qapını açdı. Qarşısında başqa adamın dayandığını görəndə bədəni keyləşdi.

– Məni tanıdınız?

Afər qarşısında dayananı tanıdı. O, Zəminzadənin yeni sürücüsü, Qeyrətəlinin qardaşı idi. Katibənin susduğunu görüb gəlişinin məqsədini söylədi:

– Saat on üçün dalınızca gələcəyəm. Yoldaş Zəminzadə sizi otağında gözləyəcək. Gəlib xəbər elədim ki, başqa yerə getməyəsiniz. – Zəminzadənin sürücüsü qapını çəkib getdi. Katibənin yadına gəlməyə başladı ki, Qeyrətəli qardaşı ilə onu tanış eləmişdi. Qulaqlarına tanış səs gəldi: «Yerin min qatında gizlənsən də, səni Zəminzadə istədiyi vaxt tapdıra bilər». Gəlib güzgünün qabağında durdu. Güzgü kiçik olduğundan yalnız üzünün bir hissəsi görünürdü. Divarda sallanan bu güzgüyə milis işçisi baxıb üzünü qırxırdı. Katibə az qala üzünü güzgüyə söykədi. Rəngində sarılıq vardı. Gözlərinin alt qapaqlarını aşağı dartıb baxdı. Qırmızı əvəzinə saraltı gördü. Əllərini çəkdi. Güzgüyə sual verdi: – Bu sənsən, Afər? Lap gülməli olmusan. Haa, haa! Yoxsa sarılıq gətirirsən? Yox. Heç elə iş yoxdur. Sən xəstələnə bilməzsən. İnsansan, döz. Hələ nə etmisən ki? Sarı rəng nədir? Möhkəm dur. Zəminzadənin görüşünə hazırlaş. Hər şey keçib gedər. Bilirsən ki, Zəminzadə səni nə üçün çağırır? O söz...

Afər öz-özünə göz vurdu. Gecə saat onda. Axmaq, kimdir səni görən? Zəminzadə səndən çox özündən qorxur. O elə eləməz ki, səni onun evinə girən görsünlər. Səni görməyəndən sonra kim nə deyə bilər? Heç yer üzündə səndən təmiz qadın yoxdur. Vəssalam. Açıq ki, eləmirsən? Onda rəngin nə üçün dəyişir? Dəyişməsin. Heç vecinə də alma. Səni məgər Azadə doğmayıb? Qayıt, qapını aç, sürücüyə tapşır ki, mütləq gəlsin. Birdən gəlmədi? Sən ona heç nə demədin. Yox, gələr.

Afər çarpayının üstünə sərildi. Üzüqoylu çevrildi. Ağzını balışa qapayıb hönkür-hönkür ağladı.

Zəminzadə ilə görüş Zəminzadə tərəfindən ciddi suallarla başladı:

– İş haqqında niyə fikirləşmirsən? Milisionerin maaşı ilə dolanmaq istəyirsən?

Afər danışmadı.

– Sabah saat üçdə işə, yanıma gələrsən. Tapşırıq vermişəm, buraxacaqlar. Rəsmi görüş lazımdır. İşçilərin birini çağırıb sənin iş məsələni ona həvalə edərəm. Çalışarıq işə düzələsən. İndi daha sənin ağlını başına yığan vaxtındır. Keçmiş səhvlər təkrar olunmamalıdır. Alaz kimi zərərli, əqidəsi düz olmayan adamdan uzaqlaşmısan, bunun özü çox yaxşıdır. Mən də, yoldaşlar da sənin bu işini müsbət qiymətləndiririk. Səni işə düzəltmək mümkündür. Köhnə iş yerində sənin haqqında pis fikirdə deyillər. Mənim tapşırığımla sənin haqqında sorğu aparılıb. Öz üzərində yaxşı çalışmısan. Bir ağılsız hərəkəti onda eləmisən ki, bizə yabançı adamla həyat qurmusan. Buna daha qayıtmayaq. İndi səni köhnə iş yerinə düzəltmək yaxşı reaksiya verməz. Ora bizim, demək olar ki, ideoloji cəbhələrimizdən biridir. Tapşıracağım adam çalışar mütləq səni bir işlə təmin eləsin. Ailəndən xəbərin olmadığını bilirəm. Sənə sevindirici xəbər verim ki, atana ad verdik. – «Əməkdar incəsənət xadimi». Özünü də məcbur elədik qayıtsın ailəsinin yanına!..

Zəminzadə Afət haqqında söz açmadı. Afəri təbrik elədi ki, qardaşı Mehrəli institutun tələbəsidir. Ancaq özbaşına qalarsa, oxuya bilməz. İnstitutdan qova bilərlər. Müəllimlərdən bir neçəsinə Mehrəlini tapşırıblar. Azadə xanıma da bu lazımdır.

– Yaxşı, milis müəllim nə edir?—Zəminzada söhbətini dəyişdi. — Nə olub belə süstləşmisən? Ağıllı iş görmüsən. Milisin kim olduğundan xəbərim var. Tək oğlandır. Tək anası var. Bunun eybi yoxdur. Sizə belə bir adam lazımdır, iş-gücünüzlə məşğul olsun. Qocalar daha bizim nəyimizə gərəkdir? Səhv eşitməmişəmsə, adı Şaban müəllimdir.

– Düz eşitmisiniz, Məmmədyar Gümüşalı oğlu! Ancaq müəllim yox, milis işçisidir.

Zəminzadə gözlərini qıyıb düz Afərin gözlərinin içinə baxdı. Afər «Məmmədyar Gümüşalı oğlu» sözlərini xüsusi əda və vurğu ilə dedi. Belə kinayələr isə Zəminzadənin nəzərindən yayına bilməzdi. Afər evində qaldığı adamın təhqir olunmasına yol verməmək üçün cavabsız dayanmadı. Onu da fikirləşdi ki, ehtiyatsızlıq edib.

– Hiss edirəm sənin münasibətin də Şaban yoldaşa pis deyil, yanılmıram ki?

– Bu barədə söhbət edərik.

Zəminzadə Afərin sözlərindən «razı qaldığını» bildirib onun qolundan tutdu, qaldırıb çarpayıda oturtdu. Afər müqavimət göstərmədi. Zəminzadədən xahiş elədi ki, hər şeyi sabaha saxlasın. Sabah onun arxasınca maşını göndərsin. Sabah bütün gecəni onunla keçirmək imkanı vardı. Bu, həm də katibənin özünün istəyidir. Zəminzadə Şabanın evdə olmadığını eşidəndə Afərə səmimi sözləri və fikri üçün təşəkkür elədi. İş burasında idi ki, Zəminzadənin öz vaxtı da son dərəcə azdır. Yoldaşlar onu idarədə gözləyirdi. Afər çarpayıdan qalxanda, ürəyində fikirləşdi ki, Zəminzadə ikinci səhvə yol verir. Onun səhv edəcəyini Afər ağlına gətirə bilmirdi. Ona elə gəlirdi ki, Zəminzadə səhv edə bilməz!

Maşın Afəri olduğu mənzilin qabağında düşürtdü. Sürücü sabah gələcəyini bildirib icazə istəyərək çıxıb getdi.

Afər otağa girən kimi milis işçisinin getdiyi gün qayıdarsa, saat neçədə şəhərdə olacağını yadına saldı. Vaxtının çoxluğundan razı idi. Süstlüyü ağır yuxu kimi özündən qovdu. O bu fikirdə idi: İnsan həyatında baş qaldıran bütün böhranların qarşısını almaq üçün ən güclü imkana sahibdir. Bu imkan insanın iradəsidir. O, iradəsinin gücünə

güvənib, həyatındakı böhranlardan yaxasını xilas edə bilər. İradənin gücünə bərabər qüvvə yoxdur. İnsanın silahı olmasın, iradəsi olsun. İradədə günəş qədər kəsər var. İradəsini itirənlər sıradan çıxır. O heç vaxt sıradan çıxmayacaq.

Afər bütün gecəni yatmadı. Həyatında baş verən nə varsa, təkrar-təkrar yadına saldı. Səhərin necə açıldığını bilmədi. Qalxdı. Fikirlər başında yenə axın-axın oldu. «Nə qədər ki, bədəmində bir az gücün qalıb, dayanma, Afər!» Bu sözləri elə bil divarlar dil açıb ona dedi. «Azacıq bundan qabaq söylədiklərini yadına sal, dayanma!» Bir də səs gəldi. Səs, bəlkə də, Afərin qəlbinin səsi idi. O qalxdı, halsız idi. Yuyundu. Elə bil bir az üstünə yüngüllük gəldi. Geyindi, səliqəsinə evlərindən çıxandan birinci dəfə idi diqqət yetirdi. Ağ kağız tapıb bu sözləri yazdı:

*«Mən necə cinayət işlətdiyimi bilirəm. Qayıdıb məni evində görməyəcəksən. Ananı məyus elədiyimi də dərk edirəm. Silahını axtarma və sarsılma. Çalış anan bunları bilməsin. Hər şeyi soyuqqanlı qəbul eləməyə cəhd göstər. Mənim üçün ən ağırı sənin sevincini əlindən almağımdır. Ayrı cür edə bilməzdim. Mənə silah lazım idi. Hələ ərimin yanında ikən, silah üçün sənə bel bağlamışdım. Sən mənim niyyətimi haradan bilə bilərdin? Əminəm ki, mənə silah lazım olduğunu sən sezsəydin, məhəbbətindən keçib məni həbs edərdin. İşinə nə qədər sadiq olduğunu bilirəm. Mən səni heç vaxt sevə bilməzdim. Məni buraya, sənin evinə səndən götürdüyüm silah gətirdi. Bilmirəm, bu silahla atəş aça biləcəyəmmi?*

*Bacara bilsən, məni bağışla.*

*Afər».*

Afər evdən çıxanda saat üçə beş dəqiqə işləyirdi. Zəminzadə ilə görüşünə hələ qalırdı. O, həyəcanını

yox etməli idi. Heç kim ondan şübhələnməməliydi. Zəminzadənin kabineti, dəhlizlər, kabinetlərə girmək üçün açılan qapılar, qapının astanasından Zəminzadənin yanına olan məsafə. Zəminzadənin arxasındakı açılan divar... Hamısını Afər neçə dəfə gözlərinin qabağına gətirmişdi.

O, görüşə bir saata yaxın qalmış evdən çıxdı. Belə hesab edirdi ki, binaya çatandan sonra həyəcan keçəcək, pillələri sakit qalxacaq. Binanın yaxınlığında azı on beş-iyirmi dəqiqə heç kimin nəzərini cəlb eləmədən gəzişməlidir. Tapançanı sol döşünün altına, tarım çəkilmiş lifçiyinə keçirmişdi. Sağ əlini atarsa, dəstək əlinə gələcəkdi. Əsas kənardan heç nəyin hiss olunmaması idi.

Afər sakit gedirdi. Çıxdığı yerdən xeyli aralanmışdı. Qanrılıb arxasına baxdı ki, nə qədər yol gəlib. Ondan cəmi üç-dörd metr aralı yavaş gələn maşını gördü. Ona elə gəldi ki, sükanın arxasında oturan Qeyrətəlidir. O, başqa geyimdə, başqa maşındadır. Fikrini cəmləməyə vaxt tapmadı. Maşın onun yanında dayandı. Əvvəlki kimi sakit, dinməz Qeyrətəli sağ tərəfindəki qapını açdı, başını katibəyə doğru əydi:

– Əyləşin, Afər xanım. Mən sizin dalınızca gəlmişəm.

Afər tərəddüd eləmək fikrindən tez daşındı. Tərəddüd edib oturmamasını daha qeyri-münasib bilib, maşına oturdu. Maşın sürətlə yerindən götürüldü.

– Məmmədyar Gümüşalı oğlu xahiş elədi otuz dəqiqə tez gələsiniz. Çünki vacib gedəsi yeri oldu.

Maşın elə sərt döndü ki, Afər özünü saxlaya bilməyib Qeyrətəliyə tərəf aşıb, tez də düzəldi. Qeyrətəli ona əhəmiyyət verməyib maşını sürürdü. Katibə ona baxdı, nə isə demək istədi. Gözlərinin yanlarına çökmüş qana bənzər qızartını görüb dinmədi. Qeyrətəli dinib-danışmadan ge-

dirdi. Maşının sürəti bir də Zəminzadənin işlədiyi binanın yanında azaldı.

Qeyrətəli qapını açdı:

– Düşün.

Onlar Zəminzadənin iş otağına gəldilər. Afər dəhlizləri, adamları, kabinetə daxil olmaq üçün açılan qapıları görmədi. O nə düşünə bilirdi, nə addımını yana ata bilirdi. Qeyrətəlini sanki ona yapışdırmışdılar. Ondan nə gözünü çəkir, nə aralanırdı.

Zəminzadənin işarəsi ilə oturdular. O, sakit, lakin sərt idi. Ağzının yanından çənəsinə qədər uzanan şırımlar dərinləşmişdi. Neştərlənmiş kimi xırda dəlik-deşikli üzünün dərisi qışın ayazından qovrulub codlaşmışdı. Ətli, qıyıq gözləri stolun üstünə dirənmişdi. Lay divarlar arasında uzanan iş stolunun başındakı üç adam nə fikirdə idi, məlum deyildi.

Afər bura göz qırpımında düşmüşdü. Beyni keyləşmişdi. Bir iş görmək lazımdır. Nə üçün katibənin sağ qolu tərpənmir? Zəminzadə geri çəkildi. Katibə ilə onun gözləri bir-birinə tuşlandı. Katibə ayağa qalxmaq istərkən Zəminzadənin baxışları hərəkət edib onun düz iki qaşının arasına dirəndi. Əli ilə alnına dirənən baxışları özündən rədd eləmək istəyəndə dərk elədi ki, onun qaşları arasına söykənən Zəminzadənin baxışları yox, Qeyrətəlinin əlindəki silahın lüləsidir. Katibə yalnız bu sözləri eşidə bildi:

– Qol çək!

Otaq baş-ayaq oldu. Onu harasa apardılar. Ayılanda özünü zülmət içində, tək gördü. Yalnız kiçik, ensiz pəncərədən uzaq ay işığına bənzər solğun bir şüa düşürdü...

* * *

...Prokurorun ayaqlarına nə isə dolaşdı. Qorxdu. İşlədiyi müddətdə o birinci dəfə idi belə qorxurdu. Ayaqlarının altına baxdı.

– Uşaqlar söyüdün budağını necə qırıb töküblər...

– Sən hər dəfə qapını açıb içəri girəndə, atan Zəminzadə elə bilir ki, bu saatca doğulmusan. Gəl, atan alnından öpsün. Sənə hesabat versin.

– Nə hesabat, ata?

– Ziyafətin üçün nə lazımdır hamısı hazırdır. Sabah Zəminzadə qızı Hekayətin prokurorluq fəaliyyətinin bir ilini qeyd edir. Bu, mənim arzularımın ən qiymətlisidir, qızım. Gərək biləsən. Gərək biləsən ki, Zəminzadənin köksündə iki ürək vurur. Biri əziz qızı Hekayətin ürəyidir. Zəminzadə bu ürəyi heç kimə etibar edə bilməz. Öz sinəsində qoruyub gəzdirməlidir. Gəl səni atan öpsün. Siyahını təsdiq eləmək üçün qızıma təqdim edirəm. Qalan adamlar bir az mübahisəlidir. Onların adları bu vərəqdədir. Baxıb fikrini deməlisən, əsas siyahıya daxil eləyək, ya yox. Siyahı sənin şəxsi imzan olduqdan sonra qüvvəyə minir.

– Ürəkaçan zarafatdır, ata.

– Təsdiq edirəm: Hekayət. Vəssalam. Sonra da tarix.

– Mübahisəli olan adamlar kimlərdir?

– Xahiş edirəm, kiçik siyahını oxuyasan.

– Bu şəxslər həmişə bizə gəlirdilər. Qulamcanın özü Dönməzin ad günündə ona alman markalı qoşalülə tüfəngi bağışlayan deyil? Yadımdadır ki, tüfəngi sən əlinə alıb xeyli təriflədin. Döşünə qaldırıb gözünün birini yumanda anam əlindən aldı: xata çıxararsan. Qoydu o biri evə. Nə əcəb «əsas» siyahıda Qulamcanın adı yoxdur?

– Bilirsən, qızım... Ondakı ilə indiki məclisimizin fərqi böyükdür. İndiki məclisimiz sənin adınla bağlıdır... Doğrusu, istəmirəm hər cür adam məclisimizdə olsun.

– Başa düşürəm.

– Həm də Qulamcan sonra işləri bir az korladı. İşinin öhdəsindən layiqincə gələ bilmədi. Özünü təmiz adam kimi tanıtdırıb qələmə verə bilərdi. Axı bu, böyük məsələdir.

– Ancaq Qulamcan özünü təmiz adam kimi qələmə verə bilərdi?

– Əlbəttə, əlbəttə verərdi. Təmiz adam kimi qələmə verərdi yox, verməli idi.

– Başa düşürəm.

– Düzdür ey... çağırmaq olar... Amma...

– Lazım deyil, Qulamcan haqqında danışdıq. Bürcəli... Bürcəlinin sağlığına nə qədər vurmusunuz, ata?

– Təkcə şəhərdə beş yerdə əlinə otaq keçirib. Hərəsində bir arvad saxlayır. Əxlaqsızın biriymiş.

– Bu arvadların bir-birindən xəbəri yoxmuş?

– Necə xəbərləri olsun? Bürcəli şahmat sistemi ilə iş tutur.

– Şahmat sistemi ilə? Bu, mənim üçün təzədir, ata. Xahiş edirəm bir qədər bu barədə geniş danışasan.

– Təsəvvür elə ki, at zabitin yerinə, şah vəzirin, vəzir şahın yerinə, heç biri də bir-birinin üzünü görmürmüş.

– Bir az da aydın.

– Töhfə gedirmiş Törə olan evə baş çəkməyə. Töhfə evdən çıxanda Törə də o evdən çıxırmış. Töhfə olan evə baş çəkməyə və ilaxir... Taxça elə bilirmiş boğçadadır, boğça elə bilirmiş taxçada. Heç kim bir-birinin üzünü görmürmüş. Hər bir arvad da fəxr edirmiş ki, başqalarının bir düz-əməlli mənzili olmadığı halda onun beş yerdə otağı

var. Əhsən. Bir də əhsən. Bürcəli «qaymaq» üstündə gəzir, deyirlər yazıq Bürcəli qaymağa tamarzıdır.

– Mübahisəli olanların məsələləri aydındır. Ancaq, məncə, Bürcəlini əsas siyahıya daxil eləmək olar. Nə üçün mənə belə təəccüblə baxırsan, ata? Burada təəccüb doğuracaq nə var?

– Ürəkdən deyirsən, qızım?.. Axı qorxuram yaxşı çıxmaya? Nüfuzdan düşmüş, ifşa olunmuş adamlardır. Hələ onların axırlarının necə olacağı bizə bəlli deyil.

– Deyirsən bir gün sanskiya verib, Bürcəlini, Qulamcanı dama soxarlar?

– Olar də...

– Qoymarıq. Məsləhət bilirəm çağırasan.

– Gəl səni öpüm, qızım. Yüz oğula bərabərsən.

– Bir şeyi bilmək istəyirəm. Bilmək istəyirəm ki, qəssab Dadaşbala nə üçün bura gəlmişdi?

– Bir az sualın mənə aydın olmadı.

– Niyə?

– Ona görə ki, Dadaşbalanın bizim evimizə gəldiyi birinci dəfə deyil. Sən hələ institutda oxuduğun vaxtdan da qabaq Dadaşbala bizim evimizə gəlib-gedən adamdır. Bu sənin yadından niyə çıxsın?

– Məhz bu dəfəki gəlişinin səbəbini bilmək istəyirəm.

– Madam məsələni belə qoyursan, mən də sənə cavab verməliyəm. Sən elə əslinə baxsan Dadaşbalanın gəlişinin səbəbini bilməlisən. Tək Dadaşbala deyil, bizim bir neçə yaxın dostlarımız var ki, onları sən yaxşı-yaxşı tanımalısan. Dadaşbala sənin atana qarşı həmişə doğma olub. Məsəl var, deyərlər, çuxamı yamaqlı görüb adımı nöyütçü çağırma. Baxma, Dadaşbala qəssabdır, adı-sanı, şöhrəti yoxdur. Amma Dadaşbalanın sədaqəti, etibarı, kişiliyi var. Sabah görəcəksən Dadaşbala necə Dadaşbaladır.

– Dadaşbalanın adı-sanı olmadığı fikrinlə mən razı deyiləm. Dadaşbalanın şəhərlə bir adı var...

– Bu, ayrı məsələ.

– Qəssab Dadaşbala mənim haqqımda sənə bir söz demədi?

– Necə məgər? Nə olub ki?

– Elə-belə bilmək istəyirəm.

– Bir söz deməyib. O, söz danışan deyil. Bilməzsən Dadaşbalaya dolaşıb eləyərsən.

– Necə dolaşıb eləyərəm?

– Dadaşbalanı istəməyən adam şəhərdə çoxdur. Bir para adamlar var ki, mənə görə Dadaşbalanı görməyə gözləri yoxdur. Dadaşbalanı üstümə qaldırmaq istəyiblər. Dadaşbala tova getməyib.

– Axı nəyə görə belə olsun?

– Bu, uzun söhbətdir. Dadaşbala hardan fikrinə gəldi?

– Dadaşbala bu evə gəlməyə bilməz?

– Fikrin aydın deyil, qızım.

– Sən ona günü bu gündən deyə bilərsən ki, mənim evimə ayaq basma?

– Bu necə ola bilər? Adama nə deyərlər? Dadaşbala nə pis iş görüb?

– Nəyə görə qəssabı sənə qarşı qaldırmaq istəyənlər olub?

— Guya mən qəssabı əliəyri adam kimi tanıyıram, buna baxmayaraq, onunla dostluq edirəm. Qəssabı müdafiə edən mənəm. Buna görə qəssab bildiyini edir. Alıcıları aldadır, tonlarla sümüyü qəssabxanadan gətirdib ətə qatır, birinci növ ətin qiymətinə satır. Üçüncü növ əti ömrü boyu birinci növün yerinə işlədir. Heç nə. Xırda-xuruş söhbətlər.

– Deyilənlər haqqında özün nə fikirdəsən?

– Dadaşbala təmiz adamdır. Bu gün səni başa düşə bilmirəm. Mənimlə niyə belə danışırsan? Bəlkə, atandan şübhələnib eləmisən?

– Qəssab Dadaşbala natəmiz adamdır, ata. Sənin onunla dostluğun necə baş tutub, maraqlıdır.

– Səndə təzə xəbərlər var. Bunun üçün mənə bildirmədən, Dadaşbalanın evinə getmisən?

– Bəs deyirdin Dadaşbala mənim haqqımda sənə heç bir söz deməyib?

– Deməyib. Amma sən onu bil ki, yerin altında baş verən işlərdən də Zəminzadənin xəbəri olur. Yoxsa Zəminzadə iyirmi ildən artıq milis sistemində baş hərləyə bilməzdi.

– Hər şeydən xəbərin varsa, bu heç də yaxşı deyil, ata.

– Nə üçün?

– Ona görə ki, demək, güzəştlərə yol vermisən.

– Ardın nə üçün demirsən? De ki, atan cinayətlərin törənməsinə şərait yaradıb. Axı atanın düşmənləri belə deyir.

– Məni nə tez düşmən qələminə verdin, ata? Sən heç vaxt tələsməmisən. Zəminzadəyə yaraşmayan söz dedin.

– Düz deyirsən, qızım. Bağışla məni. Dilim ağzımda yansın!

– Mən sənə düşmən deyiləm, ata. Mən sənin qızın Hekayətəm.

– Qızım Hekayət...

– İstəyirəm ki, sakit danışaq, ata.

– Qızım Hekayət Zəminzadəyə öyüd verir. Nə olar. Qəbulumdur. Övladımsan!

– Nə üçün deyirdin Dadaşbala səhər ziyafətə gələndə tanıyacağam ki, Dadaşbala necə adamdır? Rica edirəm cavab ver, ata!

– Dadaşbala sənə dördotaqlı mənzilin orderini hədiyyə gətirmişdi. Dedim: apar, səhər özünə verərsən.

– Necə dörd otağın orderini?

— Bəli, dörd otağın! Şəhərin gözəl yerində tikilən bir binada. Ağlına başqa xarab fikir gəlməsin, qızım. Qabaqda mən varam. Atan Zəminzadə. Mən əliəyri adamı bu günə kimi qapımdan içəri buraxmamışam. Dadaşbala oğlunu evləndirmək məqsədi ilə illərdən bəri yığıb qoyduğu pulu verib oğluna dördgözlü kooperativ mənzil tikdirib. O bilir ki, dünyada Zəminzadənin varı, yoxu bir qızı var. Qızının birillik prokurorluq fəaliyyəti tamam olur. Ona ən yaxşı hədiyyə bu otaqlardır. Dadaşbala Zəminzadənin illərlə sınaqdan çıxmış dostudur. Əsassız deyilənlərin bahasına heç nə vermirlər, qızım. Çox adamın haqqında çox söz deyərlər. Hər atılan daşın dalınca qaçsam, hər deyilənə uysan, gülünc vəziyyətdə qalarsan. Sənin üstündə böyük bir ad var: Prokuror! İndi ki, söhbətimiz belə başladı, ata kimi bir məsələni sənə deməliyəm: Başa düşüb anlayanlar üçün həyat heç vaxt oyuncaq olmayıb. Başa düşüb anlayanlar həyatın mürəkkəbliyini öz anlayışları çərçivəsində dərk eləyiblər. Buna görə həyatla ehtiyatlı davranıblar. Birinci növbədə keçmişi görüblər, görməyənlər soruşublar, oxuyublar, öyrəniblər. Baş verən hadisələri, mərdi namərdə möhtac eləyən günləri nəzərlərindən yayındırmayıblar. Özləri üçün nəticə çıxarıb, gələcəkləri üçün ehtiyatı əllərindən verməyiblər. Küyə gedib şəxsi həyatlarını unudanların aqibətini Zəminzadə az görməyib. Zəminzadəni sabah qəfil işdən çıxarıb bayıra atsalar, o, heç kimə əl açmayacaq. Düşmənləri ona gülə bilməyəcəklər!.. Bəli, gülə bilməyəcəklər. Mən... mən həmişə əvvəl səni düşünmüşəm. Səni! Güllə ölümündən qorxmamışam. Düşmən gülüşündən qorxmuşam. İllərlə dost cildinə

girən düşmənimə demişəm: Namərd, mənə sözünü açıq de. De ki, düşmənəm səninlə. Mən də işimi bilim. Açıq vuruşaq. Məni məğlub et, səni öpüm: Düşmənimsən, – deyim. – Amma kişisən. Arvad kimi mənə hiylə işlətmə.

Zəminzadənin axırıncı sözlərindən sonra Hekayət atasına elə diqqətlə baxdı ki, mən Hekayəti tanıyandan onun atasına belə maraqla, diqqətlə, həm də qorxu ilə baxdığını görməmişdim. Mən Hekayətin baxışlarını izlədikcə ürəyimdə bu sözləri deyirdim: Görəsən, Hekayət söhbəti davam etdirdikcə atasından, doğrudanmı, qorxmağa başlayır? Yoxsa daxilən özünü ehtiyatlı olmağamı səsləyir? Elə bil Zəminzadənin hərdən atdığı bir addım Hekayəti vahiməyə salmağa başlamışdı.

Hekayət əmisinin evindən çıxıb gələndə yolda da diksinmişdi. Hekayəti yolda qorxudan, doğrudanmı, ayaqlarına dolaşan söyüd ağacının qırılıb yerə tullanmış budaqları idi? Mənim ağlıma başqa şey gəlir: Afər artıq Hekayət üçün naməlum şəxs deyildir. Bir gecənin «axtarışları» prokurora atası Zəminzadə haqqında illərin axtarışlarını, bu axtarışlardan sonrakı istintaqın aydın nəticəsini vermişdi. Afər kim idi? Təqiblərə məruz qalıb, korlanmış bir qızmı? Afər kim idi? Ailəsi, ev-eşiyi dağılmış bir insanmı? Afər kim idi? On il həbs çəkmiş bir anamı?

Zəminzadə kim idi, Məmmədyar Zəminzadə? Afərin bütün faciələrinə bais olan yeganə bir şəxsmi?

Prokuror əmisinin evindən çıxıb doğulub, yaşadığı evə gedəndə bu sualları bir-bir, sonuncu sualı isə təkrar-təkrar öz-özünə verdi. Yeyin-yeyin, gedə-gedə verdi. Və özündən bu cavabı aldı:

– Bəli, Zəminzadə, mənim doğma atam Məmmədyar Zəminzadə.

Elə bu cavabında da qorxan adam kimi diksinib ayaqlarının altına baxdı. Söyüd budaqlarını gördü.

Bəlkə də, Hekayət atası ilə söhbəti hələ dayandırardı. Başlamazdı. Zəminzadənin saldığı ziyafət söhbəti ata ilə qızın üz-üzə kəlmələrinə təkan oldu.

Prokurorla atanın söhbəti tündləşirdi. Hava qaralmağa başlayırdı. Səmada qara buludlar görünür və getdikcə üst-üstə qalanırdı.

– Mən o vaxta qayıtmaq istəyirəm ki, onda hələ uşaq idim, ata. Bir həqiqət var: Uşağın yadından baş verənlər çətin çıxar. Xüsusilə çox-çox gördüyü, hər gün oynadığı şey...

Zəminzadə qızına maraqla baxdı. Sakit xəbər aldı.

– O şey nədir?

– Mücrü.

Zəminzadə «mücrü» sözünü eşidəndə səmadakı buludlar kimi qaraldı.

Atasının rənginin necə dəyişdiyini Hekayət də görürdü.

Zəminzadə sakit soruşdu:

– Məndən nə istəyirsən?

– Mücrü haqqında bir neçə söz. Öz dilindən.

– Düşmənlərim səni satın alıb.

– Yox. Düşmən söhbəti deyil.

– Böhtandır!

– Həqiqətdir!

– Mən öz evimdə istintaq altındayam?

– Biz ata-övlad kimi söhbət edirik, ata. İstəyirəm ki, rayonlarda işlədiyin zaman bir nəfərin mücrü sahibi Mirzəməmməd haqqında səndən elədiyi xahişi mənə söyləyəsən.

– Mirzəməmməd haqqında məndən nə xahiş edə bilərdilər?

– Mirzəməmməd haqqında səndən xahiş eləyən anamın yaxın qohumu olub. Sənə deyib ki, iki dəfə Mirzəməmmədi nahaqdan tutdurmusan. Mirzəməmmədi başqasının əli ilə həbsə almısan. Üstünə oğurluq adı qoydurmusan. Mirzəməmməd hörmətli, əli təmiz, süfrəsi açıq şəxs olub. Mirzəməmməd bir məclisdə ağzından qaçırıb ki, Məmmədyarın əsl adı başqadır, bir vaxt Araz qırağında yüz oyundan çıxıb.

Xahişə gələn adam sənə deyib ki, Mirzəməmmədlə daha sənin işin olmasın. Türmədən təzə gəlib. Qızları iki dəfə illərlə başlı-başına qalıb. Söz vermisən ki, Mirzəməmmədə toxunmayacaqsan. Xahişə gələn adam sənin evindən gedəndən bir neçə gün sonra Mirzəməmmədi yanına çağırtdırıb əvvəl demisən ki, onu sənə tapşırıblar. Qorxmasın. Haqqında material var. Atası Hacı Şükür ağa dövlətli olub. Bir «mücrü» qızılı bu saat da oğlu Mirzəməmməddədir. Belə iş varsa, Mirzəməmməd ehtiyatlı olsun, mücrü cəhənnəm, özü ələ keçməsin. Yoxsa gedər, bir daha qayıtmaz.

Mirzəməmməd mücrü olduğunu sənə boynuna alıb.

– Yalan deyirsən!

– Mirzəməmmədin xahişi üçün sənin yanına gələn Xanbulaq arvad olub. Qarabağın hörmətli qadınlarından biri. Xanbulaq həm də Mirzəməmmədin qohumudur. Mirzəməmməd Xanbulağın atasını tanıyırmış. Mirzəməmməd ağlına gətirməyib ki, Xanbulaq tapşırdığı adama Zəminzadə xəyanət işlədər. Mirzəməmməd sənə inanıb. Xanbulaq sənə inanıb. Mücrüdə Mirzəməmmədim atasından qalan, bir vaxt oğul-qızları üçün aldığı qızıl ətəkliklə bəzək şeyləri olub. Mirzəməmmədə demisən «mücrü» varsa, tez etibarlı yerdə gizlətsin. Mirzəməmməd sənə bel bağlayıb. Mücrünü tutulmamışdan qabaq bir dəmirçi dostunun

dükanına qoyduğunu sənə deyib. Ağla gəlməyən yerdir, özü qayıdana kimi dəmirçi mücrünü salamat saxlayar. Həmin günün axşamı, dükan bağlanmağına az qalmış dükana daxil olub mücrünü ələ keçirmisən. Protokol imzalamısan. Mirzəməmməd həmin gecə üçüncü dəfə basqın edənlərin başçısı kimi tutulub, dərhal da həbs edilib. Dəmirçinin dükanı bağlı qalıb.

O vaxt anam sənə deyib: Xanbulaq səni kişi hesab edib sənə söz deyib. Bilirsən ki, Xanbulaq arvad mənim qohumumdur. Onun gəlişi dağdan ağırdır. Evinə gəldi. Xanbulağa görə Mirzəməmməd sənə bel bağladı. Mirzəməmmədi al dilə tutdun. İki dəfə tutdurduğun adamı qarət elədin. Mücrü, içərisindəkilər dövlətə çatmalıdırsa, mənim qapıma niyə gəlsin? Bu saat mücrü bu evdən aparılmalıdır. Yoxsa mücrünü özüm götürüb birbaş aparıb hökumətə verəcəyəm. Mən ömrüm boyu ürəkdağına, gözdağına dözə bilmərəm. Mücrünün içindəkilərin hər biri bir zəhərli ilan olub ürəyimə soxular. Ömrüm boyu Xanbulağın gözünə görünə bilmərəm. Adını «kişi» qoyan bu qədər namərd olarmış...

Prokuror dedikcə Zəminzadənin gözlərinə boz pərdə gəlirdi. Oğlu Dönməz iki dəfə içəri girib, atasının üzünə baxdı, bayıra çıxdı. Bədirə bir dəfə də olsun içəri girməmişdi. Nə də səsi eşidilirdi. Elə bil qapının arxasında dayanıb deyilənlərin hamısını eşidirdi.

Prokurorun atası ilə söhbəti adi söhbət çərçivəsindən çıxıb ittiham şəkli alırdı. İttihamlar üzə, Zəminzadənin üzünə deyilirdi.

Prokurorla söhbət başlayanda Zəminzadə ayaq üstündə idi. Sonra oturdu. Kürəyini yumşaq oturacağa söykədi. Bu vəziyyətdə az qaldı. Dururdu. Otururdu. Belə halında onu yalnız qızmış, ağzı köpüklə dolmuş nərə bənzətmək olardı.

Onun qarşısındakı kim idi? Zəminzadənin qızı prokuror. Yaxşı ki, qızı idi. Yoxsa ayağı ilə yeri eşib, yatıb-qalxan bu nər üçün nazik qızı udmağa nə var idi?

Zəminzadə qızının ortalığa gətirdiyi mücrüyə baxırdı. Üzünə puçur-puçur tər gəlirdi.

Mücrü tək yuxu məsələsi deyildi. Mücrü haqqında prokuror işə başlayandan az sonra məktub aldı. Mücrü barədə daha iki məktub gəldi. Yuxu isə əzici, insanı rahat buraxmayan düşüncələrin bir növ əksidir, özüdür.

... Hekayəti prokuror etməkdə məqsədin vardı, Zəminzadə. Fikirləşirdin ki, bir gün belində tapança görməyənlər keçmişini eşələyərlər... Atanın gəzdirdiyi silahı övlad əlində tutmalıdır. Ancaq, deyəsən, sən deyən olmur. Doğrudanmı, işlər dəyişir, dünya dəyişir, insanlar, ürəklər, övladlar dəyişir, Zəminzadə?! Kiçik bir «təpə» nəhəng «dağ»la qarşı-qarşıya dayanıb «dağ»a meydan oxuyur, Zəminzadə. Buna dözmək olarmı? Allah həyatı, bu «təpə»lərin çoxaldığı, artdığı gündən hifz edib, saxlasın. Yoxsa, Zəminzadə, aqibətin necə olar? Yoxsa burada Allahlıq bir iş yoxdur, Zəminzadə? Təqsir həyatın özündədir?.. Yox, Zəminzadə belə həyatın qarşısında diz yerə qoymayıb. Möhkəm dayan, Məmmədyar Zəminzadə. Sən heç vaxt fürsəti əldən verməmisən. Gözlərin səni aldadırsa, tapançanı sivir qoburundan çıxar, güllələri doldur gözlərinin içərisinə. Səni aldadan gözlərlə yaşamaqdansa, dünyada kor yaşa! Qoy gözlər bilsin ki, Məmmədyar Zəminzadə onlardan da intiqam ala bilər!

Kim bilir Zəminzadə bu mücrüyə baxdıqca gözlərinin qabağına kimlər, nələr gəlirdi! Od püskürən hansı gününü görürdü. Həyatlarına, ailələrinə nahaqdan qəsd etdiyi neçə Mirzəməmmədlər, Afərlər, Güləbətinlər, Anabətinlər gəlir-

di? Mirzəməmmədlərin sümükləri də, yəqin ki, çürümüşdü. Zəminzadə nə bilərdi ki, çürümüş hesab etdiyi sümüklər belə bir gün onun boğazından yapışıb yumşaq oturacağa qısnaya bilər.

Zəminzadə ayağa qalxıb bir addım atdı, dayandı, prokurun bu cümləsini təkrar etdi:

– ...Xanbulaq səni kişi hesab edib, sənə söz deyib...

Prokurora baxdı:

– Anlayıram. Anan dediyi sözlərdir. O, bu sözləri mənə deyəndə mənimlə belə, sənin kimi üz-üzə dayanmışdı.

Zəminzadə öz-özü ilə danışırmış kimi dedi:

– Mən uşaq olanda eşitmişdim ki, bir zaman gələcək Allah göydən insanların başına daş ələyəcək! İndi, deyəsən, həmin vaxt gəlib çatmışdır... Ancaq Allah da Zəminzadənin başına daş sala bilməyəcək. Zəminzadə, doğru- dur, bu daşların gəldiyini gözləri ilə görməyib, amma hiss eləyib. Mən ona da hazıram. Atan Zəminzadənin gözlərinin içinə yaxşı bax, qızım. Mənimlə üz-üzə durmağın mənə başqa söz deyir. Atanın üzünə diqqətlə bax, qoy onun surəti sənin nəzərində yaxşı qalsın. Atan Zəminzadənin dizlərini qatlayan olmayıb. Bunu sənə ona görə deyirəm ki, yaxşı-yaxşı fikirləşəsən. Yanılmayasan! Kişilik məsələsinə toxunmayasan. Zəminzadə üçün elə bir qüvvə, elə bir qanun yoxdur onu əysin! Ağıllı ol!

Anan Zöhrə ilə evləndiyimizdən düz on il keçirdi. Övladımız olmurdu. Günah sənin anandaydı. Mən övlada görə Zöhrəni atmadım. Bir balışa baş qoyduğum ömür yoldaşımı övlada qurban vermədim. Övladı ona qurban verməyi qət elədim. Ömrüm boyu övladsız qalsam səndən ayrılmayacağam, ürəyinə ayrı fikir gətirmə,—dedim. Zəminzadənin sənin anana olan bu istəyini onu düşmən-

ləri də inkar eləməyib. On ildən sonra sən dünyaya gəldin. Məndən ötrü yeni aləm yarandı. Gecələri yatmayıb, anandan xəlvət sənə baxırdım. Süd kimi əllərini inək duz yalayan kimi yalayıb bu kələ-kötür sinəmə sıxırdım. Sənsiz necə yaşamışam,—deyirdim. Necə ola bilərdi ki, mən sənin anan Zöhrəyə qatil kəsilim? Səni ögey əllərə tapşırım? Bu, doğrudur ki, anan mənə təkid edirdi ki, mücrünü dövlətə təhvil verim.

Zəminzadə danışıqda mahir adam idi. O bu dillə çoxlarının həyatını ələ almışdı. Zəminzadənin sarı simdə işlətdiyi mizrablardan qopan iniltilər prokurorun ürəyinə yol eləyə biləcəkmi?

– Sən Bədirə ilə evlənəndən sonra onu elə müti vəziyyətə saldın ki, o heç vədə sənin qarşında maneəyə çevrilə bilmədi. Nəinki mənə yad gözlə baxmaq, sən Bədirəni alandan sonra onun keçmişinin ləkəli olduğunu ona söyləmisən. İstədiyin vaxt onu evindən qovub rüsvay edə bilərsən. Beləliklə, Bədirənin bütün insani hüquqlarını əlindən alıb, onu əməllərinin vasitəçisi eləmisən. Anamın təkidlərinə nə üçün əməl etmədin? Nə üçün mücrünü dövlətə təhvil vermədin?

– Bu, mümkün deyildi.

– Nə üçün?

– ...

– Ona görə ki, mücrünün içərisindəkiləri qarət eləmişdin. Mirzəməmmədin başsız qalmış ailəsi «bandit» ailəsi kimi qələmə verildi. Sənin amansız hərəkətlərinə görə anam öz evində yaşamaq üçün yer tapa bilmirdi. Sənin simanda milis işçisi anamın gözlərində bir qorxuya çevrilirdi. Nə mənim, nə anamın məhəbbəti sənin ürəyinə yol tapdı. İnsanlara ürəyində bəslədiyin nifrət hər şeyə üstün gəldi. Məndən sonra Zöhrəni evində, həyatda artıq hesab

etdin. O, Bədirə olmadı. O, yavaş-yavaş sənin yolunda maneyə çevrilirdi. Bir yol qalırdı: Zöhrəni, bir az bundan qabaq dediyin, bir balışa baş qoyduğun ömür yoldaşını aradan götürmək.

– İftiradır!

Zəminzadə qəfil qıvrılmış şahmar ilan kimi şaqqıldayıb açıldı.

– Zəminzadənin ayağının altını qazıyanların iftirasıdır! Nəyə inanırsan? De, ona and verim, məni yuvamdan oynatma! Yalvarıram sənə, ehtiyatlı ol. Məni belə asan məhv eləmək olmaz! Olmaz! Ananın ruhuna toxunarsan. O mənə heç vaxt bu qədər amansız olmayıb! Qoy mən yaşayım. Düşmənləri Zəminzadəni çox nişan alıb, vura bilməyiblər. Atan tüfəng, tapança gülləleri arasında illər yola salıb. Mənə imkan ver səni hazırlaşdırıb mənim üstümə salanlara sözümü deyə bilim.

– Başa düşürəm sənin üçün çətindir, ata. Lakin elə bir məqam gəlib çatmışdır ki, mən sözümü sənə deməliyəm. Afərin, Afətin faciəsini Bədirənin, Azadənin əli ilə yaratdın. İnsanın ömrü onun məhəbbətidir. Sən bu məhəbbəti Afərdən oğurladın, sonra ayaqların altına atıb tapdaladın. Sən Cahanbanını bir gecənin içərisində evindən köçürüb, şəhərin ən uzaq guşəsinə saldın. Ona görə ki, Cahanbanı sənin qabağını kəsmək istəmişdir. Dadaşbalanı «qəssabbaşı» sən etdin. Həyatda tüfeylilərə, oğrulara, vicdanın nə olduğunu bilmək istəməyənlərə – Ağasəfərlərə, Şükufələrə, Nazqızlara, Güloğlanlara, qızıldiş İsmullalara, Simuzərlərə, Bürcəlilərə, Qulamcanlara, Qeyrətəlilərə meydanı sən verdin. «Kişi» onlara dedin. Çünki onların yırtıq-deşikləri xalqdan oğurladıqları pulla doludur. Güldüyün, «kişi» hesab eləmədiyin vicdanları pak adamlar oldu. Yavan duz-çörəyi müqəd-

dəs sananları «əxlaq normaları» pozanlar kimi qələmə verdin. Sən belə yaşadın. Bu günə belə gəlib çıxdın. Afərin, Afətin, Güləbətinin, Anabətinin, «qəhrəmanlar»ın faciəsini bizim tarix heç vədə öz səhifəsindən silib ata bilməyəcək. Sən məni də özgələrinin pulu ilə bəsləyib böyütdün. Çörəyi başqalarının uşaqlarının boğazından kəsib mənə yedirtdin. Mən onların övladıyam. O adamların ki, halal çörəklərini yemişəm.

– Bəsdir! Ata ilə övlad arasında olan bütün sərhədi tapdaladın. Lənət şeytana de. İlahi, mənə hövsələ ver.

Bəbəklərinə çilənmiş qan Zəminzadənin gözlərini örtmüşdü. O, o divardan aralanıb, bu divara qayıdırdı. Divara çırpdığı əlindən qan tökülürdü. Əhəmiyyət verməyib yumruğunu divara çırpdıqca qanlı əlinin yeri qalırdı. Oğlunu səslədi:

– Dönməz, gəl. Atan Zəminzadənin düşmənini kənarda axtarma! İsti qucağımızda böyüyüb, bu günə kimi qıvrılıb yatan gürzəni gəl gör! Sənin atan xalq düşməniymiş! Zamanı tutub saxlamaq lazımdır, oğlum. Zaman məni məhv edir. Ətrafın gürzələr yatağına çevrilir, Zəminzadə!

Zəminzadə vahiməli idi. Oğlu Dönməzin sakit durduğunu görüb, acıqlandırılmış gürzə kimi yumulub-açıldı. Divara çırpıldı.

– Yaman günündür, Zəminzadə! Tüpür hər şeyə! Sən kimdən imdad gözləyirsən? Nə vaxtdan belə aciz olmusan, Zəminzadə? Nə vaxtdan arvad qarşısında əsir-yesir olmusan? Həmin gündür, Zəminzadə, başına dağ yağan gün! Yox! Zəminzadəni belə asan məhv etmək olmaz! Daş yox, Zəminzadənin başına od da yağsa onu yandırıb, məhv edə bilməyəcək. Çəkil, çəkil bu saat gözlərimin qabağından, tula südü əmən.

Zəminzadə oğluna tərəf getmək istəyəndə Bədirə içəri girib özünü Zəminzadənin üstünə atdı. Qollarından yapışdı:

– Amandır, Məmmədyar. Nə etmək fikrindəsən? Sənə and verirəm Allaha, məqsədindən daşın. Nə edirsən, mənə et! İntiqamını məndən al! Başımın örtüyünü atıram ayaqlarının altına. Toxunma onlara.

Məmmədyar Zəminzadə ayaqları altına atılmış yaylığa baxıb dayandı, geri çəkildi. Sustaldı. Bədirə onun sağ əlindən axan qanı silmək istəyəndə onu özündən kənar etdi. Sakit dedi:

– Çəkil!

Zəminzadə kükrədiyi vaxt prokuror sakit dayanıb, soyuq baxışları ilə atasının hərəkətini izləyirdi. Zəminzadə közərmiş dəmir parçası kimi soyumağa başlayırdı:

– Çəkil. Evimdə qıvrılıb yatan gürzəni qoruyursan. Gürzəyə zəhəri sən Bədirə vermisən. Zəminzadənin top dağıda bilməyən evinin sirlərini... Ürəyimə soxulub, məqam gözləmisən. Məmmədyar Gümüşalı oğlunu ortadan götürmək məqamını. Qisasını alırsan məndən.

– Allah tək oğlumu öldürsün, əgər bunlar doğrudursa, Məmmədyar. Özünü məhv eləmə,—deyə Bədirə yalvara-yalvara Zəminzadəyə tərəf gələndə, Zəminzadə Bədirəni itələdi:

– Sözümü kəsmə...

Zəminzadə sakit danışdıqca daha qorxulu görünürdü. O, sözlərini bir də təkrar elədi:

– Sözümü kəsmə. Sən hələ Zəminzadəni yaxşı tanımamısan. Zəminzadə bu günə kimi fürsəti düşmənin əlinə verməyib. Kül sənin başına, Zəminzadə. Gör kimlər sənə rəqib kəsildi? Gör kimlərin qarşısında dayanıb, heysiyyətini ayaqlar altında tapdalayırsan? Dördbaşlı kişilər səni

məhv edə bilmədi. İndi evində, tərk-silah olunmuş düşmən əsiri kimi çapalayırsan. Yoxsa axır günündür, Zəminzadə? Yox, Zəminzadə, sən yaşamalısan. Sənin yaşayacağın günlər hələ qabaqdadır. Sən bu günə kimi hansı günü qorxusuz, səksəkəsiz yaşadın? Sən yaşamalısan. Bundan sonra yaşamalısan.

Zəminzadə başını qaldırıb qızı Hekayətə baxdı. Sakit-sakit baxdı. Ürəyində danışdı. – Durduğu yerdən tərpənmədi: Allah, mənə səbir ver...

Sonra səsini yavaşıtdı.

– Məni ailə içərisində rüsvay etməkdən başqa, yıxıb sürüdün. Məsələni kənara çıxarma. Mən gedərəm. Tək evdən yox. Doğulduğum torpaqdan ayağımı həmişəlik üzərəm. Ərizə verib sistemdən azad olmağımı xahiş edərəm. Nə deyirsən?

Prokuror dinmirdi.

– İstəmirəm ki, başqası əlini mənə uzadıb paqonlarımı dartıb çıxarsın. Gəl, sən də buna razı olma. Məni namərd əlinə vermə. Nə deyirsən?

Prokuror dinmirdi.

– Beşikdə olanda diz çökmüşəm qabağında. Ovundurmuşam səni. Ev çapanların üstünə yeriyəndə də fikrim sənin yanında olub. Əlində silah tutmayan cinayətkarın üstünə əlimdə silah getməmişəm. Əlimdə silah olub, cibimə qoymuşam. Silahlı olanla silahla, silahı olmayanla silahsız danışmışam. Eybi yoxdur. Bütün dediklərindən keçirəm, bağışlayıram səni. Övladlığı qoyuram bir tərəfə. Qarşımda duran kişi deyil, qızdır. Çox şeyi qeyrətimə sığışdıra bilmirəm. Qoy çıxım gedim. Nə deyirsən?

Prokuror dinmirdi.

– Dinmirsən. Ya Allah, nə qədər qızımın qarşısındayam mənə səbir ver. Din. Ya hə de, ya yox.

* * *

...Səhər prokurorumu gözləyirdim. Narahat olub dalısınca gəlmişdim... Həyəcanımı onu görən kimi bildirdim:

– Nə üçün mən səni axşam tək qoyub getdim... Nə üçün.. Mən bu günahımı heç vaxt özümə bağışlamayacağam. Heç vaxt.

Prokuror əlini başıma çəkib: Sakit ol, Çinarə,—dedi. – Biz indi buradan getməliyik. Ancaq sən çıxıb məni bayırda gözləməlisən. Mən də bu saat gəlirəm.

Bilmirdim prokuror nə üçün mənimlə birlikdə çıxmaq istəmir. Bir gecənin nigarançılığı elə bil gözlərimi qapamışdı. Qapını açıb içəri girəndə gördüyüm prokuror oldu. Mən prokurorla üz-üzə dayanıb iki əlimlə boynunu qucaqlamışdım. Üzüm qapıya tərəf idi. Arxamda kimlərin dayandığını bilmirdim. Prokuror mənimlə lap yavaşdan danışırdı. Əllərini əllərimin üstünə gətirib çiyinlərindən götürmək istəyirdi. Mən gücümü qollarıma verib buraxmadım: Yox,—dedim. – Sənsiz bu evdən gedən deyiləm. Ölsəm də, gedən deyiləm. Bax bir də deməyim. Siz çıxacaqsınız, sonra mən çıxacağam.

Prokuror gecə yatmamışdı. Mən onun ağarmış bənizinə baxıb başımı sinəsinə qoydum: Getməyəcəyəm!

Prokuror bayıra çıxıb, onu gözləməyimi təkid eləmədi. Durduğu yerdən tərpənmədən qapıya doğru döndü. Mən onun arxasında idim. Prokuror qapını ehmal, tələsmədən açıb evdən çıxanda ayağımı sürüyüb arxaya baxdım.

Prokurorluğa çatana kimi Hekayətə heç bir söz demədim və cəsarət edib heç nə soruşmadım. Prokuroru xeyli adam gözləyirdi. Sadıq Rzayeviç, Məlikov, Baykov. Gülsabah xala əli əlinin üstündə girib-çıxırdı. Bir dəqiqə bir yerdə duruş gətirmirdi. Otağında tək İxtiyar Murtuza-

yev idi. Özüm hamıdan çox nigaran qaldığım halda, məndən prokurorun işə nə üçün gecikdiyini xəbər alanda az qala lap üstlərinə qışqırdım:

– Başım çıxmır sizə nə olub,—dedim. – Günlərlə kabinetinizdə tapılmırsınız. Prokuror bir dəqiqə gec gələndə dəyirsiniz bir-birinizə. Xəbər-zad eşitməmisiniz ki...

Mən belə deyəndə hamı dinməz çəkildi öz otağına. Sadıq Rzayeviç əlini ağzına aparıb ağzını qapayırdı. Yəni ki, Çinarə, bax mən heç nə soruşmuram. Onsuz da gülməyim tutmurdu. Prokuroru tək qoyub gəlməyim getdikcə mənə daha çox yer eləyirdi. Qovluq istər-istəməz gəlib gözümün qabağında dururdu.

Prokuroru gözləyənlər içərisində nəzərimi özünə daha çox cəlb edən bir qadın idi. Nə isə mənə elə gəlirdi ki, qovluğu prokurora verən həmin bu qadındır. Adını sonra öyrəndim: Afər. Qadının üzündəki sərt ifadədən belə qənaətə gəldim. Vallah, özüdür deyə düşünürdüm. Onu prokuror tapdırıb, gətirdib! Mən Afər haqqında hər şeyi biləndən sonra öz-özümə deyirdim: «Yalnız belə bir qadın öz namusunun intiqamını ala bilər!»

* * *

Prokuror qapını açıb kabinetinə doğru gedəndə onu gözləyənlər ayağa qalxdı. Tək nəzərimi cəlb edən qadın ayaq üstündə pəncərə önündə dayanıb bayıra baxırdı. Gözləmə otağındakı hərəkəti eşidəndə qanrılıb baxdı, prokurorun gəldiyini görəndə soyuq nəzərlərini prokurordan çəkib yenə əvvəlki vəziyyətində dayandı. Milis işçiləri bir-bir gəlib prokurorun kabinetinə doldular.

Mən prokurorun arxasınca evdən çıxan zaman arxaya baxanda belə mənzərə gördüm: Dönməz prokurora yaxın

dayanmışdı. Onun üzünü əməlli görə bilmədim. Bədirənin üzü sarıkök rəngində idi. O, ayaq üstündə, ərinə yaxın dayanmışdı. Zəminzadə yumşaq oturacağın lap qırağında oturub dizinə dirsəklənərək iki əli ilə başını qamarlamışdı. İçəri girəndə yalnız onu gördüm ki, Zəminzadə ayaq üstündə idi. Qapını açıb başım görünəndə Zəminzadə ley sərçəyə şığıyan kimi qapıya baxdı, göz qırpımında əlini arxasına atdı. İçəri girənin başqa adam olmadığını görəndən sonra əlini arxasından çəkdi.

Prokuror kabinetinə girəndən sonra Gülsabah xalanın yanına qaçdım. Gülsabah xala məndən qabaq əl-ayaqda idi. Mən onu qabaqladım:

– Tez, Gülsabah xala, çay.

Gülsabah xala heç nə xəbər almadı. Tələsik çay süzüb, stəkanı mənə verdi.

– Apar, apar, – dedi. – Tez qayıt.

– Bu saat, – dedim.

Prokurorun kabinetinə girəndə çay dolu stəkan donub əlimə yapışdı. Ayaqlarım döşəməyə mıxlandı. Bu vəziyyət məndə içəri girər-girməz prokurordan eşitdiyim bu sözlərdən sonra yarandı:

– Məmmədyar Zəminzadəni gətirin!

İçəridə hamı ayaq üstündə donmuş heykəl kimi dayanmışdı. Prokurorun nəzərləri Sadıq Rzayeviçdə idi. Milis rəisi başını döşəməyə sallayıb hərəkətsiz dayanmışdı. Qorxumdan yerimdəm tərpənmədim. Əlimi tərpətmirdim ki, stəkan nəlbəkiyə toxunub səs edər. İlahi, necə təsvir edim ki, otaq nə cür səssiz idi. Yekə-yekə kişilər elə bil nəfəs almırdılar. Belə səssizlikdə prokurorun dediklərini daha aydın eşidirdim.

– Yoldaş milis rəisi, Azərbaycan Dövlət Prokurorluğu adından sizə deyirəm; Məmmədyar Zəminzadəni gətirin!

Sadıq Rzayeviç ayaqlarını cütləyib, qamətini düzəltdi, prokurora doğru döndü.

– İxtiyar Murtuzayev heç yerə getməməlidir! Məmmədyar Zəminzadəni gətirməyə tək getməyə icazə vermirəm. Ehtiyatlı olun. Gecikməyin!

Otaq səssiz boşaldı. Prokuror yazı stoluna dirsəklənib gözlərini qapadı. Əli ilə alnını ovuşdurdu. Axıra qalan mən idim. Bilmədim əlimdəki çayı nə edim. Ayaq barmaqlarımın ucunda kabinetdən çıxıb ehmal qapını çəkdim. Çayı Gülsabah xalaya verib, arxa pəncərəyə tərəf qaçdım. Sadıq Rzayeviç dörd milis işçisi ilə gedirdi. Qayıtdım.

– Belə... — dedim, – Gülsabah xala!

Gülsabah xala prokurorun çayını təzələyirdi. Əlini saxlayıb mənə tərəf döndü:

– Nə olub?

– Zəminzadəni gətirməyə getdilər...

– Nə danışırsan?

– Bəli... Belədir, Gülsabah xala...

Gülsabah xala mat-mat xeyli mənə baxdı. Gülsabah xala prokurorluğun işini yaxşı bilirdi. Bilirdi ki, Zəminzadəni gətirmək nə deməkdir. Birinci növbədə Zəminzadə tərksilah edilməlidir. Evdə əlavə silah varsa, tapılmalıdır. Paqonlar prokurorun kabinetində də açıla bilər.

Gülsabah xala hələ də gözlərini qırpmadan mənə baxırdı. Xeyli baxdı. Sonra iki əlini qaldırıb, başını yuxarı tutdu:

– Allah, özün bu işi xatasız yola ver.

Gülsabah xalanın hərəkətinə təəccüb etdim. Mən onu tanıyandan birinci dəfə idi ki, ondan belə bir yalvarış, imdad eşidirdim. Dünəndən elə bil canına qorxu dolmuşdu.

— Daha nə ola bilər ki, Gülsabah xala.

– Çox şey!

– Çox şey, nə axı? Tez ol de. Belə vaxtda yubanmaq olmaz.

– Böyük bədbəxtlik baş verə bilər.

– Məsələ nə? Tez ol. Tez danış.

– Uzaq olsun, qıza xata yetə bilər.

– Prokuror otağındadır, Gülsabah xala.

– Məmmədyar Zəminzadəni mən tanıyıram. Onu bura asanlıqla gətirmək mümkün olan iş deyil. Başqa haqq-hesablar olar.

– Necə haqq-hesab?

– Üstünə gedənlərin hamısını qıra bilər. Sonra özünü vurar.

– Prokuror milis rəisinə tapşırdı. Bir də ki, Zəminzadənin ağlına haradan gələr ki, o, dustaq kimi gətiriləcək. Prokuror bu barədə atasına heç nə sezdirməyib.

– Neçə nəfər gedib?

– Rəislə beş nəfər.

Gülsabah xala dinmədi. Qurumuş kötük kimi dayanıb durdu. Bilmirdim nə edim. Getdikcə qorxu məni az qala çaşdırırdı. Özümü bilmədim prokurorun kabinetinə necə saldım. Prokuror sakit idi. Onun yanında yalnız bir nəfər qadın vardı. Gözləmə otağında üzünü pəncərəyə çevirib ayaq üstündə dayanan qadın. Prokuror mənim həyəcanlı olduğumu dərhal sezdi. Onun arxa tərəfində olan pəncərələrə tərəf getdiyimi görüb azca gülümsəyərək xəbər aldı.

– Nə etmək istəyirsən, Çinarə?

– Pəncərələri bağlayacam.

– Lazım deyil, Çinarə.

– Yox, bağlayacağam!

Prokurorun arxa tərəfində olan pəncərələr o səmtə baxırdı ki, oradan prokurorun atası Məmmədyar Zəminzadəni gətirəcəklər...

Otaqdan çıxmaq istəyəndə prokuror məni saxladı:

– Çinarə.

– Bəli.

– Yoxla, çağırılan adamlardan hansı gəlməyib, mənə de.

– Bu saat.

Keçib stolumun arxasında oturdum. Otaqdakıları nəzərdən keçirdim. Özüm eşidəcək bi səslə deyirdim: Balamirzə əmi ilə Salman kişi burdadır. Ağasəfər, Şükufə, gəlmisiniz. Lap yaxşı. Nazqız xanım, siz də buradasınız. Bax belə, sakit yaxşıdır. Güləbətin, Anabətin sizi tanıyıram. İki bacı. Ancaq yanınızda oturanı, deyəsən, birinci dəfədir görürəm. Yox. Yadıma düşdü. Səməd Məlikov demişdi, Hümmət kişidir, atanız. İlahi, bu Şəmsiyyə adlı qadın Dadaşbalaya necə oxşayır... Səni də mənə isnad verdilər, möhtərəm Qeyrətəli. Görəsən, Zəminzadə ilə burada necə görüşəcəksiniz? Şaban, Alaz siz bir-birinizi tanıyırsınızmı? Siz, yəqin ki, indi az da olsa dəyişmisiniz. Görən, Afəri sevən günlərdə necə idin, Alaz? Sən necə idin bəxti gətirməyən, Şaban? Cahanbanı. Gülsümə xala, görürsünüz də bu gün də bir tarixdir... Bəli, tarixdir. Yəqin, hamınız bir şeyi düşünürsüz: Məmmədyar Zəminzadəni necə gətirəcəklər? Zəminzadə qapıdan içəri necə girəcək? Sizi görəndə dayanacaqmı? Bir söz deyəcəkmi? Başından nələr keçəcək? Siz böyük və dəhşətli bir səhnənin pərdəsinin qaldırılmasını gözləyirsiniz. Böyük intizarla. Başa düşürəm sizi. Faciə səhnəsini...

Bu düşüncələrlə prokuror olan otağa keçdim. Prokuror bayaqkı kimi sakit deyildi. Ayaq üstündə dayanıb düz qapıya baxırdı. Mən içəri girəndə gözlərimiz dərhal bir-

birinə toxundu. Prokuror mənə baxıb heç nə xəbər almadı. Mən cavab verdim:

– Adamların hamısı gəlib.

Sözümün dalını uddum. Bilmədim Hekayət xanım deyim, yoxsa yoldaş prokuror. Ayaqlarımın ucunda səssiz bayıra çıxdım. Ürəyim əsməyə başlamışdı. Pilləkənlərin ayaq tərəfindən hər addım səsi eşidəndə bədənimə soyuq tər gəlirdi. Elə bilirdim Zəminzadəni gətirirlər. Səsə qulaq verib o saat da öz-özümə deyirdim:

– Yox, bu, Zəminzadənin addımları deyil.

*Bakı, 1971*

## MÜNDƏRİCAT

Qanun qarşısında hamı məsuldur *(Qulu Xəlilov)* ......................5
Prokuror ..........................................................................................9

Redaktoru ***Sevinc Nuruqızı***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçısı ***Səbinə Məmmədova***
Korrektoru ***Ülkər Tağıyeva***

Çapa imzalanmışdır 23.02.2017. Kağız formatı 60x90 1/16.
Fiziki çap vərəqi 18,0. Sifariş 11. Tirajı 1000.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121A
e-mail: tahsil_az@yahoo.com

**Tofiq Əfəndiyev**
***(Tofiq Məhəmməd oğlu Əfəndiyev)***

PROKUROR

*(Roman)*

Bakı, «Təhsil», 2017.